**Əzizə ŞAMİL**
**Əli ŞAMİL**

# DİSSİDENT SORAĞINDA

**(1956 – 1986)**

**"Elm və təhsil"**
**Bakı – 2018**

**Redaktoru:** **Arif RƏHİMOĞLU,**
filologiya üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Ədalət TAHİRZADƏ,**
professor,
**SAFRUH,**
Mütləqə İnam Ocağının övladı

**Əzizə ŞAMİL, Əli ŞAMİL. Dissident sorağında (1956-1986).** Bakı: "Elm və təhsil", 2018, 204 səh.

Tarix boyu toplum alışılmış qaydaların dəyişilməsini istəyənləri, fərqli düşünənləri, yenilikçiləri heç də xoş qarşılamamış, əksinə, onları susdurmağa çalışanların, cəzalandıranların tərəfini saxlamışdır. Sovetlər Birliyi dönəmində də belə olmuş, minlərlə insan iqtidarın yanlış siyasətinə etirazını bildirdiyinə görə cəzalandırılmış, haqlarında yanlış bilgilər yayılmış, həqiqət toplumdan gizlədilmişdir.

Sovetlər Birliyi çökdükdə arxivlər açılmış, gizlinlər ortaya çıxmışdır. Varşavada yaradılan KARTA təşkilatı sosializm düşərgəsinin Doğu Avropa ölkələrindəki içtimai-siyasi baxışlarına görə təzyiq və təqibə məruz qalan insanları tanıtmaq məqsədilə "Dissident sözlüyü" ensiklopediyası hazırlamağı planlaşdırımışdır. "Dissident sözlüyü"nə materiallar hazırlamaq məqsədilə keçmiş sosialist respublikalarında və Sovetlər Birliyinin Avropa hissəsindəki respublikalarda işçi qrupları yaradılmışdır.

Kitaba "Dissident sözlüyü" Azərbaycan qrupunun hazırladığı və 1956 – 1986-cı illəri əhatə edən məqalələr daxil edilmişdir.

**ISBN 978-9952-8305-2-1**

**© Əzizə ŞAMİL, Əli ŞAMİL, 2018**

***Bu kitabı Vətəninin və millətinin işıqlı sabahı üçün mübarizə aparmış, bu yolda min bir əziyyət çəkmiş, uğrunda həyatını qurban verdiyi toplumdan isə tənə və təhqir görmüş, sağlığında qədri bilinməsə də, bugünkü nəslimizin qəhrəmanına çevrilmiş TƏMƏNNASIZ FƏDAİLƏRIN müqəddəs və narahat ruhlarına ithaf edirik.***

Azərbərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin 1980 – 1988-ci illərdə sədri olmuş general Ziya Yusifzadənin 1999-cu ilin noyabrında ANS televiziyasındakı çıxışından:

“**Niyə sizin verdiyiniz məlumatlarda Azərbaycanda dissident olduğu göstərilmir? Halbuki ölkəni dissidentlər bürümüşdür. Siz tərəfdənsə hər şey hamar və yaxşı göstərilir**”.

***Viktor ÇEBRİKOV***,
SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri

(1950-ci ildə Dnepropetrovsk Metallurgiya İnstitutunu bitirən V.Çebrikov bir il sonra rayon partiya komitəsi sənaye şöbəsinin müdiri işləməyə başlamışdır. 1958-ci ildə şəhər partiya komitəsinin ikinci, 1961-63-cü illərdə birinci, 1964-67-ci illərdə vilayət partiya komitəsinin ikinci katibi işləmişdir. 1967-ci ildə onu Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbər işə göndərmişlər. 1982-ci ilin yanvarında birinci müavin, dekabrında isə sədr təyin edilmişdir. 1988-ci ildə Sov.İKP MK-ya katib və partiya komissiyasına sədr seçilmişdir. 1991-ci ildən sonra müğənni İosif Kobzona cangüdənlik etmişdir).

# İçindəkilər

"Dissident sözlüyü"nə məqalələri necə hazırladıq ..... 5
Giriş ..... 48
Abdullayev Çingiz ..... 54
Ağayev Nadir ..... 62
Asif Ata – Asif Əfəndiyev ..... 70
Azərli Əli – Əlikram Əliyev ..... 78
Biriya Məhəmməd – Bağırzadə Nuhi ..... 84
Coşğun İsfəndiyar– Barxu ..... 93
Elçibəy– Əbülfəz Əliyev ..... 99
Farka İsmail ..... 109
Hatəmi Məhəmməd Tantəkin ..... 119
Hilaloğlu Cahid – Cahid Şirinov ..... 128
Hüseyni Əbülfəzl ..... 135
Kərimov Asəf – Asəfxan Qubalı ..... 140
Məhərrəmov Baycan ..... 146
Safruh – Elman Əliyev ..... 150
Şamil Saleh – Şamil Əliyev ..... 155
Tahirzadə Nofəl ..... 161
Tanqo (Taner) – Tanrıqulu Əliyev ..... 165
Turabxanoğlu – Rafiq Abdullayev (Sabah) ..... 171
Ulutürk Xəlil Rza ..... 178
Vəndamlı Tofiq ..... 187
Yanardağ– Sabir İmamverdiyev ..... 191
"DS" Azərbaycan qrupunun baş redaktoru
Əzizə Şamilovanın 1999-cu il oktyabrın 29-31-də
Sofiyada keçirilən konfransdakı məruzəsi ..... 198

# “DİSSİDENT SÖZLÜYÜ”NƏ MƏQALƏLƏRİ NECƏ HAZIRLADIQ

Kitabı gözdən keçirən oxucuların bəziləri dodaq büzərək “Eh, bunlar kimdir, nə iş görüblər ki, onlardan yazırlar, nədən onları xalq tanımalıdır?”, yaxud da “Mən (atam, babam) filan vəzifədə işləmişəm, Azərbaycanın talyeini həll etmişəm. Millət üçün çox işlər görmüşəm!”, “Məni (atamı, babamı) hamı tanıyırdı, amma bu adamları heç kim tanımırdı, onlar xalq üçün nə iş görə bilərdilər ki?!” “Bunlara heç salam verən belə yox idi, onlar kim idi ki!” deyənlər, irad bildirənlər olacaq.

Nə yolla olur-olsun pul qazanmağa, güzəranını yaxşılaşdırmağa can atan, vəzifə üçün hər cildə girənlər və onların övladları keçmişdə olduğu kimi, indi də vətən, millət üçün çalışanları əfəl, bacarıqsız, ağılsız sayırlar. Moskvanın göstərişləri o yana, müdirinin əmr və arzusunu qanundan üstün tutanların qaz vurub qazan doldurmaları, rüşvət almaq üçün minbir fırıldağa əl atmaları, vəzifə tutmaq üçün cilddən-cildə girdiklərini qürurla söyləyənlərin məclislərində otura, onların həvəslə etdikləri söhbətləri dinləyə bilmirəm.

Sovet dövründə müxtəlif vəzifələrdə çalışanların hamısı rüşvətxor, yaltaq, saxtakar, vətənini və millətini düşünməyənlər deyildi. Elə bir toplum formalaşdırılmışdır ki, təmiz və vətənsevər insanlar idarəetmənin müəyyən mərhələlərinə kimi irəliləyirdi. Oğru, rüşvətxor və fırıldaqçılar onlarla eyni idarədə, nazirlikdə, partiya aparatında işləyən düz, işgüzar adamlara da yuxarıdan aşağı baxır, onları da avam sayırdılar. Avam saydıqları adamlara möhtac idilər. Onlar olmadan iş görə bilmirdilər.

Sovet dövründə vəzifə pillələri ilə sürətlə irəliləyənlərin, orden-medallarla sinələrini bəzəyənlərin, aldıqları fəxri adlarla öyünənlərin bir çoxunun şöhrəti sabun köpüyündən düzəldilmiş dağa, təqib və təzyiyqlər altında olsa da, millətinin taleyini düşünən, onun üçün nəsə bir iş görməyə çalışanların əməlləri isə aysberqə bənzəyir. Biz adətən, Çingiz Abdullayevlərin, Cahid Hilaloğluların,

Məhəmməd Biriyaların, İsfəndiyar Coşqunların, Tanqoların, Xəlil Rza Ulutürklərin, Asif Ataların, Safruhların, Əbülfəz Elçibəylərin və b. əməllərinin çox kiçik bir hissəsini görə bilirik.

Təqib və təzyiqlərin insanların taleyinə təsirinin mənzərəsini göz önünə sərmək üçün haqlarında məqalə yazdığımız 21 nəfərə aid kiçik bir statistikaya baxmaq yetərlidir. Çingiz Abdullayev, Tanqo (Tanrıqulu Əliyev), Sabir Yanardağ, Baycan Məhərrəmov, Tofiq Vəndamlı və Nofəl Tahirzadə ailə qurub, ev-eşik, oğul-uşaq sahibi olmadan dünyadan köçdülər. Deməl, altı mübariz, döyüşkən insanımızın nəsli kəsildi.

Məhəmməd Biriyanın (Bağırzadə), Asif Atanın, Safruhun, İsmail Farkanın, Nadir Ağayevin ailəsi dağıldı. Cahid Hilaloğlu (onun da nəslinin davamçısı olmadı), Əbülfəz Elçibəy, Əli Azərli, Asəf Kərimov çox geç evlənmək məcburiyyətində qaldılar.

Heyif ki, onların heç birinin ailə üzvləri xatirələrini yazmadı. Yalnız ağrı və acılara mətanətlə dözən Xəlil Rza Ulutürkün ömür-gün yoldaşı Firəngiz xanım xatirələrini yazıb “Xəlil Rza. Kədərimlə qol-boyun...” adı altında kitab nəşr etdirdi.

Bu sətirləri yazarkən Sovet dövründə gördüyüm sənədli bir film yadıma düşdü. Xəz dəri istehsalı üçün qurulmuş fermada çalışanlar qəfəsə uyğunlaşmayan, azadlığa can atan, baxıcılarına müqavimət göstərən vəhşi heyvanları döl verməyə qoymurlar. Onları tez öldürürlər. Qəfəsə alışanları cütləşdirib onlardan bala alırlar. Sanki onlar bu metodu müstəmləkəçilərdən, diktatorlardan öyrəniblər. Müstəmləkəçilər də elə bil köləliyə boyun əyməyənlərin nəsillərinin davam etməsini istəmirlər. Onları müxtəlif yollarla məhv edirlər. Qorxurlar ki, övladları da mübariz, döyüşkən olar.

Tarixin bütün dövrlərində vətənin və millətin xoşbəxt gələcəyi üçün mübarizə aparan *yenilikçilər* az olublar. Həmişə də onların fəallyyəti nə hakimiyyətdəkilər, nə də xoşbəxtliyi uğrunda mübarizə apardığı toplum tərəfindən xoş qarşılanıb. Buna baxmayaraq qarşıdurma həmişə olub. Toplumun inkişafına da bu qarşıdurmalar, ziddiyətlər təkan verib.

Azərbaycanın müstəqilliyə qovuşmasından 27 il keçsə də, Sovet rejiminə, müstəmləkəçiliyə, irticaya, mühafizəkarlığa və s. qarşı dirəniş göstərənlər layiqincə dəyərləndirilməyib. Onların bir hissəsi "dissident" adlandırılıb.

* * *

Sovet Sosialist Respublikaları İttifaqı çökməyə üz tutanda dissident termini tez-tez işlədilməyə başlandı. "Rus dilinin izahlı lüğəti"ndə *dissident* sözü belə açıqlanır: "**Диссидент** (инакомыслящий) (лат. *dissidens* – "несогласный") – человек, отстаивающий взгляды, которые радикально расходятся с общепринятыми. Зачастую этот конфликт личных убеждений с господствующей доктриной приводит к гонениям, преследованиям и репрессиям со стороны официальных властей". [**Dissident** (ayrı cür düşünən) (Lat. *dissidens* "razılaşmayan") – ümumməqbul baxışlardan qəti şəkildə fərqlənən baxışları müdafiə edən adam. Çox vaxt şəxsi etiqadı ilə hakim doktrin arasındakı bu konflikt rəsmi hakimiyyətin zülm, təqib və cəzalandırmalarına gətirib çıxarır]

Onların baxışları rəsmi şəkildə müəyyənləşdirilmiş baxışlardan fərqlənir.

1950-ci illərədək Sovetlər Birliyində, sosialist ölkələrində və kommunist əqidəli insanlar arasında İosif Stalin (Cuqaşvili) böyük ideoloq, əvəzolunmaz idarəçi, uzaqgörən siyasətçi kimi təbliğ olunmuşdu. 1953-cü il martın 5-də Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədri və Sovet İttifaqı Kommunist Partiyasının birinci katibi İosif Stalinin (Cuqaşvili) ölümü siyasi hakimiyyətdə bir çaşqınlıq yaratdı. Onu əvəz etməli olanlar yaxşı bilirdilər ki, ölkəni keçmişdəki kimi idarə etmək mümkün deyil, ciddi islahatlara ehtiyac var. Yeni və ciddi islahat isə rejimin məhvinə səbəb olardı. Buna görə də, 1956-cı ildə keçirilən Sovet İttifaqı Kommunist Partiyasının 20-ci qurultayında bütün çatışmazlıqlar İosif Stalin və onun komandasının adına yazıldı. Minlərlə insan bəraət alaraq həbsdən azad edildi.

Əslində bu, formal və fiziki bəraət idi. Bu bəraət 1917-1955-ci illərdə siyasi səbəblərə görə həbs edilənlərin hamısını əhatə etmir və bəraət verilənlərin də çoxunun əsərlərinin nəşri, təbliği üzərindən qadağa qaldırılmırdı. Amma sözdə demokratiyadan, insan haqlarının qorunduğundan dəm vururdular. "Sovet Sosialist Respublikaları İttifaqı həbsxanalarında siyasi dünyagörüşünə görə tutulanlar yoxdur, ölkədə fərqli düşüncəlilər təqib olunmur" – deyərək bar-bar bağırırdılar. Köhnə idarəetmə bir az yumşaldılmış şəkildə davam etdirilirdi.

Ölkədə bir çaşqınlıq yaranmışdı. İdarəetmədə iştirak edənlərin hamısı şəxsiyyətə pərəstişdə iştirak etmişdi. Onları vəzifədən uzaqlaşdırmaq və ya yeniləri ilə əvəzləmək mümkün deyildi. Buna görə də, hakimiyyəti ələ almış qrup onlara rəqib ola biləcək partiya-sovet işçilərini cəzalandırırdı.

İosif Stalin öldükdən sonra Sovet Sosialist Respublikaları İttifaqı Daxili İşlər Naziri Lavrenti Beriya həbs edilmiş və minlərlə insanın ölümünün səbəbkarı kimi güllələnmişdi. Lavrenti Beriya ilə birlikdə çalışanların bir qismi onun yaxın silahdaşı və dostu sayılaraq "Beryanın bandası" adlandırılıb həbs edilmişdi. Həbs olunanlar haqqında kütləvi informasiya vasitəsilə rəsmi xəbər də yayılmışdı. İllərlə hökumətin dayağı, mətin komminist sayılaraq təriflənən, ənənəyə uyğun olaraq bu gün düşmən elan edilirdi. Düşmən elan edilərək həbs olunanlar sırasında aşağıdakı rəhbər işçilər də vardı:

**Merkulov V.N.** – Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Nəzarəti Naziri;

**Kobulov B.Z.** – Sovet Sosialist Respublikaları İttifaqı Daxili İşlər Nazirinin müavini;

**Qoqlidze S.A.** – Sovet Sosialist Respublikaları İttifaqı Daxili İşlər Nazirliyinin 3-cü idarəsinin rəisi;

**Meşik P.Y.** – Ukrayna SSR Daxili İşlər Naziri;

**Dekanozov V.Q.** – Gürcüstan SSR Daxili İşlər Naziri;

**Vlodzimirski L.E.** – Sovet Sosialist Respublikaları İttifaqı Daxili İşlər Nazirliyinin Xüsusi İşlər Üzrə İstintaq idarəsinin rəisi.

Azərbaycanda da vəziyyət çox gərginləşmişdi. Məğlubedilməz sayılan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mir Cəfər Bağırov İosif Stalinin və Lavrenti Beriyanın yaxın dostu kimi həbs edilərək güllələnmişdi. Dövlət Təhlükəsizlik Komitəsi – DTK (Bu təşkilat dünyada Rus dilində deyildiyi kimi, KGB şəkilində yazılır. Biz isə onu Azərbaycan Türkcəsindəki qısaltma şəkili ilə DTK yazacağıq), DİN (Daxili İşlər Nazirliyi) işçilərinin böyük bir qismi həbs edilmiş, işdən qovulmuş, kommunist partiyası sıralarından xaric edilmiş və müxtəlif təzyiqlərə məruz qalmışdı.

Partiya-sovet təşkilatlarında rəhbər vəzifə tutanların da bir qismi yaranmış vəziyyətdən istifadə edərək dövlət idarələrində milli kadrların sayının artırılmasına, Azərbaycan dilinin dövlət idarələrində işlək dilə çevrilməsinə çalışmış, hətta "vətənə xəyanət" suçu ilə ittiham edilərək Qazaxıstana, Qırğızıstana, Özbəkistana sürgün edilmiş Axısqa Türklərinin bir qisminin Azərbaycan Sovet Sosialist Respublikasına qayıdaraq burada yaşamalarına imkan yaratmışdı.

Nisbi yumşalma, partiya-sovet işçiləri, yaxın keçmişin DTK əməkdaşları arasında yaranmış çaşqınlıq gənclərin kiçik gizli dərnəklər yaratmasına, antisovet vərəqələr yazaraq yaymasına şərait yaratmışdı. Çox təssüf ki, bu dərnəklər haqqında nə xatirələr yazıldı, nə də DTK arxivlərində hansı sənədlərin olub-olmadığını bildik. Partiya-sovet, təhlükəsizlik işçiləri arasında çaşqınlıq yaransa da, mühafizəkar, öz işinə ürəkdən bağlı məmurlar həmişəki kimi vəzifə başında ayıq-sayıq dayanmış, həbsləri, təqibləri davam edirmişlər.

Hətta Hippokrat andı içmiş həkimlər belə psixi xəstəxanalarda işləyəndə DTK məmurlarının əmrlərini yerinə yetirmişlər. 1967-ci ildə siyasi baxışlarına görə DTK tərəfindən istintaqa cəlb olunmuş Rafiq Turabxanoğlu (Abdullayev) da psixi xəstəxanada "müalicəyə" göndərilmişdi. O, xəstəxanada "müalicə

edilənləri"n vəziyyətindən söz açarkən yazır: "Adamlara verilən əziyyətdən xeyli sarsıldım. Ancaq nə edə bilərdim?"

Rafiq Turabxanoğlu qapalı psixi xəstəxanada "müalicə" olunanları bir neçə qrupa bölür və o qruplardan biri haqqında yazır: "...cüzi bir kontinget də qələm adamlarından ibarət idi. Belələrini yüksək dövlət adamlarını tənqid edən yazılar yazıb dost-tanış arasında yaydıqları üçün məhsuliyyətə cəlb edir, tutarlı bir dəlil tapmayıb bir daha mətbuatda işləmək icazələri olmasın deyə bura gətirir, sonra da əqli cəhətdən şübhəli adam kimi azadlığa buraxırdılar ki, bir daha mətbuat üzü görməsinlər".

1960-cı illərin sonu – 1970-ci illərin əvvəllərində sosialist və kapitalist ölkələri arasındakı münasibətlərin yaxşılaşması və NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında hərbi-strateji tarazlığın yaranması beynəlxalq aləmdə "soyuq müharibə"dən gərginliyin zəiflədilməsinə doğru dönüş yaratmış oldu.

1970-ci ildə Sovet Sosialist Respublikaları İttifaqı ilə Almaniya Federativ Respublikası, Almaniya Federativ Respublikası ilə Polşa arasında müqavilələrin imzanlanması, 1971-ci ildə Sovet Sosialist Respublikaları İttifaqı, ABŞ, İngiltərə və Fransa arasında Batı Berlinə dair dördtərəfli sazişin, 1972-ci ildə Almaniya Federativ Respublikası ilə Almaniya Demokratik Respublikası arasında münasibətlərin normallaşması haqqında müqavilənin bağlanması gərginliyin zəiflədilməsinə güclü təkan verdi. Bu da Ümümavropa Müşavirəsinin hazırlanması və çağırılmasına şərait yaratdı.

1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının Ümumavropa Müşavirəsi keçirildi. Müşavirə iştirakçıları 10 əsas prinsipi rəhbər tutacaqları haqqında Yekun aktı imzaladılar. Bu sənəd Sovet Sosialist Respublikaları İttifaqında yaşayanlara da öz təsirini göstərdi.

Sovet Sosialist Respublikaları İttifaqı rəhbərliyi məcburiyyət qarşısında qaldığından, sözdə də olsa, dünya düzəninə uymağa çalışır, bəzi beynəlxalq sənədləri imzalayır, bu da insanların az

bir qisminin də olsa, haqsızlığa etirazını açıq bildirməsinə səbəb olurdu. Lakin bu narazılıqlar ölkə mətbuatında, radio-televiziyalarında öz əksini tapmırdı. Xarici radiolar, “Azadlıq”, “Amerikanın səsi”, “Bi-bi-si” kimi radiolar Sovet Sosialist Respublikaları İttifaqı və sosialist ölkələrində baş verənlər haqqında verilişlər hazırlayıb yayırdılar. Həmin radioların dalğalarının vurulması, eşidilməz edilməsi üçün Sovet Sosialist Respublikaları İttifaqında nə qədər güclü cihazlar hazırlansa da, o dalğaların qarşısını tam almaq mümkün olmurdu.

Xarici ölkələrə turist səfərləri nə qədər məhdudlaşdırılsa da, turistlər və işlə bağlı xaricə ezamiyyətə gedənlər üzərində nəzarət nə qədər gücləndirilsə də, onlar gördüklərini məhdud dairədə də olsa danışırdılar. Hakimiyyətdən, quruluşdan narazılığın mətbuata çıxması mümkün olmasa da, onun lətifələr şəkilində yayılmasının qarşısını almaq imkansız idi.

Sovetlər Birliyi çökməyə başladıqdan, Mixail Qorbaçovun “qlasnost”(aşikarlıq), “perestroyka” (yenidənqurma) şüarlarından sonra mərkəzi mətbuat Sovet Sosialist Respublikaları İttifaqında baş verən böyük cinayətlər, şişirtmələr (“pripiskalar”), rüşvətxorluqlar haqqında yazmağa başladı. Azərbaycan mətbuatı isə bu mövzuya 1990-cı ildən sonra yer verdi.

Azərbaycan mətbuatında, xüsusən qeyri-rəsmi qəzetlərdə dissidentlər haqqında məqalələr çap olundu. “Ayna” qəzetinin əməkdaşı İsmayıl Umudlu dissidentlər haqqında məqalələr verməklə kifayətlənmədi, 1999-cu ildə Bakıdakı “Oğuz eli” nəşriyyatında “Sovet dönəmi Azərbaycanda dissident fikir cərəyanları (faktlar, hadisələr, şəxsiyyətlər)” adlı 68 səhifəlik bir kitab da çap etdirdi.

1990-cı il oktyabrın 30-da, yəni Dünya Dissidentlər Günündə Azərbaycanın müxalifyönlü mətbuatında dissidentlər, baxışlarına görə Sovetlər tərəfindən sıxışdırılanlar, həbs edilənlər, təqib və təzyiqlərə məruz qalanlar haqqında olduqca maraqlı məqalələr çap olunur, onların səsləri radio və televiziyadan eşidilirdi.

Dissidentlər haqqında məqalələr, radio-televiziya verilişləri oxucular, dinləyicilər tərəfindən maraqla qarşılanırdısa da, keçmişdə hakimiyyətdə olanlar və vəzifələrini, vəzifədən çıxarılsalar da, mövqelərini qoruyub saxlayanlar tərəfindən sərt müqavimətlə qarşılanırdı. Keçmiş partiya-sovet, DTK, milis işçiləri bu mövzunun gündəmə gəlməsini, arxiv materiallarının mətbuata sızmasını istəmirdilər.

Onlar bəd əməllərinin açılacağından, xalqa xəyanət etdiklərinin bilinəcəyindən qorxurdular. Ona görə də, “Azərbaycanda dissident olmayıb”, “Azərbaycanda müxalif düşüncəlilər təqib və təzyiqlərlə üzləşməyib”, “Azərbaycanda düşüncəsini sərbəst söyləyə biləcək, cəmiyyətdəki nöqsanlara açıq və gizli şəkildə etiraz edə biləcək ziyalılar yox idi” fikirlərini formalaşdırmağa çalışıblar. Təqiblərə məruz qoyduqları insanları dəli, ağlı çaşmış, özü haqqında yalandan miflər yaradan və s. adlandırırdılar. Mətbuatda çıxan faktlar isə onların “paxırını açırdı”. Lakin bu proses uzun sürmədi. Təqib və təzyiqlərə məruz qalanların səsini rəsmi dairələr eşitməz oldu.

Millətinin sabahı üçün çarpışan, vətənpərvər, haqqı deyən insanlara olmazın əzab-əziyyətini vermiş partiya-sovet işçilərinin, DTK və milis əməkdaşlarının, psixoloji dispanserlərdə çalışan həkim qiyafəli cəlladların, saxta hüquq işçilərinin heç biri cinayət məsuliyyətinə cəlb edilmədi. Beləcə, mövzu gündəmdən çıxdı. Haqsız təqib və təzyiqlərlə üzləşmiş fərqli fikirlilər Sovet hakimiyyəti dövründə olduğu kimi, ondan sonra da unutdurulmağa başladı.

Hakimiyyətdə yüksək vəzifə tutanların bəziləri də xalq arasında mövqelərini möhkəmlətmək, özlərinə daha çox tərəfdar toplamaq məqsədilə dissident sözündən istifadə etməyə başladılar. Məsələn, uzun illər DTK-ya və Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmiş, SSRİ Nazirlər Sovetinin birinci müavini işləmiş Heydər Əliyev Milli Təhlükəsizlik Nazirliyinin yubileyində çıxış edərkən demişdi ki, Azərbaycanda dissident olmayıb! Bir nəfər dissident olubsa, o da mənəm!

Yaxud, Azərbaycan Milli Məclisinin sədri olmuş Rəsul Quliyev də özünü dissident adlandırır. Halbuki, 1947-ci ildə Culfa rayonunun Qazançı kəndində doğulmuş bu insan 1970-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirdikdə təyinatla Sumqayıt Kimya Texnologiyaları zavoduna işə göndərilmişdir. O, təyinat müddətini başa vurmadan Bakıya gələrək Neftayırma zavoduna işə düzəlmişdir. Burada kommunist partiyası sıralarına daxil olmuş və sürətlə vəzifə pillələri ilə irəliləməyə başlamışdır. Belə ki, 1974-cü ildə baş mühəndisin müavini, 1980-ci ildə baş mühəndis, 1981-ci ildə direktor vəzifəsinə yüksəlmişdir. İdarəetmədəki fırıldaqlardan bacarıqla yararlanaraq böyük məbləğdə pul toplaya bildiyinə görə respublika rəhbərliyi onu daim diqqət mərkəzində saxlamış, 1985-ci ildə Bakı Şəhər Xalq Deputatlar Sovetinə, 1990-cı ildə isə Azərbaycan SSR Ali Sovetinə deputat seçdirmişdir.

Sovet dövrünün ağrı-açılarını yaşamış, ailələri dağıdılmış, illər boyu mənəvi cəhətdən alçaldılmış, dərdlərini, başına gələnləri söyləyəndə ətrafdakıların dəli kimi baxdıqları həqiqi dissidentlər saxta "dissidentlər"i ifşa etmək istəyərkən bəzən hisslərini çilovlaya bilmir, onların ailələri haqqında fakta dayanmayan fikirlər səsləndirir və yazırlar.

"Azərbaycanda dissident olub-olmayıb" söhbətlərinin soyuq savaş kimi davam etdiyi bir dönəmdə Doğu Avropa ölkələrində dissident hərəkatı haqqında enskilopediya nəşr edilməsi planlaşdırılır. "Dissident sözlüyü" adlı nəşri hazırlayacaq qrup üçün mərkəz Varşava şəhəri seçilir. Polşanın belə bir nəşri hazırlamağa imkanı olmadığından maddi və ideoloji yardım ABŞ-dan və Avropa Birliyindən gəlir. "Dissident sözlüyü" qrupu bir müddət hazırlıq işləri apardıqdan sonra Doğu Avropadakı sosialist respublikaları və keçmiş Sovet Sosialist Respublikaları İttifaqının Avropa hissəsində yaşayan 1.305 nəfərlə bağlı ensklopedik məqalə hazırlanmasını planlaşdırır.

1998-ci ildə Azərbaycan Milli Demokratiya Fondu yanında bir qrup yaradıldı ki, "Dissident Sözlüyü" (bundan sonra: "DS")

üçün məqalələr hazırlansın. Qrup öz fəaliyyətini iki ilə yaxın davam etdirdi.

Sonra "DS" təşkilatçılarının çox incə eyhamla "nədən Azərbaycandakı dissidentlərin hamısı azərbaycanlılardır? Orada məgər başqa millətlərdən olan dissident yoxdurmu?" suallarına yazdığımız cavablar aramızda soyuq yellər əsməsinə səbəb oldu. Ona görə də, təşkilatla əlaqəmizi kəsdik və mən bir daha qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmədim. Bunun ardınca, yəni 2004-cü ilin mayında Azərbaycan Milli Ensiklopediyasından da uzaqlaşdırıldım. AMEA Folklor İnstitutunda işlədiyimdən dissidentlər mövzusunda araşdırmaları davam etdirə bilmədim. Amma mövzu heç zaman yadımdan çıxmadı. Cahid Hilaloğlu və Çingiz Abdullayev haqqında yazdığımız məqalə Azərbaycanda ("Teatr İnstitutunun dissident məzunları". // "Mədəniyyət dünyası" toplusu, 2003, 4-cü cild, s. 176-187), İsmail Farka haqqında yazdığım "Acı taleli insan" məqaləsi Albaniyada ("Standart" qəzeti, 24.05.2009, s. 19; 25.05.2009, s. 19) nəşr olundu. Dissidentlər mövzusunda "Azadlıq" radiosuna verdiyimiz müsahibə də geniş əks-sədə doğurdu. Sosial şəbəkələrdə çalışanlar həmin yazılardan gen-bol istifadə etdilər, hətta birinci məqaləni Rus dilinə də çevirib yaydılar.

Bunlar nə qədər fərəhləndirici olsa da, bu mövzuda araşdırmaları davam etdirmədiyimə üzülürdüm. Qəzet-jurnallarda da getdikcə dissident mövzusuna maraq azalırdı. Aradan 17 il keçmişdi. Bir gün, daha doğrusu, 2016-ci ilin xoş bir noyabında AMEA Əsas Binasının həyətindəki çayxanada professor Cəmil Həsənli ilə çay içə-içə söhbət edirdik. Əslində buraya alimdən onun 2015-ci ildə Moskvanın "FLİNTA" və "Nauka" nəşriyyatlarında cəmi 1000 nüsxə çap olunmuş *"Синьцзян в орбите советской политики. Сталин и мусульманское движение в Восточном Туркестане (1931-1949)" ["Sinstzyan Sovet Siyasəti əhatəsində. Şərqi Türküstanda Stalin və müsəlman hərəkatı (1931-1949)"]* kitabını almağa getmişdim.

Professor Cəmil Həsənlinin kitablarını, məqalə və çıxışlarını diqqətlə izləyirəm. Qaynaqlarla işləməyinə, faktları obyektiv dəyərləndirmək bacarığına həsəd aparır və onun yazılarından tərəddüdsüz istifadə edirəm. Tanıdıqlarıma da onun əsərlərini oxumağı və ondan qaynaq göstərməyi məsləhət görürəm. Onun 20-ci yüzildə Doğu Türküstandakı (Sintszyan (Sincan) Uyğur Muxtar Rayonu**)** milli azadlıq hərəkatı mövzusunda araşdırma apardığını bilir, səbirsizliklə həmin araşdırmanın kitab şəkilində nəşrini gözləyirdim, çünki Uyğurların folklorunu və ədəbiyyatını Azərbaycan oxucusuna tanıtmaq istəyəndə bir sıra çətinliklərlə üzləşmişdim. Çox üzülmüşdüm ki, nədən soydaşlarımızın tarixinə, dilinə, ədəbiyyatına indiyədək belə saygısız qalmışıq.

Azərbaycan müstəqillik əldə edəndən sonra Uyğurlar haqqında bir neçə məqalə yazmışdım. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə 2011-ci ildə "Nurlan" nəşriyyatında çap etdirdiyim "Uyğur, Qaqauz, Quzey Qafqaz Türklərinin folkloru və ədəbiyyatı" kitabının bir fəsli Uyğurların folkloruna və ədəbiyyatına həsr olunsa da, oradakı milli mübarizədən də xeyli söz açmışdım. Xüsusən Sovet hökumətinin Doğu Türküstanda və Güney Azərbaycanda qurulmuş hökumətləri necə güdaza verdiyi haqqında bir neçə səhifədə müqayisələr aparmışdım. İçimdə bir nisgil qalmışdı ki, kaş bu mövzunu yaxşıca araşdırıb oxuculara təqdim edən ola. Allaha çox şükür ki, professor Cəmil Həsənli bu işi gördü.

Çayxanada gəlmişdən-getmişdən, Cəmil müəllimin kitablarından xeyli söhbət etdik. Milli azadlıq hərəkatı fəallarını yada saldıq. Cəmil müəllim bir zaman hazırladığımız "DS" ensiklopediyasına yazdığımız məqalələrin sonrakı taleyi ilə maraqlandı. Mən də vəziyyəti ona danışdım. Xahiş etdi ki, hazırladığımız məqalələrin surətini ona göndərim. "Göndərərəm" - deyə söz verdim.

Evə gəldikdən sonra Cəmil Həsənliyə verdiyim vədə əməl etmək istədim. Təəssüf ki, həmin məqalələrin elektron variantını da, kağıza çıxarılmış variantını da tapa bilmədim. "DS"-də işimizi

başa çatdıranda materialları dövlət arxivlərindən birinə verməyi planlamışdım. Evdə materialları axtaranda əlyazmaları və topladığımız sənədlərin bir qismini tapdım. Lakin məqalələrin elektron variantını və kağıza köçürülmüş variantını tapa bilmədim.

Cəmil müəllimin yanında yalançı olmamaq üçün məqalələrin əlyazmalarını və bəzilərinin də makina yazılarını milli azadlıq hərəkatının öndərlərindən olan rəhmətlik Ağamalı Sadiqin gəlini, iş yoldaşım Sevinc Əfəndiyevaya verdim. Ondan xahiş etdim ki, məqalələrin Azərbaycan Türkcəsində olanlarını Ruscaya çevirsin, Rus dilində olanları da bilgisayarda yığsın, sonra hamısını birlikdə redaktə edib versin ki, kitab kimi tərtib edib Cəmil müəllimə verim. Sevinc xanım bu işi çox məmnuniyyətlə və təmənnasız görməyi boynuna götürdü.

Professor Cəmil Həsənli üçün materialları axtararkən bəzi yazışmalarımızı, məqalələrin necə hazırlanması haqqındakı sənədləri də tapdım. Onları bir daha gözdən keçirdim. Kitabın yaranması səbəblərini ortaya qoyacağını nəzərə alıb onlardan da istifadə edərək yeni bir önsöz yazmağı lazım bildim. Məqalələr üzərində yenidən ciddi işləməsəm də, dissidentlərdən dünyasını dəyişdiyini bildiklərimin ölüm tarixlərini də verdim.

1993-cü ildə Xalq Cəbhəsi hakimiyyəti təhvil verdikdən sonra təşkilatın fəallarına qarşı təqiblər və təzyiqlər başlandı. Təşkilatın fəallarına qarşı qanunsuz həbslər, muvəqqəti saxlamalar, alçaltmalar, fiziki zorakılığa məruz qalmalar o yerə çatdı ki, polisin əlindən qurtaranların bir çoxu "Sovet dövründə belə qəddarlıqlar görməmişdik", "Ermənilər bunlardan insaflıdır" - deyərək ya intihar etdilər, ya da mühacirətə getməli oldular. Bütün inqilablarda inqilabçılara divan tutulması haqqında çox oxumuşdum. "İnqilab öz balalarını yeyir!" ifadəsi də az qala zərb-məsələ çevrilmişdi. Uzun illər hakimiyyəti devirməyə, dəyişikliklərə can atanlar istəklərinə çatdıqda birgə mübarizə apardıqları insanları məhv etməyə başlayırlar.

Təqib və təzyiqlərə dözərək, vətəni tərk etməyənlər də oldu. Onların arasında mübarizəni davam etdimək istəyənlər işsizliklə,

aclıqla, alçaldılmalarla üzləşdilər. Səfalətə, təqiblərə, təzyiqlərə dözməyib iqtidarın əl buyruqçusuna çevrilənlər də oldu. Bəziləri isə ölkənin demokratikləşdirilməsi naminə ictimai-siyasi fəaliyyətlərini davam etdirmək üçün xarici təşkilatlardan qrant aldılar. Bu, çox perspektivli görünsə də, repressiyanın təzyiqi altında səmərəli nəticə vermirdi.

Həmin dövrdə ABŞ-ın Şərqi Avropa Demokratiya İnstitutunun prezidenti İrena Lasota Azərbaycana tez-tez gəlirdi. Elçibəyin tapşırığı ilə Arif Rəhimoğlu və dostları Azərbaycan Milli Demokratiya Fondunu yaratdılar. Fondun ilk prezidenti Arif Rəhimoğlu olsa da, az sonra o, Elçibəylə razılaşaraq bu təşkilatdan uzaqlaşdı. Mən isə təşkilatın təsis toplantısından əvvəl oradan uzaqlaşmışdım. Buna baxmayaraq, Arif Rəhimoğlundan sonra Azərbaycan Milli Demokratiya Fondunun işini aparan, Xalq Cəbhəsi fəallarından Ülvi Mürsəl oğlu Həkimovla tez-tez görüşürdük. Təşkilatın elə güclü iqtisadi bazası olmadığından Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin İçərişəhərdəki ofisinin iki otağında yerləşmişdi. Bir neçə bilgisayarı, faksları, üzçıxarma aparatları və s. vardı. Yəni texniki avadanlıqlar da çatışmırdı. Təşkilatı Ülvi Həkimovun fədakarlığı yaşadırdı.

1998-ci ilin avqustunda Ülvi Həkimov Polşadakı KARTA təşkilatının Şərqi Avropadakı sosialist respublikalarının dissidentləri haqqında ensiklopediya nəşr edəcəyini dedi. Həm də gileyləndi ki, onlara yardım edəcəklərini söyləyənlər indi sözlərinin üstündə durmurlar – 5 nəfər dissident haqqında məqaləni hazırlayıb göndərmək problemə çevrilib. Ülvi bəy KARTA-dan göndərilmiş məktubların bir neçəsini mənə verdi. Orada Azərbaycana 5 yer ayrıldığı halda, bizimlə qonşu olan Gürcüstana 45, Ermənistana 40, hətta əhalisi az qala Azərbaycandan beş dəfə az olan Estoniyaya 40, əhalisi və ərazisi təxminən Azərbaycandan 2,5 dəfə az olan Albaniyaya 40 yer ayrılmışdı. Bu ayrı-seçkilik məni narahat etdiyindən Ülvi bəyə məqalələri hazırlayıb göndərəcəyimi söylədim. Həmin

vaxt Azərbaycan Milli Ensiklopediyasında işləyirdim. 5 məqalə hazırlamaqda o qədər çətinlik çəkməyəcəyimi düşünürdüm.

Ülvi bəy "DS"-nin Polşadakı qərargahı ilə aramızda vasitəçi oldu. Oturmağa otaq, yazmağa bilgisayar, əlaqə saxlamağa telefon, necə deyərlər, əldə bir manat pul olmadan işə başladım. Ülvi Həkimov bu işlərdə bizə yardım elədi. Polşadan internetlə göndərilən məktubları və təlimatları kağıza köçürüb mənə verirdi. Mənim əlyazma şəkilində cavablarımı Rus dilinə çevirtdirib göndərirdi.

Oradan məqalələri hazırlamaq üçün keçmiş dissidentlərə qələmhaqqı göndərdiklərini, lakin ciddi bilgi ala bilmədikləri haqqında giley məktubu da yazdılar. Təskinlik məktubu yazdım. Bildirdim ki, qələmhaqqı önəmli deyil, gördükləri iş önəmlidir, buna görə imkanımız daxilində gərəkli köməkliyi edəcəyik. Onlar da bizə "DS" üçün materialların necə toplanması, toplanan materiallar əsasında məqalələrin yazılması, yazılan məqalələrin quruluşu və rəyə verilməsi haqqında təlimat göndərdilər.

Ensiklopediyada işlədiyimdən bu işin ağırlığını anlayırdım. Amma geri çəkilməyə də vicdanım yol vermirdi. Buna görə də, təlimat əsasında "DS"-nin Azərbaycan qrupunun layihəsini hazırladıq. 1998-ci il sentyabrın 3-də Azərbaycan Milli Demokratiya Fondunun prezidenti Ülvi Həkimovun rəhbərliyi ilə ilk toplantımız keçirildi. Qərara aldıq ki, qrupun tərkibi aşağıdakı kimi olsun:

1. *Ülvi Mürsəl oğlu Həkimov* (Azərbaycan Milli De-mokratiya Fondunun prezidenti) – layihə rəhbəri.

2. *Əli Hüseyn oğlu Şamilov* (Azərbaycan Milli Ensiklopediyasının qrup rəhbəri) – koordinator.

3. *Əzizə Ağaəli qızı Şamilova* (Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının mütəxəssisi) – baş redaktor.

4. *Vəfa Qüdrət qızı Saleh* (Azərbaycan Milli Ensiklopediyasının redaktoru) – redaktor.

5. *Ruqiyyə Cəmilli* – Rus dilinə tərcüməci-operator.

6. *Sara Məmməd qızı Abdullayeva* (Azərbaycan Xarici Dillər Universitetinin Magistratura tələbəsi) – İngilis dilindən tərcüməçi.

Məsləhətçi və elmi redaktorlar:
1. *Prof. Dr. Cəmil Həsənli.*
2. *Prof. Dr. Nəsib Nəsibzadə*
3. *Prof. Dr. Şövkət Tağıyeva*

İnformator- məsləhətçilər:
1. *Nadir Ağayev* - dissident.
2. *Sabir Yanardağ* - dissident.
3. *Asəf Kərimov* - dissident.
4. *Oqtay Eldəgəz* - publisist.
5. *Tahir Aydınoğlu* - publisist
6. *Yaşar Türkazər* - ictimai fəal.

"DS"-nin Polşadakı mərkəzinə qrup haqqında bilgi verdik. Onlar da bizimlə razılaşdılar. Qrupun 12 sentyabr 1998-ci ildə keçirilən toplantısına "Xalq" qəzetinin redaktor müavini *Tahir Aydınoğlu*, "Ayna" – "Zerkalo" qəzetinin əməkdaşı *İsmayıl Umudlu*, Asif Ata Ocağının övladı *Safruh (Elman Əliyev), Hikmət və Fikrət Ələfsər qardaşları* və b. qatıldılar. İsmayıl Umudlu mətbuatda dissidentlərdən və repressiya qurbanlarından ən çox yazan jurnalistlərdən idi.

Həmin dövrün mətbuatında yazılanlara, şəxsi tanışların xatirələrinə əsaslanıb aşağıdakı siyahını tərtib etdik:

1. *Cahid Hilaloğlu (Şirinov)* – (1929. Ağdam ş. – 30.05.1991. Ağdam ş.);

2. *Çingiz Mirzalı oğlu Abdullayev* – (1929, Laçın ş. – İsveçrə, Bern ş. yaşayır);

3. *Xəlil Rza Ulutürk (Xəlil Rza oğlu Xəlilov)* – (21.10.1932. Salyan rayonu, Pirəbbə k. – 22.06.1994. Bakı ş.);

4. *Asif Ata (Asif Qasım oğlu Əfəndiyev)* – (25.09.1935. Ermənistan, Çaykənd k. – 05.06.1997. Bakı, Ağstafada dəfn olunub);

5. *Safruh (Elman Ağa oğlu Əliyev)* – (23.11.1939. Ağdam rayonu, İsmayılbəyli k. – Bakıda yaşayır);

6. *Nadir Mirələkbər oğlu Ağayev* – (13.03.1938. Salyan ş. – Bakıda yaşayır);

7. *Sabir Yanardağ (Sabir Mustafa oğlu İmamverdiyev)* – (26.02.1929. Şəki ş. – Bakıda yaşayır);

*8. Hikmət Ələfsər (Həsənov);*

*9. Fikrət Ələfsər (Həsənov);*

*10. Nəsib Mirsaleh (Muxtarov);*

*11. Rasim Saqqızoğlu;*

12. *Nemət Sükut (Əbdürrəhimov)* – (Bakıda yaşayır);

13. *Beytulla Şahsoylu (Bağırov)* – (Bakıda yaşayır);

14. *Əbülfəz Elçibəy (Əbülfəz Qədirqulu oğlu Əliyev)* – (24.06.1938. Naxçıvan MSSR, Ordubad rayonu, Kələki k. – Bakıda yaşayır);

15. *Ələsgər Həsən oğlu Siyabov* – (Şərur rayonu. – Bakıda yaşayır);

16. *Fəzayıl Ağamalıyev* – (26.08. 1947. Ermənistan SSR Sisyan rayonu, Qızıl Şəfəq (İşıqlar) k. – Bakıda yaşayır);

17. *Türk Aydın (Aydın Cabbar oğlu Abbasov)* – (04.11.1938. Naxçıvan ş., Bakıda yaşayır);

18. *Biriya (Məhəmməd Hacı Qulam oğlu Bağırzadə)* – (1914. Təbriz –19.02.1985. Təbriz);

19. *Hatəmi (Məhəmməd Fərzulla oğlu Hatəmi-Tantəkin)* – (22.07.1935. Güney Azərbaycanın Astara ş. – Bakıda yaşayır);

20. *Əbülfəz Hüseyni (Əbülfəz Aslan oğlu Hüseyni)* – (1925. Güney Azərbaycan,Təbriz ş. – 03.12.1987. Bakı ş.);

21. *İsfəndiyar Əli oğlu Bərxu (Çoşğun)* – (1929. Gəncə ş. – 24.10.1991. Bakı ş.);

22. *Məmməd Azərlu* – (Bakıda yaşayır, Güney Azərbaycandandır, Hatəmi Tantəkin tanıyır, ondan soruşmaq olar)

23. *Şamil Saleh (Şamil Saleh oğlu Əliyev)* – (31.12.1937. Bakı ş. – Bakıda yaşayır);

24. *Asəf xan Qubalı (Asəf Əsgər oğlu Kərimov)* – (04.03.1956. Bakı ş. – Bakıda yaşayır);

25. *Baycan Tahir oğlu Məhərrəmov* – (12.03.1957. Bakı – 07.08.1983. Kislovodskda suda boğulub, Bakıda dəfn edilib);

26. *Əli Azərli* – (30.04.1961. Bakı, İçərişəhər – Bakıda yaşayır);

27. *Nofəl Şərif oğlu Tahirzadə* – (05.09.1958, Qutqaşen (Qəbələ) rayonu, Xırxatala k. – 06.08.1978. Mordoviya MSSR, Saransk şəhərində müəmmalı şəkildə suda boğulub, Xırxatala kəndində dəfn edilib);

28. *Tofiq Vəndamlı (Tofiq Soltanəhməd oğlu Hüseynov)* – şair, Rusiyada həbsxanada öldürüldüyü və ya xəstəlikdən öldüyü deyilir; qardaşları Bakıda yaşayır.

29. *Rafiq Turabxan oğlu (Rafiq Turabxan oğlu Abdullayev – Sabah)* – (09.06.1946. Qubadlı rayonu, Muradxanlı k. – Sumqayıtda yaşayır);

30. *Səfər Şeyxov* – (1942, Naxçıvanlıdır, 1963-cü ildə Sumqayıtda həbs edildiyi, 1986-cı il martın 1-də 2 il 6 ay həbs cəzası verildiyini, hazırda Naxçıvan şəhərində yaşadığını deyirlər);

31. *Məmməd Məhəmməd oğlu Cabbarlı* – (1920 – 09.11.1996. Sumqayıt ş.);

32. *Asif Bayramov* – (1963-cü il Sumqayıt hadisələrinə görə 3 il həbs cəzası alıb. Sumqayıt şəhərində yaşayırdı);

33. *Əli Talış* – (1963-cü il Sumqayıt hadisələrində tutulub. Nasosnuda şoferdi, bazarın içində yeməkxanada işləyir);

34. *Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə* – (20.08.1912. Tbilisi – 02.08.1984 г. Bakı);

35. *Xudu Surxay oğlu Məmmədov* – (14.12.1927. Ağdam rayonu, Mərzili k. – 15.10.1988. Bakı ş.);

36. *Nurəddin Bəşir oğlu Məmmədov* – (Ağdamda yaşayıb, indi qaçqındır);

37. *Qənbər Əsgərov* – (Jdanov (Beyləqan) rayonunda doğulub, Azərbaycan Dövlət Unversitetinin fəlsəfə müəllimi. Bir qızı öldürməkdə suclanaraq güllələnib);

38. *Surxay Əlibəyov* – (Ağdamda yaşayıb, indi qaçqındır);

39. *Karlen Hüseyn oğlu İbrahimov* – (1934. Naxçıvan ş.– ? 06.1975. Naxçıvan ş. Naxçıvanda təxminən 1970-71-ci illərdə həbs edilib);

40. *Cəfərqulu Nəcəfov* – (Naxçıvan MSSR, İliç (Şərur) rayonu, Qarabağlar kəndindəndir);

41. *Bəhmən Kazım oğlu Cəfərov* – (Bakıda 1955-ci ildə həbs edilib);

42. *Allahverdi Hüseynəli oğlu Qurbanov* – 1940-cı ildə Biləsuvar rayonunda (keçmiş Puşkin rayonu) anadan olub. Leytenant Şmitd adına zavodda işləyib. 1965-ci ildə həbs edilib.

43. *Paşa Əbdülrəhimov* Allahverdi Qurbanovla birlikdə 1965-ci ildə həbs edilib. Teatr İnstitutunda oxuyub. Tibb İşçiləri Evinin bədii rəhbəri olub, Ana Dili Cəmiyyəti yaradıb (Böyük qrup olub. Həbs edilənlərsə 4 nəfər olub) 1968-69-cu illərdə avtomobil qəzasında ölüb.);

44. *Kamil Xəlil oğlu Rzayev* – (1955-1956-cı illərdə Bakıda və Sumqayıtda küçələrə vərəqlər yapışdırdığına görə həbs edilib);

45. *Fazil Baba oğlu Əliyev* – (Bakıda 1955-ci ildə Leninə yazdığı şeirə görə həbs olunub).

46. *Elməddin Məhəmməd oğlu Əlibəyzadə* – (05.11.1925. Vartaşen (Oğuz) rayonu, Muxas k. – Bakıda yaşayır və AMEA Ədəbiyyat İnstitutunda şöbə müdiri işləyir);

47. *Oqtay Eldəgəz (Rəfibəyli)* (1934-cü ildə Bakının Bülbülə kəndində anadan olub, 1959-1964-cü illərdə Azərbaycan Dövlət Unversitetinin Filologiya fakültəsində oxuyub, 1963-cü ildə 3 il 10 gün, 1975-ci ildə 3 ay 11 gün həbs cəzası verilib)

48. *Nurəddin İslamzadə* – (Bakıda yaşayır);

49. *Müqtədir Qədirli* – (Bakıda yaşayır);

50. *Əvəz Xuluflu* – (Bakıda yaşayır);

51. *Qorxmaz Soltanməcid oğlu Əfəndiyev* – (rəssam, Bakı ş. yaşayıb);

52. *Sabir Əli oğlu Azər* – (22.03. 1938. Ağstafa rayonu, Dağ Kəsəmən k. – Bakıda yaşayır, Yazıcılar Birliyinin üzvüdür);

53. *Qaçay Köçərli (Qaçay Fərman oğlu Şirinov)* – (27.08.1967. Tərtər rayonu, Köcərli k., Azərbaycan Dövlət Radio və Televizya Komitəsində işləyir);

54. *Osman Nurəddin oğlu Əfəndiyev* – (18.12.1941. Qazax rayonu, İkinci Şıxlı k., – Bakıda yaşayır);

55. *Ənvər Odabaşev* – (Axısqa Türklərindən, 1971-ci ildə Bakı şəhər Kirov Rayon Xalq Məhkəməsinin hökmü ilə həbs olunub);

56. *Müxlis Niyazov* – (Axısqa Türklərindən, 1971-ci ildə Bakı Şəhər Kirov Rayon Xalq Məhkəməsinin hökmü ilə həbs olunub);

57. *Əlləz İzzətov* – (Axısqa Türklərindən, 1971-ci ildə Bakı Şəhər Kirov Rayon Xalq Məhkəməsinin hökmü ilə həbs olunub);

58. *İslam Kərimov* – (Axısqa Türklərindən);

59. *Teyfur İlyasov* – (Axısqa Türklərindən);

60. *Mikayıl Azaflı (Mikayıl Cabbar oğlu Zeynalov)*– (21.03.1924. Tovuz ş. – 12.10.1990. Tovuz ş.);

61. *Məzahir Daşqın (Məzahir Həmzə oğlu Axundov)* – (1909-cu ilin payızı, Tərtər rayonu, İncə Borsunlu k. – 31.10.1979. Tərtər rayonu, Borsunlu k.);

62. *Aşıq Alxan Qurban oğlu Ömərov* (14.07.1905. Gürcüstan SSR, Qardabani (Qarayazı) rayonu, Kosalı k. Leninin heykəlini və ya büstünü güllələdiyinə görə həbs edildiyini deyirlər);

63. *Bisavad Teymur Ələsgər oğlu Əhmədov*– (1903, Qasım İsmayılov (Goranboy) rayonunun Tap Qaraqoyunlu kəndində anadan olub. Gəncədə yaşayıb)

64. *Kəmsavad Məhəmməd*- Gəncə şəhəri.

65. *Tanqo-Taner (Tanrıqulu Əliyev)* – (15.07.1938. Gürcüstan SSR, Qardabani (Qarayazı) ş.– 05.03.1997. Bakıda ölüb, Qardabanidə dəfn olunub);

66. *Tofiq Abdin* – (01.09.1941, Salyan rayonu, Qırmızıkənd k., – Bakıda yaşayır);

67. *Bəhlul Abdullayev* – (1940, Lerik rayonu, Zuvand kəndi – Buzovna qəsəbəsində yaşayır, AMEA Ədəbiyyat İnstitutunda işləyir);

68. *Mövlud Süleymanlı (Mövlud Süleymanov)* – (18.03.1943. Ermənistan SSR, Kalinino rayonu, Qızıl Şəfəq (Cücəkənd) k., – Azərbaycan Dövlət Radio və Televizya Komitəsi sədrinin müavini işləyir)

69. *Bağır Bağırov* – (publisist, ASE əməkdaşı);

70. *Məmməd Məmmədov* – (Tovuz rayonunun Alpout kəndində fizika müəllimi);

71. *Əli Həsənov* – (Bərdəlidir);

72. *Hüseyn Səmədov* – (Yevlaxlıdır);

73. *İsrafil İbadov* – (harada yaşadığını müəyyənləşdirə bilmədik)

74. *Ələkbər Məmmədov* – (harada yaşadığı bilinmir);

75. *Xəlil Eşqi (İbrahimxəlil Axundov)* – Qazaxlı, 1970-ci ildə Azərbaycan Dövlət Unversitetinin Jurnalistika fakültəsinə qəbul olunub, oradan qovulub. Bir il sonra bərpa olunub. Gəncədə qəzetdə işləyib. Moskvada, Kremldə Sovet İttifaqı Kommunist Partiyasına etirazını bildirmək üçün Rusca "Doloy KPSS" (Rədd olsun Sov.İKP) şüarı yazaraq təkbaşına nümayiş etdiyinə görə DTK tərəfindən həbs edilərək dəlixanaya salınıb. Bir müddət sonra Azərbaycana göndərilib)

76. *Rahimi Dünyamalıyev* – (1970 – 1975-ci illərdə Azərbaycan Dövlət Unversitetinin Jurnalistika fakültəsində oxuyub. Kəlbəcərdə rayon qəzetində işəyərkən rüşvət almaqda suçlanaraq həbs edilib. 1946-cı ildə İrandan gəlmiş ailənin övladıdır. Oğlunun haqsız həbs edildiyinə etiraz əlaməti olaraq

Rahimi Dünyamalıyevin anası SSRİ Qırmızı Aypara Cəmiyyətinə dəfələrlə müraciət edərək xarici ölkələrə mühacirət etmək istədiyini bildirib. Bundan sonra Rahimi Dünyamalıyevi həbsdən buraxıblar).

77. *Ramazan Qurbanov* – (milliyətcə Türkməndir. Azərbaycan Elmlər Akademiyasının 1975-ci il noyabrın 18-də keçirilən konfransında "Azərbaycan tarixşünaslığında tərtib olunan qaydaların əleyhinə çıxan" qrupun üzvü kimi tənqid olunub)

78. *Sabir* – (Qubanın Amsar kəndindən olan bu adam 1971-ci ildə Moskvada, Kremldə sinəsinə СССР нарушает права человека "SSRİ insan haqlarını pozur" yazıb gəzirmiş (Bu hadisəni söyləyən: keçmiş prokuror Rafiq Abbasov);

79. *Məcid Əliəşrəf oğlu Axundov* – (Ermənistan SSR Krasnoselo rayonu, Ardanış k. – Geofizik, 1969-cu ildə həbs olunub, "Mirzə Məcid" kimi tanınır. Vorovski (Bakı ş.) tərəflərdə mollalıq edirmiş);

80. *Elburus Hüseyin oğlu Hacılı* – (Ermənistan SSR, Karasnoselo rayonunun Qaraqoyunlu kəndindəndir, Sumqayıt şəhərində yaşayır, 1970-ci il iyulun 25-də Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxarıldığını deyirlər);

81. *Şamil Əsgərov* – (Kəlbəcərdə yaşayıb, Maarif şöbəsinin müdiri olub, həbs edilib);

82. *Əli Məmmədov (Kürdüstani)* – (Bakıda yaşayıb, fotoqraf, yeni əlifba yaradıcısı)

83. *İlya Qabay* – (09.10.1935, Bakı, ş. Milliyətcə yəhudidir, Sovet Sosialist Respublikaları İttifaqında insan haqlarının müdafiəsi üzrə "Təşəbbüs qrupu"nun üzvü olub, Mustafa Cəmillə birgə mühakimə edilib. 20.10.1973-də özünü öldürdüyü deyilir. Bakıda dəfn olunmasını vəsiyyət edib);

84. *Zelik İosifoviç Yampolski* – (1911. Lənkəran – 1981. Bakı. Görkəmli Azərbaycan tarixçısı, tarix elmlər doktoru. Milliyyətcə yəhudidir. Azərbaycan Elmlər Akademiyasının 1975-ci il noyabrın 18-də keçirilən konfransında "Azərbaycan

tarixşünaslığında tərtib olunan qaydaların əleyhinə çıxan" qrupun üzvü kimi tənqid olunub);

85. *Vyaçeslav Sergeyevic Oskin* – 1953-cü ildə Bakıda doğulub. Akademik Mirqasımov küçəsində yaşayıb. Naxçıvan Dövlət Təhlükəsizliyi Komitəsində işləyib. 1985-ci ildə orada işdən qovulub. İsrailə getdiyi güman edilir.

86. *Anatoli Tixonoviç Marçenko* – ( 1938-1986. Ukrayna);

87. *İsmail Farka (İsmail Rubeyzi Abedin oğlu Farka)* – (20.04.1933. Albaniya Respublikası, Şikoddərə ş. – Şüvəlan qəsəbəsi yaxınlığındakı bağ sahəsində kiçik yarımtikilidə yaşayır).

Siyahını hazırlarkən heç bir qayda gözləməmişdik. Qəzet və jurnallardan oxuduqlarımızı, eşitdiklərimizi yazır və sonra da bildiyimiz faktları əlavə edib axtarış aparırdıq.

Sumqayıt şəhərindəki Şüşə Qablar Zavodunda fəhlə işlərkən (1966-1967-ci illər. Orada iş üç növbəli idi) gecə iş yoldaşlarımızdan *Asif Bayramovu* zavodun giriş qapısına çağırdılar. Hadisə noyabrın 4-də, biz ikinci növbədə (saat 16.00-dan 24.00-dək) işlədiyimiz zaman olmuşdu. O getdi və geri qayıtmadı. Onunla gedən iş yoldaşımız gəlib dedi ki, giriş qapısında duranlar onu milis maşınına mindirib aparıblar. Səhv etmirəmsə, Asif Bayramov Qubadlıdan idi. Seximizdə işləyənlərin də çoxu Qubadlı və ona yaxın rayonlardan gələnlərdi. Aralarında qohumluq əlaqələri də vardı. Görünür, qohumluq əlaqələrinə və yerliçiliyə görə Asif Bayramovu müdafiə edənlər bir yerə toplandılar. Biz də iş yoldaşımıza qarşı edilmiş haqsızlığa görə onlara qoşulduq.

Sexdə iş dayandı. Öncə hay-küy başladı. Ağız deyəni qulaq eşitmirdi. Ürəklərini boşaldandan sonra nisbətən sakitləşdilər. Müzakirəyə başladılar. Gecə olduğundan zavod və sex rəhbərliyindən heç kim yox idi. Müzakirələrdə seximizdə Qubadlıdan olan, əmək qabaqcılı kimi tanınan və yaşı 40-ı keçmiş birisi (təəssüf ki, adını unutmuşam) liderliyi ələ aldı. Təxminən bir saatlıq müzakirə getdi. Çoxlu təkliflər irəli sürüldü. Sonda qərara alındı ki, işi dayandırıb sexin yük maşını ilə milis idarəsinə

gedək. Fəhlələrin yük maşınından enib hay-küylə novbətçi otağına daxil olması azsaylı milis işçilərini bərk narahat etdi. Lakin bizə qarşı sərt davranmadılar. İnana bilmirdim ki, bunlar həmişə gördüyüm, asıb-kəsən, hədə-qorxu ilə danışan adamlardır. Açıq-aşkar görünürdü ki, narahatdırlar. Bərk əl-ayağa düşmüşdülər. Növbətçi otağındakı telefonla da heç yerə zəng vurmurdular. Amma qonşu otaqlardakı həyəcanlı danışıq səslərini milis idarəsinin həyətində gəzişən fəhlələr aydın eşidirdilər. Həyətdəki milis işçilərinin bir-ikisi də diqqətlə fəhlələrin hərəkətlərini izləyirdilər.

Beş-on dəqiqə sonra milis idarəsinin qarşısına "Jiquli" markalı maşınlar gəlməyə başladı. Maşından düşən mülki və milis paltarlı adamlar bizə əhəmiyyət verməyirmiş kimi kabinetlərinə keçirdilər. Bir azdan özünü milis idarəsinin rəis müavini kimi təqdim edən birisi növbətçi otağına gəldi. Sakitcə bildirdi ki,



**1984-cü il. Bakı, indiki Fəvvarələr bağı. Soldan: Əbülfəz Elçibəy (Əliyev), Şamil Saleh (Əliyev), Elməddin Əlibəyzadə, Əli Məmmədov (Kürdüstani), Sabir Yanardağ (İmamverdiyev), Xəlil Rza Ulutürk.**

növbətçi otağı darısqaldır və biz də milisin işinə mane oluruq. Danışıq üçün hamımızı həyətə dəvət etdi.

Razılığa gəlindi ki, beş nəfər nümayəndə onun kabinetinə keçib məsələni aydınlaşdırsın, qalanlar sakitcə nəticəni gözləsin. Çılgınlığım və marağım mənim də beş nəfərin sırasında içəri keçməyimə səbəb oldu. Özünü rəis müavini kimi təqdim edən mülkü paltarlı şəxs bizi dinlədi və dedi: “Sizin iş yoldaşınız burada deyil. KGB, görünür, onu Bakıya aparıb. Biz onlarla danışdıq və vəziyyəti öyrəndik. Elə bir ciddi iş yoxdur. Anlaşılmazlıq olub. Bir-iki günə buraxacaqlar”.

Böyük hay-küylə gələn iş yoldaşlarım KGB sözünü eşidəndə sakitləşdilər. Mən isə yeniyetməlik çılğınlığı ilə hay-küy salır, əl çəkmək istəmirdim. Yadımda qalan odur ki, hirslə: “Bilsəydim, onu tutmağa gəliblər, həmin maşını yandırardım, qoymazdım aparsınlar”- dedim. O, hirslənmədi, mənə hədə-qorxu da gəlmədi. Gülümsəyərək: “Vaxtilə o da milisin maşınını yandırmışdı. Həbsdən qurtarsa da, canını hələ qurtara bilmir” - dedi.

Yaşlı iş yoldaşlarım məni itələyərək çölə çıxardılar və yük maşınına mindirdilər. Bir azdan nümayəndə heyəti gəlib iş yoldaşımızı 1963-cü ilin noyabrında Sumqayıtda keçirilən rəsmi paradda baş vermiş qarışıqlığa görə saxladıqlarını söylədilər. Hamı sakitləşdi. Evə getməyi qərara aldıq. Mən qaldığım yataqxananın yaxınlığında maşından endim. Yataqxanaya doğru gedəndə arxadan məni çağırdıqlarını eşitdidib ayaq saxladım. İş yoldaşım Möhsün gəlib mənə çatdı. Onun bu məhəllədə qalmadığını bilirdim. Təəccübləndim ki, nədən mənimlə eyni vaxtda maşından enmədi və məni niyə çağırır. Yaxınlaşanda sakitcə dedi: “Yataqxanaya getmə. Bu gecə gəlib səni də apara bilərlər. Gəl mənimlə gedək. Bacımgildə qalaq, sonra görək nə olur?”.

Onun həssaslığı və qayğıkeşliyi məni bərk kövrəltdi. Heç nə demədən onunla getdim. Gecənin qaranlığında dolanbac yollarla getdik. Gecə saat təxminən 2.00-də bir həyət evinin qapısına çatdıq. O, qapını döymədən əlini qapının arxasına keçirib açdı.

Möhsün nədən gecənin bu vaxtında gəldiyimiz haqqında bilgi vermədi. Bacısı və ailəsi də gəlişimizdən narahatlıq hiss etdirmədilər. Yatmaq üçün ikimizə bir otaq ayırdılar. Amma yuxumuz qaçmışdı. Həmin gecə Möhsün 1963-cü il noyabrın 7-də Oktyabr Sosialist İnqilabının ildönümü ilə bağlı keçirilən paradın necə dağıdıldığını, fəhlələrin hərbi komissarı, milis və partiya-sovet rəhbərlərini döydüklərini, rəhbərlərin necə qaçıb gizləndiklərini, milislərin iki daşın arasında paltarlarını dəyişdiklərini, mağazaları dağıtdıqlarını, milis idarəsinə hücum edərək maşınları və s. yandırdıqlarını danışdı. Bizim iş yoldaşımız da həmin hadisənin iştirakçısı kimi həbs olunubmuş. Cəzasının bir hissəsini çəkdikdən sonra qalan hissəsini də zavodda işləyərək başa vurmağa göndərilibmiş.

Mən həmin gecə Sumqayıt hadisələri haqqında geniş bir xatirə eşitdiyimdən "DS"-yə onların da adının düşməsini istəyirdim. Faktları topladıqdan sonra gördüm ki, onların heç birinin fəaliyyəti imkan vermir ki, haqlarında "DS"-yə məqalə hazırlayaq. Sumqayıt hadisələrinə görə məsuliyyətə cəlb edilmiş Əli kişini bir neçə dəfə sorğu-suala tutdum. Sovet Sosialist Respublikaları İttifaqının dağıldığını, onların qorxmasına səbəb qalmadığını söylədim. O da böyük həvəslə 7 noyabrda baş verənlərdən, hissə qapılıb mağazaların vitrinlərini qırdıqlarından, milis idarəsinə hücum etdiklərindən, maşınların yandırılmasından danışdı. İstər paraddan əvvəl, istərsə də həbsdən sonra heç bir gizli təşkilatla əlaqəsi olmadığını bildirdi. Məhkəməsi olanlar da onun kimi, sosial narazılıqdan cana gəldikləri üçün paradda qarışıqlıq düşəndə vurub-dağıtdıqlarını söylədi.

Sumqayıt hadisələri haqqında istər gəncliyimdə, istərsə də sonralar eşitdiklərim məndə bu qənaəti yaratmışdı ki, Azərbaycanda gizli bir təşkilat olub. Onlar noyabr paradını etiraz mitinqinə çevirməyi planlayıblar. Lakin təşkilat zəif olduğundan istədiklərini həyata keçirə bilməyiblər. Sosial narazılığın da güclü olması partlayışa, iğtişaşa səbəb olub. Təşkilat üzvləri də bu iğ-

tişaşı durdura bilmədiklərindən, qarşısını nə gizli təşkilatın, nə də hökumət qüvvələrinin ala bilmədiyi bir iğtişaş baş verib. Bunu mən də öz həyatımda yaşadım və gördüm.

Naxçıvanda gizli təşkilat üzvləri 1988-ci il noyabrın 21-də toplaşaraq 22 noyabrda dinc etiraz mitinqi keçirməyi planlamışdılar. Mitinq baş tutdu. Lakin mitinqə bizim nəzərdə tutduğumuzdan dəfələrlə çox insan gəldi. Meydana toplaşanlar bu işin təşkilatçılarını tanımırdılar. Çoxu da yaranmış imkandan istifadə edərək "ürəyini boşaltmaq" istəyirdi.

Təxminən iki saat sonra təşkilatçılar mitinqi idarə edə bilmədilər. Mikrofonu ələ keçirənlər toplananların qəzəbini Vilayət Partiya Komitəsinin rəhbərlərinə yönəltdilər. Adamlar Vilayət Partiya Komitəsinin binasına doğru irəlilədilər. Binanı daşlamağa başladılar. Milis işçiləri və xüsusi xidmət orqanlarının əməkdaşları vəziyyətin gərginləşdiyini görən kimi qaçıb gizləndilər. Vilayət Partiya Komitəsinin rəhbərliyi toplananları qorxutmaq və özlərini qorumaq üçün şəhərdəki diviziyanın komandanlığından yardım istədi. Diviziya rəhbərliyinin də bu işdə təcrübəsi olmadığından təlim-məşqə gedən zirehli texnikanı meydana göndərdi. Bu isə vəziyyəti daha da gərginləşdirdi. Mitinq iştirakçıları meydana yeridilən zirehli texnikanı cevirdi, hərbi maşınların üzərinə yanar butulkalar atdılar. Beləcə, iğtişaş başladı... İşə Moskva qarışdı. Şəhərə desantlar yeridildi və hərbi vəziyyət elan edilərək komendant saatı tətbiq edildi.

Mitinqin təşklatçıları bunu gözləmirdilər. Naxçıvan Vilayət Partiya Komitəsini daşlayanlar, zirehli texnikaya yanar butulkalar atanlar və onların qarşısını kəsib çevirənlər arasında bir nəfər də olsun gizli təşkilatın üzvü yox idi.

Sumqayıtdakı 5 saylı növbəli fəhlə-gənclər məktəbində oxuyarkən (1966-1967) sinif yoldaşım şüvəlanlı Cavanşir Hacıyevdən Azərbaycanda milli məsələlərlə məşğul olan gizli bir təşkilatın varlığı haqqında eşitmişdim. Cavanşir Hacıyevə görə, dayısının da üzv olduğu bu təşkilata Azərbaycanın fərqli bölgələrində yaşayan,

ali təhsilli, müxtəlif partiya-dövlət idarələrində çalışanlar daxil idi. Şıxəli Qurbanovun da bu təşkilatın üzvü olduğunu ilk dəfə Cavanşir Hacıyevdən eşitdim. O dövrdə Şıxəli Qurbanov və onun ölümü ilə bağlı xalq arasında çox söz-söhbət gedirdi.

Cavanşir Hacıyev milli məsələyə maraq göstərdiyimi bilsə də, təkidlərimi qulaqardına vurdu, dayısı ilə məni tanış etmədi. Buna baxmayaraq, uzun müddət həmin təşkilatın olub-olmaması ilə maraqlandım.

Azərbaycan müstəqillik əldə etdikdən sonra milli yöndə çap olunan yazılar içərisində Oqtay Eldəgəzin (Rəfilinin) məqalələri xoşuma gəlirdi. Dəfələrlə görüşüb söhbət etmiş, yaxın tariximizin qaranlıq səhifələrini çözələməyə çalışmışdıq. Belə söhbətlərin birində Cavanşir Hacıyevin mənə dediklərini yada saldım. Oqtay Eldəgəz bir az fikrə getdikdən sonra dedi ki, 1962-ci il dekabrın 17-də 95 nəfər ziyalının iştirakı ilə Milli Azadlıq Qərargahı (MAQ) yaratmışdıq. Mən sədr, görkəmli alimimiz Xudu Məmmədov da sədr müavini seçilmişdik. O adamlar arasında Şüvəlandan da birisi vardı. Görünür, sinif yoldaşının Milli Azadlıq Qərargahı (MAQ) haqqında bilgisi az imiş.

Biz "DS"-ni hazırlayarkən bu haqda Oqtay Eldəgəzə geniş bilgi verdim. Onun və Milli Azadlıq Qərargahı (MAQ) fəallarının haqqında "DS"-yə məqalə vermək mümkün olub-olmadığını soruşdum. O qətiyyətlə dedi ki, biz oraya düşə bilmərik. Biz mason tipli bir təşkilat yaratmışdıq. Rəhbər vəzifələrdə yerli kadrları, yəni azərbaycanlıları artırmaqla xalqımıza xeyir vermək istəyirdik.

Sabir Azəri və Qaçay Köçərli də 1956-cı il hadisələrinə görə həbs edilmişdilər. Əlimizdə onların istintaq materiallari və məhkəmə sənədləri yox idi. Özləri ilə söhbət edərkən hər ikisi Stalini şəxsiyyətə pərəstişdə ittiham etdiklərinə görə etiraz edənlərə qoşulduqları üçün həbs edildiklərini söylədi. Onlar Tbilisidə dinc nümayişçilərin dağıdılmasında güc tətbiq edilməsinə, onlarla insanın öldürülməsinə və yaralanmasına etiraz etməmişdi-

lər. Onları Stalin rejiminin müdafiəçisi kimi həbs etmişdilər. Buna görə onların da adını “DS”-yə daxil edə bilmədik.

Sovet rəhbərliyi 1956-cı ildən sonra ölkənin beynəlxalq qanunlarla idarə edildiyini, siyasi əqidəsinə görə insanların təqib və təzyiqlərə məruz qalmadıqlarını, ayrıfikirlilərə divan tutulmadığını desə də, həqiqət onların dediyi kimi deyildi.

Məsələn, Çahid Hilaloğlu Qız qalasına Azərbaycan Cümhuriyyətinin (28.05.1918 - 27.04.1920) üçrəngli bayrağını qaldırdığına görə tutulsa da, onu Bakıda qrup şəklində oğurluq və quldurluqla məşğul olan dəstənin üzvü kimi cinayət məsuliyyətinə cəlb etmişdilər.

Məzahir Daşqın, Teymur Bisavad, Məhəmməd Kəmsavad və Mikayıl Azaflının məclislərdə insan haqlarının tapdandığından, vətənin əsarətdə olduğundan bəhs edən üsyankar şeirlər oxuduğu haqqında söhbətlər gəzirdi. Onların şeirləri çap olunmasa da, şeir həvəskarları, aşıqlar əzbərləyir, ağızdan-ağıza keçərək yayılırdı. Məzahir Daşqın şeirlərindən birində deyirdi:

***Koramaltək sürünməkdən, söylə, varmı bir məna?***
***Nə vaxtacan çörək üçün girim hər alçaq dona?!***
***Mən insanam, qəlbim vardır, kəskin zəkam, əqlim var.***
***Bəs deyilmi çiynimizi yağır etdi bu yadlar?!***
***Nə qədər ki hakimlik var, məhkumluq var, mən varam,***
***Zülmə qarşı üsyankaram, əzilsəm də, SUSMARAM !!!***

Belə şeirlər nəinki hakim dairələrin, hətta sıravi sovet təbliğatçılarının da xoşuna gəlmirdi. Cəmiyyətdə bu tipli adamların artmaması üçün onlar haqqında qəti və sərt tədbirlər görülməsini istəyirdilər. Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı ildə keçirilən 20-ci qurlutayından sonra qəbul edilmiş qanunlar isə onların həbsinə imkan vermirdi. Həm də onlar haqqında ciddi faktlar, açıq məhkəmədə üzlərinə duracaq şahidlər tapmaq çətinləşmişdi.

Mikayıl Azaflını Gürcüstanda toy apararkən həbs etmişdilər. Ona əynindəki paltonun oğurluq olduğunu bildirmişdilər. Sonra da

evində axtarış apararaq odlu silahlar "tapdıqlarını" sənədləşdirmişdilər. Beləcə, Mikayıl Azaflı mütəşəkkil oğru-quldur dəstəsinin üzvü kimi həbs edilmişdi. Cahid Hilaloğlu ilə Mikayıl Azaflının həbsinin motivi eyni idi. Buna görə Mikayıl Azaflını da "DS"-yə daxil etmək istədik. Lakin nə ailə üzvlərindən, nə də aşığın ömür yolunu, yaradıcılığını araşdıranlardan bu mövzuda sağlam bir bilgi ala bildik. Onlar bizim ehtimallarımıza qoşulsalar da, dediklərimizi isbatlayacaq bir tutalqa ortaya qoya bilmədilər. Bu üzdən də məclislərdə zəmanədən narazılıq şeirləri oxuyan və yazan aşıqlarımız və el şairlərimiz haqqında məqalələr hazırlaya bilmədik.

Qarayazıda (Gürcüstan) yaşayan Aşıq Alxan Bayramovun Leninin heykəlinə güllə atdığı haqqında söhbətləri çox eşitmişdim. Vaxt darlığından və maliyyə yetərsizliyindən bu faktı da dəqiqləşdirə, geniş bilgi toplaya bilmədim. Gənclik illərimdə mətbuat, radio-televizya kommunizmdən çox yazır, kommunizm quruculuğu çox təbliğ olunurdu. Hətta Nikita Xruşşovun çıxışlarında 1980-ci illərdə kommunizmin ilk mərhələsinin başlanacağı deyilirdi. Xalq arasında isə bu təbliğata inananların sayı tək-tük olardı. Aşıqlar kommunizm quruculuğunu lağa qoyan şeirlər oxuyurdular. Onlardan geniş yayılmış "Kommunizmə gedirik biz" gəraylısının bir bəndi belə yadımda qalıb:

**Əlimizdə zorba çomaq,**
**Başımızda motal papaq,**
**Ağ şalvara qara yamaq,**
**Kommunizmə gedirik biz.**

Şeirin bəzi misraları açıq-sacıq ifadə və məsxərələrlə dolu idi. Ona müxtəlif adamlar yeni bəndlər də artırmışdılar. Buna görə şeirin hansı bəndini kim yazdığını müəyyənləşdirmək də olmurdu.

Rəhbər vəzifələrdə işləyənləri it adlandıran, Sovet cəmiyyətinin nöqsanlarını kəskin tənqid edən Məhəmməd Bisavadın aşağıdakı misraları dillər əzbərinə çevrilmişdu:

**Deyillər ki, yuxarı get,**
**Bu əclafdan şikayət et,**

**Ordakı it, burdakı it,**
**Alabaşa nə deyəsən!**

Çayxanalarda Sovet dövründə təqib olunan, bəzən qəzetlərə bu haqda müsahibə verənlərlə də görüşürdük. Onlar işin ciddiləşdiyini görəndə geri çəkilirdilər. Əsasən də dediklərini isbatlayacaq sənədləri, şahidləri ortaya qoymurdular. Bəziləri də bu mövzuda danışmaq belə istəmədiklərini bildirir, adlarını da hallandırmamağımızı xahiş edirdilər.

"DS" üçün axtarışlar apararkən bir tərəfdən də sözlüyü hazırlayanların 1999-cu ildən başlayan internet konfransında fəal iştirak edirdik. Bu da kimisinin xoşuna gəlirdi, kimisinin yox. Məsələn, Polşada KARTA-nın rəhbərlərindən olan Aleksandr Daniel mənim təkliflərimi alqışlayırdı. Bartosz Çiçoxoçki isə yazırdı: "...Ümumiyyətlə, mən sizin böyük və çətin bir işin öhdəsindən gəldiyinizi, məqalələri tez bir zamanda hazırladığınızı deyə bilərəm. Sizin kimi birisinin layihəmizdə olması çox önəmlidir".

KARTA-nın rəhbərləri bizim işimizi təqdir etsə də, istədiklərimizi yerinə yetirmirdilər. Bunun səbəbini isə bilmirdik. Bilmirdik maliyyə vəsaitinin azlığındanmı, kadr çatışmazlığındanmı, yoxsa nədən Axısqa, Quzey Qafqaz dissidentlərinə laqeyd yanaşırdılar. Həmin müzakirələrdə mənim göndərdiyim məktublardan birini burada olduğu kimi verirəm:

"Əziz dostlar!

Publisistikanın janrları haqqında geniş danışmağa ehtiyac duymuram. Qarşımıza qoyduğumuz məqsədi həyata keçirmək üçün:

1. Əvvəlcə sənədlər və xatirələr əsasında elmi-publisistik oçerklər yazıb çap etdirməliyik.

2. Sənədlər əsasında akademik araşdırmalar aparmalıyıq.

3. Ensiklopedik məqalələr yazmalıyıq.

Vaxt dar olduğuna görə, öncə ensiklopedik məqalələr yazıb nəşr etdirməliyik. Bu nəşr oxuculara ilkin bilgi verməklə yanaşı, araşdırıcılara da yön vermiş olar. Məncə, iyula kimi (söhbət

1999-cu ilin iyulundan gedir) məqalələri yekunlaşdırıb redaksiyaya təhvil verməliyik.

O ki qaldı kiminsə məqalələrin sayını azaltmasına və ya artırmasına, buna da bir hədd və vaxt müəyyənləşdirilməlidir. Hər şey işin gedişindən asılıdır. Levon Berdzeşvili sənədlər tapa bilmirsə, ona imkan verək məqalələrin sayını azaltsın. Volfqanq Telunilin və Anna Zinserlinq yeni sənədlər tapıbsa, qoy onlar da məqalələrinin sayını artırsınlar.

Kostaq Xoxanın "Albaniyada dissident olmayıb" fikrilə razılaşmıram. Hazırda Azərbaycan Respublikasının prezidenti olan Heydər Əliyev də Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi əməkdaşları qarşısında çıxış edərkən deyib ki, Azərbaycanda dissident olmayıb! Olubsa, o da mənəm!

Halbuki Heydər Əliyev dissidentlərə divan tutan DTK-da 25 il müxtəlif vəzifələrdə işləyib. General rütbəsi alıb. Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olub. Ondan sonra isə 13 il Azərbaycan KP MK-nın birinci katibi işləyəndə də, 5 il Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin müavini işləyəndə də, Sovet İttifaqı Kommunist Partiyasının MK Siyasi Bürosunun üzvü olanda da dissidentlərə, eləcə də ayrıdüşüncəlilərə divan tutub. İndi o, özünü dissident sayır.

Buna görə də, Albaniyada yeni müəllif tapmaq və onu yaxşı araşdırma aparmağa həvəsləndirmək lazımdır. Əgər milliyyətcə Alban olan İsmail Farkanı DTK sındıra bilməyibsə, deməli, belələrini tapmaq olar.

Ola bilsin ki, biz İsmail Farka haqqında yazarkən bir az hissə qapılıb onun şəxsi faciəsini qabartmışıq. 30 ilə yaxın totalitarizmə qarşı müqavimət göstərən, sınmaz iradəsiylə Sovet cəza sisteminə meydan oxuyan İsmail Farkanı Alban dissidentləri sırasına daxil etmək olar.

DTK arxivlərində dissidentlərlə bağlı zəngin material var. Bu işdə moskvalı müəlliflər gərək respublikadakı müəlliflərə kömək edələr. Çünki onlar arxivlərə daha asan yol tapırlar, nəinki biz.

Xüsusən DTK-nın əməliyyat məlumatlarında daha çox fakta rast gəlmək olar. Bu da dissidentlərin nəinki ömür yollarını, fəaliyyətlərini öyrənməyə, həm də yeni dissidentləri aşkara çıxarmağa kömək edər.

Ensiklopediyadakı iş təcrübəmdən görürəm ki, əlavə və düzəlişlər məqalələr mətbəədə olarkən də apaıla bilər.

Bir də onu qeyd edim ki, Rusiya Federasiyası üçün ayrılmış yerdə Tatarlar, Qaraçaylar, Çeçenlər, Balkarlar, İnquşlar, dağıstanlılar azlıq edir. Necə ola bilər ki, oraya milliyyətcə Ləzgi olan siyasi məhbus, ictimai xadim, filosof və riyaziyyatçı Vazif Meylanov daxil edilməsin? Orada axısqalılara, Qaqauzlara və b. xalqlara yer ayrılmaması isə utancvericidir. Axısqalılar 52 ildən çoxdur mübarizə aparırlar. Onlarla axısqalı Sovet həbsxanalarında çürüyüb. Lazım gələrsə, axısqalıların, dağıstanlıların, Quzey qafqazlıların dissidentlərinin adlarını sizə göndərməkdə, bu mövzuda müəllif tapmaqda yardımçı ola bilərik.

***Hörmətlə Əli Şamil*”.**

Başqa bir məktubumda Axısqa Türklərindən, 1971-ci ildə Bakı şəhərindəki Kirov Rayon Xalq Məhkəməsinin hökmü ilə həbs olunan Ənvər Odabaşev, Müxlis Niyazov, Əlləz İzzətov, eləcə də axısqalıların vətənə dönmə hərəkatının öncüllərindən İslam Kərimov, Teyfur İlyasov haqqında qısa bilgi göndərmişdim. Var gücümüzlə çalışırdıq ki, axısqalılara da Krım Türkləri kimi yer ayrılsın.

Bu yazışmalardan sonra "DS" üçün kvota bu cür ayrıldı: Rusiya 210, Polşa 150, Ukrayna 120, Macarıstan 90, Litva 90, Yuqoslaviya 50, Almaniya 45, Çexiya 45, Gürcüstan 45, Latviya 45, Ruminiya 40, Albaniya 40, Krım Tatarları 40, Ermənistan 40, Belarus 40, Estoniya 40, Bolqarıstan 25, Bosniya və Herseqovina 20, Xorvatiya 20, Sloveniya 20, Azərbaycan 15, Makedoniya 15, Moldova 15, Slovakiya 10. Cəmi: 1305 nəfər.

Maraqlı burasıdır ki, işin gedişində bizim qrupa etimad artdı. 15 fevral 1999-cu ildə "DS" təşkilatçılarından Bartosz Çiçoxoçki mənə belə bir məktub göndərdi:

"Əziz Əli Şamil, məktubunuza və internet disskussiyanıza görə çox sağ olun. Onların birində (04 fevraldakında) Siz Qafqazdakı dissidentlər haqqında bioqrafiyalar yaza biləcək müəlliflər tapmağa hazır olduğunuzu bildirmişdiniz. Biz layihəmiz üçün indiyədək Ermənistandan əməkdaş tapa bilməmişik. Bəlkə Siz orada münasib birisini tanıyirsiniz? Mümkünsə, bizə kömək edin.

***Hörmətlə Bartozs Çiçoxoçki***".

Yalnız Ermənistan deyil, keçmiş Yuqoslaviya xalqlarından, Albaniyadan və b. bölgələrdən də "DS"-nə məqalələr yazacaq müəlliflər tapmaq çətin idi. Bartozs Çiçoxoçki 1999-cu il fevralın 15-də müzakirə qrupuna göndərdiyi məktubunda yazırdı: "Denialın keçmiş Yuqoslaviya ölkələri, Ermənistan, Macarıstan və Ruminya haqqında sualına cavab: Mart ayında Moskvada keçirilən toplantıda (Memorial, Xarkov qrupu və KARTA arasında) belə qərara alınmışdır ki, bizim heç bir əməkdaş tapa bilmədiyimiz bütün keçmiş Sovet ölkələrinin dissidentləri haqqında məqalələr Memorial tərəfindən hazırlansın.

İyul ayında Ermənistan haqqındakı məqalələrin Memorial tərəfindən hazırlanacağı təsdiq edildi. Biz bu vəziyyətin (diplomatik ifadə işlətmək) necə qeyri-adi olduğunu başa düşürük. Biz bunu yalnız ona görə etdik ki, Ermənistandakı proyekt üçün münasib birini tapa bilmədik. Bu, Varşava ilə Qafqaz arasındakı uzaq məsafəyə görə deyil. İndi yeni vəziyyət yaranıb. Cənab Şamilov bizə kömək edəcək birini tapmağa söz verib. Buna görə də, bəlkə biz proyektə Ermənistanı da mərkəzə müstəqil daxil edək?

Biz hələ də Macarıstandan, keçmiş Yuqoslaviya ölkələrindən proyektə qoşulacaq müəlliflər axtarırıq. Biz luğəti bu bölmələr olmadan təsəvvür edə bilmirik.

Albaniyada çox çətin bir vəziyyətlə rastlaşırıq. Kostaq Xoxa yalnız giriş yazmağı qərara alıb. Onun qənaətinə görə, 1956-1989-cu illərdə heç bir narazılıq olmadığından "DS"-nə haqqında məqalə yazılacaq adam yoxdur."

Bartozs Çiçoxoçkiyə yazdığım məktub belə idi: "Ermənistan Azərbaycan ərazilərini işğal etdiyindən müharibə şəraiti hökm sürür. Buna görə də, heç telefon əlaqələrimiz də yoxdur. Keçmiş dissidentlərlə də əlaqəmiz kəsilib. Olsa-olsa bu iş üçün Gürcüstanda yaşayan mütəxəssislərdən xahiş edə bilərik.

Macarıstan Radio Verilişləri Komitəsində çalışan Edit Tasnadidən xahiş etsək, bu işdə bizələrə yardımçı ola bilər. Onun Budapeştdəki faksı və telefonu belədir: 3287898. Azərbaycan mərkəzinin keçmiş Yuqoslaviya ölkələri ilə telefon və faks əlaqələri saxlamasına maddi imkanı yoxdur. Ona görə də, onların e-maillərini sizə göndərə bilərəm. Makedoniya və Kosovadan bu işə dostlarımı cəlb edə bilərəm. İstəyirsiniz onların da telefonlarını və adreslərini göndərim. Martin 18-22-də Türkiyədə elmi simpoziumda olacağam. Balkanlardan gələn yoldaşlarla bu mövzuda söhbət edərəm. Ruminiyadan məqalələr hazırlanması üçün də Köstəncənədə radioda çalışan bir tanışımızı bu işə qoşa bilərik".

Yalnız Azərbaycanda deyil, keçmiş sosialist respublikaların bir çoxunda "DS" üçün materiallar toplamaq, məqalələr yazmaq o qədər də asan deyildi. Buna baxmayaraq, orada Azərbaycanın geniş işıqlandırılmasını istəyirdik.

Bölgü bizi qane etməsə də, başqa əlacımız yox idi. Xüsusən sağ olan, özünü dissident sayanlardan sənəd almaq olduqca çətin idi. Bir çoxu isə bu mövzuda danışmaqdan belə çəkinirdi. Səmimi münasibətlərimiz olan, gözəl folklorçu-alim və vətənpərvər Bəhlul Abdullaya "DS" ilə bağlı materiallar topladığımı bildirdikdə dedi ki, "çox da qurdalama, qurdaladıqca zibili çıxacaq. Çoxumuz elə ilk təzyiqdəcə geri çəkildik".

"DS"-yə göndərilən məqalələrimizi redaktə edən Dorote Pazioya yazırdım:

“Azərbaycanda, eləcə də Türk xalqlarında insanlar familiya ilə deyil, ləqəblə, adla daha çox tanınırlar. “DS”-də biz Əliyev Əbülfəz kimi versək, onu axtarıb tapmaq çətin olacaq. Çünki onu hamı Elçibəy kimi tanıyır. Ona görə də, bizim göndərdiyimiz məqalələrdə haqqında bəhs edilən insanları xalq neçə tanıyırsa, “DS”-də o çür verək, mötərizədə isə adını, soyadını, atasının adını sənədlərində olduğu kimi yazaq. Məsələn: Elçibəyi “Elçibəy (Əbülfəz Qədirqulu oğlu Əliyev)”, Biriyanı “Biriya (Məhəmməd Qulam oğlu Bağırzadə)”, Ulutürkü “Ulutürk (Xəlil Rza oğlu Xəlilov)” və s. kimi verək.

Eləcə də, Azərbaycan Türkcəsində bəzi hərflər, səslər var ki, onlar Rus əlifbasında və dilində olmasa da, İngilis və Polyak dillərində var. Buna görə də, biz haqqında məqalə göndərdiyimiz adamların adlarını, ata adlarını, soyadlarını və ləqəblərini latın qrafikası ilə də yazacağıq, orada sizə tanış olmayan hərflərin hansı səsi verdiyini göstərəcəyik.

“DS” rəhbərləri həm də, görünür, ensiklopediya işini bilən mütəxəssislər deyildi. Layihədə “DS”-nin 1956-1986-cı illəri əhatə edəcəyi göstərilirdi. Buna baxmayaraq, onlar bizə filosof Heydər Hüseynov haqqında da məqalə yazmağı təklif edirdilər. Cavab yazdıq ki, Sovet rejiminin basqısına tab gətirməyərək 15.08.1950-ci ildə bağında damarlarlını kəsib özünü öldürdüyü deyilən Heydər Hüseynov haqqında məqalə yazsaq, onda gərək Sovet hökumətindən narazılığını bildirən şeirlər yazdığına, yaşadığı kənddə insanların haqqını müdafiə etdiyinə, kənd sakinlərinin şikayətlərini Rus dilində yazıb Moskvaya, rəhbər təşkilatlara göndərdiyinə görə 1953-ci ildə həbs edilərək 8 il azadlıqdan, 5 il seçib, seçilməkdən məhrum edilmiş Əhməd Çəfərzadə (yazıçı-araşdırıcı Əzizə Cəfərzadənin kiçik qardaşı, pedaqogika elmləri doktoru) və onun kimi neçə-neçə insanın haqqında da yazaq. Onları yazsaq “DS” prinsipləri pozulacaq.

Yaxud da şəxsi danışıqlarında xahiş edirdilər ki, 1986-cı ildən sonrakı dissidentlərdən yazmayaq. Açıq bildirirdilər ki, bu prinsipi Ermənistandan göndərilən məqalələrə də şamil edəcəklər. Görünür,

ehtiyat edirdilər ki, bizim dissident kimi təqdim etdiyimizə Ermənilər, Ermənilərin təqdim etdiyinə biz etiraz edərik. Qarşıdurma yaranmasın, iş pozulmasın deyə belə bir yol tutduqlarını düşünürdük. Məqalələri redaktə edənlər nəzakətlə milli məsələyə çox önəm verdiyimizi, haqqında məqalə yazdığımız adamlar sırasına başqa millətlərdən və dinlərdən olanların salınmamasını vurğulayırdılar. Onlara cavab məktubumuzda Xəlil Rza Ulutürkün "Afrikanın səsi" və Vyetnamla, Əfqanıstanla, Kuba ilə bağlı şeirlərini, azərbaycanlı dissidentlərin Tbilisidə, Varşavada, Praqada, Budapeştdə Sovet ordusunun törətdikləri qəddarlığa etiraz etdiklərini yazırdım.

Sonra KARTA-ya biz 21 nəfər haqqında məqalə göndərdik. Onlar Azərbaycandan aşağıda adları qeyd edilən 15 nəfər haqqındakı məqaləni "DS"-yə daxil edəcəklərini yazdılar.

1. *Asəf xan Qubalı – Asəf Kərimov*
2. *Asif Ata – Asif Qasım oğlu Əfəndiyev*
3. *Biriya –Məhəmməd Qulam oğlu Bağırzadə*
4. *Cahid Hilaloğlu (Şirinov)*
5. *Çingiz Mirzəağa oğlu Abdullayev*
6. *Elçibəy –Əbülfəz Əliyev*
7. *Hatəmi – Məhəmməd Feyzulla oğlu Tantəkin*
8. *Xəlil Rza (Ulutürk, Odər) – Xəlil Rza oğlu Xəlilov*
9. *İsmail Farka*
10. *Nadir Mirələkbər oğlu Ağayev.*
11. *Rafiq Typaбxanoğlu Abdullayev (Sabah)*
12. *Tanqo (Taner) – Tanrıqulu Əliyev*
13. *Safruh – Elman Ağa oğlu Əliyev*
14. *Şamil Saleh oğlu Əliyev*
15. *Yanardağ – Sabir Mustafa oğlu İmamverdiyev*

Əbülfəzl Hüseyni, Əli Azərli, Baycan Məhərrəmov, İsfəndiyar Coşqun, Nofəl Tahirzadə, Tofiq Vəndamlı haqqında məqalələri isə fakt yetərsizliyinə, qaynaq azlığına görə qəbul etmədilər.

Ümumiyyətlə, məqalələrin hazırlanması və qəbul edilməsi heç də asan olmurdu. Sovet rejimi tərəfindən incidilən, təqib edilənlər

bir-birləri ilə də yola getmirdilər. Necə deyərlər, birinin dediyi o birinin boğazından keçmirdi. Əksəriyyəti xalqın xilaskarı kimi yalnız özünü görürdü. Fikrinə tərəfdar tapa bilməyəndə günahı çağdaşı olan yadfikirlilərdə görürdü. Çox vaxt bir-biri haqqında kəskin, əsası olmayan sərt sözlər söyləyir, ittihamlar irəli sürürdülər.

Belə bir vəziyyətdə biz həm Azərbaycanda yaşayan yadfikirlilərlə görüşür, fikir mübadiləsi edir, material toplamağa çalışır, həm də "DS" qrupu uçün məqalələr yazan müəlliflərlə müzakirələr aparırdıq. Bunlar o qədər də asan olmurdu.

1999-cu il oktyabrın 29-31-də Sofiyada keçirilən konfransda baş redaktor Əzizə Şamilova "Azərbaycanda dissident hərəkatı tarixindən" mövzusunda məruzə edərkən bolqarıstanlı, özünü dissident sayan birisi hay-küy salaraq icazəsiz xitabət kürsüsünə çıxıb Türklərin əleyhinə "ürəyini boşaltmışdı". Demokratiya, insan haqları uğrunda mübarizə apardığına görə təqib edildiyini, incidildiyini söyləyənin özü başqasının haqqını pozulmuş, bir xalqı – Türkləri bütövlükdə suçlamışdı. Onun şovinistcəsinə davranışı, dissidentə yaraşmayan hərəkəti toplantı iştirakçılarının əksəriyyətini narahat etmişdi.

"DS" üzərində işlərkən biz də onlardan çox şey öyrənirdik. Əməkdaşlığı davam etdirməyi planlayırdıq. İlkin razılıq əldə etmişdik ki, "DS" üzrə işimizi sonra daha da genişləndirərək "Sosializmin qurbanları – Azadlıq uğrunda vuruşanlar" adlı bir layihəni reallaşdıraq; bu layihənin birinci mərhələsi 1920-ci il aprelin 28-dən 1932-ci ilədək dövrü əhatə etsin. Buraya bolşeviklərin Azərbaycanı işğal etdikdən sonra Azərbaycan Cümhuriyyətinin nazirlərinə, generallarına, məmurlarına, müəllimlərinə, həkimlərinə, mühəndislərinə, eləcə də sadə əməkçilərinə, 1923-cü ildən sonra din xandimlərinə, 1928-ci ildən başlayaraq "qolçomaq" adı ilə fərasətli kəndlilərə tutulan divandan söz açılsın.

İkinci mərhələ 1932-1941-ci illəri əhatə etsin. Burada repressiyaya məruz qalan insanlar haqqında bilgi verilsin.

Ücüncü mərhələ 1941-1948-ci illəri əhatə etsin və burada “vətən xaini” adı altında cəzalandırılanlar haqqında bilgi verilsin.

Dördüncü mərhələ 1948-1956-cı illərdə, beşinci mərhələ 1956-1986-ci illərdə, altıncı mərhələ 1986-1992-ci illərdə repressiyaya məruz qalanlar, təqib və təzyiqlərlə üzləşənlər haqqında bilgiləri əhatə etsin.

Bütün bunlar yalnız ensiklopediya şəklində yox, sənədli, bədii filimlər, uşaqlar üçün cizgi filmləri, foto-montajlar, sənədlər və xatirələr toplusu formasında da olsun.

Təəssüf ki, bu layihələrin heç birini reallaşdırmağa maliyyə vəsaiti olmadı. Beləcə, “DS” də işini planlaşdırıldığı kimi başa çatdıra bilmədi. Hətta bizə işin son mərhələsi haqqında heç nə yazmadılar. Nəzərdə tutulmuşdu ki, haqqında məqalə gedən dissidentlərin hər birinə (ölənlərin ailələrinə), müəlliflərə, respublikanın mühüm kitabxanalarına “DS” pulsuz çatdırılsın. Bu da baş tutmadı. Biz də İngilis, Rus və Polyak dillərində nəşri planlaşdırılan “DS”-nin sonrakı taleyindən xəbərsiz qaldıq. http://memo-projects.livejournal.com/8205.html saytı 27 iyun 2009-cu ildə bizim “DS”-də haqqında məqalə verəcəyimiz insanların bir qisminin siyahısını və onlar haqqında qaynaqları “Из библиографических списков к статьям Азербайджанского раздела” başlığı altında yaydı. Əslində bu, bizim qrupun işə başladığı ilk günlərdə tərtib etdiyi siyahının qaralaması idi. Elə həmin gün http://lj.rossia.org/users/memo_projects/2009/06/27/ saytı da Natalya Vasilyevnanın “Dissident sözlüyü”nün Azərbaycan bölməsi. “DS” Azərbaycan bölməsinin məqalələrindəki siyahıda başlıqların çətinlikləri” yazısından aşağıdakı qeydləri vermişdi:

“Bu bölmədə daha çox problemli yazılar toplanmışdır. Biz əsas səbəb kimi yalnız ikisini göstəririk:

1. Azərbaycan SSR-də çap olunan kitabların və qəzet- jurnalların əksəriyyəti Moskva kitabxanalarında qorunub- saxlanılır.

2. Təəssüf ki, biz Azərbaycanlı araşdırıcılarla, bioqrafik məqalələrin müəllifləri ilə əlaqələri qoruyub saxlaya bilmədik.

2006-cı ildə bizim sorğularımıza M.F.Axundov adına Azərbaycan Milli Kitabxananın əməkdaşları M.Vəliyeva, D.Sadıqova, M.İbrahimova, S.Əsədova, X.Bəşirova cavab verdilər. Biz onlara təşəkkürümüzü bildiririk!

Etiraf etmək lazımdır ki, problemli yazılar qalıb. Bu problemlər də ciddidir. Eyni zamanda, bir məqalədə nadir hallarda bir neçə element olmaya bilər. Bunların hamısını aradan qaldırmaq mümkün olmadı. Qaynaqlar siyahısındakı məqalə və kitabların nəşr olunduğu yer, janrı, nəşrin dövriliyi haqqındakı bilgilərdə çatışmazlıq hiss olunur. Bunları redaktor qayçısını işə salmaqla aradan qaldırmaq istəməzdik. Çünki Azərbaycandakı ayrıfikirlililik haqqında ilk dəfə bu həcmdə bibloqrafik bilgilər nəşr olunacaq.

Biz bu məqalələrin nəşrini bəzi izahlarla həyata keçirəcəyik. İzahları Azərbaycan milli kitabxanasına verdiyimiz sorğudan aldığımız cavab əsasında hazırlayacağıq. Həmin mətndən bir fraqmenti ayırmaq istəyirik. Bu mühüm məsələ sözlüyün Azərbaycan bölməsinin yazıları üzrə istiqamətin müəyyənləşdirilməsinə aiddir. Biz redaktorlar üçün bu nə qədər faydalıdırsa, oxucular üçün də o qədər vacibdir.

Sərlövhə mücərrəd xarakter daşıdığı hallarda, yəni mətnin mövzusu haqqında təsəvvür yaratmadığı zaman, tərcümə ilə yanaşı, qeydlər üzrə mövzunun qısa xarakterini açan qeydlər verəcəyik. Məsələn:

... – Gizli qrupda iştirakı haqqında xatirələr...

... – BMT-nin Baş katibinə açıq müraciət (15.08.1973) və düşərgədə yazdığı şeirlərin nəşri.

Söhbət heç bir halda kitabın, məqalənin, "sözlüyün" annotasiyalarından getmir, yalnız bir neçə sözdən ibarət qısa, mövzu ilə əlaqəni açıqlayan izahdan gedir.

Sözsüz ki, nəşri hazırlayarkən orada köməyə görə minnətdarlıq öz əksini tapacaqdır"...

Təəssüf ki, əməyimizin məhsulundan sonralar da heç bir xəbər tuta bilmədik.

Professor Cəmil Həsənlinin istəyindən sonra əlyazmaları yenidən toparladıq. Oraya həmin dövrdə yazdığımız ön sözü, ondan sonra əlifba sırası ilə məqalələri, sonda da Əzizə Şamilovanın 1999-cu il oktyabrın 29-31-də Sofiya şəhərində kecirilən konfransdakı çıxışının ixtisar edilmiş variantını qoyduq. Beləliklə, 18 il bundan əvvəl hazırlanmış materialları oxuculara təqdim edərkən üzərində yenidən işləmədik. Sadəcə, Allahın rəhmətinə qovuşanların ölüm tarixini əlavə etməklə yetərləndik.

Əslində bu, mükəmməl bir kitab deyil. Sadəcə bir yadasalmadır. Əminəm ki, bundan sonra dissidentlərimiz, milli azadlıq fəallarımız haqqında daha sanballı və bitkin ensiklopediyalar yaradılacaqdır.

"DS" sözlüyünün hazırlanmasında bizə təmənnasız kömək etmiş bütün insanlara, xüsusən Ülvi Həkimova, Vəfa Salehə, Ruqiyyə Cəmilliyə, Sara Məmməd qızına, Nadir Ağayevə, Sabir Yanardağa, Safruha və b. minnətdarlığımızı bildirirəm.

Onu da deməyi özümə borc bilirəm ki, Sevinc Nağdəliyeva kitabdakı materialları bilgisayarda yığmağı, Azərbaycan Türkcəsində olan məqalələri Rus dilinə çevirməyi və redaktə etməyi boynuna götürməsəydi, kitabı hazırlamağa girişməyəcəkdim. Kitabdakı "Giriş", "Nadir Ağayev", "Asif Ata", "Məhəmməd Biriya", "Safruh", "Cahid Hilaloğlu", Turabxanoğlu, "Şamil Saleh", "DS" Azərbaycan qrupunun baş redaktoru Əzizə Şamilovanın 1999-cu il oktyabrın 29-31-də Sofiyada keçirilən konfransdakı məruzəsi" məqalələri Ruqiyyə Cəmillinin Rus dilinə çevirdiklərindən, qalanları isə əlyazmalarımızdan aldıqlarımızdır.

***Əli ŞAMİL***
***25.12.2016***

***Sözardı.*** *Kitabı mətbəəyə göndərmək ərəfəsində – 2018-ci il martın 20-də Tiranadakı (Albaniya) Dünya Bəktaşilərinin Qutsal Sarayından "Ənənə və müasirləşmə arasında İmam Əli dünyası" mövzusu üzrə keçiriləcək simpoziuma dəvət aldım. Xəstə-*

*liyimə və yaşıma görə xarici ölkələrdə keçirilən toplantılara, elmi konfranslara qatılmamağa çalışsam da, Tiranadan gələn dəvət məni yerimdən oynatdı. Gücümü toplayıb "Azərbaycanda Hz. Əli adı ilə bağlı pirlər, toponimlər və Bəktaşi soyadı" mövzusunda bir məruzə hazırladım.*

*Tiranaya getməkdə bir məqsədim vardı: İsmail Farkanın taleyi! 20 il idi belə bir səfəri planlasam da, pulsuzluqdan gedə bilmirdim. Yol və orada qalma xərclərini simpozium təşkilatçıları ödədiyindən böyük həvəslə oraya getməyi qərara aldım.*

*Ölkə olduqca yoxsul olsa da, qonaqların qarşılanmasını və yerləşdirilməsini yüksək səviyyədə təşkil etmişdilər. ABŞ-dan, İtaliya-dan, Rusiya Federasiyasından, Almaniyadan, Türkiyədən, İrandan və b. qonşu ölkələrdən də dəvət edilənlər vardı. Toplantını Dünya Bəktaşilərinin Böyük Dədəsi Edmund Brahimay açdı, simpozium iştirakçılarını salamladı, toplantının məramını açıqladı. Albaniya prezidenti İlir Meta, ATƏT-in Albaniyadakı böyük elçisi Bernard Borchard, Albaniya Dini Qurumlarla İş Komitəsinin sədri Loreta Arika geniş məruzə etdilər.*

*Məruzəm üçün ayrılmış 20 dəqiqə vaxtın 15 dəqiqəsini mövzunu oxumağa həsr etdim. Son beş dəqiqəni isə İsmail Farkadan söz açdım. Bildirdim ki, o hər bir zülmə tab gətirən vətənsevərdir. Gələ-cək nəsillər ona dözümlülük və əyilməzlik təcəssümü kimi baxacaq. Cox təəssüf ki, biz müasirləri ona qarşı laqeydik. Haqqı tapdalanmış bu insanın dəyəri indiyədək verilməyib. SSRİ dağılandan sonra sənədləri olmadığından vətəninə dönə bilməyib. Onu SSRİ-yə göndərən təşkilat belə öz əməkdaşının taleyinə biganə qalıb. İndiyədək İsmail Farkanı haqsız həbs edərək dəlixanaya salanlar bey-nəlxalq məhkəməyə verilməyib.*

*Salondakılar mənim çıxışımı sükutla qarşıladılar. Fasilədə isə bunun əksi oldu.*

*Mən İsmail Farka ilə bağlı Tiranada Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Sosial Müdadiə Nazirliyi əməkdaşları ilə gö-*

*rüşməyə can atdım. Albaniya - Azərbaycan Dostluq Elmi Mədəni Dərnəyinin başçısı Entella Muço bu işdə mənə yardım etmək üçün hər əzaba qatlaşdı. Baş vurduğumuz təşkilatların hamısında Azərbaycana böyük segvi gördüm. Azərbaycandan gəldiyimi biləndə ən yüksək vəzifəlilərlə görüşdürəcəklərini vəd etdilər. Hətta görüş gü-nü və saatını da müəyyənləşdirdilər. Amma heç biri baş tutmadı. Görüşə gedəcəyimiz gün qəbul otağında hansı mövzuda söhbət üçün gəldiyimi bildikdə nazirlər və müavinlər çox incə bir nəzakətlə bu gün rəsmi bir toplantı olacağından görüşü dəqiq olmayan bir vaxta ertələdilər.*

*İsmail Farka haqqında söhbətlərimiz Albaniya-Azərbaycan Dostluq Elmi Mədəni Dərnəyi çərçivəsində qaldı. Dərnəyin ən fəal üzvlərindən olan vəkil Ekrem Kokalari mənə təskinlik verdi. Dedi ki, dostlarını, keçmiş iş yoldaşlarını da bu işə qoşacaq. Onun söylədiyi bir hadisə məni də, dərnək üzvlərini də təəssüfləndirdi. O dedi ki, İsmail Farka adlı birisinin qardaşı ilə tanışdır. Qardaşı İsmail Farkanın təxminən 2-3 ay öncə öldüyünü söyləyib. Qardaşının dediyinə görə, İsmail Farka 1933-cü ildə doğulub, Sovetlər Birliyində oxuyub, mühəndis olub, orada Rus qızı ilə evlənib, ondan da iki övladı olub. Eyni ildə doğulan, təxminən eyni tərcümeyi-hallı iki insanın olması mənə bir az inandırıcı görünmədi.*

*Sovetlər Birliyində ayrıfikirlilərlə xüsusi xidmət orqanlarının dav-ranışına dair eşitdiyim və oxuduğum hadisələri danışırdım, Entella xanım da Albancaya çevirirdi. Ekrem Kokalari də gülümsəyərək bir hadisəni danışdı. Dedi ki, hüquq fakültəsini bitirib hərbi prokurorluqda işləyirdim. Gənc bir zabit boğulub ölmüşdü. Mən onun sənədləri ilə tanış olanda gördüm ki, üzgüçülük üzrə dərəcəsi var. Təəccübləndim. Məhkəmə Tibb Ekspertizası şöbəsinin müdiri ilə söhbət etdim. O mənə açıq bildirdi ki, zabit öldükdən sonra suya atılıb. Mən cinayət işi açmaq üçün sənədləri hazırladım. Baş prokurorun qəbuluna getdim ki, sənədlərə imza atsın. O, sənədləri gözdən keçirdikdən sonra əsəbiliklə mənə dedi:*

*“Özünü ağıllı sayırsan?! Sənin də meyidinin belə tapılmasını istəyirsənsə, get istintaqa başla. Ağlını başına yığ! Get sənədləşdir ki, intizamsızlıq edib, içazəsiz çimməyə gedib və suda boğularaq ölüb”. Prokurorun tapşırığını yerinə yetirdim. Başımı bəlaya salmamaq üçün məsələnin təfsilatını da öyrənməyə cəhd etmədim.*

*Tirana səfərim uğursuz olsa da, Dünya Bəktaşilərinin Böyük Dədəsi Edmund Brahimayın, vəkil Ekrem Kokalarinin vədləri məndə bir ümid oyatdı ki, bu məsələ çözüləcək. İnanıram ki, mütləq çözüləcək. Amma İsmail Farka nəinki haqqın yerini tapmasını, heç kitabın çapını da görə bilmədi.*

***24.03.20018***

# GİRİŞ
# (DS üçün Azərbaycandan hazırlanmış məqalələrə yazılan önsöz)

Zor üzərində qurulmuş dövlətlərin ömrü qısa, taleyi də acınacaqlı olur. Bolşeviklər də hakimiyyəti silah gücünə ələ almışdılar. Mövqelərini möhkəmlətmək üçün öncə keçmiş məsləkdaşlarına, onlarla birlikdə monarxiyaya qarşı mübarizə aparan insanlara divan tutdular. Bu azmış kimi, vətəndaş savaşına başladılar. Ölkəni xarabaya çevirdilər, iqtisadiyyat çökdü, milyonlarla insan savaşlarda qırıldı, xəstəlikdən, aclıqdan öldü.

Rusiyanı "xalqlar həbsxanası" adlandıran, monarxiyanı devirdikdən sonra xalqlara azadlıq, insanlara söz, vicdan azadlığı, hüquq bərabərliyi, demokratik seçkilər, səkkiz saatlıq iş günü və s. vəd edən bolşeviklər 1920-ci ilin aprelində Azərbaycanı da işğal etdilər. Bir il yarımda 48 min ziyalını, hərbçini, iş adamını, idarəetmə baçarığı olan insanı öldürdülər. On minlərlə insan qaçqına çevrildi, aclıq, səfalət içində min bir əziyyətə qatlaşdı. Kütləvi həbslər, dövlət terroru başlayıb 1953-cü ilə qədər davam etdi.

İosif Stalinin ölümündən sonra hakimiyyətdəkilər məhvə sürüklədikləri ölkəni xilas etmək üçün yollar axtardılar. Birgə törətdikləri bütün cinayətlər, haqsızlıqlar İosif Stalinin adına yazıldı. Həbsxanaların qapıları açıldı, milyonlarla insana bəraət verildi.

Əslində bu bəraət formal xarakter daşıyırdı. Belə ki, cəzalandırılan insanların əsərlərinin hamısının nəşrinə icazə verilmirdi, onlara dəymiş zərər ödənilmirdi. Cinayət Məcəlləsindən "xalq düşməni" ifadəsi çıxarılmış, "vətən xaini" adı altında həbs edilənlərin və güllələnənlərin sayı əvvəlki illərlə müqayisəyəgəlməz dərəcədə azalmışdı.

Onlar bununla SSRİ-yə demokratik bir ölkə imici qazandırmaq istəyirdilər. Partiya-sovet rəhbərləri hər yerdə sinələrini qabağa verərək həbsxanalarda əqidəsinə, siyasi baxışlarına görə cəza çəkənlərin olmadığını tribunalarda vurğulayırdılar. Vəziyyət isə

heç də onların söylədikləri kimi deyildi. Təkpartiyalı hakimiyyət, seçkilərin qeyri-demokratikliyi davam edirdi. Formal da olsa, alternativ namizdin seçkidə iştirakına icazə verilmirdi. Deputatların sayı, yaşı, ictimai mənşəyi, hətta cinsiyyəti belə əvvəlcədən Moskvada müəyyənləşdirilirdi. Yerdəki məmurlarınsa üzərinə bir vəzifə düşürdü: Moskvadan göndərilmiş qəliblərə uyğun insanlar tapmaq və saxta yolla seçki keçirib onları deputat elan etmək.

Bütün bunlar ona görə baş verirdi ki, hakimiyyətdəkilər demokratiyadan qorxurdular. Bilirdilər ki, demokratik seçkilər keçirilərsə, xalq onların məddah, ikiüzlü, rüşvətxor, millətinə deyil, müstəmləkəçilərin əmrinə tabe olanların hamısını süpürüb atacaq. Ona görə də, totalitar rejimin başında duranlar cəza tədbirlərinin adını dəyişdilər. Hakimiyyət üçün təhlükəli sayılan insanlar cinayətkar, oğru dəstələrinin tərkibində mühakimə edildi və ya dəlixanalara göndərildi.

Nə qədər cidd-cəhdlə çalışsalar da, rejimin təbliğ etdiyi ideologiyadan fərqli düşünənləri tamamilə məhv edib, sıradan çıxara bilmirdilər. Sovet ideologiyasının təsiri altında uşaq bağçalarında tərbiyə edilmiş, orta və ali məktəblərdə oxudulmuş yeni nəslin arasından çıxan ayrıfikirlilərin hamısını susdurmaq olmurdu. 1956-1986-cı illərdə ayrıfikirlilərin gizli qrupları aşkarlananda onlar həbsxanalara, dəlixanalara göndərilirdilər. Bir qrupa qarşı sərt tədbir başa çatmamış başqa bir qrup meydana çıxırdı.

Rusiyada ayrıfikirlilik daha çox insan hüquqlarının pozulmasına etiraz şəkilində özünü göstərirdisə, milli respublikalarda ayrıfikirlilik daha çox millətin hüququnun pozulmasına etiraz şəkilindəydi. Burada nəinki sıravi insanların, ziyalıların, hətta müstəmləkəçilərə xidmət edən yüksək vəzifəlilərin də Anayasa hüquqları pozulurdu. Moskvanın milli respublikalara hakim təyin etdiyi insanlardan hansı birisi milli məsələ haqqında bir iş görmək istəsə, məsələn, konstitusiyada verilmiş hüquqlar çərçivəsində anadilli məktəblərin sayını artırsa, dövlət idarələrində

yazı işlərini ana dilində aparmağa çəhd göstərsə, milli adət-ənənəni yaşatmaq üçün kiçik bir addım atsa, həmin dəqiqə sərt cəzalandırılırdı. Özü də təkcə bir nəfər deyil, onunla eyni vaxtda rəhbər vəzifədə işləyənlərin əksəriyyəti də cəzasız buraxılmırdı.

Aydın düşüncəli, vətəsevər və cəsarətli ziyalılar bir və ya bir neçə insanın hüququnu müdafə etməklə iş bitmədiyini yaxşı anlayırdılar. Ona dörə də, xalqın hüquqlarını müdafiə etməyə çalışırdılar.

Azərbaycanda Sovetlər Birliyi üçün ayrıfikirli görünən adamlar əslində xalqını milli azadlıq hərəkatına hazırlayanlardı. 1950-60-cı illərdə ayrıfikirlilər kiçik qruplarda birləşirdisə, sonralar onların sayı artdı. Kiçik qruplar respublikanın hər yerinə yayıldı.

Sovet Ordusunun Polşada, Macarıstanda, Çexoslovakiyada xalq ayaqlanmasını qan içində boğması Azərbaycan vətənsevərlərini, demokratlarını rahatsız etməyə başladı. Narazılıqlarını açıq şəkildə bildirməyə imkan verilmədiyindən öz aralarında məsələni müzakirə edir, azadlıqları uğrunda mübarizə aparan xalqları alqışlayırdılar. Daha cəsarətli, üsyankar ruhlu gənclər isə həbs edildikdə belə, istintaqda cəsarətlə Sovetlərin işğalçı siyasətini pisləyirdilər.

Yazıçı və şairlər də əsərlərində insan haqlarının tapdandığını, Sovetlərin müstəmləkəçilik siyasətini, totalitar rejimin idarəetmədəki yarıtmazlıqlarını eyhamlar, ikibaşlı sözlər ilə və ya sözarası deyirdilər. Bu da gənclərə güclü təsir göstərirdi. Tanınmış yazıçı, ali məkrəbdə müəllim işləyən İsmayıl Şıxlı 1960-70-ci illəri xatırlayaraq yazır: "60-cı illərin gəncləri arasında narahatlıqlar əmələ gəlmişdi. Nəsə axtarırdılar, nəsə gözləyirdilər, nəyəsə hazırlaşırdılar, nəsə demək istəyirdilər".

Çingiz Abdullayev, Çahid Hilaloğlu kimi gənclərin cəsarəti heyrətdoğurucudur. Həbslər, işgəncələr onların iradəsini qıra bilməmişdi. Çingiz Abdullayevin həbsxanadan RSFSR Ədliyə Naziri Boldırevə yolladığı məktub dərslik kitablarına daxil edilməyə layiqdir. O, BMT Baş Assambleyasının növbəti sessiyasında Sovetlər Birliyinin müstəmləkəsinə çevrilmiş respublika-

larda azad seçkilər keçirilməsi haqqında qanun qəbul olunmasını tələb edirdi.

Mərkəzi hökumət 1963-cü ildə Azərbaycanın Rusiya tərəfindən işğalının 150 illiyini təntənəli qeyd etməyə hazırlaşdığı günlərdə Bəxtiyar Vahabzadə "Gülüstan" poemasını yazır. O, yeni əsərini Bakıda, respublika mətbuatında çap etdirə bilmədiyindən Nuxa (Şəki) şəhərindəki rayon partiya komitəsinin qəzetində nəşr etdirir. DTK bundan xəbər tutub qəzetin bütün sayını toplayıb məhv etməyə çalışır. Partiya-sovet rəhbərləri sərt cəza tədbirləri görsələr də, poema əlyazma şəklində qəzetin tirajindan dəfələrlə çox sayda yayılır.

İkiyə bölünmüş Azərbaycanın birləşdirilməsi ideyasının gündəmdə qalmasında yazıçı və şairlərlə yanaşı, Məhəmməd Biriya, Əbülfəz Əliyev (Elçibəy), Məhəmməd Hatəmi, Əbülfəzl Hüseyni, İsfəndiyar Coşqun kimi vətənpərvərlərin də rolu böyük olmuşdur.

Gənclərin fəallığı, gizli qrupları olsa da, 1963-cü il noyabrın 7-də Sumqayıt şəhərində rəsmi nümayiş qiyama çevriləndə onlar xalqın önünə çıxıb, istiqamətverici güc olduqlarını göstərə bilmədilər. Həmin qiyamda fəhlələr Sov.İKP Siyasi Büro üzvlərinin portretlərini divardan salaraq tapdadı, mağazaları dağıtdı, polis idarəsinə hücum edərək maşınları yandırdı, polis əməkdaşlarını, rəhbər vəzifəliləri döydülər.

Çingiz Abdullayevin, Cahid Hilaloğlunun yaratmış olduğu dərnək ləğv edilsə də, öndərləri həbsxanalara, dəlixanalara göndərilsələr də, gənclərin iradəsi qırılmamışdı. Tanrıqulu Əliyevin, Rafiq Turabxanoğlunun, Allahverdi Qurbanovun, Əbülfəz Əliyevin (Elçibəy) qurduqları dərnəklər DTK tərəfindən aşkarlananadək fəaliyyətlərini davam etdirmişlər.

Asif Əfəndiyevin (Asif Ata) "Etik və estetik tərbiyə klubu" sanki ayrıfikirlilərin görüş mərkəzi olmuşdu. Kluba toplaşanlar fikirlərini azad və sərbəst söyləmə bacarığına yiyələnmişdilər. Xalq arasında daha çox olan, məclislər aparan Mikayıl Azaflı,

Məzahir Daşqın, Teymur Bimsavad, Məhəmməd Kəmsavad kimi aşıqlar da DTK-nın təzyiq və təqiblərindən kənar qalmamışlar.

Xəlil Rza Ulutürk, Şamil Saleh, Sabir Yanardağ, Nadir Ağayev ayrıfikirli kimi tanınsalar da, onlardan Nadir Ağayev həbs edilərək uzun müddət SSRİ-nin müxtəlif dəlixanalarında saxlanmışdır. Əbülfəz Əliyenin (Elçibəyin) yaratmış olduğu üçlük, beşlik... sistemli qruplar şəbəkəsi gənclərin siyasiləşməsində mühüm rol oynamışdır.

DTK ayrıfikirlilərə müxtəlif vasitələrlə təzyiq göstərməklə, onları təqib etməklə, həbsxanalara, dəlixanalara göndərməklə kifayətlənmirdi. Onları avtomobil və istehsalat qəzalarında öldürür, suda boğur, özlərinə sədaqətli həkimlərin əlilə məhv edirdilər. Belə çinayətlərin üstü açılmırdı. Buna görə də, Nofəl Tahirzadə, Baycan Məhərrəmov, Tofiq Vəndamlı kimi insanların ölümü şübhəli olsa da, cinayətin DTK tərəfindən törədildiyini sübut edən faktlar əlimizdə yoxdur. Lakin İsmail Farkanın, Çahid Hilaloğlunun, Əli Azərlinin və b. xatirələrində insanların neçə cəzalandırıldığı, ölümə sürükləndiyi haqqında tükürpədici faktlar var.

Milli respublikaların, xüsusən Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Özbəkistanın, Türkmənistanın, Tacikistanın partiya-sovet işçiləri, DTK və hüquq-mühafizə orqanlarının əməkdaşları hər vəchlə ayrıfikirlilərin olmasını Moskvadan gizlətməyə çalışmış, əhalinin mərkəzi hökumətin siyasətini alqışladığı görüntüsü yaratmışlar. Lakin Moskva heç vaxt milli respublikalardakı məmurlarına inanmamışdı. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etmiş (1980-1988) general Ziya Yusifzadə 1999-cu ilin noyabrında ANS televiziyasında çıxış edərkən dedi ki, bir dəfə hətta Çebrikov (SSRİ DTK-nın sədri - Ə. Ş.) məndən soruşdu: "Niyə sizin verdiyiniz məlumatlarda Azərbaycanda dissident olduğu göstərilmir? Halbuki ölkəni dissidentlər bürümüşdür. Siz tərəfdənsə hər şey hamar və yaxşı göstərilir".

Azərbaycan DTK-sı ayrıfikirlilərlə, Sovetlərin, sosializm quruculuğunun əleyhinə olanlarla bağlı faktları gizlətdiyindən, onları başqa adlar altında cəzalandırdıqlarından dissidentlərlə bağlı sənəd toplamaqda çətinlik çəkdik. Ona görə də, "DS" Azərbaycan bölməsinin hazırladığı məqalələr daha çox xatirələrə, qəzet-jurnallarda çap olunan materiallara, özbasım (samizdat) kitab/kitabçalarına əsaslanır. Qeydə aldığımız 80-dən çox insanın 21-i haqqında məqalə hazırladıq. Onlardan bir neçəsi fakt yetərsizliyindən rədd edildi. Cəmi 15 məqalə qəbul olundu.

Bu, əslində totalitar rejimə qarşı mübarizədə təkbaşına direniş göstərmiş cəsur insanlar haqqında ilk geniş bilgi toplusu idi. Azadlıq və demokratiya uğurunda mübarizə aparmış bu insanların ömür yolu gənclərə bir örnəkdir. Onların xatirəsinin əbədiləşdirilməsi, fəaliyyətlərinin təbliği demokratiyaya xidmətdir.

**ABDULLAYEV ÇİNGİZ (Çingiz Mirzağa oğlu Abdullayev, d. 1929, Laçın rayonu-İsveçrə, Berin, 200...???)**



**Rejissor, gizli dərnək rəhbəri, dissident.**

Yoxsu bir ailədə doğulub. 1947-ci ildə Azərbaycan Teatr İnstitutunun rejissorluq fakültəsinə daxil olmuşdur. Sovetlər Birliyi müttəfiqlərinin yardımıyla faşizm üzərində qələbə çalsa da, özü əsarətdə saxladığı xalqlarla faşistsayağı davranırdı. Buna baxmayaraq, haqqı tələb edənlərin səslərini batırmaq olmurdu. Səsini duyuran, haqsızlığa qarşı dirənən gənclərdən biri də Azərbaycan Teatr İnstitutunun tələbəsi Çingiz Abdullayev idi.

O, təkbaşına bir iş görə bilməyəcəyini anlayıb özünə fikirdaşlar axtararkən onunla eyni institutda oxuyan Cahid Hilaloğlu ilə tanış olur. Birgə dərnək qurub Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmaq istəyirlər. Lakin bu dərnəyin ömrü çox da uzun olmur. Xüsusi xidmət orqanları onların yazdıqları vərəqlərin izinə düşür. Beləliklə, 1948-ci il avqustun 28-də Çingiz Abdullayev Bakıdakı Voroşilov rayonunun 3-cü sahəsində mühakimə edilir və Azərbaycan SSR CM 213-cü maddəsinin 2-ci bəndi ilə, yəni "dələduzluqla dövlətə və ya ictimai idarəçiliyə zərər vurmaq"da ittiham edilərək üç il azadlıqdan məhrum olunur. İnstitutdan da qovulan Çingiz Abdullayev cəzasını Sovet Sosialist Respublikaları

İttifaqının ən sərt rejimli cəza müəssisələrində çəkir. 19 iyun 1950-ci ildə həbsdən azad edilsə də, məsləkdaşları ilə əlaqə saxlamasın deyə Bakıda yaşamasına və işləməsinə icazə verilmir.

Bütün çətinliklərə və sıxıntılara baxmayaraq, Çingiz Abdullayev Cahid Hilaloğlu ilə əlaqə qurur. Sovet Sosialist Respublikaları İttifaqında azad fikirli insanların fəaliyyətinin məhdudlaşdırıldığını görüb Azərbaycanın azadlığı uğrunda mübarizəni mühacirətdə davam etdirməyi planlaşdırırlar. Mühacirət üçün ən münasib yer isə Türkiyə bilinir. Çünki Azərbaycan Cümhuriyyəti rəhbərlərinin çoxu orada yaşayırdı. Onların arasında Çingiz Abdullayevin yaxın qohumu da vardı.

1956-ci ilin əvvəllərində Çingiz Abdullayevlə Cahid Hilaloğlu Lerik rayonunun sərhəd kəndlərində mədəniyyət evlərində işləmək üçün Azərbaycan Sovet Sosialist Respublikası Mədəniyyət Nazirliyinə müraciət edirlər. Nazirlikdə iki gənc mütəxəssisin ucqar rayonda işləməyə getmək istəyi rəğbətlə qarşılanır və onlara tapşırılır ki, sənədlərini hazırlasınlar. Onların məqsədi Lerikdən İrana keçmək, oradan da Türkiyəyə getmək olur.

Çingiz Abdullayev pasport qeydiyyatından çıxmaq üçün Moskvaya gedir. Orada Arxangelskdən xariçi ölkələrə yük aparan gəmilərə işçi axtardıqlarından xəbər tutur. Cahid Hilaloğlunu Moskvaya çağırır ki, birlikdə Arxangelskə gedib yük gəmilərində işə düzəlsinlər. Gəmi xarici ölkələrin birində olanda isə sahilə çıxıb bir daha geri dönməsinlər.

Cahid Hilaloğlu sənədlərini hazırlayıb Moskvaya yola düşən ərəfədə amerikalı skripkaçı İsaak Sterno Moskvaya konsert verməyə gəlir. Çingiz Abdullayev onun konsertinə bilet alır. İsaak Sternoya gül təqdim edərkən Amerika səfirliyinin telefonlarını xəbər alır. Skripkaçıdan öyrəndiyi telefonla Moskvadakı ABŞ səfirliyinə zəng vurur və səfirliyin birinci katibi Natyanel Devislə görüşür. O, Çingiz Abdullayevin xüsusi xidmət orqanlarının əməkdaşları ilə əlaqəsindən şübhələnsə də, təkrar görüş üçün vaxt və yer təyin edir. Dörd gün sonraya, yəni 1956-cı il mayın 8-ə təyin

olunmuş görüşə Natyanel Devis deyil, səfirliyin hərbi attaşesi Frenk gəlir.

Onunla səfirliyin maşınında söhbət edirlər. Ətraflı sorğu-sualdan sonra üçüncü görüş üçün də vaxt və yer müəyyənləşdirirlər. Lakin bu görüş baş tutmur. Çingiz 1956-cı ilin 8 mayında xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən yaxalanır. Elə həmin gün onu Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, general İvan Aleksandroviç Serov (1905-1990) dindirir və səhərisi gün Moskva şəhər məhkəməsi Çingiz Abdullayevi RSFSR CM 19-58 maddənin 1 hissəsinin a bəndilə tüfeylilikdə, yəni işsiz gəzməkdə ittiham edib həbsxanaya atırlar. Çingiz Abdullayev ona verilən yalançı ittihamla razılaşmır. 1956-cı il oktyabrın 10-da ona təkrar hökm oxunur. Bu dəfə vətənə xəyanətdə suçlayıb Rusiya Sovet Fedarativ Sosialist Respublikası Cinayət Məcəlləsinin 58-10 maddəsinin 1 hissəsiylə şəxsi əmlakı müsadirə edilməklə 10 il azadlıqdan məhrumetmə və azadlığa çıxdıqdan sonra da 3 il siyasi fəaliyyətlə məşğul olmamaqla cəzalandırırlar. Beləliklə, onların xaricə getmək cəhdi də baş tutmur.

O, həbsxanadan Sovet Sosialist Respublikaları İttifaqı Ali Məhkəməsinə, Ədliyyə Nazirliyinə ərizələr yollayır. Rusiya Sovet Fedarativ Sosialist Respublikası Ədliyyə Naziri Boldırevə yazır: ”Məni yazdığım vərəqlərdə Sovet Sosialist Respublikaları İttifaqının bütün xalqlarını üsyana, insanları qul, zorakılıq, aclıq, böhran şəraitində saxlayan kommunist rejimindən azad olmağa çağırışıma görə ittiham edirdilər. Mən bildirməyə məcburam ki, bu “məhkəmə iclası” teatr tamaşasına oxşayır. Burada marionet hakim hətta məni son sözdən də məhrum etmişdi. Çünki son sözdə mən onların sifətlərindən maskalarını çıxaracaq, iç üzlərini açaraq onların fırıldaqçı, qaniçən, başkəsən, zülümkar olduqlarını sübut edəcəkdim. Bütün respublikaların milli mənafeyini müdafiə edərək onların Rusiya imperiyasının müstəmləkəsi olduğunu açıqlayacaq və respublikalarda BMT-nin nəzarəti altında azad seçkilər keçirilməsinin zəruri olduğunu söyləyəcəkdim. Onlar isə bütün qa-

nunları kobudcasına pozaraq, ən elementar qaydaları tapdalayaraq mənə son söz vermədilər.

Çünki Sovet Sosialist Respublikaları İttifaqının bütün məhkəmə və prokurorluq orqanları yuxarıların göstərişi ilə işlədiyinə mənim heç bir şübhəm yoxdur. Mən tam qətiyyətlə deyirəm ki, Azərbaycanın qəhrəman oğluyam və alçaq kommunist rejiminə qarşı mübarizə aparmışam. Bizə məlum olduğu kimi, aprelin 5-7-də Tbilisidə və bütün Gürcüstanda çoxsaylı nümayişlər keçirilmişdir. Burada 200 min tələbə, fəhlə, kolxozçu, qadın və qoca iştirak etmişdir. Onlar əllərində şüar tutaraq öz müstəqilliyi və azadlıqlarını, BMT-nin nəzarəti altında azad seçkilər keçirməyi tələb etmişlər.

Lakin imperator-diktator Rusiya, bütün Polşanın və Finlandiyanın ağası "qarğıdalı generalı" Nikita Xruşşovun əmrini yerinə yetirən silahlı qüvvələr günahsız tələbələrin, qadınların, qocaların üstünə tanklarla hücüm edərək, onları güllələmiş və çoxlarını Sibirə sürgün etmişlər. Azərbaycan xalqına qarşı da belə ədalətsizliklər edilmişdir. Xeyli ginahsız adam qanunsuz həbs edilmiş, təqiblərə məruz qalmışdır.

Azərbaycanın, Gürcüstanın və başqa respublikaların vəziyyətindən bəhs edən məruzə ilə çıxış etmək istəyirəm. Məqsədim odur ki, BMT Baş Assambleyasının növbəti sessiyasında respublikalarda azad seçkilər keçirilməsi haqqında qərar qəbul olunsun. Xatırladaq ki, Rusiya 1917-ci ilin 16 noyabrında imzaladığı deklorasiyasında Sovet hakimiyyəti tərəfindən bütün dünyaya elan etmişdir ki, yeni yaranmış sosialist, çoxmillətli dövlətin əsasını aşağıdakı demokratik prinsiplər təşkil edir: Rusiyada yaşayan bütün xalqların suverenliyi və bərabərliyi, millətlərin öz müqəddəratını təyinetmə hüququ, millətlərin Rusiyadan ayrılıb öz dövlətlərini qurması və s. Bu prinsiplər 1922-ci ilin dekabrında Xalq Komissarlar Şurasının sədri Vladimir İliç Leninin təklifi ilə Sovet Sosialist Respublikaları İttifaqının yaradılmasına dair hazırlanmış sənəddə öz əksini tapmışdır. Lenin öz əsərində də bildirir ki, millətlər

ittifaqı könüllü surətdə yaranır, hər bir dövlət öz istəyilə başqa dövlətdən ayrıla bilər. Belə bir sual meydana çıxır: bu təcavüzkar kommunist rəhbərliyi və Sovet Sosialist Respublikaları İttifaqı hökuməti Leninin vəsiyyətini yerinə yetirirmi? Əlbəttə, yox! Bu təcavüzkar, qaniçən, fırıldaqçı kommunistlər dünya ictimaiyyətini çaşqın salaraq hər yerdə biz "Leninin yolu ilə gedirik" deyirlər. Əgər onlar Leninin yolu ilə gedirlərsə, bəs nə üçün onlar Azərbaycan və Gürcü xalqlarının qanuni tələblərini yerinə yetirmir, əksinə, kobud və vəhşicəsinə onların hüquqlarını tapdalayırlar?

Sovet Sosialist Respublikaları İttifaqı Konsitutusiyası ilə hər bir vətəndaş Sovet Sosialist Respublikaları İttifaqında yaşamaqdan imtina edib xarici ölkəyə gedə bilər. Bəs nə üçün Sovet Sosialist Respublikaları İttifaqının təcavüzkar hökuməti konstitusiyada yazılanların həyata keçməsinə imkan vermir? Əgər bunun həyata keçməsinə imkan verməyəcəksə, onda nə üçün bu maddə konstitusiyadan çıxarılmır? Görünür bu, vicdansız kommunistlərə dünya içtimaiyyətini çaşqınlığa salmaq üçün lazımdır. Qəzetlərdə yazılmışdır ki, Kiprdə Yunan gənclərinin nümayişi zamanı İngilis hökuməti bir tələbəni öldürmüşdür, bu da Sovet içtimaiyyətinin hiddətinə səbəb olmuşdur. Maraqlıdır, görəsən Azərbaycanda və Gürcüstanda baş vermiş hadisələr – dinc nümayişçilərin güllələnməsi və s. qanlı divanlar hansı miqyasda Sovet və dünya ictimaiyyətinin hiddətinə səbəb olmalıdır?! Mən bütün bunların hamısını DTK-dan olan Serova danışdım. O isə bu fikirlərimə görə məni azı 10 il azadlıqdan məhrum etdirəcəyini bildirdi.

Sovet Sosialist Respublikaları İttifaqı hökuməti hər yerdə car çəkir ki, bizdə mətbuat və söz azadlığı var. Lakin hər bir xırda tənqid üçün milyonlarla insanı həbsxanalarda və islah-əmək düşərgələrində çürüdür. Dünyanın heç bir ölkəsində belə qanunsuzluq yoxdur.

On üç il kommunist əsarəti altında qalan Macar xalqı bu zorakılığa, yalana, aclığa dözməyib 1956-cı ilin oktyabr- noyabr aylarında ayağa qalxdı. Onlar Sovet qoşunlarının Macarıstan əra-

zisindən çıxarılmasını, bir sözlə, öz azadlıqlarını və müstəqilliklərini, yeni hökumətlərini qurmalarını istəyirdilər. Bunun müqabilində Sovet hökuməti oraya əlavə qoşun yeritdi, tank və təyyarələrin gücüylə dinc əhalini vəhşicəsinə qırdı. Burada baş verən hadisələr "əksinqilabi qiyam" adlandırılır. Bəs nə üçün Əlcəzairdə, Yəməndə, Suriyada belə hadisələr "xalq azadlıq hərəkatı" adlanır?"

Çingiz Abdullayevin RSFSR Ədliyə Naziri Boldırevə yolladığı məktub quruluşun əsaslarını laxladırdı. Ona görə qapalı şəraitdə Mordva MSSR Ali Məhkəməsi 1957-ci il 13 iyulda yenidən onun işinə baxır və cəza müddəti 13 iyun 1957-ci ildən hesablanmaqla o, 10 il azadlıqdan, 3 il siyasi fəaliyyətdən məhrumetmə ilə cəzalandırılır. Cəza müddəti bir il də artırılır və Vladimir şəhərindəki xüsusi rejimli həbsxanaya, təkadamlıq kameraya göndərilir.

1963-cü ildə onu Mordva MSSR-dəki xüsusi-ciddi rejimli islah-əmək düşərgəsinə qaytarırlar. Əqidəsindən dönməyəcəyini görüb 1964 -cü ildə Serbiski adına Ümumittiaq Məhkəmə Tibbi Psixiatrik Ekspertiza İnstitutuna «müayinəyə» göndərirlər. Bu instituta Sovet cəza maşınının əsasını qoyan, DTK-nın ilk rəhbərlərindən Feliks Edmundoviç Dzerjinskinin qızı M.F.Talse rəhbərlik edirdi. Onun başçılıq etdiyi komissya 1956-cı ildə Çingiz Abdullayevə "anlaqlı" diaqnozu qoymuşdusa, bu dəfə «anlaqsız» hesab edir və SSRİ Daxili İşlər Nazirliyinin Yaroslavl vilayətinin Rıbinsk şəhərindəki xüsusi tibbi psixi xəstəxanaya məcburi müalicəyə göndərir. Orada da Çingiz Abdullayevin sakit oturmadığını görüb Sıçov şəhərindəki xəstəxanaya yollayırlar. İki il yarımlıq «müalicə»dən sonra 1968-ci ilin iyulun 25-də Smolensk vilayətinin Sıçov şəhər Xalq Məhkəməsinin qərarıyla Bakıya 1 nömrəli Maştağa Psixi Xəstəxanasına yollayırlar.

Çingiz Abdullayev xəstəxananın baş həkiminin onunla rəftarından həyatının təhlükə qarşısında olduğunu görür. Uzun illərin «müalicə»si nəticəsində Çingiz Abdullayevin gözündə qlakoma,

mədəsində və onikibarmaq bağırsağında xora, pankretit xəstəlikləri yaranır. Elə bu xəstəliklərə görə də, həkim komissiyası onun ikinci qrup əlil olduğunu müəyyənləşdirir. Orada onun kimi məcburi «müalicəyə» göndərilmiş Nadir Ağayevlə tanış olur və başına gələnləri qısa da olsa, yazdırıb qohumlarına göndərə bilir. 14 il 4 aydan sonra «humanist» Sovet hüquq orqanları 1970-ci ilin 25 avqustunda onu «müalicəxana-həbsxana»dan azad edirlər.

O, həbsxanadan ikinci qrup əlil kimii azad edildiyi üçün Azərbaycan Korlar Cəmiyyətində işə düzəlir. Burada da fikirlərini sərbəst söyləyir, Sovet hökumətinin qəddarlıqlarından danışır. Onu daim nəzarətdə saxlayır və iş yoldaşları arasında fikir formalaşdırmağa çalışırlar ki, Çingiz Abdullayev ağlı pozulduğundan belə danışır.

Bütün bu ağrılara-acılara, təqib və təzyiqlərə baxmayaraq, Çingiz Abdullayev yenidən xaricə getməyi planlaşdırır. Moskvaya gedir. Çox çətinliklə də olsa, 1982-ci ilin 15 sentyabrında milisin gözündən yayınaraq Moskvadakı İsveçrə səfirliyinin hasarından aşıb həyətə keçə bilir və siyasi sığınacaq istəyir. Səfir Karl de Qeera, səfirin birinci katibi Xell Qren onunla xeyli söhbət edirlər. Danışıqlarında sərbəst, hərəkətlərində tam anlaqlı olduğunu görsələr də, onu səfirliyin həkimlərinə müayinə etdirirlər. Bununla kifayətlənməyib İsveçrədən iki professor da dəvət edirlər. Onlar da Çingiz Abdullayevdə psixi pozğunluq olmadığını təsdiqləyirlər. İsveçdə və başqa xarici ölkələrdə çap olunan qəzetlər onun haqqında geniş məqalələr yazırlar.

Məsələnin böyüdüyünü görən Sovet tərəfi vəziyyəti nəzarət altına almaq üçün Çingiz Abdullayevə vəd edir ki, İsveçrə səfirliyindən çıxsın və vizası gələnədək gözləsin, onun haqqında daha heç bir cəza tədbiri görülməyəcək. O, bu vədlərə inanmasa da, İsveçrə səfirliyinin işə qarışdığını nəzərə alıb «Moskva» meh-

manxanasında qalmağa razılaşır. Səfirliyin iki əməkdaşı ilə birlikdə sənədlərini SSRİ DİN-nin şöbəsinə təqdim edir. İsveçrə səfirliyi onun nəinki bütün xərclərini ödəyir, həm də müalicəsi qayğısına qalır.

SSRİ Ali Soveti Rəyasət Heyətində isə Çingiz Abdullayevin xaricə getməsi məsələsi süründürməciliyə salınır. 1984-cü ilin 19 oktyabrında DTK-nın 6 əməkdaşı qəflətən onun qaldığı otağa daxil olur, onu həbs edərək gizli şəkildə Moskvadakı milis idarələrindən birinə gətirirlər. Orada Çingiz Abdullayevi Azərbaycandan gəlmiş iki DTK əməkdaşına təhvil verirlər. Onlar da Çingiz Abdullayevi təyyarənin gecə reysilə əlləri bağlı, sərnişinlərdən təcrid olunmuş şəkildə gizlincə Bakıya gətirib yenidən Maştağadakı 1 nömrəli Psixi Xəstəxanaya qoyurlar.

Sovetlər Birliyinin çöküşündən sonra Çingiz Abdullayevə nəzarət də azalır. O, yenidən xəstəxanadan buraxılır və İsveçrədən siyasi sığınacaq istəyir. 1991-ci ildə qocalıb, əldən düşmüş, kimsəsiz Çingiz Abdullayevə İsveçrə hökuməti siyasi sığınacaq verir. Onun son sorağını 1998-ci ildə Bern şəhərindən almışdıq.

**Qaynaqlar**:

1. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Arxivi. Cahid Hilaloğlunun şəxsi işi.
2. Azərbaycan Daxili İşlər Nazirliyinin Arxivi.
3. Bünyadov Ziya. Qırmızı terror, Bakı:Azərbaycan Dövlət Nəşriyyatı, 1993.
4. Nadir Ağayevin xatirələri ("DS" qrupunun arxivində saxlanılır).
5. Elmira. Cahid Hilaloğlu. "Azadlıq" qəzeti, 1991, 14 iyun, sayı 23(53).
6. Hacı Emin. Çingiz Abdullayev kimdir?, "7 gün" qəzeti, 1997, 18 aprel, 22 aprel, sayı, 40 (398), s.3, və 41(399), s.3

7. Hüseynov Etibar. Bir kərə endirilmiş bayrağı bir daha yüksəldən “xalq düşməni”. ”7 gün” qəzeti,1995, 16 dekabr, sayı 44(219), s.4.

8. Qasımov Cəlal. Bakı: Repressiyadan deportasiyaya, “Mütərcim” nəşriyyatı, 1998.

9. Şirinova Arzu. İsveçrə. Bern. Həyatın 17 anı...,”7 gün” qəzeti, 1998, 30 oktyabr, sayı 152 (655), s. 2.

## AĞAYEV NADİR (Nadir Mirələkbər oğlu Ağayev, d. 13.03. 1938 Salyan ş.)



***ABŞ Dövlət Departamentinin siyahısına daxil edilmiş 47-ci Sovet dissidenti, Sovetlərin psixiatriya terroruna məruz qalmış insan. Əsərlərini bəsit texniki vasitələrlə az tirajda çoxaldıb (özbasım - samizdat) yayan müəllif.***

Dülgər ailəsində doğulub, anası evdar qadın olub. On iki uşaqlı ailənin sonbeşiyidir. 1957-ci ildə Bakıda 199 saylı orta məktəbi bitirərək Azərbaycan Politexnik İnstitutunun Memarlıq Fakültəsinə qəbul olunub. 1963-cü ildə ali təhsilini başa vurduqda gənc mütəxəssis kimi təyinatla Qazaxıstan Sovet Sosialist Respublikasında işləməyə göndəriblər. Almatıda Kənd Tikinti Layihə İnstitutunda işləyib. Orada çalışarkən Qazaxların həyat səviyyəsi, yaşayış tərzi ilə maraqlanıb. Öyrəndikləri onu heyrətləndirib. Ölkədə Qazaxlarla ikinci sinif insan kimi davranılmasının, rəhbər işlərdə rusdillilərin çalışdırıldığının, Qazax dilinin idarə və təşkilatlardan tamam sıxışdırılıb çıxarıldığının şahidi olub. Qazaxların çoxluq təşkil etdiyi bir respublikada Qazax dilli yeganə məktəbin

Almatı şəhərində olmasını, Sovetlərin beynəlmiləlçilik siyasətinin ruslaşdırmaya gətirib çıxardığını görüb. Burada qalarsa, özünün də, övladlarının da ruslaşacağını anlayıb. Buna görə də, təyinat müddətinin bitməsini gözləmədən 1964-cü ildə Bakıya dönüb.

1964-1971-ci illərdə Azərbaycan Kənd Tikinti Layihə İnstitutunda mühəndis kimi işləyib. Qısa müddətdə işgüzarlığı ilə kollektivin rəğbətini qazanıb. Onu layihə üzrə baş mühəndis vəzifəsinə keçiriblər. 1966-cı ildə isə Azərbaycan SSR-də 2000-ci ilədək kompleks planlaşdırma qrupuna rəhbər təyin ediblər. 30-a yaxın layihəyə rəhbərlik etməklə yanaşı, 1967-ci ildə Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutundan dissertasiya mövzusu götürüb.

Dissertant kimi elmi işi üzərində işləməklə yanaşı, dostları və iş yoldaşları arasında 1964-cü ilin oktyabrında Nikita Xruşşov hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra totalitar rejimin sərtləşməsini müzakirə edir. Ölkədə baş verənləri irəliyə deyil, geriyə dönüş kimi qiymətləndirir. Ölkədə insanların biganələşdirildiyini, repressiyaya məruz qalanların müdafiə edilmədiyini, birpartiyalı sistemin faciələrə yol açdığını, milli respublikaların hüquqlarının pozulduğunu söyləyir.

1964-cü ilin sonlarında DTK-nın tapşırığı ilə milis bölməsinə aparırlar. Apardığı söhbətlərdən xəbərdar olduqlarını bildirirlər. Hədələyirlər ki, onun söhbətlərinin mayasında antisovet, antisosialist təbliğat var. Əksfikirli bir adam öz işini nə qədər yaxşı bilsə də, onu rəhbər vəzifədə saxlamaq olmaz. Söylədiklərinə antisovet, antisosialist donu geydirib istədikləri vaxt onu həbs etdirə bilərlər. Xeyli çək-çevirdən, hədə-qorxudan sonra ondan izahat alıb buraxırlar.

Nadir Ağayev səhərisi gün işə gələndə görür ki, onu vəzifəsindən uzaqlaşdırıb, mühəndis vəzifəsinə keçiriblər. O, yuxarı orqanlara şikayət edir, qanuni haqqını tələb edir. İki ay sonra istəyinə nail olur. Lakin cəmiyyətdəki nöqsanları tənqid etməkdən əl götürmür.

Dissertasiyasını tamamlasa da, oxuyub müzakirə etmirlər. İşdə də vəziyyət getdikcə gərginləşir. Adamları ona qarşı qaldırırlar. 1971-ci il mayın 5-də rəhbərlik onu məcbur edir ki, ərizə yazıb işdən çıxsın. O, ərizə yazmasa, tələ qurulacağından, böhtana məruz qalacağından çəkinərək işdən çıxmaq haqqında ərizə yazıb rəhbərliyə verir. Beləliklə də, 1975-ci ilədək işsiz qalır.

İşsiz olduğu müddətdə siyasi təbliğatla ardıcıl məşğul olmaq imkanı əldə edir. Adamlardan təcrid etmək üçün ona hədə-qorxu gəlir və haqqında mülki cinayət işi qaldırırlar. O, bir müddət yuxarı orqanlara ərizə və şikayət etməklə özünü qoruya bilir. Təzyiqlərdən yaxa qurtarmaq və elmi işini müdafiə etmək məqsədilə 1975-ci ildə Moskvaya yola düşür. Orada yerli partiya-sovet orqanlarının yarıtmaz işindən Sov.İKP Mərkəzi Komitəsinə, SSRİ Ali Sovetinə, SSRİ Baş Prokurorluğuna, Moskvadakı beynəlxalq təşkilatların nümayəndəliklərinə şikayət məktubları göndərir.

Azərbaycandan göndərilmiş DTK əməkdaşları aprel ayının 13-də onu Moskvada tutaraq Bakıya gətirirlər. Evində axtarış aparıb əlyazmalarını və sənədlərini götürürlər. Özünü isə Bayıldakı 1 saylı İstintaq Təcridxanasına göndərirlər. Haqqında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci maddəsinin birinci hissəsilə cinayət işi açırlar. Onun əlyazmalarındakı fikirlərini və adamlarla söhbətlərini respublika rəhbərliyindən narazılıq, qanunlara əməl edilməməsinə, saxtakarlığa etiraz kimi deyil, antisovet təbliğat kimi qiymətləndirirlər.

İstintaq təcridxanasında saxlandığı bir ayda ondan istədikləri izahatı ala bilmədiklərinə görə Bakı şəhər 2 saylı Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Dispanserinə göndərirlər. Həkim ekspertlər Nadir Ağayevin psixi xəstə olmadığı qərarına gəlirlər. Belə olduqda onu yenidən istintaq təcridxanasına qaytarırlar. Oradan da hakim qarşısına çıxarırlar. Hakim onu mühakimə etmək əvəzinə öyüd-nəsihət verir. Buyurur ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibinin adına

məktub yazaraq səhvə yol verdiyini, peşman olduğunu, bir daha kommunist partiyası və Sovet hökuməti əleyhinə təbliğat aparmayacağını bildirsin. Üzürxahlıq edərək bağışlanmasını xahiş etsin. Belə edərsə, ona cəza verməz, əksinə, münasib bir işlə təmin edilməsinə, ailəsinin güzaranının yaxşılaşdırılmasına yardımçı olar.

Lakin Nadir Ağayev nə DTK əməkdaşlarının, nə də hakimin fikri ilə razılaşır. O, haqlı olduğunu, heç bir qanunsuzluğa yol vermədiyini, respublikada rüşvətxorluq, saxtakarlıq və istehsal edilən məhsulların həcmini həqiqətdə olduğundan çox göstərməyin bir yoluxucu xəstəliyə çevrildiyini söyləyir.

Nadir Ağayev görür ki, qanunvericiliyə əməl edilmir. Məhkəməyə dövlət ittihamçısı kimi prokuror çıxmır, istintaq qaydalarına əməl edilmir, vəkilin iştirakı olmadan hakim onunla istədiyi şəkildə söhbət edir, sonra da protokol tərtib edir. Bu minvalla onu 4 dəfə hakim yanına gətirirlər. 5-ci dəfə hakim yanına gətiriləndə o bildirir ki, bir daha məhkəməyə gəlməyəcək. Hakim ailə üzvlərinə və ona hökmü oxuyacağını söyləyir. 4-5 saat gözləsələr də, hakimi görə, məhkəmənin hökmünü ala bilmirlər.

Nadir Ağayevə məhkəmənin hökmünü 1 saylı İstintaq Təcridxanasında verirlər. Hökmdə göstərilir ki, Nadir Ağayev SSRİ-ni həbsxanalar ölkəsi, Sovet Azərbaycanını da Rusiyanın müstəmləkələrindən biri adlandırır. Azərbaycanda ruslaşdırma siyasəti yürüdüldüyünü və bu işin həyata keçirilməsində milli kadrlardan – partiya-sovet işçilərindən, məhkəmə, prokrorluq, milis və dövlət təhlükəsizliyi orqanlarında çalışanlardan istifadə edildiyini, sözdə demokrayiyadan dəm vurulsa da, gerçəklikdə demokratiyadan əsər-əlamət olmadığını söyləyir. Yazılarında da bu fikirləri təbliğ etməyə çalışır.

Məhkəmənin hökmü ilə Nadir Ağayev 3 illiyinə 5 saylı İslah Əmək düşərgəsində "islah olunmağa" göndərilir. O, yuxarı təşkilatlara şikayət etməyin mənasız olduğunu başa düşür. Buradan qurtarmağın yeganə yolunu onda görür ki, həbsxana qaydalarına əməl etsin, istehsalatda ona tapşırılmış işləri artıqlaması ilə və

yüksək keyfiyyətlə yerinə yetirsin. Tapşırılan işləri vaxtında görən, nizam-intizamlı və "islah olunmuş" məhbus kimi onu cəza müddətindən 14 ay əvvəl həbsdən azad edirlər. Bundan xəbər tutan DTK əməkdaşları prokurorluq orqanlarına təzyiq göstərir. Azərbaycan Respublika prokurorunun müavini 1977-ci ilin 28 aprelində məhkəməyə göndərdiyi məktubda Nadir Ağayevin vaxtından əvvəl azad edilməsini qanunsuz sayılır. Neftçala rayon məhkəməsi prokurorluğun protestini təmin edir.

Nadir Ağayev həbsxanaya getməkdənsə, qaçaq yaşamağa üstünlük verir. 2 aya yaxın Bakıda gizləndikdən sonra Qazaxıstanın Aktyubinsk vilayətinə gedir. 2 aya yaxın orada yaşadıqdan sonra Krasnoyarsk diyarına gedərək Yenisey çayı ətrafında, Tayqada günəmuzd işləməklə gününü keçirir. Ucuz işçi qüvvəsi kimi ondan istifadə etdiklərindən qeydiyyata düşmür.

1978-ci ildə müəllimə işləyən xanımını DTK-ya çağıraraq ona təzyiq göstərirlər. Məcbur edirlər ki, antisovetizmi, millətçiliyi təbliğ edən, qanunlardan qaçan adamdan uzaq olsun, ondan boşansın. Ailəsinin dağıldığından xəbər tutan Nadir Ağayev Bakıya gəlir. Onu 1978-ci il iyul ayının 15-də həbs edərək Bakı şəhər 2 saylı Məhkəmə Tibbi Psixiatriya Dispanserinə göndərirlər. 49 gün burada "müalicə" edildikdən sonra həkimlər onun sağlam olduğu haqqında rəy verirlər.

Onu yenidən həbsxanaya salırlar. 18 ay sonra isə Moskvadakı Serbski adına Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya İnstitutuna göndərilir. Sovetlər Birliyində qəddarlığı ilə ad çıxarmış DTK şefi Feliks Dzerjinskinin qızı, DTK generalı Marqarita Talsenin rəhbərlik etdiyi bu müəssisədə insanlar üzərində hər çür qanunsuz təcrübələr aparılırdı. Buradakı "müayinə" və "profilaktik müalicə"dən sonra Nadir Ağayevi saxta diaqnozla Dnepropetrovsk şəhərində DİN nəzdində olan xüsusi tipli ruhi xəstəxanaya (psixkonslagerə) məcburi müalicəyə göndərirlər. O burada 9 il məcburi "müalicə" olunur.

Verilən işgəncələr, üzərində aparılan təcrübələr nə qədər ağrıaçılı olsa da, Nadir Ağayev özü kimi nahaqdan "müalicəyə" göndərilmiş insanların özkeçmişlərini öyrənir, onları yazıya alır, bir surətini özündə saxlayır, başqa surətlərini müxtəlif yollarla tanışlarına göndərir. Milliyətçə Alban olan, Moskvadakı Albaniya səfirliyinin işçisi İsmail Farkanın burada azərbaycanlı Mehdiyev soyadı ilə saxlandığından xəbər tutur. Onun və özünün haqqında göndərdikləri hüquq müdafiəçilərinin diqqətini daha çox çəkir. Bu adamların nahaqdan ruhi xəstəxanaya salınması beləliklə ictimailəşir.

1988-ci il noyabr ayının 26-da 10 il 5 ay həbsxana və ruhi xəstəxanada min bir əziyyət çəkən Nadir Ağayev azad edilir. O, öz hüquqlarını tapdalayanlarla mübarizəyə başlayır. 1989 – 1990-cı illərdə Moskvadakı iki mötəbər həkim komissiyasından sənəd ala bilir ki, heç vaxt ruhi xəstə olmayıb. Buna baxmayaraq, Sovet məhkəməsi ona bəraət vermək, qanunsuz yerə ona əziyyət verənləri cəzalandırmaq istəmir.

Amerikanın Dövlət Departamenti Beynəlxalq İnsan Haqlarını Müdafiə Təşkilatı ilə razılaşdırmaqla Sovetlər Birliyindən olan dissidentlərin sırasına Nadir Ağayevin də adını daxil edir. Bu siyahıda Nadir Ağayev 47-ci sırada durur.

Helsinki İnsan Haqları Təşkilatının köməyi ilə Nadir Ağayevə yeni suverenlik aktı qəbul etmiş Azərbaycan Respublikasının Ali Məhkəməsi 1992-ci il martın 10-da bəraət hökmü verir.

Sovet DTK-nın zülmündən qurtardıqdan sonra içtimai-siyasi fəaliyyətini genişləndirir. Azərbaycanda Xalq Cəbhəsinin dayaq dəstələrinin yaradılmasında fəal iştirak edir. Sonra fikir ayrılığına görə bu təşkilatdan uzaqlaşır.

Sovet dövründə geniş yayılan siyasi lətifələri, həbsxana xatirələrini, ruhi xəstəxanada tanış olduğu dissident və Sovet ideologiyasından fərqli düşünənlərə verilən işgəncələrdən bəhs edən kitabçalar hazırlayaraq özbasım (samizdat) yolu ilə çap edərək yayır. Onu Azərbaycan Milli Qurtuluş Təşkilatının Mərkəzi

Şurasına üzv seçirlər. 1990-cı ilin ilk günlərində təşkilat partiyaya cevriləndə oradan uzaqlaşır.

Özünün nahaqdan tutularaq həbsxanalara və ruhi xəstəxanalara salınmasında Azərbaycan Kommunist Partiyasının və bu partiyaya 13 il rəhbərlik etmiş Heydər Əliyevin də rolu olduğunu söyləyən Nadir Ağayev 1992-ci ildə Yeni Azərbaycan Partiyası yaradılanda onun fəallarından birinə çevrilir. Keçmiş partiya-sovet məmurlarının yaratdığı bu partiyanın pərdəarxası məqsədi Heydər Əliyevi yenidən hakimiyyətə gətirmək idi.

Nadir Ağayev onu və onun kimi yüzlərlə insanı faciəyə məhkum etmiş kommunist məmurlarla birləşərək demokratik qüvvələrə qarşı sərt mübarizə aparır. Heydər Əliyev hakimiyyətə gəldikdə Nadir Ağayevi Binəqədi rayon İçra Hakiminə müavin təyin edirlər. O burada işlədiyi az müddətdə çox eybəcərliklər görür. Gördükləri haqqında partiyanın mərkəzi aparatına, respublika prezdentinə məlumatlar verir, təcili tədbirlər görülməsini tələb edir. Onun yazdıqlarına və dediklərinə reaksiya verilmədiyini gördükdə 1995-ci il avqustun 8-də Yeni Azərbaycan Partiyasının üzvlüyündən çıxdığını elan edir.

İctimai-siyasi fəaliyyətini davam etdirən Nadir Ağayev Azərbaycan Siyasi Repressiyanın Günahsız Qurbanları Assosasiyası İdarə Heyətinə üzv, Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinə sədr müavini, Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin sədr müavini seçilir.

Sovet dövründə Azərbaycan Kommunist Partiyası və onun birinci katibi Heydər Əliyevə qarşı olan, 1992-ci ildə onun yenidən hakimiyyətə gəlməsi uğrunda fədakarlıq göstərən, demokratik qüvvələrə qarşı mübarizə aparan Nadir Ağayev 1995-ci ildən, vəzifədən uzaqlaşdıqdan sonra Heydər Əliyevin əleyhinə danışmağa və yazmağa başlayır. Heç bir qaynaq göstərmədən Heydər Əliyevin valideynlərinin başqa millətlərdən olduğunu təbliğ edir və bu mövzuda “Fəlakətlərimizin baiskarı” adlı kitab yazaraq yayır.

Hazırda Bakıda yaşayan Nadir Ağayev 4 övlad atasıdır. Onun övladlarından ikisi öncəki evliliyindən, ikisi də həbsdən çıxdıqdan sonrakı evliliyindəndir.

**Qaynaqlar:**


1. Abbasov M. Bayraq xatirələri, “Aydınlıq” qəzeti, 1995, 7 oktyabr, sayı 18 (240).
2. Agayev Nadir. Siyasi lətifələr, Bakı: Özbasım (самиздат), 1989-1991-ci illər, sayı 1-4.
3. Agayev Nadir. Taleyim mənim, Bakı: Özbasım (самиздат). 1990.
4. Agayev Nadir. Qapalı cəhənnəmin sirləri, Bakı: Özbasım (самиздат), 1990.
5. Agayev Nadir. "Karatelnaya meditsina", qazeta "Moskva", Özbasım (самиздат), 1990.
6. Agayev Nadir. Mərhumiyyətin sonu olacaqmı? "Yeni Azərbaycan" qəzeti, 1993-cü il, 21 oktyabrı, sayı 29.
7. Dəryanur Z. Dissident və ya o biri “planetin” adamı, "Millət" qəzeti, 1993, 30 yanvar, sayı 12.
8. Əziz. Azərbaycansayağı “Arxipelaq qulaq”, “7 gün” qəzeti, 1994, 2, 25 iyun, sayı 22, 23.
9. Faiq. İlk Azərbaycanlı dissident, "168 saat" qəzeti, 1992, 5-11dekabr, sayı 39(67).
10. Məmmədoglu N. Hamının tanıdığı naməlum adam, "Aydınlıq" qəzeti 1992, 12 iyun, sayı 25 (93).
11. Qamanoglu M. Pasportsuz vətəndaş və ya Nadir Ağayev dissidentlikdən əl çəkmir, "Müstəqil" qəzeti, 1993, 8 yanvar, sayı1.
12. Rəfiq N. Xoşbəxtliyini qurban vermiş adam, yaxud cinayətsiz məhkum, "İki sahil" qəzeti, 1993, 13 yanvar, sayı 2.
13. Umudlu İsmayıl. Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı. Bakı: “Oğuz eli” nəşriyyatı. 1999. 68 səh.

14. Umudlu İsmayıl. Диссидент Надир Агаев ждет ответа от Сулеймана Демиреля. г. “Зеркало”, 2000 г., 4 марта, 44 (801).

**ASİF ATA (Asif Qasım oğlu Əfəndiyev (Asif Ata– İnam Ata), d. 25.09.1935, Ermənistan SSR, Krasnosnoselo rayonu, Çaykənd kəndi,- ö. 05.06. 1997 Bakı, dəfn edilib Ağstafa ş.)-**



***Dissident. Filosof, tənqidçi, publisist. Etik və estetik tərbiyə klubunun (1976), Mütləqə İnam Ocağının (1979) yaradıcısı***

Müəllim ailəsində anadan olub. Babası Molla Məhəmməd və qohumlarından bir neçəsi 1937-ci ildə Sovet repressiyasının qurbanı olub. Bu, ailəyə ağır psixoloji təsir göstərib. Ailə üzvlərində və qohumlarında gizli bir antisovet əhal-ruhiyyəsi yaradıb.

Gəncə və Ağstafa şəhərlərində oxuyub. 1951-ci ildə Ağstafa şəhərində orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olub. Bədii yaradıcılığa meyl göstərib. 1952-ci ildə “Azərbaycan pioneri” qəzetində “Məktəb xatirələri” şeiri çap olunub. 1952 – 1957-ci illərdə Moskvada Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun ədəbi tənqid bölməsində oxuyub. İnstitutdakı müəllim və tələbələrdən bəzilərinin Sovet ideologiyasına dövri mətbuatda yazılanlardan fərqli baxmaları diqqətini çəkib. Mühafizəkar

müəllimlərin dərslərində oturmağı vaxt itkisi kimi dəyərləndirib. Gününün çoxunu kitabxanada, özünün seçdiyi kitabları oxumaqla keçirib. Sovetlər Birliyində yaşayan xalqların ədəbiyyatlarının Moskvada bərabər səviyyədə təbliğ edilmədiyini, hər yerdə Rus ədəbiyyatına üstünlük verildiyini söyləyib. Narazılığına cavab kimi tələbə yoldaşlarından biri ona "Kiçik xalqın böyük oğlu" - deyə istehza edib. Asif Əfəndiyev də istehzaya yumruqla cavab verib. Buna görə də, onun davranışı komsomol yığıncağında müzakirəyə çıxarılıb. Ali məktəbin divar qəzetində onun karikaturası mağarada oturub Hegeli oxuyan kimi verilib.

Dərslərdə çox iştirak etməsə də, institutu Fərqlənmə Diplomu ilə bitirərək 1957-ci ildə Bakıya dönüb. Buradakı mühitdən sıxılan Asif Ata savadsız və mühafizəkar, həm də nadan insanların rəhbər vəzifələrdə işləməsinə, bəsit şeirlərin, poemaların, hekayə və romanların mətbuatda özünə yer tapmasına etirazını bildirib. Mühafizəkarları, məddahları və savadsızları hər yerdə kəskin tənqid edib. Buna görə də, iki il işsiz qalıb. 1959-cu ildə Mirzə Fətəli Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunda Qərb ədəbiyyatından dərs deməyə başlayıb.

Nəşriyyatların çap etdiyi kitablara, qəzet və jurnallara yol tapan şeir, poema, hekayə, romanlar haqqında ədəbi tənqiddən uzaq, bəsit təsvirlərdən ibarət məqalələrin ara vermədən çap edilməsi onu əsəbiləşdirib. “Tənqid və zəmanə” adlı bir məqalə yazıb. Onu Bakıda Rus dilində nəşr edilən “Literaturnıy Azerbaydjan” jurnalının 1959-cu il noyabr sayında çap etdirə bilib. Məqalə böyük qalmaqal yaradıb. Ən ucqar kəndlərdə belə bu yazıdan söhbət gedib. Azərbaycan Yazıcılar İttifaqının orqanında qəliblərdən kənara çıxan bir məqalənin çapı içtimai-siyasi mühitdə böyük narahatlıq yaradıb. Türkiyədə radio ilə bu məqalədən çevirmələr edib yayımlanması məsələni siyasiləşdirib. DTK məqalənin Türkiyəyə hansı yolla getməsini öyrənməyə çalışıb.

Ali məktəbi bitirdikdən sonra çap etdirə bildiyi ilk məqaləsinə görə onu DTK dəfələrlə istintaqa çağırıb, institutun pedaqoji

şurasında müzakirədə Asif Əfəndiyev kəskin tənqid edilib. Bununla kifayətlənməyib, onu işdən çıxararaq əsərlərinin nəşrini qadağan ediblər. Dövri mətbuatda onu tənqid etmə kampaniyası başlanıb.

Uzun illər işsiz qalan Asif Əfəndiyev, gününün çoxunu kitabxanada keçirib. Elmi araşdırmalar aparıb. Etdiyi tərcümələrdən, gizli imzalarla çap olunan məqalələrindən əldə etdiyi vəsaitlə dolanıb. 1965-ci ildə namizədlik dissertasiyası müdafiə edərək fəlsəfə elmləri namizədi adını alıb. İnstitutlarda işləmək hüququnu bərpa edib. 1966-cı ildə dosent seçilib. Azərbaycan Xarici Dillər İnstitutunda, Azərbaycan Dövlət Konservatoriyasında, Azərbaycan Dövlət Universitetində Qərb ədəbiyyatından, Rus ədəbiyyatından, estetikadan, fəlsəfədən, incəsənət tarixindən dərs deyib. Tələbələr onun mühazirələrinə böyük maraq göstəriblər. Başqa kurslardan və institutlardan da onu dinləməyə gəliblər.

1968-ci ildə onun əsərlərinin nəşri üzərinə qoyulmuş qeyri-rəsmi qadağa yumşaldılıb. Asif Əfəndiyev Azərbaycan klassikləri haqqında oxucunun indiyədək rastlaşmadığı bir üslubda məqalələr yazmağa başlayıb. İlk baxışda bu məqalələrin heç birində Sovet ideologiyası açıq şəkildə tənqid edilmirdi. Sadəcə, fərqli baxış kimi görünürdü. Buna görə də, Asif Əfəndiyevin "Fəlsəfə və Poeziya", "Həqiqət və Yarımhəqiqət", "İnam və Şübhə" və b. məqalələri, eləcə də "Müdriklik Səlahiyyəti" kitabı 1968-1976-cı illərdə nəşr olunub.

1969-1975-ci illərdə Azərbaycan Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunda baş elmi işçi vəsifəsində işləyir. Gənclərin Asif Əfəndiyevin yaradıcılığına və söhbətlərinə böyük maraq göstərdiyini görən Azərbacan Dövlət Universitetinin rəhbərliyi onu estetika fənnindən dərs deməyə dəvət edir. O bu dəvəti qəbul edir.

Asif Əfəndiyevin mühazirələrinə qulaq asmaq üçün gələnlərin sayının çoxluğunu nəzərə alan rəhbərlik ona universitetin salonunda "Etik və estetik tərbiyə klubu" adı altında mühazirələr oxumağa, müzakirələr keçirməyə icazə verir. "Etik və estetik

tərbiyə klubu"nda Asif Əfəndiyevin mühazirələrini dinləməyə yalnız Bakıdan deyil, rayon və kəndlərdən də gələnlər olur. O, açıq şəkildə antisovet, antimarkisist, antileninci təbliğat aparmır. Sadəcə, söylədiyi fikirlər Sovet ideologiyası ilə üst-üstə düşmür.

"Etik və estetik tərbiyə klubu"nda sənət, içtimai-siyasi quruluş, millət, cəmiyyət, ədəbiyyatın vəzifələri, fəlsəfənin cəmiyyət həyatında rolu mövzusunda müzakirələr gedir. Auditoriyada tələbəni hədə-qorxu ilə də saxlaya bilməyən həmkarları Asif Əfəndiyevin böyük nüfuzuna paxıllıq edirlər. Muhafizəkar ziyalılar onun arxasınca danışır, qeybətini qırır, bununla yetinməyib partiya-sovet orqanlarına, DTK-ya açıq və gizli məktublar göndərirlər. Yuxarıların təzyiqi altında universitet rəhbərliyi əvvəlcə müxtəlif bəhanələrlə toplantı salonunun qapısının açılmasını əngəlləyir. Ən sonda, 1979-cu ildə universitetdə "Etik və estetik tərbiyə klubu"nun toplantıları dayandırılır.

Sovetlər Birliyinin hər yerində "Bilik" Cəmiyyəti və onun şöbələri fəaliyyət göstərirdi. Cəmiyyətin geniş toplantı salonları, nəşriyyatları vardı və Sovet ideologiyasını yaymaq üçün Cəmiyyətə ziyalılar ordusu cəlb edilmişdi. Ziyalılara qonarar ödənilirdi. Onlar da fabrik-zavodlarda, tikintilərdə, kolxoz və sovxozlarda, məktəblərdə mühazirələr oxuyurdular. Bu mühazirələrə dinləyici toplamaq çox vaxt problemə çevrilirdi. Ona görə də, müəssisə rəhbərləri adamları işdən ayırmamaq, özünü əziyyətə salmamaq üçün mühazirəciyə "Gətir ezamiyyə və mühazirə vərəqini möhürləyim, çıx get" - deyirdilər.

Belə bir vaxtda Asif Əfəndiyev "Etik və estetik tərbiyə klubu"nu Bilik Cəmiyyətinin Bakı şəhər təşkilatının toplantı salonunda keçirməyi təklif edir. Cəmiyyətin rəhbərliyi təşkilatın işində bir canlanma yaranacağını düşünərək, təklifi qəbul edir. Ayda iki dəfə olmaqla toplantılar keçirilir. Gözlədikləri kimi də olur. Cəmiyyətin işçilərinin canı dinləyici toplamaqdan qurtulur. Asif Əfəndiyev mühazirə oxuyanda toplantı yeri nəinki Bakı şəhərindən, Azərbaycanın rayon və kəndlərindən də gələn müxtəlif

təbəqəli insanlarla dolur. Müzakirələr çox canlı və qızğın keçir. Cəmiyyətdəki müxalif düşüncəlilər buraya axışır. Müxalif düşüncəlilər arasındakı fikir ayrılığı bəzən müzakirəni mübahisəyə, qarşıdurmaya çevirir. "Bilik" Cəmiyyətinin salonunda Asif Əfəndiyev üç il mühazirələrini davam etdirir.



**Teleteatrda "Etik və estetik tərbiyə klubu"nun toplantısında**

O getdikcə öz fikirlərini sistemləşdirir. Əsasən dünyada mövcud olan fəlsəfi görüşlərdən söz açır, yeni bir dünabaxış yaratmağa çalışır. İstəyir ki, onun yaratdığı dünyabaxış nə marksizmin, nə də idealizmin təsirində olsun. Onun fikrincə, fəlsəfənin cərəyanlarının heç birində nə inamın, nə də insanın mahiyyəti tam açılır. Yaratmış olduğu Mütləqə İnam fəlsəfəsini yayacaq bir təşkilata da ehtiyac duyur. Bu təşkilat nə dini qurum olmalı idi, nə də siyasi partiya. Yaradacağı təşkilatı qədim Türk ənənəsinə uyğunlaşdıraraq "Ocaq" adlandırır. Buraya toplaşanları "Övlad", ideya müəllifini "Ata" adlandırır.

1979-cü il martın 1-də daha çox inandığı tərəfdarları ilə birlikdə keçirdiyi toplantıda Əfəndiyev soyadından imtina etdiyini, Asif Atanın Mütləqə İnam Ocağı yaradıldığını elan edir. O, inqilabi

yolla quruluşun dəyişdirilməsi ideyasını yanlış sayır. Dini inancı itaətçilik buxovu adlandırır, onu İnamla əvəz etməyə cağırır.

Asif Ata Ruhani inam ideyasını irəli sürür. Bu ideyaya görə, Ocaq Mütləqə İnam, Kamil İnsan, Müstəqil Vətən, Ruhani Cəmiyyət, Özümlü Şərq, Ləyaqətli Bəşəriyyət ideyalarını həyata keçirməlidir. Bunları həyata keçirmək üçün ay adları, gün adları dəyişdirilərək milli dəyərlərə və ideyalara uyğun təqvim yaradılır. Yeni təqvimin başlanğıcı Mütləqə İnam Ocağı yarandığı gündən hesablanır: 1 mart 1979. Təşkilatın Orxon-Yenisey abidələrindəki yazı qrafikasına uyğun əlifbası formalaşdırılır. Tərəfdarlarına Türk kökənli sözlərdən düzəldilmiş ruhsal adlar verir.

Xüsusi xidmət orqanları və Kommunist Partiyasının ideoloqları Asif Əfəndiyevin fəaliyyətindən rahatsız olduqlarına görə ona qarşı təzyiq daha da artırılır. 1980-ci illərdə Moskva Dövlət Universitetinin doktorantı kimi yazmış olduğu "Sənətdə ümumbəşəriliyin və milliliyin dialektikası" dissertasiyası müzakirədən yüksək rəylərlə keçsə də, DTK (KGB) məsələyə qarışaraq işin Mudafiə Şurasına göndərilməsini əngəlləyir.

Təzyiq və təqiblərin bir nəticə vemədiyini görən DTK onu, ailəsini, tərəfdarlarının bir qismini sorğu-suala çəkir. Onu sosialist dünyagörüşünə, marksist fəlsəfəyə, Sovet əxlaqına zidd mühazirələr oxumaqda qınayırlar. 1982-ci il iyunun 1-də Azərbaycan Dövlət Universiteti partiya təşkilatının ümumi yığıncağında DTK əməkdaşları da iştirak edirlər. Onu antimarksist, antisovet, antikommunist, millətçi, pantürkist, radikal dinçi, anarxist, hətta faşist ideyalar təbliğ etməkdə suçlayırlar.

Asif Əfəndiyev onlara deyir: Sizin dedikləriniz bir-birinə tamam ziddir. Marksistdən radikal dinçi, faşistdən panislamist, revizyonistdən pantürkist olmaz. Siz heç olmasa dediyiniz terminlərin mənasını öyrənin!

Öncədən qurulmuş ssenari əsasında onu Kommunist Partiyası sıralarından və işdən azad edir, onun elmi addan və elmi dərəcədən məhrum edilməsi üçün Ali Attestasiya Komissiyası qarşı-

sında məsələ qaldırırlar. Bu azmış kimi, DTK onun həyat yoldaşına təzyiq göstərir ki, ondan boşansın. Sovetlər Birliyinin qanunlarına görə, işsiz insanlar məcburi əməyə cəlb edilirdi. Asif Əfəndiyev üç il işsiz, evsiz, ailəsindən uzaq yaşasa da, əqidəsindən dönmür, Mütləqə İnam Ocağının buraxıldığını elan etmir. Tərəfdarlarının bir qismi sorğu-sualdan çəkinərək ondan uzaqlaşsa da, az bir qisminin cüzi könüllü yardımı ilə keçinir .

Müxtəlif fasilələrlə 12 dəfə DTK-ya istintaqa çağırılır. Buna baxmayaraq, oxumağından və yazmağından qalmır. Kitabxanada fasiləyə çıxarkən ətrafına toplaşan gənclərin suallarını cavablandırır, Mütləqə İnam ideyasını yayır. Onun yazdığı "İnam fəlsəfəsi", "Meyar", "Cövhər", "Olan və Olmayan", "Həyat", "Rəmzlər", "Mənalar", "İnsan", "Mahiyyət", "Dövlət", "Mövcudluq", "Haqq" və b. əsərlərin surəti əlyazma və makinada çoxaltma ilə gənclər arasında yayılır.

Asif Ata 1982-ci ildən ömrünün sonunadək Mütləqə İnam Ocağının fəaliyyətini formalaşdırır. Fəlsəfi konsepsiyasını tamamlayan əsərlər yazır. 1997-ci il iyun ayının 5-də Bakıda rəhmətə getsə də, öz vəsiyyəti ilə Beyləqan rayonunun Örənqala kəndində Ocağın qaydaları ilə dəfn edilir. Bundan xəbər tutan qohumları, rəsmi orqanların təzyiqi ilə onun cənazəsini çıxararaq aparıb Ağstafa şəhər qəbiristanlığında dəfn edirlər.

**Qaynaqlar:**

1. Əfəndiyev Asif. Müdriklik səlahiyyəti. Bakı: "Gənclik" nəşriyyatı, 1976, 192 səh.

2. Əfəndiyev Asif. İnam və Şübhə, Bakı: "Yazıçı" nəşriyyatı, 1988, 172 səh.

3. Ata Asif. Türkçülüyümüz, Bakı: Özbasım (samizdat), 1992, 18 səh.

4. Ata Asif. Yol. Ata Sözü, Bakı:Özbasım. 1994, 87 səh.

**Əlyazma şəkilində yayılan kitabları:**

5. Ata Asif. Mütləqilik, 1984, oktyabr-dekabr.
6. Ata Asif. Bədiiyyat, 1984, 16 yanvar.
7. Ata Asif. Sədaqət, 1988, 21 may.
8. Ata Asif. Adamlıq-İnsanlıq, 1988, fevral.
9. Ata Asif. Muğam fəlsəfəsi, 1990, iyul.
10. Ata Asif. İnam fəlsəfəsi, 1994, 22 mart.

**Məqalələri:**

11. Əfəndiyev Asif. Tənqiddə ənənə və novatorluq, "Ədəbiyyat və incəsənət" qəzeti, 1968, 26 iyul.
12. Əfəndiyev Asif. Sənət və Şəxsiyyət, "Azərbaycan" jurnalı, 1968, sayı 11, səh. 157-168.
13. Əfəndiyev Asif. Sənət və Kəşf, "Azərbaycan" jurnalı, 1969, sayı 7, səh. 176-191.
14. Əfəndiyev Asif. Şeyx Nəsrullah əsarəti, "Azərbaycan" jurnalı, 1973, sayı 4, səh. 50-54.
15. Əfəndiyev Asif. Həqiqət və Yarımhəqiqət, "Ulduz" jurnalı, 1973, sayı 8, səh. 46 -52.
16. Ata Asif. Böyüklüyümüz – azadlığımızdır, "Azərbaycan" qəzet, 1990, 18 may.
17. Ata Asif. Özümlü Şərq, "Xəzər" jurnalı, 1993, sayı 2, səh 39-42.

**Haqqında yazılanlar:**

18. Hüseyinov Ş. Müdrik görünmək xatirinə, "Azərbaycan" jurnalı, 1979, sayı 4.
19. Zülfüqar S. Ata ömrü, "Aydınlıq" qəzeti, 1992, 21 avqust.
20. Atalı G. Türkün yeni möcüzəsi, "Göy" dərgisi, 1996, sayı 9.(Türkiyə).
21. Atalı A. Asif Ata şəxsiyyəti, "Sərbəst düşüncə" qəzetinin xüsusi buraxılışı, 1998, fevral.

22. Fərhad qızı Zeynəb, Yəhya qızı Pərvanə. İstiqlal təşkilatımız “Ocaq”, “Yeni Müsavat” (Müsavat Partiyasının tarixi-siyasi jurnalı), 1998, sayı 9 (13), səh 26.

23. Umudlu İsmayıl. Azərbaycanda dissidentlik: belə bir şey olmuşdurmu? “Ayna- Zerkalo” qəzeti, 1997-ci il, 1 fevral, 4 (489).

24. Umudlu İsmayıl. Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı. Bakı: “Oğuz eli” nəşriyyatı. 1999. 68 səh.

**AZƏRLİ ƏLİ (Əlikram Kamil oğlu Əliyev, ləqəbi Əli Azərli, d. 30.04.1961, İşərişəhər, Bakı.)**



***Hüquq müdafiəçisi. Sovet rejiminin təqib və təzyiqlərinə qarşı dirəniş göstərmişdir.***

Dülgər ailəsində doğulub. Ata babası İsrafil tacir imiş. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra malını-mülkünü zorla əlindən alıb, ailəni müflüsləşdiriblər. Buna görə də, atası Kamil dülgər işləməklə ailəni keçindirirmiş. Anası Xanım Bəhram qızı Kazımova evdar qadın imiş. Əlikram Əliyev Bakıdakı 13 saylı orta məktəbdə oxuyub. 1973-cü ildə 158 saylı məktəbin şagirdi Baycan Məhərrəmovla tanışlıq ona güclü təsir edir.

Baycanın vastəsilə onun qardaşı Azərlə də tanış olub. Hər iki qardaşın oxumağa həvəsi, mütailəsi Əlikrama da sirayət edib. Onu məktəbdə şagirdlərdən təşkil olunmuş “Siyasi məlumatçılar” qrupuna rəhbər təyin ediblər. O, qəzet və jurnallardan oxuduqları, radio və televiziyadan eşitdikləri əsasında yaşıdları arasında təbliğat aparırmış.

Azər və Baycan isə onunla söhbət edərkən Sovet mətbuatında gedən məlumatların bir çoxunun yanlış olduğunu, beynəlmiləlçilik adı altında ruslaşdırma siyasəti yeridildiyini, partiya-sovet rəhbərləri sözdə leninizmdən dəm vursalar da, əməldə Leninin dediklərini həyata keçirmədiklərini, ölkədə hər addımda insan haqlarının pozulduğunu deyirmişlər. Bu müzakirələr onları bir dərnək halında birləşdirir.

Sovetlər haqqında dolğun bilgi almaq üçün xarici radiolara qulaq asır, əyləncə xatirinə antisovet lətifələri toplayıb yaşıdları arasında söyləyirlər. Yazıçı Aleksandr Soljenitsınə 1970-ci ildə Nobel mükafatı verilsə də, Sovet hökuməti yazıçıya bu mükafatı almağa getməyi qadağan edir. Bu azmış kimi, Aleksandr Soljenitsını Sovet vətəndaşlığından da çıxarırlar. Aleksandr Soljenitsinin xaricdə yaşadığı illərdə radiolardakı çıxışı və müsahibələri Sovetlər Birliyindəki yeniyetmə və gənclərə güclü təsir göstərirdi. Sovet mətbuatının onun əleyhinə apardığı təbliğat da əks reaksiya doğururdu.

Aleksandr Soljenitsın Sovet vətəndaşlığından çıxarılaraq ölkədən qovulsa da, yeniyetmə və gənclər onu unutmur, köhnə əsərlərini tapıb oxuyur, yazıçını haqlı sayır, müdafiə edirdilər. Bir dəfə də Baycan Məhərrəmov, Əli Azərli və dostları mitinq təşkil etməyə cəhd göstərirlər. 15-16 yaşlı yeniyetmələrin bir neçəsini tutub milis idarəsinə aparırlar. Əlikramın atası Kamili də milis idarəsinə gətirirlər. Əlikram azyaşlı olduğuna görə onu danışdırıb, izahat alaraq həmin gün evlərinə buraxsalar da, atasını bir gün saxlayırlar.

Bu hadisdən sonra məktəbdə onu siyası məlumatçılar qrupundan uzaqlaşdırırlar. Dərs əlaçısı olsa da, 1978-ci ildə orta məktəbi bitirəndə ona layiq olduğu qızıl medalı vermirlər.

Əlikram Əliyev orta məktəbi bitirdikdən sonra altı ay Bakıda 1 Saylı Ayaqqabı Fabrikində fəhlə işləyib. 1979-cu il may ayında onu əsgər aparıblar. Əfqanıstanda döyüşən hərbi hissələrə getməyə təşəbbüs göstərsə də, buna nail ola bilməyib. Onu Ukraynanın

Çerniqov şəhərindəki tikinti batalyonuna göndəriblər. Əsgəri xidmət illərində Kommunist Partiyası sıralarına daxil olmağa çalışsa da, qəbul edilməyib.

1981-ci ildə Bakıya döndükdən sonra Azərbaycan Dövlət Universiteti Şərqşünaslıq Fakültəsinin dördüncü kursunda oxuyan Baycan Məhərrəmovun yaratdığı “Azad Azərbaycan Hərəkatı”na üzv yazılıb. Bu hərəkata qoşulduqdan sonra özünə Əli Azərli ləqəbini götürür.

“Azad Azərbaycan Hərəkatı” üzvlərinin izlənməsindən və təqib edilməsindən bezən Əli Azərli diqqətdən yayınmaq üçün Rusiyaya – Novosibirsk yaxınlığındakı Kemerovo şəhərinə gedir. Orada universitetin Roman-German Dilləri Fakültəsinə qəbul olunur. Hətta tələbə elmi cəmiyyətinin təşkil etdiyi konfransda oxuduğu məruzəyə görə mükafat da alır. 1982-ci il may ayında Rus millətçillərinin “Qafqazlılar, Kuzbasdan rədd olun!” şuarı altında keçirdiklər mitinqə qarşı çıxır. Rus millətçiləri ilə qafqazlılar arasında münaqişə yaranır. Sözdə beynəlmiləlçilikdən dəm vuran Sovet milisinin əməldə millətçi Rusları müdafiə etdiyini görən Əli Azərli universitetdə təhsilini yarımçıq qoyub Moskvaya gəlir. Burada Beynəlxalq Münasibətlər İnstitutunda oxumağa çalışır. Söhbətdən keçir və orada təhsil alan azərbaycanlı gənclərlə görüşür. Universitet onu Kemerovo şəhər Partiya Komitəsindən zəmanət məktubu almağa yollayır. Lakin ona zəmanət məktubu vermirlər.

Əli Azərli Kemerovo Universitetindən İvanovo şəhərindəki universitetin eyni fakültəsinə dəyişilir. Orada ictimai işlərdə fəallığı ilə diqqəti çəkir. Univresitetin nəzdindəki Beynəlxalq Jurnalistika kurslarına da qatılır. Özünü fəal təbliğatçı kimi tanıda bilir.

1983-cü il sentyabrında yenidən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna oxumağa dəyişilməyə cəhd edir. Onu azad dinləyici kimi qəbul edirlər. Partiya Komitəsindən zəmanət məktubu gətirərsə, rəsmi tələbə kimi qeydiyyata alacaqlarını bildirirlər.

Moskvada olarkən onunla eyni institutda oxuyan Anahita Karmalla tanış olur. Bu tanışlıq xoş münasibətə çevrilir. Bundan istifadə edən Əli Azərli Azad Azərbaycan Hərəkatının məktubunu ona verir ki, atasına – Əfqanıstan Demokratik Respublikasının Baş Naziri Bəbrək Karmələ çatdırsın. Elə həmin gün onu və Anahita Karməli DTK-ya aparırlar. Məktub Anahita Karməldən alınır. Məktubda Rusiyanın Azərbaycanı və 14 müttəfiq respublikanı, eləcə də sosializm blokuna daxil olan ölkələri müstəmləkəyə çevirdiyi, Əfqanıstanı da müstəmləkəyə çevirəcəyi yazılmışdı. "Azad Azərbaycan Hərəkatı"na daxil olan gənclər Bəbrək Karməli Sovetlərin yalanlarına uymamağa cağırırdılar. Bu məktub DTK-nın Azərbaycandakı gizli antisovet təşkilata qarşı sərt tədbirlər görməsinə səbəb olur.

Əli Azərli izləndiyini bilsə də, fəaliyyətini durdurmur. Volqoqrad Dövlət Universitetinin yataqxanasında Çeçenlərlə birlikdə Krım Tatarlarının, Axısqalıların, Almanların, Quzey Qafqazda yaşayan xalqların sürgün edilməsini tənqid edən çıxışına görə onu DTK-ya aparırlar. Üç gün orada saxlayıb sorğu-sual etsələr də, həbs edilməsinə ciddi əsas tapa bilmədiklərinə görə buraxırlar.

Yayda Bakıya gələn Əli Azərli Əbülfəz Əliyevlə tanış olur.

1983-cü il avqustunda Baycan Məhərrəmovun Nalçikdə göldə batdığı xəbəri onu bərk sarsıdır. Baycanın Xəzərdə həmişə çimdiyini, üzməyi bacardığını bilirdi. Düşünür ki, dostu və təşkilatlarının rəhbəri DTK tərəfindən öldürülüb. Dostunun öldürülməsi xəbərini, eləcə də Sovetlər Birliyində insan haqlarının hər addımda pozulduğunu, partiya-sovet rəhbərlərinin ikiüzlü siyasətini, sadə əmək adamlarını aldatdıqlarını dünyaya yaymaq üçün Amerika Birləşmiş Ştatlarının səfirliyinə getməyi qərara alır.

1983-cü il dekabrın 5-də qardaşı İsrafillə birlikdə gecə hasardan aşmaqla səfirliyin binasına daxil ola bilirlər. Orada baş konsul Harmanla görüşürlər. Əli Azərli çox həyəcanlı çıxış edir, insan haqlarının olmadığı bir ölkədə yaşamaq istəmədiklərini, sosializmin təbliğatdan başqa bir şey olmadığını, dostu Baycanın öl-

dürüldüyünü söyləyir. Amerika prezidenti Ronald Reyqana ünvanladığı geniş məzmunlu məktubu konsula verir. Konsulun onların danışdıqlarına şübhə ilə yanaşdığını görən Əli Azərli şəxsiyyətini təsdiq edən Sovet pasportunu cırıb atır.

Səfirlikdə məsləhət görürlər ki, Moskvada gözləsinlər. Sovet hökumət rəhbərləri ilə danışıb onların mühacirətə getməsini təşkil edəcəklər. Elə həmin gün axşam saat 19.00 radələrində Əli Azərlini tutaraq Lefortovo həbsxanasına aparırlar. Onu vətənə xəyanətdə, casusluqda suçlayaraq Rusiya Sovet Federativ Respublikası Cinayət Məcəlləsinin 64 (a) maddəsi ilə ittiham edirlər. Sonra isə həmin cinayət məcəlləsinin b bəndini, dövlət sərhədini pozmaqda, yəni icazəsiz Amerika səfirliyinin binasına daxil olmaqda suçlayırlar.

Lefortovo həbsxanasında iki aylıq istintaqdan sonra onu mühakimə edilmək üçün qeydiyatda olduğu İvanovo şəhərinə göndərirlər. Məhkəmədə Əli Azərli hökumətin tərəfini tutan, əslində heç bir səlahiyyəti olmayan formal vəkildən imtina edir.

Amerika səfirliyi Əli Azərlini diqqətdən kənarda qoymur. İvanovo şəhərində məhkəməsi olanda oraya nümayəndələrini göndərir. Məhkəmədə Əli Azərlinin Amerika prezidenti Ronald Reyqana yazdığı məktubu oxuyurlar və antisovet fəaliyyəti haqqında şahid ifadələrini dinləyirlər.

1984-cü ildə Əlikram Kamal oğlu Əliyev Rusiya Sovet Federativ Respublikası Cinayət Məcəlləsinin 147-ci maddəsilə (aldatma) 8 illiyə həbs cəzasına məhkum edilir. Onu iki ay İvanovodakı həbsxanada saxladıqdan sonra Omsk şəhərindəki 16 saylı İslah Əmək Düşərgəsinə göndərirlər. Orada məhbuslar arasında siyasi təbliğat apardığına görə həbsxana qaydalarına əməl etmədiyini bəhanə gətirərək onu yenidən məhkəməyə verirlər. Məhkəmə ~~onun~~ cəzasının üç ilini qapalı həbsxanada çəkməsi haqqında hökm çıxarır.

Əli Azərlini oradan Yeles şəhərindəki həbsxanaya göndərirlər. O, Sovet həbsxanalarında ağlasığmaz işgəncələrə məruz qalır.

Həbs müddətində 24 dəfə yeri dəyişilir, Krasno-Presnensk, Yaroslavl, Kirov, Blaqoveşensk, Voronej həbsxanalarında və İslah Əmək Düşərgələrində olur, 147 dəfə karserə salınır. Müxtəlif vaxtlarda Moskva, Kostroma, Nikolsk qapalı psixi xəstəxanalarda məcburi “müalicə” olunur.

Vətənə xəyanətdə təqsirləndirilən Əli Azərli bütün işgəncələrə baxmayaraq antikommunist fəaliyyətindən əl çəkməyib. Həbs müddətində altı dəfə sol qolu, bir dəfə sağ qolu sındırılıb. Perm şəhərindəki həbsxanada o, dissident Anatoli Marçenko ilə, Voronejdə dissident Valeriya Novodvorskaya ilə görüşüb. Onların baxışları və həyat mövqeyi üst-üstə düşüb.

1991-ci il avqustunda həbsdə olanları Moskvada baş vermiş çevrilişə qarşı qiyama səslədiyinə görə onu döyüblər. Sovetlər Birliyinin çöküşündən sonra, yəni 1991-ci il dekabrın 5-də Əlikram Kamil oğlu Əliyevi həbsdən azad edirlər.

Dəfələrlə döyülən, qolları sındırılan, qapalı psixi xəstəxanalarda müalicə adı altında işgəncə verilən Əli Azərli ağır psixi sarsıntılar və işgəncə əzabları ilə vətənə dönür. Azərbaycanda gedən qızğın antisovet və antimüstəmləkə hərəkatına qoşulur.

Mərkəzi qərargahı İtaliyada olan Dünya Transmilli Radikal Hərəkatına qoşulur. Ona normal bir iş verən olmur. Bir neçə dil bildiyinə görə Bakıya gələn türistlərə fərdi şəkildə tərcüməçilik və bələdçilik etməklə güzəranını keçirir.

**Qaynaqlar:**

1. Azərli Əli. Baycan Məhərrəmov haqqında xatirələr (“DS” qrupunun arxivində saxlanılır).

2. Cəfəroğlu İqrar. “Azərbaycan daimi yaşayacaq”, “Azərbaycan qəzeti, 1995, 17 may, sayı 98 (1115)

3. Həsənov Abdulla. “İkinci dəfə Əfqanıstan prezidentı Bəbrək Karməlin Moskvada oxuyan qızı Anahita ilə birlikdə həbs olunduq”, “Azərbaycan” qəzeti, 1993, 17 mart.

4. Rasim. "Mən dissident deyiləm", "7 gün" qəzeti, Bakı, 1993, 30 oktyabr, sayı 37 (127), səh.3.

5. Umudlu İsmayıl. Азербайджанский националист В.Марченко. г. Зеркало, 2000 г., 1 апреля, 60 (817).

6. Zeynaloğlu Q. "Mənə qarşı zorakılığı Y. Maşov eləyib", "Femida" qəzeti, 1995, 29 aprel, sayı 10 (115).

**BİRİYA (Məhəmməd Qulam oğlu Bağırzadə Nuhi, ləqəbi Biriya, d. 1914, İran, Təbriz ş. – ö. 19.02.1985. İran İslam *Respublikası, Təbriz.)***



***Şair, ictimai-siyasi xadim. İranda Azərbaycan Demokrat Firqəsinin (1945) qurucularından biri.***

Dülgər ailəsində doğulub. 1920-ci ildə ailəsi dolanışıq üçün Bakıya köçmüş, lakin burada çox yaşaya bilməmişlər. Bolşeviklərin Azərbaycanı işğalı dindar ailəni qorxutduğundan Xorasana köçmüşlər. Anası xəstələndiyindən 1923-cü ildə yenidən Bakıya qayıtmalı olmuşlar.

1929-cu ildə Bakıdakı 37 saylı yeddiillik məktəbi bitirib. Neft Maşınqayırma Texnikumunun ikinci kursunda oxuyarkən, yəni 1931-ci ildə anası Rübabə dünyasını dəyişir. Qulam Bağırzadə arvadının və qardaşının ölümündən sonra dörd övladı ilə birlikdə, 1933-cü il yanvar ayının 11-də Təbrizə qayıdır.

Məhəmməd Bağırzadə 1934-1936-cı illərdə Təbriz Bələdiyyə İdarəsində qeydiyyatçı işləyir və 1938-ci ildə İran ordusunun Təbrizdəki 27-ci alayının 3-cü bölməsində əsgəri xidmətə başlayır.

Gənc şair zabitlərin qaba rəftarını şeirlərində tənqid edir. Əsgəri xidməti başa vurduqdan sonra Su İdarəsində katib və Dəmiryol İdarəsində hesablayıcı işləyir. "Şahin" qəzetindəki şeirlərini Farsca "riyasız" anlamına gələn Biriya imzası ilə çap etdirir.

Məhəmməd Bağırzadə Biriya İkinci Dünya savaşından sonra ictimai-siyasi fəallığını artır. Güney sərhədlərindən "faşizm təhlükəsi" gözləndiyini bəhanə gətirən Sovetlər Birliyi 1941-ci il avqustunda İrana qoşun yeridərək Araz çayından Tehranadək olan ərazini nəzarət altına alır. Böyük Birtaniya da vəziyyətdən yararlanaraq İranın neftlə zəngin güney bölgələrinə əsgəri birliklər göndərir. İşğal etdiyi bölgədə mövqeyini möhkəmlətmək, gələcəkdə orada sosialist respublikası yaratmaq ümidi ilə Sovetlər Birliyi Sovet Azərbaycanından bir qrup ziyalını hərbi hissələrə əsgər və zabit kimi göndərir.

Sovet Azərbaycanının yardımı ilə işğal altında olan Güney Azərbaycanın şəhərlərində yollara asfalt döşənir, su kəməri çəkilir, çirkab sularının axıdılması üçün qurğular yaradılır, universitet, filarmoniya, teatr, kiçik sənaye obyektləri açılır. Təbrizdə Azərbaycan Türkcəsində "Vətən yolunda" adlı qəzet nəşrə başlayır. Dostluq Cəmiyyətinin salonundakı toplantıların ana dilində aparılması, məktəblilərə ana dilində dərs keçilməsi Güney Azərbaycanda yaşayan sadə xalqın Sovetlərə məhəbbətini gündən-günə artırır. Sovetlərin milli dillərə önəm verməsi Məhəmməd Biriyanın diqqətini çəkir. O, Sovet Azərbaycanından gələn ziyalılarla tez-tez görüşür, onların təşkil etdikləri tədbirlərə qatılır, "Vətən yolunda" qəzetində şeirlərini və məqalələrini çap etdirir, səhnəyə qoyulmaq üçün kiçik həcmli pyeslər yazır.

Şeirlərini "Vətən yolunda", "Azərbaycan", "Xavəre-no" qəzetlərində, eyni zamanda Tehrandakı "Rəhbər", "Mərdom", "Zəfər", "Dəmavənd", "Şöləvər", Rəştdəki "Səfidrud" qəzetlərində nəşr etdirən, mitinqlərdə alovlu çıxışlar edən Məhəmməd Biriya xalq arasında siyasi xadim kimi məşhurlaşır.

1941-ci il dekabrında İran ziyalılarının bir qrupu Bakıya gətirilir. Məhəmməd Biriya da onların arasında olur. On beş gün Bakıda keçiridyi xoş günlərdən ilhamlanan şair Xəzərə, Bakıya, Stalinə həsr etdiyi şeirlərini Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı olan "Kommunist" qəzetində nəşr etdirir.

Bakıda gördüklərindən cuşa gələn şair Təbrizə döndükdə Azərbaycan Cəmiyyətinin sədri Hacı Mirzə Əli Şəbüstəri, İsmayıl Şəms, Mir Mehdi Etimad və b. birlikdə coşqun fəaliyyətə başlayır. Kapitalizmi, imperializmi, müstəmləkəçiliyi tənqid edən şeirlər və məqalələr yazır, toplantılarda dünyanın xilasının sosialistərə bağlı olduğunu söyləyir. Böyük Britanııyanın təzyiqi ilə İran hökuməti öz əleyhdarlarını cəzalandırmaq istəyir. Sovet işğal dariəsinin rəhbərliyi isə tərəfdarlarını və təbliğatçılarını itirmək istəmir.

Məhəmməd Bağırzadə Biriyanı, Hacı Mirzə Əli Şəbüstərini (1898-?), İsmayıl Şəmsi (1918-2008) və Mir Mehdi Etimadı (1900-1981) Azərbaycan Sovet Sosialist Respublikası Daxili İşlər Komissarının müavini, general Səlim Atakişiyev gecə ilə Təbrizdən Bakıya qaçırır.

Bakıda yaşadığı müddətdə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilən və Azərbaycan Radio Komitəsində işə götürülən Məhəmməd Biriya Səməd Vurğunla birlikdə Quba, Qusar və b. bölgələrdəki hərbi hissələrdə olur, əsgər və zabitlərdə ruh yüksəkliyi yaratmaq üçün onların qarşısında alovlu nitqlər söyləyir, mübariz seirlər oxuyur.

Məhəmməd Biriya Bakıda olarkən Sovet Azərbaycanının siyasi xadimləri, dövlət adamları və xüsusi xidmət orqanları ilə görüşür. Xüsusi xidmət orqanlarının, DTK-nın əməkdaşları ondan Sovetlər Birliyinin xeyrinə casusluq edəcəyi haqqında iltizam alırlar. Çox keçmir ki, əməlindən peşman olaraq İranın Bakıdakı konsulu Zəndin qəbuluna gedir, durumu ona anladır və Təbrizə dönmək istədiyini bildirir. Konsulluğun ciddi səyi nəticəsində Məhəmməd Biriya 1943-cü ilin yanvarında Təbrizə dönə bilir.

Orada da Məhəmməd Biriyanı yenidən siyasi işlərə cəlb edirlər. İran Antifaşist Ocağında və İran Kommunistlərinin Hezbi-Tudə (Farsca: xalq partiyası) təşkilatında çalışır. Onu Azərbaycan Həmkarlar İttifaqının sədri seçirlər. Məhəmməd Biriya fəhlələrlə ərbablar (sahibkarlar) arasında 41 maddəlik bir müqavilə də imzalanmasına nail olur.

Məhəmməd Biriya "Qələbə" adlı qəzetə redaktorluq edir, "Çətirbazlar", "Ruznamə idarəsində", "Stalinqrad", "Ərbab və əkinçi", "Mussolini", "Hitler və Mussolini" kimi kiçik pyeslər yazaraq Təbriz Şiri-Xurşid Teatrında, Marağa Şəhər Teatrında səhnəyə qoydurur. Bakıda Azərnəşr şairin 1944-cü ildə "Ürək sözü", "Seçilmiş əsərləri" kitablarını çap edir və "Ürək sözü" kitabı Rus dilinə tərcümə edilir. Onun Təbrizdə və Bakıda 13 kitabçası nəşr olunur.

Məhəmməd Biriya İranı şah zülmündən azad görmək, müstəmləkəçilərdən qurtulmaq üçün çoxsaylı mitinqlər təşkil edir, mitinqlərdə şeir söyləyir, alovlu çıxışlar edir. Fəhlələrin neft məsələsinə həsr edilmiş mitinqlərinin birində Məhəmməd Biriyaya doğru tuşlanmış güllə İsmayıl adında bir mitinq iştirakçısının ölümünə, üç nəfərin yaralanmasına səbəb olur. Gərginliyi aradan qaldırmaq üçün İranın Baş Naziri Məhəmməd xan Saed Marağeyi (1883-1973) 1944-cü ilin noyabrında istefa verir. Vəziyyətdən yararlanan Sovet nümayəndəliyi Məhəmməd Biriyanı Tehrana göndərir. Orada Biriya Hezbi-Tudənin Mərkəzi Komitəsinin katibləri və Fəhlə Təşkilatının rəhbərləri ilə görüşərək geniş fikir mübadiləsi edir.

Təbrizdəki Sovet Mədəniyyət Evi 1945-ci il aprel ayının sonlarında İranın bir qrup ictimai-siyasi fəalını Sovet Azərbaycanının 25 illiyi münasibətilə Bakıda təşkil edilmiş təntənəli toplantılarda iştirak etməyə göndərir. May ayının 7-də onların şərəfinə qonaqlıq verilir. Yüksək rütbəli partiya-sovet işçilərinin qarşısında Məhəmməd Biriya şeir oxuyur, nitq söyləyir. Məclisdə iştirak edən Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin sədri Mixail Kalinin (1875-1946), Azərbaycan Kommunist Partiyası

Mərkəzi Komitəsinin birinci katibi Mir Cəfər Bağırov (1896-1956) Məhəmməd Biriyanı yüksək dəyərləndirirlər. Biriyanın oxuduğu şeir və çıxışı qəzetdə dərc edilir. Bütün bunlar onu göstərir ki, Sovetlər Birliyinin partiya-sovet rəhbərləri, xüsusi xidmət orqanları, İran məsələsi ilə məşğul olan nümayəndələri Məhəmməd Biriyaya böyük ümidlər bəsləyiblər.

Məhəmməd Biriya 1945-ci ilin sentyabrında Parisdə keçirilən Ümumdünya Həmkarlar İttifaqı Konqresinə göndərilir.

1945-ci ilin oktyabrında keçirilən Azərbaycan Demokrat Firqəsinin Birinci Qurultayında Məhəmməd Biriya Mərkəzi Komitənin plenumuna və bürosuna üzv seçilir. İki ay sonra Azərbaycan Milli Məclisinin deputatı, yeni qurulan hökumətin Maarif Naziri olur.

Milli hökumətin nəğməkarı, eyni zamanda ideoloqlarından biri olan şair məktəblərdə dərslərin Azərbaycan Türkcəsində keçilməsinə, yeni tədris proqramının yaradılmasına, dərsliklərin yazılmasına nail olur.

Lakin o, planlarını həyata keçirə bilmir. Dünyanı bölən güclü dövlətlər Güney Azərbaycanın muxtariyyət qazanması ilə razılaşmır. Müttəfiqlərin təzyiqi və İran hökumətinin verdiyi vədlər sayəsində Sovet ordusu İrandan çıxmalı olur. İran hökuməti də "Şuralar Məclisinə azad seçkilər keçirilməsini təmin etmək" bəhanəsi ilə Güney Azərbaycana qoşun yeridir. Azərbaycan Demokrat Firqəsinin rəhbərləri arasında fikir ayrılığı yaranır. Şəbüstəri, Doktor Cavadi, Məhəmməd Biriya Güney Azərbaycana doğru irəliləyən İran əsgəri birliklərinə qarşı dirəniş göstərməyi, Pişəvəri, Sadiq Badəkən isə Sovet Azərbaycanına çəkilib Sovetlər Birliyi vasitəsilə İrana təzyiq göstərməyi təklif edirlər.

1946-cı ilin dekabrında Milli Hökumətin rəhbərlərinin əksəriyyəti, eləcə də hərbi birliklərdə, polis təşkilatlarında olanların böyük bir qrupu Sovet Azərbaycanına keçir. Məhəmməd Biriya Azərbaycan Demokrat Partiyasının baş katibi vəzifəsini öz üzərinə götürür. Partiyanın taktikası və bölgədə nizam-intizamın qorunması haqqında bəyanat hazırlayıb radio ilə oxuyur.




***Biriyanın məzar daşı***

Hökumət qoşunları Təbrizə gəlib çatmamış bölgədəki Milli Hökumətdən narazı qüvvələr təşkilatlanaraq İslam Ordusu adı altında birləşir, hökumət idarələrinə basqın edir, orada işləyənləri, Milli Hökumətin tərəfdarlarını, fədailəri öldürür və ya həbs edir, evlərinə basqın edərək mal-mülklərini talayır, ailələrinə təcavüz edirlər.

İran hökumətinin göndərdiyi əsgəri birliklərin və yerdəki irticaçı ünsürlərin qəddarlığının qarşısını ala bilməyən Məhəmməd Biriya və silahdaşları silahlı müqavimət göstərərək özlərini qorumaq üçün yaxınlıqdakı Sovet xəstəxanasına sığınırlar. Təbrizdəki Sovet konsulu Moskva ilə danışıqdan sonra xəstəxanaya sığınanları konsulluğa gətirir, oradan da 1947-ci il martın 7-də təyyarə ilə Bakıya yola salır. Məhəmməd Biriya Bakıda bərpa olunmuş Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinə üzv və təbliğat şöbəsinə müdir təyin olunur. Hətta onu Bakı Ali Partiya Məktəbində oxumağa göndərirlər.

Sovetlərin yeritdiyi siyasətdən narazı qalan Məhəmməd Biriya 1947-ci il dekabrın 27-də İranın Bakıdakı konsulu Behnamın qəbuluna gedərək Təbrizə dönmək üçün ona pasport verməsini xahiş edir. Sovet rəhbərliyi isə onun geri dönməsindən rahatsız olur. Bilirlər ki, bu çılğın şair İrana dönərsə, hər yerdə Sovetlər Birliyində gördüklərini çılpaqlığı ilə danışacaq. Bu da ən sərt antisovet təbliğat olacaq.

Məhəmməd Biriya İran konsulluğundan evinə dönən günün axşamı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Həsən Həsənov, Azərbaycan Daxişi İşlər naziri, general Teymur Yaqubov, Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini, general Səlim Atakişiyev, polkovnik Məmməd Sarıcallinski, Azərbaycan Sovet Sosialist Respublikası Elmlər Akademiyasının akademiki, tanınmış yazıçı və hökumətdə yüksək vəzifə tutan Mirzə İbrahimov onun yanına gəlir. Onlar Məhəmməd Biriyanı dilə tutur, şirin vədlər verirlər ki, İrana getmək fikirindən daşınsın. Vədlərlə onu fikrindən daşındıra bilmədikdə isə təhdid edirlər. Nə şirin vədlər, nə də təhdidlər Məhəmməd Biriyanı İrana getmək fikrindən daşındıra bilir.

1947-ci il dekabrın 28-də Dövlət Təhlükəsizliyi Komitəsi Kəşfiyat İdarəsinin rəisi Əyyub Qasımov Məhəmməd Biriyanı İrana yola salmaq adı ilə evindən çıxarıb polis idarəsinə təhvil verir.

Yeddi aydan çox davam edən işgəncəli istintaq da Məhəmməd Biriyanın iradəsin qıra bilmir. Əməlində heç bir cinayət tərkibi olmasa da, ona 10 il həbs cəzası verirlər. Onu SSRİ Daxili İşlər Nazirliyinin Luqovsk həbs düşərgəsinə göndərirlər. Şairi "dinc durmadığına", həbsxana qaydalarını pozduğuna görə 1950-ci il noyabrın 20-də yenidən mühakimə edirlər. Ona bir il ciddi nəzarətdə saxlanması hökmünü oxuyurlar. Bu cəza da Biriyanı "sözəbaxan" məhbusa çevirə bilmir. 1951-ci il avqustun 23-də həbsxanada keçirilən məhkəmədə cəzası yenidən sərt-

ləşdirilir və onu Qazaxıstan Respublikasının Karaqanda şəhərindəki 415 saylı İslah Əmək Düşərgəsinə göndərirlər.

Məhəmməd Bağırzadə Biriya həbsxanalardan rəhbər partiya, sovet, hüquq-mühafizə orqanlarına, beynəlxalq təşkilatlara ərizələr yazaraq günahsız həbs edildiyini bildirsə də, onun şikayətlərinə əhəmiyyət verən olmur. 1954-cü il aprelin 3-də Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədri Georgi Malinkova (1902-1988) ərizə yazaraq altı ildən artıqdır günahsız həbsdə yatdığını və vətənə dönmək istədiyini bildirir. Bu ərizəsinə görə onu daha da sıxışdırır, cəzasını artırırlar.

Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı ildə keçirilən 20-ci qurultayında cəmiyyətdəki bütün nöqsanlar ölkəni 30 ilə yaxın qanunlarla deyil, istədiyi kimi idarə etmiş İosif Stalinin adına yazılır. Bundan sonra minlərlə məhbus azadlığa çıxır. 1956-cı il avqustun 30-da Məhəmməd Bağırzadə Biriyanın şikayət ərizəsinə də baxırlar. Onun "əməlində cinayət tərkibi olmadığına görə işə xitam verilir". Bu, 9 il ağır işgəncələr altında həbs cəzası çəkmiş şairə verilən həqiqi bəraət olmur. Həbsxanadan Bakıya dönən Məhəmməd Biriya İslam dinini təbliğ edir, Quran oxuyub, Sovet qanunlarındakı nöqsanları və Sovet həyat tərzini kəskin tənqid edir. Məhəmməd Biriya Sovet hökumətinin imtiyazlarından istifadə etməməklə, şəxsiyyətini təsdiq edəcək hər hansı bir Sovet sənədinə əlini vurmamaqla hakimiyyətə qarşı etirazını bildirmiş olur.

Vətənə – ailəsinin yanına qayıtmaq uğrunda mübarizəsini daim davam etdirir. Bakıdakı İran konsulluğuna gedir. Oradan viza almağın mümkün olmadığını görən şair Moskvaya yollanır. Moskvada Məhəmməd Bağırzadə Biriyanın İran səfirliyinə getmək istədiyini görən Sovet milisi şairi tutub milis idarəsinə aparır. Şəxsiyyəti haqqında sorğularla Azərbaycandan, həbsxanalardan, DTK-dan bilgi aldıqdan sonra "Sovet milisini təhqir etməkdə" suçlayaraq 2 il həbs cəzası verirlər. O, Tambov vilayətindəki həbsxanada saxlanılır.

Həbs müddəti başa çatdıqda Bakıya gəlsə də, orada yaşamasına icazə verilmir. Şamaxıdakı 6 saylı sovxoza sürgün edilir. Daimi təqiblər və təzyiqlər altında olsa da, Sovet Azərbaycanında yaşayan soydaşlarının taleyinə də biganə qalmır. 1957-ci il yanvarın 18-də Azərbaycan hökumətinin rəhbərlərinə 16 maddəlik bir məktub göndərir. Məktubunda yenidən Kiril əlifbasından imtina edib Ərəb əlifbasına qayıtmağın, marksizm-leninizm məktəblərini bağlamağın, Marksın, Engelsin, Lenin və Stalinin heykəllərini götürməyin, sərhədləri açmağın, aləmi-islamın düşməni olan Ermənilən Azərbaycandan çıxarmağın, siyası səbəblərdən həbsə və sürgünə göndərilmiş insanların azad edilməsinin, şəriətin bərpa edilməsinin vacibliyi və s. vurğulanır. İnsanların və millətlərin haqqının tapdandığından bəhs edən bu məktub şairin yenidən təqib və həbsinə səbəb olur.

Uzun sürən mübarizədən sonra şair 1980-ci il sentyabrın 29-da Təbrizə qayıda bilir. İlk günlər İslam inqilabının rəhbərlərini mədh edən, İslam inqilabının tərənnümçüsünə çevrilən şairin ümidləri burada da puça çıxır. Cəmiyyətdəki nöqsanları kəskin tənqid edən şeirlər yazır. Onu burada da həbs edirlər.

Məhəmməd Bağırzadə Biriyanın həbsxanada sağalmaz xəstəliyə tutulduğunu görən hakimiyyət orqanları onun rəsmi surətdə həbsdən azad edildiyini elan edərək Təbrizdəki kimsəsizlər evinə göndəriblər. 1985-ci il fevralın 19-da döyüşkən şair ziddiyətli ömrünü kimsəsizlər evində başa vurur.

**Qaynaqlar:**

1. Azərbaycan Daxili İşlər Nazirliyinin arxivi, Bağırzadə Məhəmməd Qulam oğlunun məhbusluğu haqqında.

2. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivi, Bağırzadə Məhəmməd Qulam oğlunun İstintaq işi, sayı PR 3712, PR 42268

3. Azərbaycan yazıcıları ensiklopediyası, Bakı: 1998.

4. Biriya M. Ürək sözü, Bakı: Azərnəşr, 1944, 116 səh.

5. Biriya Məhəmməd. Hər addımda məzarım var (Şairin tale kitabı. Tərtib edəni N.Rüstəmli, özsöz Ə. Əylisli), Bakı: "Yazıçı" ədəbi nəşrlər evi, 1997, 120 səh.

6. Бирия, Мамед. Слово сердца, Baku: Азернешр, 1945, 146, стр.

7. Qasımov Cəlal. Repressiyadan deportasiyaya doğru, "Mütərcim" nəşriyyatı, Bakı, 1998, 292 səh.

## COŞQUN (İsfəndiyar Əli oğlu Bərxu, ləqəbi Coşqun, d.1929. Gəncə ş. –24.10.1991. Bakı ş.)



***Şair, Güney Azərbaycandakı Demokratik hərəkatın təbliğatçısı, insan haqları müdafiəçisi, milli mübariz.***

Fəhlə ailəsində doğulub. 19 yüzildə Bakıda neftin sənaye üsulu ilə çıxarılması, Gədəbəydə mis mədənlərinin işə salınması dəmiryolunun və şose yollarının çəkilməsinə, gəmiçiliyin inkişafına, yeni yaşayış binalarının, fabrik və zavodların tikilməsinə səbəb oldu. Bütün bunlar işçi qüvvəsinə tələbatı artırdı. Rusiyanın müxtəlif bölgələrindən olduğu kimi, Avropadan da buraya işləməyə gələnlər oldu.

Bakıya gələn işçilər arasında Güney Azərbaycandan olanlar çoxluq təşkil edirdi. Bu da səbəbsiz deyildi.1828-ci ildə çar Rusiyası Qafqazı işğal etdiyində Azərbaycan iki yerə bölün-

müşdü. Güney Azərbaycandan minlərlə insan ailəsini dolandırmaq üçün ucuz işçi qüvvəsi kimi öz dildaşlarının, soydaşlarının və dindaşlarının yaşadıqları bölgəyə gəlirdilər. İsfəndiyar da belə bir ailədə doğulmuşdu.

Bolşeviklər silah gücünə hakimiyyəti əla aldıqdan sonra xalqlara azadlıq verəcəklərini vəd etsələr də, hakimiyyətlərini möhkəmlədən kimi çar Rusiyasının sərhədlərini bərpa etməyə çalışdılar. 1920-ci il aprelin 27-də Azərbaycana qoşun yeritməklə müstəqil respublikanın varlığına son qoydular. İlk günlərdən ziyalılara, var-dövlət, mülk, torpaq sahiblərinə divan tutsalar da, Güney Azərbaycandan gələn ucuz işçi qüvvəsini buradan çıxarmadılar. Buna görə də, İsfəndiyarın ailəsi Güney Azərbaycana dönmədi.

İsfəndiyar Gəncədəki ümumtəhsil məktəbində ana dilində təhsil almağa başladı. Sovetlərin xarici ölkələrə inqilab ixrac etmək istəyi İsfəndiyarın da ana dilində təhsil almasını yarıda qoydu. 1938-ci ildə Sovet Sosialist Respublikaları İttifaqındakı İran vətəndaşlarını qısa müddətdə deportasiya etdilər. Məqsəd o idi ki, Sovet Sosialist Respublikaları İttifaqında on ildən çox yaşamış, sosializm ideyalarına “yiyələnmiş” insanlar vasitəsilə İranda şahlıq rejimini devirib sosialist dövləti qursunlar.

1938-ci il deportasiyası nəticəsində Təbriz şəhərinə köçməyə məcbur olan İsfəndiyarın ailəsi burada bir çox çətinliklərlə üzləşir. Ana dilində məktəbin olmaması İsfəndiyarın təhsilini davam etdirməsini çətinləşdirir. Qanunsuzluğun baş alıb getməsi də əhalinin rejimə qarşı narazılığını artırır. 1941-ci ilin avqustunda Sovet ordusu faşizmə qarşı mübarizə adı altında İranın quzeyini işğal edəndə elə bir ciddi müqavimətlə rastlaşmır.

Sovet Sosialist Respublikaları İttifaqının köməyi ilə ana dilində qəzet və jurnallar çıxır, ümumtəhsil məktəbləri, universitet, kitabxana, filarmoniya açılır, kitablar nəşr edilir, Azərbaycan Demokrat Firqəsi yaradılır. Yeni yaradılmış partiya Azərbayca-

na muxtariyyət tələb edir və 1945-ci ilin dekabrında Milli Hökumət qurulur.

16 yaşlı İsfəndiyar Əli oğlu da azadlıq hərəkatına qoşulur, mücahidlərin sırasında olur, Təbrizdə ana dilində çıxan qəzetlərdə vətənpərvərlik ruhlu şeirlərini çap etdirir. 1946-cı ilin yayında Milli Hökumətin göndərişi ilə hərbi təhsil almaq üçün bir qrup gənclə birlikdə Bakıya gəlir. ABŞ, Böyük Britaniya və Fransanın dəstəyi ilə İran şah rejimi 1946-cı ilin dekabrında Azərbaycan Milli Hökumətini devirir. Sovetlər İran neftində pay sahibi olacağı ümidilə Milli Hökuməti müdafiə etmir. Əslində Milli Hökumətin dağılmasını və məğlubiyyətə uğramasını surətləndirir. Beləcə, İsfəndiyar Bərxu Bakıda qalmalı olur.

1947-ci ildə Sovet Azərbaycanında Milli Hökuməti bərpa etmək istəyənlərin yaratdıqları "Gənc qvardiyaçılar" dəstəsinə qoşulur. Milli Hökuməti bərpa etmək istəyənlərin rəhbəri Seyid Cəfər Pişəvəri 1947-ci il iyul ayının 11-də Kür çayı üzərində, Yevlax şəhərində salınmış körpüdə avtomobil qəzasına salınaraq öldürülür. Onun tərəfdarlarının bir qismi isə həbs edilərək, Sibirə göndərilir, "Gənc qvardiyaçılar" da dağıdılır.

İsfəndiyar Bərxu Bakı Neft Texnikumunda oxuduğu və neft mədənlərində işlədiyi dövrdə mühacir Azərbaycan Demokrat Firqəsinin işində fəal iştirak edir, vətənpərvərlik mövzusunda şeirlər yazır.

Mühacir Azərbaycan Demokrat Firqəsi üzvlərinin həbsi, şeirlərinin nəşr edilməməsi, azad, müstəqil söz deyənlərin sıxışdırılması, Güney Azərbaycandan Sovet Azərbaycanına mühacirət edənlər arasındakı narazılıqlar İsfəndiyar Bərxunun Sovet hakimiyyətinə və Kommunist Partiyasının yeritdiyi siyasətə inamını azaldır. 1956-cı ildə keçirilən Sovet İttifaqı Kommunist Partiyasının 20-ci qurultayı onun Kommunist Partiyasından narazılıqlarının səbəblərini təsdiqləmiş olur. Bununla yanaşı, onda bir inam yaranır ki, ölkədə demokratik dəyişikliklər baş verəcəkdir.

Sovet İttifaqı Kommunist Partiyasının 20-ci qurultayının qərarlarını əldə bayraq edərək, iş yerində Azərbaycanda insan haqlarının pozulduğunu, SSRİ proqramına və Sov. İKP-nin Konstitusiyasına yerlərdə əməl edilmədiyini, Azərbaycan neftindən gələn gəlirin Azərbaycan Respublikasının iqtisadiyyatının yüksəldilməsinə sərf olunmadığını söyləyir. Buna görə də, dəfələrlə onu siyasi təşkilatların rəhbərləri, DTK-nın yerli şöbəsinin əməkdaşları söhbətə dəvət edirlər. Belə söhbətlərdə istər ideoloqlar, istərsə də DTK əməkdaşları İsfəndiyar Bərxunun suallarına məntiqli cavab verə bilmirlər.

İsfəndiyar Bərxunun söhbətlərinin və oxuduğu şeirlərin fəhlələr arasında güclü təsir oyatdığını gördükdə onu müxtəlif üsullarla cəzalandırır, toplantılara qatılmasını əngəlləyir, beləcə işdən uzaqlaşmasına çalışırlar.

1957-ci ildə İsfəndiyar Bərxu neft mədənlərində işdən çıxır. Həmin dövrün qanunlarına görə işləməyən adamları həbs edir və ya məcburi işə cəlb edirdilər. İsfəndiyar Bərxuya isə bu qanunu tətbiq etmirlər. Bilirlər ki, harada işləsə, orada “antisovet təbliğatı aparacaq”.

İsfəndiyar Bərxu toplantılarda Bakıda fəaliyyət göstərən mühacir Azərbaycan Demokrat Firqəsi rəhbərlərinin DTK ilə sıx əməkdaşlıq etməsini kəskin tənqid edir. Dəfələrlə onunla aparılan “profilaktik söhbətlərin” nəticə vermədiyini görüb, 1958-ci ildə Azərbaycan Demokratik Firqəsindən uzaqlaşdırırlar.

İsfəndiyar Coşğun Asif Kərimovun təşəbbüsü ilə 1976-cı ilin yayında Sovetlər Birliyinin tərkibindəki  Azərbaycanla İranın tərkibindəki Azərbaycanı birləşdirmək hədəfi daşıyan Azərbaycan Milli Demokratik İttifaqına daxil olur.

İranda şahın qaçması, ölkədə baş verən inqilabi əhvali-ruhiyyə Milli Demokratik İttifaqın üzvlərini də fəallaşdırır. Onlar Güney Azərbaycanda müstəqil dövlət yaradılması ideyasını, yeni yaradılacaq dövlətə Sovet Azərbaycanında yaşayanların da yardım etməsinin vacibliyini təbliğ etməyə başlayırlar. Buna gö-

rə də, Asif Kərimovu DTK-ya aparıb dörd saatlıq söhbətdə izah etməyə çalışırlar ki, gənclərin hərəkətı doğru deyil. Söhbətdən sonra ondan izahat alıb buraxırlar. Əsli Təbrizdən olan İsfəndiyar Coşqunu isə özünü çılğın apardığına, fikirlərində, əməllərində haqlı olduğunu söylədiyinə, DTK əməkdaşlarını vətənpərvər, millətsevər olmamaqda suçladığına görə psixoloji dispanserə "müalicə"yə göndərirlər.

İşdən və partiya sıralarından uzaqlaşdırılmış, xaricə getməsi əngəllənmiş İsfəndiyar Bərxu "Coşqun" imzası ilə yazdığı şeirlərini şifahi yaymağa başlayır. Sovet rejimini ifşa edən "Hökmdar", "Bərxulu heykəl", "Net takaya partiya" kimi şeirləri xalq arasında yayılır. Hətta Almaniyadakı mühacirlərə belə gedib çatır. Dəfələrlə DTK -ya (KGB) çağırılıb öyüd-nəsihət edilməsi, hədə-qorxu gəlinməsi də nəticə vermir. Onun üzv olduğu kiçik gizli antisovet dərnək 1987-ci ildə Bakıda yaradılan "Çənlibel" Elmi-Ədəbi Birliyinə qoşulur.

"Çənlibel" Elmi-Ədəbi Birliyinin toplantılarında fəal iştirak edən, radikal çıxışları ilə yadda qalan İsfəndiyar Bərxu "Coşqun" ləqəbilə yazdığı şeirləri də burada yaymağa imkan qazanır.

İctimai birliyin siyasiləşməsinə, partiyaya çevrilməsinə maraqlı olan ziyalılar yaxşı bilirdilər ki, ölkədəki mövcud qanunlar siyasi partiya yaratmağa imkan vermir. Ona görə də, bunu "birlik", "cəmiyyət", "dərnək" və s. adılandırırdılar. İsfəndiyar Coşqunun evində toplanan İsmayıl Təriqpeyma, Əbülfəz Əliyev (Elçibəy), Firudin Cəlilov, Hatəmi Tantəkin "Varlıq" Birliyini yaradırlar. Lakin bu birlik aparıcı möveyə çıxa bilmir. Çünki bütün qurumların bir araya gəlmə zərurəti və Xalq Cəbhəsi ideyasının geniş yayılmağa başlaması yeni, daha ümumi bir qurumun yaranmasını gərəkdirirdi. Azərbaycan Xalq Cəbhəsi – AXC məhz bu zərurətdən ortaya çıxdı...

İsfəndiyar Coşqun Azərbaycanda başlayan müstəqillik uğrundakı mübarizədə fəal və radikal çıxışlar edir, mitinq iştirakçıları arasında antisovet təbliğat aparır. 1988-ci il oktyabrın 30-da

Hatəmi Tantəkin, Eldar İbrahim, İsfəndiyar Coşqun və b. Xalq Hərəkatı Cəbhəsinin Keçici Mərkəzini qurduqlaını elan edirlər. 1988-ci il noyabrın 17-dən dekabrın 5-dək Bakıda davam edən çoxminli mitinqlərdə İsfəndiyar Bərxu da Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda çıxış edənlərlə bir sırada olur. O, bir sıra mitinq və küçə yürüşlərində də mübarizəsini davam etdirir. Buna baxmayaraq, 1988-ci il noyabr-dekabr mitinqlərinə görə həbs edilən Hatəmi Tantəkin 1989-cu il iyun ayında həbsdən çıxdıqdan sonra İsfəndiyar Çoşqunu xəyanətdə, Xalq Hərəkatı Cəbhəsini parçalayıb dağıtmaqda suçlayır.

Mübarizə yoldaşlarının ittihamlarına, suçlamalarına baxmayaraq o, mübarizəsini davam etdirir. 1989-cu il iyulun 8-də "Birlik" Cəmiyyətinin rəhbərlərindən biri kimi İsfəndiyar Bərxunu həbs edirlər. Bir neçə aylıq həbsxana həyatı, orada verilən işgəncələr və mənəvi təzyiqlər 60 yaşlı şairin səhhətini pozur. Həbsdən çıxdıqdan sonra xəstəliklərinə görə milli azadlıq mübarizi, insan haqlarının müdafiəçisi İsfəndiyar Bərxu əvvəlki gücü ilə mübarizəsini davam etdirmək iqtidarında olmur. Ancaq yenə də Sovet rejiminin pəncəsindən qurtula bilmir.

Azərbaycan parlamenti Suverenlik Aktını qəbul etdikdən (18.10.1991) bir necə gün sonra o, dünyasını dəyişir.

**Qaynaqlar:**

1. Çoşqun İsdəndiyar Bərxu. Şeirləri (Bilgisayar variantı "DS" qrupunda saxlanılır).

2. Hatəmi Tantəkin. Acı həqiqətlər (xatirələr). (Əlyazması "DS" qrupunda saxlanılır).

3. Şamil Əli. Arif Şirin. Bir ozan tanıyıram, Tanıdığım insanlar. Birinci kitab, (bilgisayar mətni). Kitab 2000-cı ildə "Sumqayıt" nəşriyyatında çap olundu.

4. Tahirzadə Ədalət. Meydan: 4 il, 4 ay (Azərbaycan Xalq Hərəkatı haqqında gündəlik qeydlər). İki cilddə (1988-1989), Bakı:"Ay-Ulduz" nəşriyyatı, 1997.

5. Ulutürk Xəlil Rza. Lefortovo zindanında, Bakı: “Azərbaycan” nəşriyyatı, 1998.

**ELÇİBƏY (Əbülfəz Qədirqulu oğlu Əliyev, d. 24.06.1938, Naxçıvan MSSR Ordubad rayonu Kələki kəndi – 22.08.2000,** ***Ankarada Gülxanə xəstəxanasında dünyasını dəyişib, Bakı-daFəxri Xiyabanda dəfn edilib.)***



***Tarixçi, ictimai-siyasi xadım, dövlət rəhbəri, Azərbaycan Xalq Cəbhəsinin, Azərbaycan Xalq Çəbhəsi Partiyasının, Bütöv Azərbaycan Birliyinin, Demokratik Konqresin sədri, Türk Xalqları Assambleyasının fəxri sədri, Azərbaycan Respublikasının ikinci Prezidenti.***

Kolxozçu ailəsində doğulub. Atası Qədirqulu Əliyev İkinci Dünya Savaşında itkin düşüb.

Kəndlərindəki ibtidai məktəbi bitirdikdən sonra təhsilini qonşu Unus kəndindəki 7-illik məktəbdə və Ordubad şəhərindəki 1 saylı orta məktəbdə davam etdirib. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası şöbəsinə girib. 1962-ci ildə təyinatla SSRİ Hidrolayihə İnstitutunun Bakı şöbəsində tərcüməçi işləməyə göndərilib. 1963-cü ilin yanvarından 1964-cü ilin oktyabrınadək Birləşmiş Ərəb Respublikasında (Misir) Nil çayı üzərindəki Əsvan bəndinin tikintisində tərcüməçi işləyib.

Misirdəki söhbətlər, tikintinin gedişi ilə maraqlanan dövlət məmurlarının rəsmi və qeyri-rəsmi danışıqları arasındakı fərqlər

onun bir dissident kimi formalaşmasına təsir edib. Xalqların bərabərliyindən, demokratiyadan danışan rəhbər Sovet işçilərinin Misirdə sosialist respublikası qurmaq adı altında oranı əslində necə müstəmləkəyə çevirmək istədiklərini görüb. Vətəni Azərbaycanın da başına gətirilən bəlaların səbəbini sanki orada daha dərindən anlayıb.

Vətənə döndükdən sonra Azərbaycan Dövlət Universitetinin aspiranturasına qəbul olunub. 1969-cu ildə akademik Ziya Bünyadovun (1921-1997) elmi rəhbərliyi altında "Tulunilər dövləti (868-905)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alıb.

1968-1975-ci illərdə Əbülfəz Əliyev ADU-da "Asiya və Afrika ölkələri tarixi" kafedrasında müəllim və baş müəllim işləyib. Bu da ona tələbələrlə ünsiyyət qurmasına, fikirlərini eyhamlarla da olsa, gənclərə çatdırmasına şərait yaradıb. Tezliklə onun fikirləri tarix fakültəsindən kənarda da yayılmağa başlayıb. Başqa fakültələrin tələbələri də onun mühazirələrini dinləməyə gəliblər.

Ölkədə dərnək qurmağın, ictimai təşkilat yaratmağın qadağan olduğunu bildiyinə görə fikirlərini yaymaq üçün çayxanalardan istifadə edib. Onun söhbətlərini maraqla dinləyən gəncləri təşkilatlandırmaq üçün gizli dərnəklər qurub. Dərnəklər sürətlə Azərbaycanın hər yerinə yayılıb.

Əbülfəz Əliyevin fəaliyyəti Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-nın) diqqətindən yayınmayıb. Onun üzərində nəzarət artırılıb. Ancaq rəsmi danışıqlarında, mühazirələrində, çayxana söhbətlərində hökumət əleyhinə ciddi bir fakt tapa bilməyiblər. Buna görə də, haqqında cinayət işi açıb məhkəməyə vermək mümkün olmayıb.

Eyni zamanda o, Azərbaycanın birləşdirilməsi ideyasını da dönmədən təbliğ edib. 1974-cü ilin yayında Əbülfəz Əliyevin tələbələrindən Fəzail Ağamalıyev iki aylıq hərbi təlimdə olarkən təşkilata yeni üzv cəlb etmək məqsədilə yaşıdlarından biri ilə söhbət edib, ancaq həmin yoldaşının Azərbaycan DTK-sında

yüksək vəzifədə işləyən bir zabitin oğlu olduğunu bilməyib. Beləcə, DTK Əbülfəz Əliyevin sadəcə cəmiyyətdəki catışmazlıqlardan narazı bir ziyalı deyil, həm də gizli təşkilat rəhbəri olduğunu öyrənib. Onun və çevrəsindəkilərin fəaliyyətini altı aya yaxın izlədikdən sonra Azərbaycan DTK-sı 1975-ci ilin yanvarında onu "tələbələr arasında millətçi və antisovet təbliğat aparmaqda" suçlayaraq istintaqa cəlb edib.

Əbülfəz Əliyevi tanıyanlardan gizli dərnək üzvü ola biləcəyini ehtimal etdiklərini sorğu-suala çəksələr də, onlardan az bir qismini məhkəməyə şahid qismində çağırıblar. Əbülfəz Əliyev məhkəmədən sözünü açıq deməyə tribuna kimi istifadə edib. SSRİ-də həm insan haqlarının, millətlərin və xalqların hüquqlarının tapdandığını, həm də rüşvətxorluq, saxtakarlıq, yaltaqlıq, rəqəmlərin şişirdilməsi kimi halların baş alıb getdiyini söyləyib. Gizli dərnək üzvlərinə qarşı başlanacaq hər məhkəmədə belə ittihamlar səslənəcəyindən, bu fikrin də təkcə mühakimə olunanların, şahidlərin deyil, mühakimə edənlərin, vəkillərin, onların qohum və tanışlarının arasında geniş yayılacağından ehtiyatlanan dövlət rəhbərləri təkcə Əbülfəz Əliyevin həbsi ilə kifayətlənib. Onu Qaradağdakı islah-əmək düşərgəsinə göndəriblər. Məhkumluq müddətində oradakı daş karxanasında işləyib.

1976-ci il iyulun 7-də həbsdən azad olan Əbülfəz Əliyev dekabradək işsiz qalıb. Elm və təhsil ocaqlarında onu işə götürməkdən imtina ediblər. 1976-cı ilin dekabrında onu Azərbaycan EA Əlyazmalar İnstitutuna kiçik elmi işçiliyə qəbul ediblər. Sonrakı illərdə İnstitutda böyük elmi işçi, şöbə müdiri, aparıcı elmi işçi işləyib.

Klassik və müasir ərəb dilini, Şərq ölkələrinin tarixini, fəlsəfəsini, mədəniyyətini dərindən bilən Əbülfəz Əliyev ADU-nun "Elmi əsərlər"ində, Azərbaycan EA-nın "Xəbərlər"ində, "Əlyazmalar xəzinəsində" toplusunda və b. nəşrlərdə *"Əhməd ibn Tulun və Tulunilər dövlətinin yaranması"* (1967), *"Abbasilər xilafətinin tənəzzülü və parçalanmasına dair"* (1968), *"9-10-cu*

*əsrlər Ərəb-Misir ədəbiyyatı haqqında”* (1971), *“Tulunilər dövləti və Qərmətilər”* (1971), *“Abbasilər xilafətinin parçalanması və feodal dövlətlərinin yaranmasına dair”* (1971), *“9-cu yüzilliyin 2-ci yarısında Misirdə sənətkarlıq və ticarət”* (1972), *“Hənəfilik və onun əsas qaydaları”* (1986), *“Əhməd Tantarani Maraği və onun "Tantaraniyyə" qəsidəsi”* (1987) və başqa bir çox dəyərli elmi əsərlərini yayınladıb.



***Elçibəy mitinqdə çıxış edərkən***

1987-ci il fevralın 17-də Bakıda fəaliyyətə başlayan “Çənlibel” Elmi-Ədəbi Birliyinin toplantılarına qatılaraq orada çıxışlar edib, özünə tərəfdarlar toplayıb. 1988-ci ildə Xalq hərəkatı genişlənəndə Əbülfəz Əliyev “Elçibəy” ləqəbi ilə tanınmağa başlayıb. Beləcə, ona fikirlərini çayxanalarda, 100-200 nəfərin toplaşdığı qapalı salonlarda deyil, 10 minlərlə insanın toplaşdığı açıq meydanlarda söyləmək imkanı yaranıb.

1988-ci il martın 16-da Elmlər Akademiyasında keçirilən mitinqdə o, xalqı qorumaq üçün Müdafiə Cəmiyyəti yaratmağı təklif edib, may ayının 16-da Lenin (Azadlıq) meydanındakı mitinqdə isə artıq bu cəmiyyətin yaradıldığını bildirib.

Bakıdakı Lenin meydanında 1988-ci il noyabrın 17-dən başlayıb dekabrın 5-dək aramsız davam edən və Sovet ordusu tərəfindən dağıdılan çoxminli mitinqlərdə Əbülfəz Elçibəy tribunada az-az görünsə də, daha çox insanlar içərisində təşkilati işlərlə məşğul olub. Mitinq dalğası Azərbaycanın rayonlarını da bürüyüb. Naxçıvanda, Şəkidə, Gəncədə və b. bölgələrdə mitinq iştirakçıları ilə güc strukturları arasında qarşıdurma yaranıb. Bu qarşıdurma hökumət binalarının, zirehli texnikanın, polis maşınlarının yandırılması ilə nəticələnib. Mitinq dağıdılanda yüzlərlə insan xəsarət alıb və həbs edilib. Həbs edilənlər arasında Əbülfəz Elçibəy də vardı.

Həbsi başa vurduqdan sonra Əbülfəz Elçibəy gizli dərnək və qruplaşmalardan Azərbaycan Xalq Cəbhəsi (AXC) özəklərinin yaradılmasına başlayıb. 1989-ci il iyulun 16-da AXC İdarə Heyəti formalaşdırılıb və Elçibəy ömrünün sonunadək bu təşkilata sədrlik edib.

AXC olduqca çətin şəraitdə gərgin mübarizə aparıb. O, bir yandan Qarabağda Qorbaçovun həvəsləndirdiyi separatçı ermənilərin təcavüzünün qarşısını almağa çalışıb, bir yandan da ölkənin demokratikləşməsi üçün mücadilə edib. 1989-cu ildə ölkədə açıq-aşkar ikihakimiyyətlilik yaranıb. Bu zaman Azərbaycanda hakimiyyət iki gücdə idi – arxasında xalqın çoxluğunun dayandığı Azərbaycan Xalq Cəbhəsində və vəzifəsini qorumaq üçün Moskvaya sədaqətini göstərməyə məcbur olan, gündən-günə zəifləyən dövlət orqanlarında.

Olduqca güclü antisovet, antiimperialist və demokratik bir quruma çevrilən AXC Azərbaycanda mitinqlər keçirməklə kifayətlənmədi, fabrik və zavodların, idarə və təşkilatların tətil etməsinə nail olmaqla Sovet idarəetmə sktrukturlarını iflic vəziyyətinə saldı. Bu da Sovet rəhbərliyini vəziyyətdən çıxış yolları axtarmağa məcbur etdi. Hadisələrin gedişi açıq-aydın göstərirdi ki, növbəti seçkilərdə xalq fəal iştirak edəcək və öz səsini Xalq Cəb-

həsinə verəcək. Sözdə demokratiyadan, yenidənqurmadan dəm vuran Sovet rəhbərliyi kommunist nomenklaturasını qorumaq, hakimiyyəti itirməmək üçün təxribata əl atdı. SSRİ-nin dövlət başçılarının, Siyasi Büro üzvlərinin və müdafiə nazirinin ezam olunduğu Bakıya erməniləri qorumaq bəhanəsi altında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ordu yeridildi və ölkədə fövqəladə vəziyyət elan olundu.

Müdafiə naziri Yazov 131 nəfər dinc sakinin ölümü və yüzlərlə insanın ağır yarlanması ilə nəticələnən bu qəddar aksiyanın məqsədinin Azərbaycanda "AXC-nin strukturlarını dağıtmaq" olduğunu çəkinmədən söylədi. Lakin zirehli texnikaya və modern atıcı silaha malik əsgəri birliklərin Azərbaycana hücumu əks-təsirsiz qalmadı. Sovet əsgəri birliklərinin hesabatında 1990-cı il hadisələrində Bakıdakı qarşıdurmada 127 nəfər hərbçinin öldürüldüyü də qeyd edilib.

Elçibəyin tədbirli siyasəti sayəsində Xalq Cəbhəsi nəinki məhv olmadı, əksinə, minlərlə insan meydanlarda partiya biletini yandıraraq Kommunist Partiyasının buraxılmasını, Azərbaycanın SSRİ-dən çıxaraq müstəqil olmasını daha qətiyyətlə tələb etməyə başladı.

13-17 iyul 1991-ci ildə keçirilən AXC-nin 1-ci qurultayı Azərbaycanın ictimai-siyasi həyatında böyük hadisəyə çevrildi. Əbülfəz Elçibəy iki saatlıq siyasi məruzəsində Azərbaycandakı, SSRİ-dəki və dünyadakı siyasi vəziyyəti təhlil etdi. O, Azərbaycanın müstəqilliyə qovuşacağını, kommunist partiyasının dağılacağını və SSRİ-nin mərhələ-mərhələ parçalanacağını söylədi.

Sovet imperiyasını xilas etmək üçün bir qrup rəhbər işçi 19 avqust 1991-ci il avqustun 19-da M.S.Qorbaçovu hakimiyyətdən kənarlaşdırdı. Dövlət Fövqəladə Vəziyyət Komitəsi (Rusca "QKÇP" adıyla daha çox məşhurdur) ölkədə diktatura yaratmaq istədi. SSRİ-dəki demokratlar içərisində ilk dəfə məhz Əbülfəz Elçibəy və Litva AS-nin sədri Vitautas Landsbergis bu çevrilişə

etiraz səsini ucaltdılar. AXC rəhbərliyi çevrilişlə bağlı rəsmi etiraz bəyanatı yaydı. AXC sədri elə bununla da Sovet imperiyasının məhv olacağını bəyan etdi.

İranda səfərdə olan Azərbaycan KP MK-nın birinci katibi və Azərbaycan prezidenti Ayaz Mütəllibovun dəstəyi ilə qaragüruhçu qüvvələr 1991-ci il avqustun 23-də AXC-nın qərargahını dağıdaraq Elçibəyi öldürməyə cəhd etdilər. O, terrordan ağır yara almaqla qurtardı.

Bu amansızlıq xalqı hövsələdən çıxardı. Avqustun 26-da fövqəladə vəziyyət olmasına baxmayaraq çoxminli insan axını küçələrdə hərəkəti məhdudlaşdırmış hərbi maşınlar cərgəsini yararaq Lenin meydanını tutub mitinqlərə başladı. Hökumət mitinqi dağıda bilmədi. Elçibəyin göstərişiylə AXC təzyiqləri artırdı və hökumət güzəştlərə getməyə məcbur oldu. "Kommunist" qəzetinin adı "Xalq qəzeti"nə çevrildi, Lenin meydanı "Azadlıq meydanı" adlandırıldı, Leninin heykəli oradan götürüldü.

AXC-nin mübarizəsi getdikcə məqsədyönlü və səmərəli oldu. Avqustun 30-da Azərbaycan Ali Sovetinin (AS) növbədənkənar sessiyası Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi, fövqəladə vəziyyəti götürdü və milli özünümüdafiə qüvvələri yaratmağa razılıq verdi. Azərbaycan AS AXC-nin təzyiqi altında 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyi haqqında tarixi Aktı qəbul etdi.

1992-ci il yanvarın 25-27-də keçirilən AXC 1-ci qurultayının 2-ci dövrəsində təşkilatın Elçibəyin rəhbərliyi ilə yazılmış Məramnamə və Nizamnaməsi qəbul olundu.

1992-ci il fevralın 11-də Elçibəyi cismən məhv etməyə təşəbbüs göstərildi, ancaq təşkil olunmuş növbəti sui-qəsd baş tutmadı.

AXC Ali Məslisinin 15-16 fevral tarixli sessiyası artıq hakimiyyət məsələsini müzakirəyə çıxardı. AXC ətrafında birləşmiş xalqın güclü təzyiqi nəticəsində 5 martda Ali Sovetin sədri

Elmira Qafarova, 6 martda prezident Ayaz Mütəllibov istefa verməli oldu. Ali Sovetin yeni sədri Yaqub Məmmədov prezident səlahiyyətlərini icra etməyə başladı.

Ali Sovetin 25 martdakı fövqəladə sessiyası 7 iyunda prezident seçkiləri keçirməyi qərara aldı. Seçki günü yaxınlaşdıqca Rusiya və onun nüfuzu altındakı yerli hakimiyyət Elçibəyin simasında AXC-nin hakimiyyətə gələcəyini aydın hiss edirdi. Buna yol verməmək üçün prezident seçkilərinin keçirilməsini əngəlləmək yolu tutdular, ancaq təxribatlar prezident seçkilərinə mane ola bilmədi.

7 iyun 1992-ci ildə Azərbaycan Respublikasında ilk dəfə demokratik seçkilər keçirildi və AXC-nin sədri Əbülfəz Elçibəy xalqın səs çoxluğu ilə prezident seçildi. O, bütün gücü ilə ölkədə demokratiyanın bərqərar olmasına, Azərbaycanın tam suveren dövlətə çevrilməsinə və xalqın rifahının yaxşılaşmasına çalışdı. Keçmiş Sovet respublikaları arasında Azərbaycan birinci olaraq 90 min nəfərlik Rus ordusunun ölkədən çıxarılmasına nail oldu.

Elçibəyin rəhbərliyi altında ölkənin siyasi sistemini dəyişdirmək istiqamətində də uğurlu addımlar atıldı. Siyasi partiyalar və ictimai təşkilatlar haqqında, kütləvi informasiya vasitələri haqqında qanunların qəbul edilməsi totalitarizm buzunu sındırdı. Həmin qanunlar əsasında 30-a qədər siyasi partiya, 200-dən artıq ictimai birlik, 500-dən artıq mətbuat orqanı və informasiya vasitəsi qeydiyyata alındı. Prezident Aparatında hazırlanmış və Milli Məclisə təqdim edilmiş Seçkilər haqqında qanun Azərbaycanda ilk dəfə olaraq parlament seçkilərinin çoxpartiyalılıq əsasında keçirilməsini nəzərdə tuturdu.

Elçibəyin başlıca məqsədi Azərbaycanı Asiya və Avropanı bir-birinə bağlayan neft və qaz boru xətlərinin, avtomobil və dəmir yollarının qovşağına çevirməkdi. Ali və orta ixtisas məktəblərinə qəbulun test üsulu ilə keçirilməsi Elçibəy iqtidarının mühüm uğurlarındandır. Mindən çox gəncə onlarca xarici ölkədə nadir

ixtisaslar üzrə təhsil almaq imkanı yaradıldı (12 dekabr 1992). Uzun müddət müzakirə obyektinə çevrilmiş latın əlifbasına keçidə də, nəhayət, nail olundu.

Elçibəy hakimiyyətinin gerçəkləşdirdiyi ən önəmli işlərdən biri SSRİ-dən qopmuş yeni müstəqil dövlətlər içərisində ilk dəfə olaraq Azərbaycanın çox qısa müddətdə (cəmi bir il içərisində) milli ideologiyaya əsaslanan tam yeni proqram və dərsliklərinin (o sıradan orta məktəblərimiz üçün 7 ictimai fənn üzrə proqramlar və 82 adda dərslik) yaradaraq meydana qoyması oldu.

1993-cü ilin iyununda Rusiyanın və Azərbaycan neftindən daha çox pay qoparmaq istəyən xarici ölkələrin dəstəyi ilə silahlı yolla hökumət çevrilişi edildi. 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə Əbülfəz Elçibəy ölkədə vətəndaş qarşıdurmasına yol verməmək üçün doğulduğu Kələki kəndinə getməyə məcbur oldu. Mövcud rejimin arasıkəsilməz basqıları altında Kələkidə 4 il 4 ay yaşamağa məhkum edilmiş Elçibəyin imkanları nə qədər məhdud olsa da, böyük mətinliklə siyasi mübarizəsini davam etdirdi, oradan müxalifətin fəaliyyətinə yön verdi.

1997-ci il oktyabrın 30-da Bakıya dönən Elçibəy yenidən Azərbaycan müxalifətinin liderinə çevrilərək bir-birinin ardınca Demokratik Konqres, Bütöv Azərbaycan Birliyi (BAB) kimi demokratik təşkilatlar yaradıb (1997) onlara rəhbərlik etdi.

"Qafqazda ən böyük demokrat" adlandırılmış Əbülfəz Elçibəy yalnız Azərbaycanda və Qafqazda deyil, bütün Türk Dünyasında bacarıqlı lider və müdrik yolgöstərən kimi tanınıb. O, Türk Xalqları Assambleyasının fəxri sədri seçilmişdi.

Çağdaş Azərbaycan ictimai-siyasi şüuruna yön verən və gerçək milli lider kimi qəbul edilən Əbülfəz Elçibəyin siyasi-nəzəri görüşləri "Bu, mənim taleyimdir" (Bakı, 1992), "Deyirdim ki, bu quruluş dağılacaq" (Bakı, 1992), "Bütöv Azərbaycan yolunda" (İstanbul, 1998) kitablarında öz əksini tapıb.

**Qaynaqlar:**

1.Dövlət başçılarının Ümumavropa görüşü. Helsinki, 8-10 iyun 1992. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 1992.

1. Ebülfez Elçibey'in Bakü'ye dönüşü Azerbaycan basınında. İstanbul: Genç Aydınlar Harekatı serisi, 1997.
2. Elçibəy Əbülfəz. Azadlıq və demokratiya. İstanbul: 1992.
3. Elçibəy Əbülfəz: Bu mənim taleyimdir. Tərtib edənlər: Becan İbrahimoğlu, Ədalət Tahirzadə. Bakı: "Gənclik" nəşriyyatı, 1992.
4. Elçibəy Əbülfəz: Deyirdim ki, bu quruluş dağılacaq. Nəşrə hazırlayan: Ədalət Tahirzadə. Tərtibçi: Mircəlal Yusifov. Bakı: "Gənclik" nəşriyyatı, 1992.
5. Gezenferoğlu Fazil. Ebülfez Elçibey. Tarihten geleceğe. İstanbul, 1995.
6. Memmedov Oktay. Elçi bey ile birge otuz yıl. İstanbul: 1999.
7. Nerimanoğlu Kamil Veli. Azerbaycan Türklerinin Azadlıg Elçisi Ebülfez Eli Elçibey. İstanbul: Türk Dünyası Araşdırmaları Vakfı yayınları, 1992.
8. Sametoğlu Akın. Elçibey və Azerbaycan. İstanbul: 1994.
9. Tahirzadə Ədalət. Elçibəylə 13 saat üz-üzə. Bakı: "Tanıtım" qəzetinin nəşri, 1999.
10. Tahirzadə Ədalət. Elçi Bəy. Bakı: "Cümhuriyət" qəzetinin nəşri, 1999.
11. Umudlu İsmayıl. Azərbaycanda dissidentlik: belə bir şey olmuşdurmu? "Ayna- Zerkalo" qəzeti, 1997-ci il, 1 fevral, 4 (489).
12. Umudlu İsmayıl. Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı. Bakı: "Oğuz eli" nəşriyyatı. 1999.

**FARKA İSMAİL (İsmail Rubeyzi Abedin oğlu Farka, d. 20.04.1933, Albaniya Xalq Sosialist Respublikası, Şıkoddere ş.- 12.10.2018, Bakı ş, Süvəlan qəsəbəsi)**

***Diplomat, insan haqları müdafiəçisi, Sovet psixoterapiyalarında üzərində təcrübəl aparılmış insan.***



Vəkil ailəsində doğulub. Atası 1939-cu ildə Albaniyanın paytaxtı Tirana şəhərinə köcüb. Rubeyzi Abedin Farka İkinci Dünya savaşına aparılıb və cəbhədən dönməyib. Anası Siuri Zübeydi Bayram isə 1943-cü ildə xəstəlikdən ölüb. 10 yaşlı İsmaili nənəsi Renni Farkayla əmisi Metin böyüdür.

1949-cu ildə Tiranada gimnaziyanı bitirib. Həmin dövrdə Sovetlər Birliyi sosializm cəbhəsi adı altında Şərqi Avropanı öz təsiri altında saxlayırdı. Savaş Alban xalqına da ağır zərbə vurmuşdu. Onları bir neçə yerə parşalamışdılar. Ənvər Xocanın cəsarəti və siyasəti nəticəsində Balkan yarımadasının güney-doğusunda, Adriatik dənizi ilə dağlar arasındakı vadidə, 28.7 min kv.km sahədə Albaniya Xalq Sosialist Respublikası qurulmuşdu. Albanların bir hissəsi Makedoniyada, bir hissəsi Kosovoda, bir hissəsi Qaradağda, bir hissəsi Yunanıstanda, bir hissəsi hətta İtaliyada və Siciliya adasında qalmışdı. Beləcə, onsuz da azsaylı olan xalq 5-6 yerə bölünmüşdü. Yeni qurduqları dövlət müstəqil sayılsa da, İosif Stalinin istəyi xaricində nə daxili, nə də xarici siyasət yürüdə bilirdi.

Sosializm düşərgəsi adlandırılan ölkələrdə Sovetlər Birliyinin mövqeyini möhkəmlətmək, müstəmləkəçilərə xidmət edəcək kadrlar hazırlamaq məqsədilə rusdilli məktəblər açılır, yeniyetmə və gənclərin bir qismi də ali və orta ixtisas, texniki-peşə məktəblərində, ixtisasartırma kurslarında oxumaq üçün SSRİ-yə gətirilirdi.

İsmail Farkayı da 1950-ci ildə Leninqraddakı (indiki Sankt-Peterburq) Meşə Texnikası Akademiyasına oxumağa gətirirlər. Qısa müddətdə Rus dilini öyrənir. İti yaddaşı, məntiqi, zəhmətsevərliyi, insanlarla qısa müddətdə ünsiyyət qurması, ictimai işlərdə fəallığı ilə yaşıdlarından seçilir. Yalnız müəllimləri, tələbə yoldaşları deyil, universitetin içtimai təşkilatları, onları oxumağa gətirən qurumun nümayəndələri də bu gəncə diqqət göstərirlər. Qızlar da ondan lətafətlərini, mehribanlıqlarını əsirgəmirlər. Görünür, elə buna görə də, onların təsirindən çıxa bilmir və tələbə ikən Marqarita Djomina adlı bir qızla evlənir. 1955-ci ildə universiteti bitirsə də, vətənə dönməyə tələsmir. 1956-ci ildə bir qızları olur. Adını Liliana qoyurlar. Bundan sonra, yəni həmin ilin iyun ayında ailəliklə Albaniyaya dönür.

Onu gənc mütəxəssis kimi Elbasan şəhərindəki ağaç emalı kombinatında mühəndis işləməyə göndərirlər. İki aydan sonra isə Albaniya Xarici İşlər Nazirliyində işləməyə gətirirlər. Qısa söhbətdən sonra məsləhət görürlər ki, Tirana Dövlət Universitetinin Avropaşünaslıq və Dilcilik fakültəsində oxusun. Yenidən tələbəliyə başlasa da, ailəsini dolandırmaq üçün şərait yaradılır.

1960-cı ildə universiteti bitirən İsmail Farka Albaniyanın Fransadakı səfirliyinə ezam edilir. Orada 10 ay işlədikdən sonra yenidən Albaniya Xarici İşlər Nazirliyinə gətirilir. Bir neçə aylıq hazırlıqdan sonra 1961-ci il mayın 2-də Albaniyanın Moskvadakı səfirliyində mühəndis-texnik məsələləri üzrə referent işləməyə göndərilir. Moskvada işlərini qaydaya salıb, ev kirayələyənədək xanımının və qızının Tiranada qalmasını məsləhət görürlər.

Sovet – Albaniya münasibətlərinin gərginləşməsi, Ənvər Xocanın Mao Tszedunla əməkdaşlığı, ölkəsinin SSRİ ilə münasi-

bətlərinin soyuması İsmail Farkanın işini də ağırlaşdırır. Sovet hökuməti Albaniyanın səfirliyi vasitəsilə Ənvər Xocaya təsir göstərmək istəyir. DTK əməkdaşları İsmail Farkayla görüşür və onu inandırmağa çalışırlar ki, Ənvər Xoca opportunizmə yuvarlanmış, marksizm-leninizm ideologiyasından uzaqlaşmışdır. Mao Tszedunla yaxınlaşması Albaniyanı təklənməyə və fəlakətə aparır. Sovetlər Birliyi sosializm cəbhəsinin rəhbəri kimi Alban xalqının əsarətə düşməsini istəmir. Leninqradda təhsil almasının, xanımının Rus olmasının ona böyük imtiyazlar verdiyini xatırladırlar. Eyhamla bildirirlər ki, yaxın vaxtda Ənvər Xoca hakimiyyətdən uzaqlaşdırılacaq və yerinə marksist-leninçi bir kommunist hakimiyyətə gətiriləcəkdir. İsmail Farka da bu işdə onlarla əlbir çalışsa, yaxın gələcəkdə yüksək vəzifə tuta bilər.

İsmail Farka açıq-aydın görür ki, DTK əməkdaşları onu agentliyə cəlb etməyə çalışırlar. Vətənpərvər və mərd bir insan olan İsmail Farka DTK əməkdaşlarının təklifini Albaniyanın daxili işlərinə qarışmaq kimi qiymətləndirir. Onlara çox sərt cavab verir. Buna baxmayaraq, onlar İsmail Farkadan əl çəkmirlər. Səfirlikdən çıxıb iş dalınca haraya gedirsə, onu saxlayıb söhbətə tutur, gah da hədələyir, şantaj etməyə çalışırlar.

Vəziyyətin çıxılmaz dalana dirəndiyini görən İsmail Farka durumu rəsmi şəkildə səfirə bildirir və xahiş edir ki, Albaniya Xarici İşlər Nazirliyini məlumatlandırsın, onun vətənə qaytarılması məsələsinə baxılsın. Səfir İsmail Farkanın raportlarına ciddi yanaşır. Narazılığını SSRİ Xarici İşlər Nazirliyinə bildirir. DTK əməkdaşlarını beynəlxalq hüquq normalarını pozmaqda, diplomatik işçilərin fəaliyyətlərini məhdudlaşdırmaqda suçlayır.

Məsələnin rəsmiləşdirilməsi İsmail Farkanın vəziyyətini daha da ağırlaşdırır. SSRİ Xarici İşlər Nazirliyi İsmail Farkaya təzyiq edən DTK əməkdaşları haqqında heç bir tədbir görmür. Səfir çıxılmaz duruma düşdüklərini görüb Albaniya Xarici İşlər Nazirliyinin razılığını alaraq, onu Tiranaya göndərməyə hazırlaşır.

DTK ilə əməkdaşlıqdan boyun qaçıran İsmail Farkanın Albaniyaya dönməyə hazırlaşması xüsusi xidmət orqanlarının diqqətindən yayınmır. DTK əməkdaşları İsmail Farkanın Tiranaya döndükdən sonra məsələni beynəlxalq təşkilatlara bildirməsinin qarşısını almaq üçün planlar hazırlayırlar. Onun hərəkətlərini daim nəzarətdə saxlayırlar.

Moskvadan Tiranaya təyyarə reysləri olmadığından səfir İsmail Farkayı Albaniyanın Odessadakı konsul idarəsinə ezam etməyi qərara alır. Planlaşdırırlar ki, konsul da onu Avropa ölkələrinə gedən gəmi ilə Albaniyaya göndərsin.

Albaniyanın Moskvadakı səfirliyinin əməkdaşları 1961-ci il dekabrın 23-də İsmail Farkayı Moskva-Odessa qatarının "SV" vaqonuna mindirirlər. Təlimata görə, diplomatik kuryerin olduğu kupeyə kimsə minməməli və o da kupenin qapısını kimsəyə açmamalıydı.

Dekabrın 25-də gecəyarısı vaqon bələdçisi kupenin qapısını döyərək vaqonda nasazılıq, qəza vəziyyəti yarandığını, buna görə də texniklərin onun kupesindən keçən xətləri yoxlamalı olduqlarını deyir. İsmail Farka kupenin qapısını açmaq məcburiyyətində qalır. Vaqon təmirçisi geyimində kupeyə girən 3 nəfər ondan pasportunu göstərməsini tələb edir.

İsmail Farka onların DTK əməkdaşları olduğunu başa düşsə də, başqa çıxış yolu tapa bilmir. Ehtiyatla yatağın altındakı çantadan pasportunu çıxarmağa əyilir. Boynunun ardından vurulan ağır zərbədən huşunu itirir.

Ayılanda özünü xəstəxana palatasında görür. Bir tərəfi iflic olmuş İsmail Farkayı həkimlər müalicə edirlər. O, tibb işçilərindən müalicə olunduğu yerin Moskvadakı Botkin adına hospital olduğunu öyrənir. Həkimdən və tibb bacısından çantası və oradakı sənədləri istəyir. Onlar isə heç bir çanta və sənəd görmədiklərini, onu xəstəxanaya gətirənləri isə tanımadıqlarını deyirlər.

İsmail Farka vəziyyətin nə yerdə olduğunu, DTK əməkdaşlarının onun başına nə oyunlar açdığını anlayır. Odur ki, səbirli davranır, özünü huşu tam bərpa olunmamış kimi aparır. Tibb işçi-

lərini arxayın saldıqdan sonra imkan tapıb Albaniyanın Moskvadakı səfirliyinə zəng vurduraraq vəziyyəti xəbər verir. Elə həmin gün səfirliyin iki əməkdaşı xəstəxanaya gəlir, baş həkimlə, onu müalicə edən həkimlə və İsmail Farkayla görüşür. Məlum olur ki, onu Şəmsəddin Mehdi oğlu Mehdiyev kimi xəstəxanaya qəbul ediblər. Xəstəxanaya gətirilərkən çibində Şəmsəddin Mehdi oğlu Mehdiyev adına verilmiş Elmi-Texniki Cəmiyətin şəkli qoparılmış, möhürü pozulmuş vəsiqəsi olub.

İsmail Farka baş həkimlə müalicə həkiminin yanında vəziyyəti səfirlik işçilərinə tam anlada bilmir. Səfirlik işçiləri baş həkimə xəstənin Moskvadakı Albaniya səfirliyinin əməkdaşı İsmail Farka olduğunu bildirsələr də, xəstəxananın baş həkimi onların fikrilə razılaşmır, xəstənin Şəmsəddin Mehdi oğlu Mehdiyev olduğunu, onların sənədə istinad etdiklərini söyləyir.

Bir neçə gündən sonra səfirliyin əməkdaşı, İsmail Farkayı yaxından tanıyan İdris Şeyxu hospitala gəlir, onun vəziyyəti haqqında Albaniya Xarici İşlər Nazirliyinə bilgi verdiklərini söyləyir.



**İsmail Farkanın yaşadığı ev**

1962-ci il fevralın 12-də Albaniyanın Moskvadakı səfirliyi bağlanır. Səfirliyin işlərini yekunlaşdırmaq üçün üç əməkdaşı qalır. İdris Şeyxu da onların arasında olur. İsmail Farka 1962-cü ilin may ayında xəstəxanadan buraxılır. O, İdris Şeyxunun yanına gəlir və xahiş edir ki, vətənə dönməsinə yardımçı olsun. İdris Şeyxu Sovet Sosialist Respublikaları İttifaqı Xarici İşlər Nazirliyində görüş üçün vaxt alır və İsmail Farka ilə birlikdə oraya gedir. İsmail Farka başına gələnləri nazirliyin əməkdaşlarına danışır. Lakin onlar bu işin DTK (KGB) ilə bağlı olmadığını söyləyirlər. İnandırmağa çalışırlar ki, bu soyğunçuların, oğruların törətdiyi bir cinayətdir. Vəd edirlər ki, Bolqarıstanın Moskvadakı konsulluğu ilə danışıb onu Bolqarıstan üzərindən Albaniyaya göndərəcəklər.

Bu hadisədən sonra Bolqarıstanın Moskvadakı səfirliyində İsmail Farkı qəbul edirlər. Başına gələnləri dinləyirlər. Baş verənləri yazılı şəkildə bildirməsini istəyirlər. O da səfirliyin tələblərini yerinə yetirir. Səfirlikdə ona şəxsiyyətini təsdiq edən müvəqqəti bir sənəd və Moskvdakı “Kiyev” hotelində yaşaması üçün 10 günlük kupon verilir.

1962-ci il noyabrın 16-da gecə yarısı “Kiyev” hotelinə gələn milis mayoru sənədlərini dəqiqləşdirmək adı ilə onu milis bölməsinə aparır. Orada bildirilir ki, haqqında cinayət işi açılıb. Cinayət işində göstərilib ki, Azərbaycan vətəndaşı Şəmsəddin Mehdiyev xaricə qaçmaq üçün saxtakarlıq edərək özünü Albaniya vətəndaşı İsmail Farka kimi təqdim edib.

Onun heç bir yerlə əlaqə saxlamasına imkan vermirlər. Elə həmin gecə onu Sovet Sosialist Respublikaları İttifaqında siyasi məhbusların daha çox saxlanıldığı Butırsk həbsxanasına aparırlar. İsmail Farka hüquqlarının tapdandığına etiraz olaraq aclıq elan edir. Onu karserə (ağır şəraitli təkadamlıq kameraya) salırlar. Orada ayaqları şişsə də, heç bir tibbi yardım göstərmirlər. 12-ci gün huşunu itirdikdə Serbski adına Umumittifaq Elmi Tədqiqat Umumi və Məhkəmə Psixiatrik İnstitutuna aparırlar. İnstitutun direktoru, Feliks Dzerjinskinin qızı DTK (KGB) generalı Marqarita Feliksov-

na Talcenin təşkil etdiyi konsilium ona “şizofreniya” diaqnozu qoyur və ətrafdakılar üçün təhlükəli ola biləcəyi qərarını verir.

Bu qərar Moskvadakı Lenin rayon Xalq Məhkəməsinə göndərilir. Hakim onun “məcburi müalicə olunması” haqqında qərar çıxarır. Bu qərara əsasən onu iki tibb işçisinin nəzarətində “dəli” adıyla Bakıya gətirir və 1964-cü il aprelin 27-də Bakıdakı 2 saylı Klinik Ruhi Xəstəxanaya yerləşdirirlər. 5 gündən sonra isə onu 1 saylı Respublika Ruhi Xəstəxanasında ömürlük “müalicə etməyə” başlayırlar. Albaniya səfirliyinin əməkdaşlarının Moskvadakı axtarışları, Albaniya Xarici İşlər Nazirliyinin məktubları da bir nəticə vermir. Beləcə, İsmail Farka itgin sayılır, mərkəzdən uzaqda, Bakıda isə Şəmsəddin Mehdiyev “müalicə olunur”.

İsmail Farka həbsxanada və klinik ruhi xəstəxanada onun kimi günahsız insanlarla tanış olur. Beynəlxalq təşkilatların insan haqları konvensiyalarından xəbərdar olduğundan fərqli düşündüklərinə görə həbs edilən, “dəli” adıyla psixi klinikalarda işgəncə görən insanların da haqqını müdafiə etməyə çalışır. Onların adından və öz adından Beynəlxalq Təşkilatlara məktublar göndərir. Lakin bu məktubların Sovet Sosialist Respublikaları İttifaqından xaricə çıxmasına DTK (KGB) əməkdaşları imkan vermirlər.

İsmail Farka Azərbaycanda olmasından istifadə edərək Şəmsəddin Mehdiyevin vaildeynlərinin yerini öyrənir və onların 1 saylı Respublika Ruhi Xəstəxanasına “oğlanlarını görməyə” gəlmələrinə nail olur. Şəmsəddin Mehdi oğlu Mehdiyevin ata və anası Qasım İsmayılov rayonundan (indiki Goranboy) 1964-cü il mayın 25-də itkin düşmüş oğlanlarını tapmaq ümidilə xəstxanaya gəlirlər. Neçə ildir axtardıqları 180 santimetr boyu olan, dördüncü sinfi bitirmiş, Azərbaycan Türkcəsindən başqa bir dil bilməyən oğlanları əvəzində, 164 santimetr boyu olan, Alban, Rus, Fransız dillərində sərbəst danışan və yazan, Ərəb, Fars dillərində fikrini ifadə edən birisilə qarşılaşırlar. Xəstəxanada “müalicə olunan” adamın onların oğlu olmadığını söyləməsi də heç nəyi dəyişmir. Onda anlayırlar ki, oğlanlarını DTK “itkin” salıb.

İsmail Farkanın xəstəxanadakı fəaliyyəti, öz adından və orada hüquqları pozulan insanların adından Sovet Sosialist Respublikaları İttifaqının rəhbərlərinə və beynəlxalq təşkilatlara ərizə və şikayətlər yazması Azərbaycan DTK-nın və Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşlarını narahat edir. Dəfələrlə onunla görüşür, söhbətlər edir, "proflaktik tədbirlər görür" və bildirirlər ki, Albaniya vətəndaşı olmasına, xaricə getməsinə Moskva heç vaxt razı olmayacaq. Azərbaycan vətəndaşlığını qəbul etsə, onu xəstəxanadan buraxarlar və Şəmsəddin Mehdiyev adı ilə işləməsinə və yaşamasına şərait yaradarlar. İsmail Farka hər dəfə onların təklifini rədd etdikcə, onu döydürür, günlərlə ac və susuz saxlayır, fiziki və mənəvi işgəncələr verirlər. Həkimlər də içdikləri Hippokrat andını unudub ona trisidil, kaloperidol, sulfazin və başqa ağrıverici iynələr vururlar.

İsmail Farka 1 saylı Respublika Ruhi Xəstəxanasında Azərbaycan dissidentlərindən Çingiz Abdullayev, Nadir Ağayev və başqaları ilə tanış olur. Onlar təşkilatlanaraq birlikdə insan haqlarını müdafiə etməyi panlayırlar. Bu plandan xəbər tutan DTK (KGB) onları daha sərt cəzalandırır və bir-birlərilə görüşməsini məhdudlaşdırır. İsmail Farka isə heç vaxt mübarizəsini dayandırmır, yaranmış hər bir vəziyyətdən istifadə etməyə çalışır.

1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyası MK-sının birinci katibliyinə Mixail Qorbaçov gəldikdən təxminən bir neçə ay sonra İsmail Farkanın yanına bir nəfər gəlir. O, Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşı olduğunu bildirir. İsmail Farkaya ölkədə baş verən dəyişikliklərdən geniş söhbət edir. Bildirir ki, Mixail Qorbaçovun adına ərizə yazsa, bəlkə xəstəxanadan azad edilməsinə imkan yaranar. İsmail Farka bu məsləhətə inanır və Moskvaya məktub göndərir. Çox keçmir ki, Azərbaycan Sovet Sosialist Respublikası Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətinin əməkaşı onun yanına gəlir, söhbətlərini dinləyir, dediklərini imzası ilə təsdiq edəcək bir məktub alıb gedir.

Azərbaycan Tibb Universitetini bitirib 1 saylı Respublika Ruhi Xəstəxanasında işləməyə gələn Əyyub Əliyev müalicə etməli olduğu xəstələrdən İsmail Farkayla söhbət edərkən onun dediklərini diqqətlə dinləsə də, özünə heç bir söz demir. Əvvəlki baş həkimin yenisi ilə əvəzlənməsi və ölkədə baş verən demokratikləşmə gənc həkimə də təsir edir. İsmail Farkanın ruhi xəstə olub-olmadığını yoxlamaq qərarına gəlir. Onun dediklərini yoxlamaq üçün sorgu hazırlayıb baş həkimə imzaladaraq Leninqraddakı Meşə Texnikası Akademiyasına göndərir. Sorğuya cavab gəlir ki, həqiqətən 1950-ci illərdə Akademiyada albaniyalı İsmail Farka adlı bir tələbə oxuyub.

Yeni sənəd İsmail Farkanın işində olan, 1964-cü ildə və sonrakı illərdə Leninqrad Meşə Texnikası Akademiyasından göndərilmiş "burada sizin soruşduğunuz ad və soyadlı tələbə oxumayıb" cavablarını təzkib edirdi. Xəstəxana heyətinin təşəbbüsünə baxmayaraq, İsmail Farkanın azadlığına qovuşması 1989-cu il avqustun 9-dək uzanır.

İsmail Farka azadlığa çıxsa da, öz hüquqlarını bərpa edə bilmir. Azərbaycanlı dissidentər də ona yardım edə bilmirlər. Şair Xəlil Rza Ulutürk şəxsi nüfuzundan istifadə edərək, Bakıdan 40-50 kilometr aralıda, Şüvalan bağlarında tikilməkda olan yarımcıq kiçik bir evdə onu yerləşdirir. İsmail Farka 1990-cı ildə Şüvəlandakı orta internat məktəbi bitirmiş, kəlbəcərli Şəlalə Hüseyinova ilə evlənir.

İsmail Farka Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin Axtarışlar Üzrə Bölməsinin rəisi M. Şteynberqlə, Münhendəki Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti ilə, 1992-ci ildə Albaniyanın Moskvada açılmış səfirliyi ilə əlaqə qurur. Səfir Pertef Asmatayni İsmail Farkanı Moskvaya dəvət edir. Onu Albaniyada ölmüş bildiklərini, hətta 1962-ci ildə oğlu olduğunu, oğlunun evləndiyini də bildirlər. Lakin onun vətənə göndərilə bilməsi üçün ölkəsində hələ münasib şərait olmadığını da söyləyir.

Qoçalmış, vətəndəkilərin ona qarşı laqeydliyindən qəlbi qırılmış İsmail Farq yenidən Azərbaycana dönür. Azərbaycan hakimiyyət orqanlarına, Bakıdakı Beynəlxalq təşkilatlara dəfələrlə müraciət etsə də, nə şəxiyyətini təsdiq edən sənəd, nə də siyasi mühacir statusu ala bilir. Azərbaycan Xalq Çəbhəsi fəallaşdığı dövrdə ona yardım etmək istəyənlərin sayı artır. Lakin 1993-cü ilin iyununda baş vermiş çevriliş onun işini yenidən çıxmaza salır. Nə vətəninə göndərirlər, nə də Azərbaycanda yaşaması üçün şərait yaradır, ona şəxsiyyətini təsdiq edən sənəd verirlər.

Taleyin hökmünə boyun əyməli olan İsmail Farkanın Şəlalə Hüseyinova ilə evliliyindən 6 övladı dünyaya gəlir. O, övladlarına valideynlərinin və qohumlarının adlarını: Rubeyzi, Bayram, Adil, Zibeyde və Zurade qoyur. Bir övladı isə kicik yaşlarında baxımsızlıqdan ölür.

İsmail Farkanı imkanlı bir adam villasında bağban işlədirdi. Əslində qoca və əldəndüşmüş bu insanın işləməyə halı da yox idi. Xeyirxah bir insan olan bağ sahibi onun yaşaması, kimlərəsə əl açmaması üçün belə bir iş görmüşdü. Kitab çapa gedərkən oğlu Bayramdan öyrəndim ki, İsmail Farka 2018-ci il, oktyabrın 12-də dünyasını dəyişib.

**Qaynaqlar:**

1. Agayev Nadir. Qapalı cəhənnəmin sirləri, (Xüsusi bülleten, sayı, 2), Bakı: Özbasım (самиздат), Bakı, 1990.

2. Agayev Nadir. "Karatelnaya meditsina", qazeta "Moskva", (самиздат), 1990, aprel-may.

3. Ağayev Nadir. Ya druqoy takoy stranı ne znayu, «Azadlıq» qəzeti, 1991 il, 14 iyun, sayı 23 (53).

4. Ağayev Nadir, Qapalı sahənin sirləri, «Qızılbaş» qəzeti, 1993, 3 mart, sayı 10.

5. Farka İsmailin xatirələri.(DS qrupunda saxlanılır)

6.Hüseyni Ramil, Cəfərov Namiq, Mikayıloğlu Yadigar. İtkin Alban Mərdəkanda, “7 gün” qəzeti, 1999, 13 fevral, sayı 17 (193), səh. 10.
6. «Panorama» qəzeti, 1998,4 mart.

**HATƏMİ (Məhəmməd Fərzulla oğlu Hatəmi, ləqəbi Tantəkin, d. 22.07.1935, İran, Astara ş. – ö.14.06.2016, Bakı.)**

***Şərqşünas, ədəbi tənqidçi. Milli Azadlıq Hərəkatının, Çənlibel Birliyinin öndərlərindən biri***



Əkinçi ailəsində doğulub. Atası Fərzulla bu qəsəbəyə Ərdəbilin Üçbulaq, anası Sitarə isə Astaranın Muğanlı (Qala) kəndindən gəlibmiş. Atası əkinçi olsa da, geniş dünyagörüşlü və azadlıqsevər birisi olub. 1945 – 1946-cı illərdə Güney Azərbaycanda Milli Hökumət qurulması Hatəmilər ailəsinə də güclü təsir göstərib. Atası Fərzulla milli müdafiə dəstəsinə üzv yazılıb. Bu dəstələrə üzv yazılanlar fədai adlandırılırdı.

Atası qısa müddətdə fədailikdən Lisar cəbhəsinin komandirliyinədək yüksəlib. Astara qəsəbəsindəki məktəbdə təhsil alan Məhəmməd də Astara Gənclər Təşkilatına üzv yazılıb. Milli Hökumət dövründə məktəblərdə dərslərin ana dilində keçilməsi, qəzet və jurnalların, kitabların Türkcə olması kiçik Məhəmməd Hatəminin yaddaşında silinməz iz buraxıb.

İkinci Dünya savaşından sonra Sovetlər Birliyi beynəlxalq güclərin təzyiqi ilə, xüsusən də müttəfiqi olduğu dövlətlərlə bağladığı müqavilənin şərtlərinə görə, işğalçı ordularını İrandan çıxarmalı olub. Bölgədə seçkiləri demokratik əsaslarda keçirmək adı altında xarici güclərdən dəstək alan İran şahı Güney Azərbaycana qoşun yeridib.

Sovetlər Birliyinin yardımından məhrum olan və özünü qoruya biləcək qədər təşkilatlana bilməyən milli qüvvələr şah qoşunları ilə qəti döyüşlərə atılaraq muxtariyyatı qorumaq əvəzinə, Sovet rəhbərlərinin məsləhətinə uyub SSRİ-yə çəkiliblər. Məhəmməd Hatəminin ailəsi də 1946-cı ilin hadisələri zamanı Quzey Azərbaycana keçib.

Mühacir həyatı ailə üçün çox ağır olub. Onları öncə Şirvanın aran bölgəsində, şoranlıqda salınmış Qaraçala kəndində yerləşdirərək pambıq tarlasında işlədiblər. Sonra Şamaxıdakı 6 saylı sovxoza aparıblar. 1953-cü il oktyabrın 4-də Xudatdakı Çkalov kəndinin dördüncü şöbəsinə, oradan da Quba rayonunun Zərdabi kəndinə köcürüblər. Ailələrinin köçhaköçündən, peşə dəyişməsindən cana doyan Məhəmməd Hatəmi 1960-cı illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Məhəmməd İsgəndərovla görüşəndə İrandan gəlmiş mühacirlərin durumunu belə anladıb: “...Sizin ölkənizdə yalnız dilənçilik etməmişik”.

Məhəmməd Hatəmi Şamaxıdakı 1 saylı məktəbin yeddinci sinfini, 1956-cı ildə isə Xudat şəhərindəki orta məktəbi bitirir. Orta məktəbdə oxuduğu illərdə, 1955-ci ildə mühacirlərin siyasi təşkilatı olan Azərbaycan Demokrat Firqəsinə üzv qəbul edilib. Viktor Hüqonun, Lev Tolstoyun, Fyodr Dostoyevskinin əsərlərinin təsiri altında hekayələr yazıb və bəzilərini nəşr də etdirib.

1957-ci ildə Azərbaycan (indiki Bakı) Dövlət Universiteti Filologiya Fakültəsinin Jurnalistika bölümünə qəbul olunduqdan sonra bədii yaradıcılıqdan uzaqlaşaraq siyasətə və elmi yaradıcı-

lığa meyillənib. Universitetdə oxuduğu illərdə də daim Güney Azərbaycanın taleyini düşünüb, mühacirlərin geri qayıtması, Azərbaycanın birləşdirilməsi yollarını axtarıb. Məqsədinə çatmaq üçün 1959-cu ildə 7 nəfər həmfikri ilə gizli “Azad Azərbaycan” adlı təşkilat yaradıb. Təşkilat üzvləri istəyiblər ki, Azərbaycanın Rusiya tərəfinfən işğalına etirazlarını bildirmək üçün Bakının yüksək təpəliyində ucaldılmış bolşevik Miron Kirovun heykəlini partlatsınlar. Lakin bu işi görməyə texniki imkanlar tapa bilməyiblər. Yaratdıqları təşkilat da 1960-cı ildə dağılıb.

1963-cü ildə universiteti bitirən Məhəmməd Hatəmini ixtisasına uyğun işlə təmin etməyiblər. Nəinki toplum arasında, hətta partiya təşkilatının toplantılarında düşündüklərini açıq şəkildə söylədiyinə, rəsmi yerlərdə danışılan və yazılanlarla həyat həqiqəti arasında uyğunsuzluğu dilə gətirdiyinə görə onu partiya sıralarından xaric ediblər. Həyatını təmin etmək, ailəsinə yardımçı olmaq üçün müxtəlif yerlərdə işləyib, hətta Bakı Polad Kanatlar Zavodunda hamballıq belə (04.05.1964 - 13.07.1964) edib...

Mühacirlərə qarşı edilən haqsızlıqdan, hüquqlarının pozulmasından cana doyan Məhəmməd Hatəmi SSRİ Qırmızı Xaç Cəmiyyətinə və Polşanın Moskyadakı səfirliyinə müraciət edərək Polşaya mühacirət etməkdə ona yardımçı olmalarını xahiş edib. Onun hərəkətindən xəbər tutan DTK əməkdaşları Azərbaycanın hakimiyyət orqanlarına vəziyyət haqqında xəbər veriblər. Bundan sonra, yəni 1965-ci il iyunun 1-də onu mənzillə və işlə təmin ediblər.

Öncə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda, sonrakı illərdə isə Azərbaycan EA Şərqşünaslıq İnstitutunda, Nizami adına Ədəbiyyat Muzeyində elmi işçi, böyük elmi işçi vəzifələrində işləyib. Sosializmin əleyhdarı, milli dəyərlərin təbliğatçısı kimi tanınıb. Məsləkdaşı olan alimlərdən Əbulfəz

Huseyni, Ramazan Qurbanov, Məhəmməd Azərli və b. ilə dostluq edib. Fikirlərini sərbəst söylədiyinə görə çalışdığı kollektivin partiya-həmkarlar təşkilatları dəfələrlə onu tənbeh edib.

1975-ci ildə "Xalq yaradıcılığında atəşpərəstliyin ifadəsi" mövzusunda yazdığı namizədlik dissertasiyasını müdafiə edərək alimlik dərəcəsi alan Məhəmməd Hatəmi özünə yeni ləqəb, Tantəkin, yəni Dan təkin, Dan yeri kimi ləqəbini götürüb. Bu ləqəbin Türkcə olması və daşıdığı məna istər içtimai təşkilatları, istər mühafizəkar alim yoldaşlarını, istərsə də DTK-nı narahat edib. Ona nə qədər öyüd-nəsihət versələr də, yeni ləqəbini atmayıb.

Azərbaycan Elmlər Akademiyası partiya komitəsinin 1975-ci il noyabrın 18-də keçirilən konfransında elmlər namizədi Ramazan Qurbanov və elmlər doktoru, Lənkəran doğumlu, yəhudi əsilli, Azərbaycana ürəkdən bağlı olan Zelik Yampolski "Azərbaycan tarixşünaslığını təftişçilikdə" ittiham edilmiş, partiya sıralarından çıxarılmaqla cəzalandırılmışlar. Şərqşünaslıq İnstitutunun direktoru, akademik Həmid Araslı da Məhəmməd Hatəmiyə tarixi mövzuda araşdırmalar aparmağı, məqalələr nəşr etdirməyi yasaqlayır.

Yasaqlara və təhdidlərə baxmayaraq, Məhəmməd Hatəmi elmlər doktoru adı almaq üçün axtarışlarını davam etdirir. Dissertasiyasını 1984-cü ildə tamamlayıb müzakirəyə versə də, müdafiəyə buraxılması 1990-cı ilədək ləngidilir.

1979-cu ildə İranda İslam inqilabi baş verəndə Məhəmməd Hatəmi İranın Bakıdakı konsulluğuna ərizə ilə müraciət edərək vətənə dönmək istədiyini bildirib. Azərbaycanın hakimiyyət orqanlarında çalışanlar onu fikrindən daşındırmağa çalışsalar da, mümkün olmur. Belə olduqda Bakıda yaşayan, Azərbaycanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən adamlar vasitəsilə konsulluğa xəbər ötürürlər ki, Məhəmməd Hatəmi İslam inqilabının əleyhdarıdır, o milli inqilab etmək, 1945-ci ildə Təbrizdə ya-

radılmış Milli Hökuməti bərpa etmək planı ilə İrana gedir. Səkkiz aylıq söhbətlərdən, sənəd hazırlanmalarından sonra bildirirlər ki, İran İslam Respublikasının Xarici İşlər Nazirliyi ona viza verilməsini məsləhət görmür.

***Sağdan Hatəmi Tantəkin, ortada Sabir Rüstəmxanlı, solda Nemət Pənahlı mitinq aparakən***



Yazdığı məqalələri ya böyük ixtisarlarla çap etdiklərindən, ya da heç nəşr etmədiklərindən, toplantılarda düşündüklərini sərbəst şəkildə söyləməyə icazə vermədiklərindən o, təbliğat yeri kimi çayxanaları seçir. Burada milli düşüncəli məsləkdaşları ilə, gənclərlə tarixdən, Azərbaycanın durumundan, gələcəyindən, İran İslam İnqilabının millətə vurduğu yaralardan söhbət edirlər.

1985-ci ildə Sovetlər Birliyində baş verən dəyişiklikdən, Mixail Qorbacovun ölkəni ağır böhrandan çıxarmaq üçün atdığı addımlardan Məhəmməd Hatəmi və məsləkdaşları da yararlanmağa çalışırlar. Yenidənqurma, söz azadlığı şüarından istifadə edib gizli təşkilatlarını açıq mübarizə meydanına çıxarmağa təşəbbüs göstərirlər. Bunun üçün proqram hazırlayır, başqa fərqlidüşünənlərlə görüşür, məsləhətləşirlər.

Bəxtiyar Tuncay, İsfəndiyar Coşqun, Məmməd Elli və b. ilə uzun söhbətlərdən və müzakirələrdən sonra quracaqları təşkilatın adının Cənlibel Elmi-Ədəbi Birliyi kimi formalaşdırırlar. Bakı şəhərinin mərkəzində, Azərnəşrin binasındakı Mədəniyyət İşçiləri Evində 1987-ci il fevralın 17-də “Cənlibel Elmi-Ədəbi Birliyi” ilk açıq toplantısını keçirir. İlk toplantıda 27 nəfər iştirak edir və onlardan Vurğun Əyyubov Birliyin sədri, Fuad Ağa-

yev, Bəxtiyar Tuncay, Ağası Hun (Məhəmmədov), Ənvər Yusifoğlu, Tofiq Rəsulov idarə heyətinə üzv seçilir. Elə ilk toplantıdaca Bəxtiyar Tuncayın hazırladığı proqram layihəsi müzakirə olunaraq qəbul edilir. Eləcə də, təşkilatın gerbi və himni hazırlanır.

Qısaca Cənlibel adlandırılan Birliyin sorağı Azərbaycanın rayonlarına da yayılır. Milli qüvvələrin əksəriyyəti, Sovet rejimindən narazı qalanlar bu toplantılarıa qatılır, fikir mübadiləsi edirlər. Həftədə bir dəfə keçirilən toplantılara qatılanların sayı sürətlə artaraq 270 nəfərə çatır. Toplantılarda Məhəmməd Hatəminin, Arif Acalovun, Xudu Məmmədovun, Mirəli Seyidovun, Lətif Kərimovun, Xəlil Rza Ulutürkün və b. hazırladıqları məruzələr dinlənilir.

Cənlibel Elmi-Ədəbi Birliyinin təsirilə nəinki Bakı, Sumqayıt, Gəncə kimi böyük şəhərlərdə, hətta ən ucqar rayon və kəndlərdə belə dərnəklər yaradılır. 1988-ci ildə dəfələrlə Məhəmməd Hatəmi milis idarələrinə, rəhbər partiya-sovet işçilərinin yanına aparılır. Ona müxtəlif yöndən təzyiqlər etsələr də, heç bir təsiri olmur.

Çənlibel Elmi-Ədəbi Birliyinin daxilində də ziddiyətlər yaranır. Birliyin 1988-ci il 30 oktyabr toplantısında Məhəmməd Hatəmi Azərbaycan Xalq Cəbhəsi Hərəkatı adlı təşkilat yaratdığını elan edir. Beləcə, Azərbaycan Xalq Hərəkatının mübarizə formaları və Azərbaycan Xalq Cəbhəsinin təşkilat kimi formalaşması başlayır. Nemət Pənahlı, Mənsur Əlisoy, Sevil Cahani və b. milli fəalların tanınmasında Cənlibelin rolu əvəzsiz olur. Azərbaycanda 1988-ci ildən mitinqlər başlayır. Elə həmin il oktyabr ayının 30-da keçirilən toplantıda Məhəmməd Hatəmi Birliyə sədr seçilir. Dağlıq Qarabağı Ermənistanın tərkibinə birləşdirmək cəhdi toplantıların mövzusunu elmi-ədəbilikdən çıxaraq antisovet, antisosialist istiqamətə yönəldir. Xüsusi xidmət orqanları tez-tez- Məhəmməd Hatəmini istintaq edir, rəhbər

işçilər onu söhbətə tutur, onun vasitəsilə coşmuş xalqı sakitləşdirməyə çalışırdılar.

Moskvanın separatçı Ermənilәri dəstəkləməsi Azərbaycanda adamları çilədən çıxarırdı. Mitinq dalğası respublikanın hər yerinə yayılırdı. 1988-ci il noyabrın 17-də Bakıdakı keçmiş Lenin (indiki Azadlıq) meydanında başlayan çoxminli mitinqi günlərlə dağıda bilmədilər. Məhəmməd Hatəminin tərəfdarları mitinqlərdə çılğınlıqları ilə seçilirdilər.

Dekabrın 5-də hərbçilərin güçü ilə meydan dağıdıldı, yüzlərlə adam həbs edildi. Onların arasında Məhəmməd Hatəmi də olur. Onu SSRİ Prokurorluğunun Baş Ədliyyə müşaviri V.M.Semyonov, SSRİ DTK-nın polkovniki Savuşkin dindirir. Azərbaycan SSR Cinayət Məcəlləsinin 188-3 və 188-4 maddələrində, yəni çoxsaylı mitinqlərin təşkilində və keçirilməsində fəal iştirakına görə ittiham edirlər. DTK-nın İstintaq Təcridxanasında 1989-cu il iyunun 8-dək dindirilir.

Bakı Şəhər Xalq Məhkəməsində Məhəmməd Hatəmi mühakimə olunarkən binanın ətrafına minlərlə insan toplanır. Hamı həyəcanla hakimin qərarını gözləyir. Hökumət orqanları xalqın təzyiqindən, qarşıdurma yarana biləcəyindən ehtiyatlanaraq Məhəmməd Hatəminin işini çalışdığı Azərbaycan EA Şərqşünaslıq İnstitutuna, içtimai təşkilatda müzakirəyə göndərməyi məsləhət bilir. Oradan da azadlığına qovuşur və yenidən siyasi mübarizəyə qoşulur.

1989-cu ildə bir qrup Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzini yaradanda Məhəmməd Hatəmi də həmin ilin sentyabrında ona alternativ Xalq Hərəkatı Cəbhəsi (Qızılbaşlar) elan edir. Bu hərəkatın ətrafına sərt tədbirlərlə istədiklərinə nail olmaq istəyən bir qrup toplanır. Milyonlarla insanın Xalq Cəbhəsi ətrafında birləşməsi Məhəmməd Hatəmini qıcıqlandırır. Bunu Xalq Cəbhəsi rəhbərliyinin hökumətlə işbirliyində olması, DTK-ya casusluq etməsi kimi dəyərləndirir. Beləcə, enerjisini, vaxtını təşkilatının proqramında yazdığı Azərbaycan Respubli-kasını SSRİ-nin, Güney Azərbaycanı İran İslam Respublikasının tərki-

bindən çıxarıb vahid bir dövlət qurmaq hədəfindən çox onun kimi düşünməyənlərə qarşı mübarizəyə həsr edir.

1989-cu ildə həbsdən çıxdıqdan sonra Hatəmi Tantəkin və Xalq Hərəkatı Cəbhəsinin (Qızılbaşlar) fəalları daha çox mitinqlər, piketlər keçirməklə, partiya-sovet rəhbərlərinə ucaldılmış heykəlləri, küçələrdən onların adlarını sökməklə məşğul olurlar. O, topluma, gücə sahib olmaq arzusu ilə, Xalq Hərəkatı Cəbhəsini (Qızılbaşlar), Birlik Təşkilatını, Müstəqil Azərbaycan Təşkilatını 1989-cu il oktyabr ayının 20-də birləşdirmək istəyib. Lakin danışıqlar uğurlu alınmayıb.

Hatəmi Tantəkin elə düşünür ki, Xalq Cəbhəsi yaratmaqla çoxmilyonlu toplumu ondan uzaqlaşdırıblar. Rayonlara səfərə, oradakı mitinq və piketlərdə çıxışlara daha çox vaxt ayırır. 1989-cu il noyabrın 8-də Xalq Hərəkatı Cəbhəsi (Qızılbaşlar) ilə Müstəqil Azərbaycan Təşkilatını birləşdirib Milli Qurtuluş Partiyası yaradılmasına nail olur. Lakin bu təşkilat da ciddi siyasi partiyaya çevrilə bilmir. Partiya ətrafında birləşənlər vaxtlarını mitinq və piketlər keçirməyə, Sovet iqtisadiyyatını çökdürmək üçün tətillər təşkil etməyə sərf edirlər.

1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Sovet Ordu birlikləri Bakı şəhərində və respublikanın bəzi rayonlarında odlu silahlardan atəş açmaqla kütləvi qırğınlar, həbslər həyata keçirirlər. Yanvarın 25-dən 26-a keçən gecə Hatəmi Tantəkini də həbs edib iki gün Bakıda milisin və DTK-nın müvəqqəti saxlama məntəqələrində saxladıqdan sonra Moskvaya – Lefortovo həbsxanasına göndərirlər. Onu Azərbaycan SSR Cinayət Məcəlləsinin 67-ci maddəsinin 3-cü bəndi ilə, yəni icazəsiz Milli Qurtuluş Təşkilatını yaratmaqda, milli düşmənçilik və ayrıseçkiliyi təbliğ etməkdə, insanların ləyaqətini alçaltmaqda, konstitusyon hüquqların pozmaqda və s. ittiham edirlər. Hatəmi Tantəkinlə eyni vaxtda Azərbaycanın bir neçə milli azadlıq fəalı Etibar Məmmədov, Xəlil Rza Ulutürk, Rəhim Qazıyev, Məmməd Əlizadə, Seyid Tahir Qarabaği də Lefortovoda istintaq altında olurlar.

9 aya yaxın davam edən istintaqdan sonra onların işini baxılmaq üçün Bakı Şəhər Xalq Məhkəməsinə göndərirlər. Məhkəmə bir aya yaxın davam edir. Məhkəmə gedən bina ətrafına hər gün yüzlərlə insanın toplanıb “Hatəmi! Hatəmi!” deyə bağırması, Sovet rəhbərliyinin Bakı şəhərinə qanunsuz qoşun yeritməsi, Moskvanın Dağlıq Qarabağdakı və Ermənistandakı separatçıları dəstəkləməsi azərbaycanlı hakimlərə də təsir göstərir. Onlar Məhəmməd Hatəmi Tantəkini həbsdən azad edirlər.

Hatəmi Tantəkinin yaratmış olduğu və rəhbərlik etdiyi Xalq Hərəkatı Cəbhəsinin (Qızılbaşlar) proqramına dövlət dilinin Azərbaycan Türkcəsi olması, millətin adının Türk yazılması, Sovetlərin məcburi qəbul etdirdiyi Kiril əlifbasının ləğv edlib Ərəb və ya Latın qrafikalı əlifbaya keçilməsi, İslam dini ayinlərinin icra və təbliğinə sərbəstlik verilməsi, ədəbiyyat, musiqi, rəssamlıq və sənət sahələri, radio-televizya, dövri mətbuat üzərindən Kommunist Partiyasının nəzarətinin aradan qaldırılması və s. daxil edilmişdi. 1991-ci ildə Azərbaycanda demokratik qüvvələrin təzyiqi ilə suverenlik aktı qəbul edildikdən sonra Hatəmi Tantəkinin istəklərinin bir çoxu həyata keçdi. Lakin o bunlarla kifayətlənmirdi. Mitinqlərə, piketlərə sərf etdiyi güclə təkcə imperialist qüvvələrə qarşı durmur, rüşvətxorluğa, korrupsiyaya, seçkilərin saxtalaşdırılmasına qarşı, mətbuatda, radio-televiziyada, toplantılarda hakimiyyətə yaltaqlığın durdurulması uğrunda da mübarizə aparırdı. Lakin zaman sürətlə dəyişirdi. Dünənə qədər Hatəmi Tantəkinin göstərişi ilə heykəlləri uçuran, mitinqlər keçirən, fabrik-zavodların, nəqliyyatın işini durduranlar onun ətrafından dağılmışdılar. O, isə milli azadlıq hərəkatı fəallarını, keçmiş mübarizə yoldaşlarını xəyanətdə, satqınlıqda suçlayır, mübarizəni az qala təkbaşına aparırdı.

İki övlad atası olan Məhəmməd Hatəmi Tantəkin uzun sürən xəstəlikdən sonra 81 yaşında ömrünü Bakıda başa vurub.

**Qaynaqlar:**

1. Hacızadə X. "Azadlıq" qəzeti, 1991, 14 iyun, sayı, 23.

2. Haşımov Firuz. “İstiqlal” qəzeti, 1994, 22 fevral.
3. “İstiqlal” qəzeti, 1991, 4 may.
4. SSRİ-də vətəndaşlığı olmayan şəxs, "Qardian" qəzeti (İngiltərə), 1989, 9 may. (Hatəmi Tantəkinin tərcümə etdirdiyi mətn)
5. Неразрешённый митинг в Baku, журнал «Диалог», 1990 г. 5 mart (Hatəmi Tantəkinin tərcümə etdirdiyi mətn.)
6. Şahin. Hatəmi Tantəkinlə müsahibə. "Millətin səsi" qəzet, 1997, 18 iyul, sayı 3.
7. Tantəkin Hatəmi. Yaşayışım uğrunda mübarizə qanununun hökmü, "Qurtuluş" bülleteni, Özbasım (samzdat), 1991, sayı 1, səh.16.
8. Tantəkin Hatəmi. Acı həqiqətlər, Bakı: “Şirvannəşr”, 1998.
9. Umudlu İsmayıl. Azərbaycanda dissidentlik: belə bir şey olmuşdurmu? “Ayna- Zerkalo” qəzeti, 1997-ci il, 1 fevral, 4 (489).
10. Umudlu İsmayıl. Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı. Bakı: “Oğuz eli” nəşriyyatı. 1999. 68 səh.

**HİLALOĞLU CAHİD (Cahid Hilal oğlu Şirinov), d. 1928, Ağdam — ö. 30.05.1991, Ağdam ş.)**



***Rejissor, Azərbaycanın azadlığı uğrunda mübariz, Azərbaycan Cümhuriyətinin (1918-1920) üçrəngli bayrağını Bakının mərkəzində - Qız qalası üzərində dalğalandıran vətənsevər.***

Yoxsul bir ailədə doğulub. Cahid kiçik olarkən ailəsi Bakı şəhərinə köçmüşdür. Atası neft mədənlərində işləmiş, Cahid isə 13 saylı məktəbdə oxumuşdur. Sovet ordusu SSRİ-ni faşizm təhlükəsindən qurtarmaq adı altında 1941-ci ilin avqustunda

İranın Quzeyinə - Güney Azərbaycana hücum edəndə 13 yaşlı Cahid də valideyinlərindən xəbərsiz əsgərlərə qoşulub Arazı o taya keçir. İki ilə orada min bir əziyyətə qatlaşdıqdan sonra yenidən Bakıya qayıdır. 1947-ci ildə Bakıdakı 1 saylı orta məktəbi bitirib Azərbaycan Teatr İnstitutunun rejissorluq fakültəsinə qəbul olunur.

Sovetlər Birliyində insan haqlarının tapdalanmasına, Azərbaycanın Rusiya əsarətində qalmasına etiraz əlaməti olaraq gizli vərəqlər yazaraq divarlara yapışdırıb. Tələbə yoldaşları ilə birlikdə gizli antisovet dərnək qurub. Tələbə yoldaşı Çingiz Mirzağa oğlu Abdullayevlə birlikdə kommunist diktaturasının doğurduğu eybəcərlikləri pisləyiblər. Azərbaycanlıları beynəlxalq təşkilatların nəzarəti altında demokratik seçkilər keçirməyə, Azərbaycanı SSRİnin tərkibindən çıxarıb müstəqil dövlət qurmağa çağırıblar.

Vərəqələr xüsusi xidmət orqanlarının diqqətini cəlb edir. Vərəqələri yazıb yayanları həbs edirlər. İstintaqdan sonra Çingiz Abdullayevi ali məktəbdən qovur, "islah" olunmaq üçün 3 illiyə həbsxanaya yollayırlar. Dərnək üzvlərinə isə inzibati cəza verirlər. Lakin bu cəza onları yollarından döndərmir. Çingiz Abdullayev Bakıdan uzaqlarda olanda da daim Cahid Şirinovla əlaqə saxlayır.

Cahid Şirinov 1952-ci ildə Azərbaycan Teatr İnstitutunu bitirib M.F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında işə başlayır. Burada işlədiyi müddətdə quruluşdan narazılığını müxtəlif vasitələrlə ifadə etsə də, ona qarşı ciddi tədbirlər görülmür.

Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı ildə keçirilən 20-ci qurultayında Sovetlər Birliyinin idarə olunmasındakı bütün nöqsanlar üç il əvvəl ölmüş Mərkəzi Komitə katibi İosif Stalinin (Cuqaşvili) adına yazılır. Minlərlə rəhbər işçi şəxsiyyətə pərəstişlikdə suçlanıb vəzifədən çıxarılır və ya həbs edilir. Bu proses insanlarda bir ümid qığılcımı yaradır. Düşünürlər ki, yeni hökumət rəhbərləri ölkədə demokratik mühit yaradacaq, sərt inzibati-amirlik metodu yumşalmağa, idarəetmədə islahatlar

aparılmağa başlanacaq. Lakin gözlənilənlərin heç biri baş vermir. Sovetlər Birliyində idarəetmə İosif Stalin dönəmindən bir az fərqli şəkildə davam edir.

1956-cı il martın 6-7-də Tbilisidə 200 min nəfərə yaxın insan küçələrə axışaraq izdihamlı yürüş keçirir. Sovet rejimindən cana doymuş insanlar hakimiyyətdəkilərin İosif Stalinin ölümündən sonra heykəl və büstlərinin yığışdırılmasına, adı verilmiş şəhər və küçələrin keçmiş adlarının qaytarılmasına və ya yeni adlar verilməsinə, eləcə də mətbuatda durmadan haqlı, haqsız tənqid edilməsinə etirazlarını bildirirlər. Yürüş qəddarlıqla yatırılır, ölənlər, yaralananlar, həbs edilənlər haqqında heç bir bilgi verilmir. Hakimiyyət orqanları bu hadisəni gizlətməyə çalışsalar da, mümkün olmur. Xəbər daha da şişirdilmiş şəkildə yayılır. İosif Stalin və onun komandasının idarəetmə metodundan narazı olan Cahid Hilaloğlu yürüş iştirakçılarının tərəfini saxlayır. Mitinq iştirakçılarına qarşı qəddar divan tutulduğunu, insan haqlarının pozulduğunu söyləyir və vərəqələr paylayır. Onu polisə aparıb ciddi söhbət etsələr də, rəsmən cəzalandırmırlar. Bilirlər ki, Cahid Hilaloğlu və onun kimi insan haqları müdafiəçilərinin məhkəməyə verilməsi Tbilisi hadisələrinin daha geniş yayılmasına səbb olacaqdır.

Cingiz Abdullayev və Cahid Şirinov Sovetlər Birliyində sərbəst fəaliyyət göstərməyin mümkünsüzlüyünü görürlər. Çingiz Abdullayevin yaxın qohumlarından mühacir kimi Türkiyədə yaşayan vardı. Buna görə də, o və Çahid xaricə getmək, mühacirətdə olan Azərbaycan siyasətçiləri ilə birgə fəaliyyət göstərmək istəyirlər. Azərbaycanın İranla sərhəd rayonlarında mədəniyyət işçilərinə ehtiyac olduğu haqqında qəzetlərdə oxuduqları elan onları yeni plan qurmağa həvəsləndirir. 1941-1943-cü illərdə Təbrizdə yaşamış Cahid Şirinov Lənkaran, Astara, Lerik, Masallı rayonlarından İrana qaçaq yolla keçməyin mümkün olduğunu söyləyir. Planlaşdırılar ki, sərhəd bölgəsi olan dağlıq Lerik rayonunun kəndlərindəki mədəniyyət evlərində bir müddət işləyər, yerli şəraiti öyrənər və oradan da İrana keçərlər. İrandan

da Türkiyəyə getmək o qədər də çətin olmaz. Bölgənin böyük miqyaslı xəritəsini alır, xəritə əsasında qaçış planı qururlar. Planlarını həyata keçirmək üçün Azərbaycan Sovet Sosialist Respublikası Mədəniyyət Nazirlinin adına ərizə yazaraq gənc və vətənsevər mütəxəssis kimi Lerik rayonunun kəndlərindəki mədəniyyət evlərində işləmək istədiklərini bildirirlər. Nazirlikdə onların təşəbbüsü bəyənilir. Onlardan Lerikə getmələri, orada pasport qeydiyatına düşmələri üçün yaşadıqları yerdən pasport qeydiyyatından çıxmaları istənilir.

Çingiz Abdullayev həbsdən sonra bir müddət Moskvada yaşadığından pasport qeydiyyatından çıxmaq üçün oraya gedir. O, Moskvada olarkən Amerikalı skripkaçı İsaak Sternonun konsertinin afişalarını görür. Bilet alaraq konsertə gedir. Aldığı gül dəstəsini İsaak Sternona verərkən Amerika səfirliyinin telefonlarını xəbər alır. Skripkaçıdan öyrəndiyi telefonla Moskvadakı ABŞ səfirliyinə zəng vurur, səfirliyin birinci katibi Natyanel Devislə görüşür və Amerkaya qaçmaqda onlara yardımçı olmasını xahiş edir. Natyanel Devis Çingiz Abdullayevin DTK tərəfindən göndərilə biləcəyindən şübhələnərək qəti bir söz demir. Təkrar görüş üçün vaxt və yer təyin edir. Dörd gün sonra, yəni 1956-cı il mayın 8-də Cingiz Abdullayev səfirliyin hərbi attaşesi Frenklə görüşür və mühacirətə getmək istəklərini geniş izah edir. Frenk ona yeni görüş üçün yer və vaxt təyin edir. Görüş yerinə gələrkən DTK əməkdaşları onu zorla maşına qoyub naməlum istiqamətə aparırlar. Beləcə, Cahid Hilaloğlunun da Lerikə getməsi əngəllənmiş olur.

Budapeştin (Macarıstan) mərkəzi meydanında İosif Stalinin 25 metr ucalığındakı bürünc heykəlini 1956-cı il oktyabrın 23-də Sovet işğalından cana doymuş insanlar uçurur. Heykəlin qopardılmış başı, alnına təhqiramiz sözlər yazılaraq meydanın ortasında qoyulur. Ölkəni bürümüş antisovet üsyanı Sovet orduları tankların, zirehli maşınların gücü ilə çətinliklə də olsa, yatırırlar. Sovetlər bu hadisəni nə qədər gizli saxlamağa çalışsalar da, mümkün olmur. Sovet ordusunun tərkibində üsyanın yatırıl-

masında iştirak etmiş azərbaycanlıların yaralananları ordudan tərxis olunur. Onların gətirdiyi xəbərlər və b. qaynaqlardan alınan bilgilər faciənin böyüklüyü haqqında Cahid Hilaloğlu və məsləkdaşlarında aydın təsəvvür yaradır. Onlar belə bir hadisənin Azərbaycanın da başına gələcəyini xalqa çatdırmaq üçün vərəqlər yayır, şifahi təbliğat aparırlar.

Cahid Şirinov Sovet rejiminə etiraz əlaməti olaraq Rus dili vasitəsilə dilimizə keçmiş -ov, -yev şəkilçisindən imtina etdiyini bildirir. Beləliklə, o, Şirinov soyadından imtina edərək atasının adından düzəldilən Hilaloğlu soyadını qəbul edir.

1957-ci il mayın 28-də Cahid Hilaloğlu və onunla birlikdə olan gizli dərnəyin üzvləri Azərbaycan Cümhuriyyətinin yaranmasının 39-cu ildönümü münasibəti ilə Cümhuriyətin üçrəngli bayrağını Qız qalasının üzərinə sancmağı qərarlaşdırırlar. Bu qərarın icrası ilə bağlı xatirələrdə bir dolaşıqlıq, qeyri-dəqiqlik var. Yekdil fikir odur ki, bayrağı Qız qalasının üzərinə qaldıran Cahid Hilaloğlu olub.

DTK Cahid Hilaloğlunun fəaliyyətini aşkarlayır. Onu ittiham edənlərə Cahid deyirmiş: "Nədən Əfqanıstanda baş verənlər milli azadlıq hərəkatı, Macarıstandakı isə əksinqilabi qiyam adlandırılır?" Xüsusi xidmət orqanları isə daha bu gənclərin "nazı ilə oynamaqdan bezib" sərt tədbirlər planlaşdırırlar. Cahid Hilaloğlu oğurluqda təqsirləndirilərək həbs edilir. Onu Azərbaycan SSR CM 21-63 maddəsilə və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyyətinin 4 iyun 1947-ci il fərmanıyla antisovet təbligatı və təşviqatında ittiham edirlər. İşinə Azərbaycan SSR Ali Məhkəməsi baxır və 1957-ci ilin oktyabrında 10 il azadlıqdan məhrumetmə, 3 il siyasi fəaliyyətdən və vətəndaşlıqdan məhrumetmə ilə cəzalandırır.

Cahid Hilaloğlu cəza müddətini Mordva MSSR-in Dubrovsk islah-əmək düşərgəsində çəkir. İslah-əmək düşərgəsində dəfələrlərlə ona ağır işgəncələr verirlər. Bir dəfə də qışın şaxtalı günlərində onu buzlu suya atır və bir müddət orada saxlayırlar.

Nəticədə, Cahidin bədəni şişir. Həkimlər heç bir yardım etməsə də, onu ölümün cənginə buraxsalar da, Cahid Hilaloğlu sağ qalır.

Dubrovsk islah-əmək düşərgəsi əslində siyasi məhbuslar üçün nəzərdə tutulmuş qapalı həbsxana idi. Həbsxana şəraitinin ağırlığına, ona xüsusi nəzarətin olmasına baxmayaraq, Cahid ruhdan düşmür, İngilis, Alman, Fransız, Ərəb, Fars dillərini öyrənir. 1967-ci ilin oktyabrında azadlığa çıxdıqdan sonra Bakıya gəlsə də, uzun müddət işsiz qalır. 1969-cu ildə Yerevanda yenidən bərpa edilmiş C.Cabbarlı adına Azərbaycan Dövlət Dram Teatrında rejissor-aktyor kimi işə başlayır. DTK orada da Cahid Hilaloğlunu dinc buraxmır. Gah səhnədən söylədiyi sözün ayrı cür yozulduğuna görə, gah tamaşaya qoyduğu əsər başqa cür başa düşüldüyünə, gah da yoldaşları ilə yeyib-içərkən söylədiyi sağlıqdan millətçilik qoxusu gəldiyinə görə “söhbətə” çağırırlar. 1971-ci ildə Bakıya qayıdır və vaxtı ilə oxuduğu ali məktəbin Tədris Teatrında rejissor işləməyə başlayır.

Onun Teatr İnstitutunda işə girməsi və işdən çıxması Rahib Hüseynovun rektor işlədiyi dövrə təsadüf edir. O dövrdə hər adam soyadının sonuna “oğlu” ifadəsini əlavə edə bilməzdi. Buna yuxarıların ya razılıq verməsi lazım gəlirdi, ya da uzun süründürməçilikdən, böyük dava-qalmaqaldan sonra mümkün olurdu. Belə soyad həmin şəxsə millətçi damğası vurulması, cəmiyyətdən təcrid edilməsi üçün yetərliydi. Rahib müəllimin öz yaşıdı olan Cahid haqqında kifayət qədər bilgisi olması şübhəsizdir. Bütün bunlara baxmayaraq, az sonra ona İnstitutda rejissorluqdan dərs deməyə də icazə verir.

Cahid Hilaloğlu ilə Rahib Hüseynov arasında bağlılığın hansı səviyyədə olduğunu aydınlaşdıra bilmədik. Rahib Hüseynov həbs olunan kimi Cahid Hilaloğlu ərizə yazıb işdən çıxır. Bu da Rahib Hüseynovun cinayətkar kimi həbs edilməsinə şübhə ilə yanaşmağa əsas verir. Çünki həmin dövrdə Azərbaycandakı ali məktəblərin rəhbərlərinin əksəriyyəti elə Rahib müəllim kimi işləyirdi.

Azərbaycan Dövlət İncəsənət İnstitutu rektorunun 13 aprel 1976-cı ildə verdiyi 1/57 saylı əmrdə göstərilir ki, Cahid Hilaloğlu öz ərizəsilə işdən azad edilir. Xeyli işsiz qaldıqdan sonra Ağdam şəhərində yeni açılmış Dövlət Dram Teatırında fəaliyyətə başlayır. Ömrünün sonunadək orada çalışır. 1991-ci il mayın 30-da nömrəsi bilinməyən bir "Volqa" avtomobili Cahidi Hilaloğlunu vurur. Bu qəzadan həlak olan Cahid Hilaloğlunu Ağdam şəhərində dəfn edirlər. Ailəsi bu hadisədən sonralar xəbər tutur.

**Qaynaqlar**:


1. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Arxivi. Cahid Hilaloğlunun şəxsi işi.
2. Azərbaycan Daxili İşlər Nazirliyinin Arxivi.
3. Elmira. Cahid Hilaloğlu."Azadlıq" qəzeti, 1991, 14 iyun, sayı, 23 (53).
4. Hacı Emin. Çingiz Abdullayev kimdir?, "7 gün" qəzeti, 1997, 18 aprel, 22 aprel, sayı, 40(398), s.3, və 41 (399), s.3
5. Hüseynov Etibar. Bir kərə endirilmiş bayrağı bir daha yüksəldən... "xalq düşməni", "7 gün" qəzeti, 1995, 16 dekabr, sayı, 44 (219), s.4.
6. Nicat Əlisa. 100 böyük azərbaycanlı. "Qanun" nəşriyyatı, Bakı, 1999, s. 79.
7. Qasımov Cəlal. "Repressiyadan deportasiyaya doğru", "Mütərcim" nəşriyyatı, Bakı, 1998.
8. Şirinova Arzu. İsveçrə. Bern. Həyatın 17 anı...,"7 gün" qəzeti, 1998, 30 oktyabr, sayı, 152 (655), s.2.
9. Turan Azər. Tərk edilmiş...yaxud, Cahid Hilaloğlunun natamam obrazı."Aydın" jurnalı, 2003, sayı, 3, səh. 33-34.

**HÜSEYNİ ƏBÜLFƏZL (Əbülfəzl Aslan oğlu Hüseyini, ləqəbi Həsrət, d. 02.05.1925, İran, Təbriz ş. yaxınlığındakı *Şəngilava k. - 1987, Bakı ş.)***

***Şərqşünas alim, insan haqları müdafiəçisi, şair.***



Ziyalı ailəsində doğulub. İlk təhsilini Təbriz şəhərində mədrəsədə almışdır. Sovet orduları 1941-ci ildə İranın qüzey bölgələrinə daxil olanda 16 yaşlı Əbülfəzl Hüseyini bu işğalı alqışlarla qarşılayanlardan olmuşdur. Sovetlərin insanların hüququnu qoruyacağı, xalqlara azadlıq verəcəyi haqqındakı şüarlarına inanmışdı.

Şahın ölkədən qaçması ölkədə bir boşluq doğurmuşdu və bundan yararlanan minlərlə vətənpərvər kimi Əbülfəzl Hüseyni də öz ana dilində yazıb-yaratmağa başlamış, yeni yaradılan Azərbaycan Demokrat Firqəsinin təbliğatçılarından birinə çevrilmişdir.

Təbrizdə orta təhsilini başa vurub ana dili ilə yanaşı, Fars dilini də dərindən mənimsəyən, hər iki dildə şeirlər yazan, Fars poeziyasının incəliklərinə bələd olan gənc şair ana dilində məktəblər, qəzet və jurnallar açılmasını alqışlarla qarşılamışdır.

İşğalçı ordunun apardığı kommunist təbliğatına ürəkdən inanan gənc Əbülfəzl Hüseyni Azərbaycan Demokrat Firqəsinin hakimiyyətini möhkəmlətməsi üçün əlindən gələni əsirgəməmişdir. 1946-cı ildə dünyanın böyük və savaşda qalib gəlmiş dövlətlərinin təzyiqi ilə Sovet Sosialist Respublikaları İttifaqı İrandan

qoşunlarını geri çəkmək məcburiyyətində qalmışdır. Yaranmış qarışıqlıqdan istifadə edən irticaçı qüvvələr Azərbaycan Demokrat Firqəsinin üzvlərinə və tərəfdarlarına qarşı repressiyaya başlamışlar. Minlərlə insan öldürülmüş, evləri talan edilmiş, ailələr təzyiqlərə məruz qalmışdır. Şah qoşunları Təbrizi tutduqdan sonra da həbslər, sürgünlər, talanlar, təzyiqlər davam etmişdir. Həyatının təhlükə qarşısında olduğunu görən Əbülfəzl Hüseyni 1946-cı ildə Sovet Azərbaycanına mühacirət etmək məcburiyyətində qalmışdır.

Sovet Azərbaycanına gəldikdən az sonra, yəni 1947-ci ildə Bakı Tibb Texnikumunun stomatologiya şöbəsinə qəbul olmuşdur. İranda olarkən oxuduğu və eşitdikləri ilə Sovet Azərbaycanında gördüklər arasındakı ziddiyyət onda bir çaşqınlıq doğurur. Azərbaycan Demokrat Firqəsinin hakimiyyəti zamanı rəhbər vəzifə tutmuş, kommunist kimi tanıdığı və hörmət etdiyi həmyerlilərindən bəzilərinin həbs edilməsi və sürgünə göndərilməsi onda bir xəyal qırıqlığı yaradır.

Saygı göstərdiyi həmyerlilərinin məsləhətinə əməl edərək bir müddət ictimai-siyasi həyatdan uzaqlaşır. Əsas diqqətini təhsilə yönəldir. 1950-ci ildə Bakı Tibb Texnikumunu bitirsə də, seçdiyi ixtisas üzrə işləyib pul qazanmaq fikrində olmur. Təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Universitetinin Filolojiya fakültəsinin axşam şöbəsinə qəbul olunur. Bir il sonra təhsildə qazandığı uğurlara görə onu gündüz şöbəsinə keçirirlər.

1954-cü ildə universiteti bitirən Əbülfəzl Hüseynini Bakı şəhərinin Qaradağ rayonuna müəllim işləməyə göndərirlər. İstər texnikumda, istər universitetdə oxuduğu illərdə, istərsə də Qaradağda müəllim işlədiyi müddətdə (1954-1957) ciddi ictimai-siyasi fəaliyyətlə məşğul olmasa da, daim təqib edildiyini hiss edir. Bir neçə dəfə DTK-ya çağırıb sorğu-sual etsələr də, əməlində cinayət tərkibi olmadığına görə cəzalandırılmır. Sadəcə, öyüd-nəsihət verməklə kifayətlənirlər.

1957-cı ildən Bakı şəhərinin mərkəz bölgəsində yerləşən 160 saylı orta məktəbdə ədəbiyyat müəllimi işləyir. Dövri mətbuatda şeirləri çap olunur. 1958-ci ildə Bakıda azyaşlı uşaqlar üçün "Göyərçin" adlı rəngli jurnal nəşrə başlayır. Şair olduğuna görə Əbülfəzl Hüseynini jurnalda işə götürürlər. O, burada bir neçə uşaq şeiri və hekayəsi çap etdirsə də, işdən razı qalmadığına görə 1959-cu ildə Azərbaycan Sovet Sosialist Respublikası EA Nizami adına Ədəbiyyat İnstitutunda işə girir. Orada kiçik elmi işçi kimi işə başlayan Əbülfəzl Hüseyni 1968-ci ildə "Mirzə Ağa Təbrizinin həyat və yaradıcılığı" mövzusunda yazdığı dissertasiyanı müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi alır və böyük elmi işçi olur.

Güney Azərbaycandan gəldiyi və sərbəst fikirli olduğu üçün gənclər onunla ünsiyyətə çox can atırdı. O da bundan istifadə edərək Güney Azərbaycanda gördüklərini, oxuduqlarını gənclərə anlatmaqla onların milli şüura yiyələnməsinə, millətsevər böyüməsinə yardımçı olmağa çalışırdı.

**Əbülfəzl Hüseyni gənclərlə Gəmiqayada. Soldan: birinci sırada..., qahablı Məmmədhəsən, yaycılı Tağı Qasımov, Novruz, Əbülfəzl Hüseyni, arxa sırada: Oqtay Əsgərov (Daşoğuz), Famil**



Əbülfəzl Hüseyninin dedikləri ilə rəsmi Sovet təbliğatı üst-üstə düşmədiyinə görə, rəsmi orqanların ondan narazılığı getdikcə artır. O isə, fikirlərini yazıb çap etdiməyin mümkün olmadığını gördükdə şifahi təbliğata geniş yer verir.

Senzuradan keçən şeirlərini "Məhəbbət alovları" adı altında çap etdirir. Bununla yanaşı, Nizami adına Ədəbiyyat İnstitutundakı mətnşünaslıq şöbəsinin əməkdaşı kimi farsdilli poeziya nümunələrini Azərbaycan Türkcəsinə çevirir, Azərbaycan sufi şairlərindən Şah İsmail Xətainin, Əbülqasım Nəbatinin əski əlifba ilə olan şeirlərini Kiril qrafikalı Azərbaycan əlifbasına çevirərək nəşr etdirir. Onun lirik Fars şairi, qəzəl ustası Hafiz Şirazidən çevirmələri 1967-ci ildə böyük tirajla "Seçilmiş şeirlər" adı altında çap olunur. Yazmış olduğu "Nəsimi" pyesi Mirzəağa Əliyev adına İncəsənət İnstitutunun Tədris Teatrında tamaşaya qoyulur.

Lenin haqqında, Oktyabr Sosialist İnqilabının ildönümləri münasibəti ilə yazılmış şeirləri Şərq şairlərinin şahlara yazdığı mədhiyyələrlə müqayisə etməkdən çəkinməyən alim ikincilərin daha əhəmiyyətli olduğunu söyləyir. Lenin və Oktyabr inqilabı haqqında yazılanların bədii dəyərinin də olmadığını açıq deyir. Hər il qəzet və jurnallara məcburi abunə yazılmasını, ali və orta məktəb tələbələrinin pambıq yığmağa göndərilməsini, iməcilik adı altında insanların küçə və meydanları süpürməyə, idarə və təşkilat işçilərinin, məktəb şagirdlərinin bayram paradlarına çıxmağa məcbur edilməsini insan haqlarının pozulması kimi dəyərləndirir.

Onun minbir zəhmətlə Naxçıvandakı Gəmiqaya dağına qalxaraq oradakı qayaüstü yazıları araşdırması heç də xoş qarşılanmır. Bu araşdırmanın xalqda milli şüuru yüksəltməyə xidmət etməsi, bu yerlərin qədim sakinlərinin Türklər olduğunu isbatlayan dəlillərin ortaya qoyulması Rus hakim dairələrinin xoşuna gəlmir. Onun Gəmiqaya qayaüstü yazıları haqqında yazdığı məqalə Moskva mətbuatında kəskin tənqid olunur.

Əbülfəzl Hüseyniyə qarşı təzyiqlər durmadan artır. O, tənqid və təhqirlərə cavab yazsa da, məqaləsini nəinki Moskvada, heç Azərbaycanda da çap etdirə bilmir. Uzun axtarışdan, cəhddən sonra dostlarının köməyilə məqaləsini 1985-ci ilin dekabrında Naxçıvandakı "Sovet Naxçıvanı" qəzetində çap etdirir. Qəzet həm də "Sovetskaya Naxiçevan" adı altında Rus dilində nəşr

edildiyindən Əbülfəzl Hüseyinin məqaləsi tərcümə edilərək 1986-cı ilin yanvarında çap olunur. Məqalənin Rus dilində çap olunmuş variantı Moskvanın diqqətindən yayınmır. Oradan Azərbaycan KP MK-ya məqalə müəllifi və qəzet haqqında tədbir görülməsi göstərişi verilir. 1986-cı ilin oktyabrında Bakıda keçirilən Azərbaycan Kommunist Partiyasının plenumu heyvandarlığın qışa hazırlığı, yem tədarükü məsələlərinə həsr olsunsa da, məruzəci – Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov Əbülfəzl Hüseynini və onun məqaləsini çap etmiş "Sovet Naxçıvanı" qəzetini kəskin tənqid edir.

Bu tənqidə cavab olaraq Naxçıvan Vilayət Partiya Komitəsi "Sovet Naxçıvanı" qəzetinin fəaliyyətini yoxlamaq üçün xüsusi komissiya yaradır. Komissiyanın hazırladığı arayış Naxçıvan Vilayət Partiya Komitəsinin bürosunda geniş müzakirə olunur, qəzetin fəaliyyəti kəskin tənqid olunur, Əbülfəzl Hüseyninin məqaləsini çapa hazırlayanlar cəzalandırılır.

Bu basqılara dözə bilməyən Əbülfəzl Hüseyni 1987-ci ilin dekabr ayında Bakıda vəfat edir.

İki qızı vardı: Selvina və Şəlalə. Selvina atasından bir neçə il sonra dünyasını dəyişib.

**Qaynaqlar:**


1. Azərbaycan yazıçıları (Ensiklopedik məlumat kitabı), "Önər" nəşriyyatı, Bakı, 1995, səh. 137-138
2. Şirazi, Hafiz. Seçilmiş şeirlər (tərcümə edən Əbülfəzl Hüseyni; müqəddimə, qeydlər, lüğət. red. Ə. Cəfər), Bakı: Azərnəşr, 1967, 248 səh.
3. Hüseyni Əbülfəzl. Məhəbbət alovları (şeirlər), Azərnəşr, Bakı, 1964.
4. Xətayi. Seçilmiş əsərləri, (Tərtib edən Əbülfəzl Hüseyini), Azərnəşr, Bakı, 1964.
5. Seyid Əbülqasim Nəbati. Seçilmiş əsərləri (Tərtib edəni: Əbülfəzl Hüseyni), "Yazıçı" nəşriyyatı, Bakı, 1985.

6. Qiyasi Cəfər. Əbülfəzl Hüseyni haqqında xətirələr (“DS” qrupunun arxivində saxlanılır)
7. Daşoğuz (Əsgərov) Oqtay. Əbülfəzl Hüseyni haqqında xatirələr (“DS” qrupunun arxivində saxlanılır)
8. Şeyxələsgərsoy (Məmmədov) Fəxrəddin. Əbülfəzl Hüseyni haqqında xatirələr (“DS” qrupunun arxivində saxlanılır).

**KƏRİMOV ASƏF (Asəf Əsgər oğlu Kərimov, ləqəbləri Asəfxan Qubalı, Qubaxanlı, d. 04.03.1956, Bakı)**



***Publisist. İctimai-siyasi hərəkat fəalı. Azərbaycan Milli Demokratik İttifaqı təşkilatının (1976) qurucusu.***

Qulluqçu ailəsində doğulub. 1973-cü ildə orta məktəbi bitirib. 1978-ci ildə Voronej Dövlət Universitetinin Beynəlxalq İqtisadiyyat Fakültəsini bitirərək Bakıya dönüb. Bakıdakı Baş Mədəni Bağlama Ticarəti idarəsində baş əmtəəşünas işləyib.

1973-ci ilin yayında Bakıda milliyətcə Ukraynalı olan, dissident Anatoli Marçenko ilə tanış olub. Bu görüş və onunla etdiyi söhbətlər Asəf Kərimovun antisovet əhval-ruhiyyəsini daha da gücləndirib. Daha çox siyasi ədəbiyyat oxumağa, içtimai-siyasi xadimlərin ömür yollarını və mübarizə formalarını öyrənməyə başlayıb. Müstəqil düşüncəli gənclərlə tanış olub. Onlarla çayxanalarda, parklarda toplaşaraq dünyada və Sovetlər Birliyində baş verənləri müzakirə ediblər. Müzakirələrinin əsas mövzusu partiya-sovet rəhbərlərinin rəsmi toplantılardakı çıxışlarında söy-

lədikləri ilə, qəzet və jurnalların yazdıqları ilə, radio və televiziyada deyilənlərlə həyatda gördüklərinin uyğun gəlməməsi olub. Buna etirazlarını, narazılıqlarını bildirmək üçün yollar axtarıblar.

1973-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bakıda antiamerikan mitinq təşkil edir. Asəf Kərimov və dostları da həmin mitinqdə olurlar. Mitinq iştirakçılarının səsləndirəcəkləri şüarlar öncədən Mərkəzi Komitədə müəyyənləşdirilmişdi. Onlar mininqdə Rus dilində "Yanki, daloy iz Vyetnama!" (Yanki, yəni Amerkalılar, Vyetnamdan rədd olun!" şüarını səsləndirəndə Asəf Kərimov və məsləkdaşları da "Vanki, von iz Vyetnama!" (Vanki, yəni Vanyalar – Ruslar, Vyetnamı tərk edin!") deyə səsləniblər. Onların bu şüarlarının mənasını mitinq iştirakçılarının çoxu heç anlamayıblar. Elə biliblər gənclər Rus dilini yaxşı bilmədiklərindən belə deyirlər. Əslində isə gənclər bir tərəfində Amerika Birləşmiş Ştatlarının, bir tərəfində də Sovetlər Birliyinin hakim olduğu bölünmüş Vyetnam məsələsini gündəmə gətirmək istəyiblər.

Gənclərin mitinqdəki bu hərəkəti xüsusi xidmət orqanlarının diqqətini çəkməsə də, özlərində bir ruh yüksəkliyi, öz güclərinə inam yaradıb. Bu hadisədən sonra təşkilatlanmağı qərara alıblar. 1973-cü il dekabrın 8-də 17 nəfər gənc bir yerə toplaşaraq "Millət" qrupunu yaradıblar. Qrup üzvləri xarici radio verilişlərindən eşitdiklərini və xarici ölkələrdən gizli gətirilən ədəbiyyatlardan oxuduqlarını müzakirə ediblər. Sovetlər Birliyində sözlə işin düz gəlmədiyini xalqa çatdırmaq, insanları maarifləndirmək üçün şifahi təbliğatdan və əlyazma şəkilində olan vərəqələrdən istifadə etməyi qərara alıblar.

Asəf Kərimov 1974-cü ilin avqustunda Kaunas şəhərində olarkən oradakı antisovet tələbə mitinqinə qatılıb. Bakıya dönərkən qrup üzvlərinə Kaunasda olanlardan danışıb. 1974-cü ilin avqustunda Fransız müğənnisi Leni Eskuudro Bakıya konsertə

gəlir. "Millət" qrupunun üzvləri böyük maraqla bilet alıb konsertə gedirlər. Lakin müğənninin oxuduğu bəzi Fransız xalq mahnıları özlərini yenilikçi sayan qrup uzvlərinin xoşuna gəlmir. Onlar narazılıqlarını fit çalmaq, hay-küy salmaqla bildirirlər. Salondakı gənclərin bir çoxu da onlara qoşulur.

Milislər və drujinaçılar konsert salonunda "Sovet geyim tərzinə və davranışına" uyğun gəlməyən gəncləri zorla konsert salonundan çıxarmağa çalışırlar. Qarşıdurma yaranır. Bundan istifadə edən Asəf Kərimov bərkdən Rus dilində "Daloy KPSS!" (yəni Rədd olsun Sovet İttifaqı Kommunist Partiyası) və "Svobodu natsii!" (yəni "Xalqlara azadlıq") şüarını bağırır. Polis və drujinaçılar xarici ölkədən gəlmiş musiqiçilərin yanında özlərini nə qədər sakit və abırlı aparmağa çalışsalar da, güc tətbiq etmədən sakitlik yarada bilmirlər. Onların bir neçəsini polis bölməsinə aparıb döyürlər. Bununla ürəkləri soyumayıb səhərisi gün küşələrdə reyd keçirir, "Sovet geyim tərzinə və davranışına" uyğun gəlməyən gəncləri, yəni uzun saç saxlayan, son dəbdə geyinən gənclərin bir qismini də tutub polis bölməsinə aparırlar. Onları sovet əxlaq və geyim tərzindən uzaqlaşmaqda təqsirləndirərək döyür, şəxsiyyətlərini alçaltmağa çalışırlar. Milis bölməsində onlara təzyiq göstərilsə də, söylədiyi şüarlara görə Asəf Kərimovun hərəkətinə siyasi don geydirmirlər.

1976-ci ilin yayında Sovetlər Birliyinin tərkibində olan Azərbaycanla İranın tərkibində olan Azərbaycanı birləşdirmək arzusu ilə Azərbaycan Milli Demokratik İttifaqı adlı təşkilat qururlar. Təşkilatın proqram və nizamnaməsini Asəf Kərimov yazır. Təşkilatın proqramı iki bölmədən, yaxın və uzaq vəzifələrimiz bölmələrindən ibarət olur. Gənclər rayonlarda da tərəfdarlarını tapıb bölmələrini yaratmağa çalışırlar. Həmin proqram və nizamnaməni Asəf Kərimov günümüzədək qoruyub saxlamışdır.

Sovetlər Birliyinin şəhər və qəsəbələrində ölkənin gücünü və qüdrətini nümayiş etdirmək üçün hər il may ayının 1-də, may ayının 9-da, noyabr ayının 7-də izdihamlı nümayişlər keçirilirdi. Təşkilatın üzvləri 1978-ci il mayın 1-də keçiriləcək nümayişə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Respublikasının üçrəngli bayrağı altında çıxmağı qərara alırlar. Xüsusi xidmət orqanları buna imkan vermir. Onların hərəkətində ciddi qanun pozuntusu olmadığına görə işi məhkəməyə də göndərmirlər.

İranda şahın qaçması, ölkədə baş verən inqilabi əhval-ruhiyyə Milli Demokratik İttifaqın üzvlərini də fəallaşdırır. Onlar Güney Azərbaycanda müstəqil dövlət yaradılması ideyasını, yeni yaradılacaq dövlətə Sovet Azərbaycanında yaşayanların da yardım etməsinin vacibliyini təbliğ etməyə başlayırlar. Buna görə Asəf Kərimov DTK-ya aparılır və dörd saatlıq söhbət boyu ona izah etməyə çalışılır ki, gənclərin hərəkəti doğru deyil. Onu cinayət məsuliyyəti ilə hədələyir və söhbətdən sonra izahat alıb buraxırlar. Soyca Təbrizdən olan İsfəndiyar Coşqun isə özünü çılğın apardığına, fikirlərində, əməllərində haqlı olduğunu söylədiyinə, DTK əməkdaşlarını vətənpərvər, millətsevər olmamaqda suçladığına görə onu psixoloji dispanserə "müalicə"yə göndərirlər.

Təqib və təzyiqlərdən cana doyan gənclərin bir qismi 1980-ci ildən başlayaraq Azərbaycan Milli Demokratik İttifaqının toplantılarına qatılmır. 1984-ci il dekabrın 30-da isə Asəf Kərimov həbs olunur və təşkilat da fəaliyyətini tam dayandırır.

Asəf Kərimovu Bakı şəhər Nərimanov rayon Xalq Məhkəməsi mühakimə edir. Onu Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 214-cü maddəsinin t bəndi ilə ittiham edirlər. Siyasi mötivlərlə həbs edilsəydi, onun əmlakı müsadirə olunmazdı. Məhkəmə ittihamnaməsini elə hazırlayırlar ki, orada Asəf Kərimovun əmlakının müsadirəsinə də şərait olur. Ona üç il iş kəsilir.

Qanuna görə, məhkəmədən sonra qısa bir müddətdə onu islah-əmək düşərgələrindən birinə göndərməli idilər. Siyasi fəaliyyətə görə həbs olunduğundan islah-əmək düşərgəsinə göndərilməsi 1985-ci il iyun ayının 14-dək yubadılır. Həmin vaxtadək Bayıldakı İstintaq Təcridxanasında saxlanılır. Böyük Vətən Müharibəsinin 40 illiyi, yəni 1985-ci ilin mayında verilmiş amnistiya fərmanı Asəf Kərimova da düşür. Onu islah-əmək düşərgəsinə deyil, RSFSR Rostov Vilayətindəki Taqanroq şəhərinə göndərirlər. Oradakı polis nəzarəti məntəqəsində qeydə alınır. Hər gün polis məntəqəsinə gəlib heç yerə getmədiyini bildirməli olur.

Mixail Qorbacovun Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib seçilməsi totalitar rejimdə bir yumşalma havası əsdirir. Bununla yanaşı, milli zəmində qarşıdurmalar da artır. 1986-cı ildə Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Dinməhəmməd Kunayevin vəzifədən azad edilib yerinə milliyətcə Rus olan Gennadi Kolbinin təyin edilməsi Qazax xalqının heysiyyatına toxunur. Qazaxıstanın paytaxtı Almatı şəhərində 1986-cı il 17 – 18 dekabrda minlərlə insanın iştirak etdiyi mitinq keçirilir. Mitinq iştirakçılarının qarşısına çıxaraq onlara söz deməyə heç bir partiya-sovet rəhbəri cəsarət etmir. Dinc yürüşü zor gücünə dağıtmağa çalışırlar. Qarşıdurmada insanlar öldürülür və yaralanır. Yüzlərlə insan həbs edilir. Mitinq iştirakçıları arasında Asəf Kərimov da olur. Lakin o, həbs olunanlar sırasına düşmür.

Həbs müddətini başa vurduqdan sonra vətənə dönən Asəf Kərimov yenidən təşkilatını bərpa etməyə təşəbbüs göstərir. Buna görə gizli “Millət” adlı qəzetin nəşrinə başlayır. 1987-ci il yanvarın əvvəllərində DTK onu həbs edir və yenidən mühakimə olunmaq üçün işini Bakının Kirov rayon Xalq Məhkəməsinə göndərir. Məhkəmə ona 5 illik sürgün cəzası verir və siyasi fəaliyyətlə məşğul olmasına qadağa qoyur.

Asəf Kərimov Rusiyanın tərkibindəki Komi Muxtar Sovet Sosialist Respublikasının Knyajno qəsəbəsinə sürgün edilir (indi bu qəsəbə rayon mərkəzidir).

Azərbaycan SSR Ali Soveti mustəqillik aktını qəbul etdikdən sonra Asəf Kərimov Azərbaycan Ali Məhkəməsinə müraciət edir. Haqsız sürgün olunduğunu bldirir. Ali Məhkəmə onun istintaq işinə yenidən baxaraq bəraət verir.

1992-ci ilin iyun ayında vətənə dönən Asəf Kərimov içtimai-siyasi fəaliyyətə yenidən başlayır. Ardıcıl olaraq mətbuata məqalələr yazır, Azərbaycan Siyasi Mərkəzini qurur.

**Qaynaqlar:**

1. Heybətoğlu A. Bizi bağışlarmı, “Aydınlıq” qəzeti, 1992-ci il, 12 mart.

2. Məmmədov A. Müxalifət narahatdır, “Aydınlıq” qəzeti, 1992-ci il, 8 may.

3. Şəmsizadə N. Siyasət şahmat deyil, “And” qəzeti, 1992-ci il, 18 dekabr.

4. Kərimov Asəf. Millətin birliyi yolu, «Aydınlıq» qəzeti, 1992-ci il, 6 mart.

5. Kərimov Asəf. Millətin böhrandan çıxış yolu, «Aydınlıq» qəzeti, 1992-ci il, 10 aprel.

6. Kərimov Asəf. Müstəqil Azərbaycan yeni düşüncə yolunda, “Aydınlıq” qəzeti, 1992-ci il, 3 iyun.

7. Kərimov Asəf. Moskvaya ehtiyatlı baxış, “Aydınlıq” qəzeti, 1993-cü il, 22 yanvar.

8. Kərimov Asəf. Moskvanın təhlükəli oyunları, “Aydınlıq” qəzeti, 1993-cü il, 6 mart.

9. Kərimov Asəf. Tariximizin kataklizmaları, “Aydınlıq” qəzeti, 1993-cü il, 16 aprel.

10. Kərimov Asəf. Keçmiş siyasi moda: minumum, pilus maksimum, "Aydınlıq" qəzeti, 1994-cü il, 8 aprel.
11. Kərimov Asəf. Siyasətdən siyasətə, "Demokratik Azərbaycan" qəzeti, 1998-ci il, 16 may.
12. Umudlu İsmayıl. Азербайджанский националист В.Марченко. г. Зеркало, 2000 г., 1 апреля, 60 (817).

**MƏHƏRRƏMOV BAYCAN (Baycan Tahir oğlu Məhərrəmov, d. 12.03.1957, Bakı ş.– ö. 07.08.1983, Kislovodsk *Yaxınlığındakı süni göldə boğulmuş, Bakı ş. dəfn edilmişdir)***



***İnsan haqları müdafiəçisi, "Qurtuluş" və "Azadlıq" dərnəklərinin təşkilatçısı.***

Ziyalı ailəsində doğulmuşdur. Atası tanınmış şərqşünas alim, Nizami Gəncəvinin ömür yolunun və əsərlərinin öyrənilməsində böyük xidməti olan mətnşünas, filologiya elmləri doktoru Tahir Məhərrəmovdur. Anası Dilarə xanım həkim işləmişdir. Atası Azərbaycanın bölünməsinin rəmzi kimi oğlanlarının böyüyünə Azər, kiçiyinə Baycan adı qoymuşdur.

Milli bir ailədə böyüdüyündən, evlərində atası tez-tez dostları və peşə yoldaşları ilə Azərbaycanı Rusiyanın işğal etməsindən, millətin iki yerə bölünməsindən və bir-birindən ayrı düşmüş qohumların görüşə bilməməsindən çox söz açdığına görə, Baycan üsyankar bir ruhda böyüyüb. Bakıdakı 158 saylı orta məktəbin son siniflərində oxuyarkən "Qurtuluş" adlı gizli dərnək yaradaraq,

Azərbaycanın bölünməsinə etiraz bildirən əlyazma vərəqələr yazıb divarlara yapışdırıblar. Onların fəaliyyətindən ilk xəbər tutan polis işçiləri olub. Polislər geçə vərəq yapışdırarkən Baycan Məhərrəmovu yaxalayıblar. Onu nə qədər sorğu-suala çəksələr də, döysələr də, yoldaşlarının adını çəkməyib. İşi təkbaşına gördüyünü söyləyib.

Atasını polis bölməsinə çağıraraq uzun-uzadı söhbətdən, hədə-qorxudan sonra 16 yaşı tamam olmamış Baycanı evlərinə göndəriblər. Aradan bir neçə ay keçdikdən sonra şəhərin uçqar məntəqələrində də divarlarda əlyazma şəkilində vərəqələr görünməyə başlayıb. Vərəqələrin Bakının ayrı-ayrı rayonlarında divara yapışdırılması bu dəfə DTK-nın diqqətini çəkib. Onlar bu işi geniş şəbəkəli bir gizli təşkilatın gördüyünü düşünərək uyğun əməliyyat planı hazırlayıblar. Divarlara vərəq yapışdıran 3 nəfəri yaxalayıblar. Sorğu-sualdan aydınlaşdırıblar ki, elə bir ciddi gizli təşkilat yoxdur. 9-10-cu sinifdə oxuyan şagirdlər içdən gələn bir vətənpərvərlik hissilə valdeynlərindən də xəbərsiz bu işi görürlər.

Şagirdlərin valideyinlərini çağıraraq onlarla geniş söhbət aparırlar. Tahir müəllimin DTK-da işləyən tanışlarının da köməyi ilə yeniyetmələri azad edirlər. Lakin valideynlərinə və məktəbin rəhbərliyinə şagirdlərin üzərində nəzarəti gücləndirməyi tapşırırlar.

Nəzarətin gücləndirilməsi və yeniyetmələr arasındakı fikir ayrılığı gizli dərnəyin dağılmasına səbəb olur. Lakin Baycan ad günlərində, toplantılarda Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, Məhəmmədhüseyin Şəhriyarın milli ruhlu şeirlərini bəlağatlə söyləməklə dinləyənlərin diqqətini özünə çəkə bilir.

Orta məktəbi bitirdikdən sonra onu əsgəri xidmətə aparırlar. Rus dilini gözəl bildiyindən, Rus dilini bilməyən azərbaycanlı, Özbək, Türkmən gənclərinin zabitlər tərəfindən alçaldılmasına, təhqir edilməsinə etiraz səsini ucaldır. Buna görə də, onu hərbi xidmət müddətində bir neçə dəfə hauptvaxta salır və ona müxtəlif cəzalar verirlər.

Baycan görür ki, nəinki Rus dilini bilməyən azərbaycanlılara, Özbəklərə, Türkmənlərə, hətta Rus dilində Rusların bir çoxundan aydın danışan Qazaxlara, Qırğızlara, Tatarlara, Başqırdlara, bir sözlə, Rus olmayan xalqların övladlarına qarşı Sovet ordusunda bir təzyiq var. Qəribəsi budur ki, ordudakı Rus olmayan xalqların zabitləri bunu görsələr də, susurlar. Ona görə susurlar ki, qorxurlar onları millətçilikdə suçlayalar.

Dəfələrlə onu cəzalandırsalar da, hərbi tribunalla hədələsələr də, Baycan Məhərrəmov yolundan dönmür. Rus dilini gözəl bildiyinə, qanunları və təlimatları diqqətlə oxuyub ona əməl etdiyinə görə zabitlərin bir çoxu ondan çəkinir. Bəziləri də onun diribaşlığını yüksək dəyərləndirir. Bilirlər ki, hərbi tribunala versələr, Baycan Məhərrəmov özünü müdafiə edəcək, onların şovinist davranışını, hərbi qaydaları doğru bilməmələrini ifşa edəcəkdir. Hətta bir neçə dəfə hərbi hissənin komandanlığı ona ictimai vəzifə təklif edib, ilk partiya təşkilatı katibi isə onu kommunist partiyasının sıralarına qəbul etməyi təklif edib. Lakin Baycan Məhərrəmov bu şirnikləndirici təklifin arxasında nələr durduğunu gördüyündən heç birini qəbul etməyib.

Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Türk bölümünə qəbul olunub. Tələbəlik illərində yaşıdları ilə birlikdə gizli "Azadlıq" təşkilatını qurub. Tələbələrin zorla pambıq yığımına aparılmalarına etiraz kampaniyası təşkil etdiyinə görə onu universitetdən qovmaqla hədələyiblər. Baycan Məhərrəmov onu dindirən DTK zabitlərini savadsızlıqda, marksizm-leninizm ideyalarından xəbərsizlikdə ittiham edib. Onlara "Siz oxumursunuz! Oxusaydınız, bilərdiniz ki, Karl Marks pambıqçı əməyini qul əməyi adlandırıb! Sosializm quruculuğunda fəal iştirak etməli olan tələbələr isə qul deyillər və onları qul psixologiyasında tərbiyə etmək olmaz!"

Rəsmi toplantılarda eyhamla, çayxanlarda, ad günlərində və başqa qeyri-rəsmi toplantılarda isə Sovet Sosialist Respublikaları İttifaqında insan huquqlarının kütləvi pozulduğunu, millətlərin və toplumların hüququnun pozulmasına heç kimin səs çıxarmasına

icazə vermədiklərini, 1944-cü ildə sürgün olunmuş axısqalıların və Kırım Türklərinin hələ də vətənə dönmələrinə icazə verilmədiyini açıq söyləyirdi. Ölkədə baş verən pripiskaya (maddi istehsala dair rəqəmlərin şişirdilməsi), rüşvətxorluğa göz yumulması, yaltaqlıq və məddahlığın yaxın bir zamanda Sovet Sosialist Respublikaları İttifaqını məhv edəcəyini söyləyirdi.

1981-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Türk şöbəsini bitirən Baycan Məhərrəmova ixtisasına uyğun iş vermirlər. Atası və yaxın qohumları nüfuzlarından istifadə edərək, ona münasib iş yeri tapsalar da, DTK-nın təzyiqi ilə idarə rəhbərləri sonda onu işə götürməkdən imtina edirlər. Beləcə, onu maddi və mənəvi sıxıntıda qoymaqla "tərbiyələndirmək", "sözəbaxan" birisinə çevirmək istəyirlər.

Baycan Məhərrəmov valideyinlərinə belə demədən gedib Lökbatandakı Meloxor zavodunda işə düzəlir və orada bir ilə yaxın işləyir. Bəxtiyar Vahabzadə, Əbülfəz Əliyev, Əli Azərli, Kamil Əliyev və b. ilə tez-tez görüşüb söhbətləşməyə çan atsa da, onlara da etibar etmədiyindən yaratdıqları gizli təşkilat haqqında heç bir şey demir.

1982-ci ildə Bakıdakı Uşaq və Gənclər Nəşriyyatında işə girir. Orada öncə korrektor, sonra da redaktor işləyir. Düşünür ki, nəşriyyatın imkanlarından istifadə edib fikirlərini yazılı şəkildə yaya biləcək. Buradakı ciddi nəzarət, nəşriyyat rəhbərlərinin həm də senzor funksiyasını yerinə yetirdiyini gördükdə işdən uzaqlaşmağı qərara alır. 1983-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda aspiranturaya qəbul olunur. Lakin burada təhsilini davam etdirə bilmir. 1983-cü il avqustun 7-də Kislovodsk yaxınlığındakı süni göldə boğulduğu xəbərini ailəsinə verirlər. Cənazəsini gətirib Bakıda dəfn edirlər.

Ailəsi və qohumları, dostları onun yaxşı üzgüçü olduğunu, hər yay çimərliyə gedəndə dostları ilə Xəzərdə üzdüyünü, üzgüçülük qabiliyyətini göstərməkdən zövq aldığını söyləyirlər. Baycan Məhərrəmovun suda boğulub ölməsi nə ailəsinə, nə də dostlarına

inandırıcı gəlmir. Atası Tahir Məhərrəmov xatırlayırdı ki, başları yasa qarışdığından Baycanın əşyalaı ilə onun qırxını verdikdən sonra maraqlanıblar. Onda biliblər ki, Baycanla bağlı olan sənədlər, hətta onun aspiranturaya qəbul olunması haqqındakı arayış belə evdən yoxa çıxıb. Sənədlərin müəmmalı şəkildə "yoxa çıxması" da onun valideynlərini Baycanın DTK qəsdinin qurbanı olması qənaətinə gətirib çıxarır.

**Qaynaqlar:**

1. Azərli Əli. Baycan Məhərrəmov haqqında xatirələr ("DS" qrupunun arxivində saxlanılır).

2. Məhərrəmov Tahir. Oğlumuz haqqında xatirələr (Xatirələr "DS" Azərbaycan qrupunun arxivində saxlanılır).

**SAFRUH (Elman Ağa oğlu Əliyev, ləqəbi Safruh, d. 13.05.1941 (əslində 23.11.1939) il, Ağdam rayonunun *İsmayılbəyli k.)***



***Dissident, Asif Atanın silahdaşı, Mütləqə İnam Ocağının ilk və fəal üzvlərindən biri, 19 mindən artıq deyimin müəllifi.***

Kəndli ailəsində doğulub. 1961-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna daxil olmuş, ikinci kursda oxuyarkən ordu sıralarına çağırılmış, tərxis edildikdən sonra Pedaqoji İnstitutu buraxmış, 1966-cı ildə Azərbaycan Dövlət Universiteti Filologiya fakültəsinin qiyabi şöbəsinə qəbul olmuşdur.

Həmin ildən neft mədənlərində, Montin adına Maşınqayırma zavodunda fəhlə işləmişdir.

Safruh (Elman Əliyev) 1967-ci ildə Azərbaycan SSR Jdanov (indiki Beyləqan) rayonuna köçmüş, 1974-cü ilin aprelinədək orada yaşamış, o rayonda çıxan "Yüksəliş" qəzeti redaksiyasında öncə korrektor, sonra ədəbi işçi və şöbə müdiri, sonda məsul katib işləmişdir.

Burada o, həyatı bir az daha yaxından öyrənmiş və ilk siyasi sınaqlardan keçmişdir. Onun bu qəzetdə dərc olunan məqalələri, şeirləri, deyimləri həyat həqiqətlərini, cəmiyyətin çatışmazlıq və əyriliklərini əks etdirirdi.

Safruh adamlarla görüş və söhbətlərində şəxsiyyət azadlığının məhdudlaşdırıldığını, imperiya sisteminin milli varlığı boğmasını vurğulayırdı.

1969-cu ilin fevral ayında onun xalq şairi Rəsul Rzaya yazdığı məktub şairin mətbuatda çıxmış "Yer oğlu" poemasına bir oxucu reaksiyası idi. Bu məktub Safruhun real yaşamda qarşılaşdığı haqsızlıqlara açıq və kəskin reaksiyası idi. Məktubun əsli yoxa çıxmışdır – onun ünvana çatıb-çatmadığı da bəlli deyildir; qaralaması isə hansı yollasa qəzetin redaktorunun əlinə keçmişdir. Güman ki, sıxışdırılma zamanı bunu redaktora Safruh özü vermişdir – bu məqsədlə ki, məktubda elə bir qanun pozuntusunun olmadığına redaktoru inandırsın. Lakin məktub Safruhun işdən çıxarılmasına səbəb olmuş və sonralar əmək fəaliyyətində uzun müddət və çoxlu əngəllər yaratmışdır. Cürbəcür uydurma səbəblərlə o, dəfələrlə işdən azad edilmişdir.

Safruh 1974-cü ilin aprelində daimi yaşamaq üçün Bakı şəhərinə köçmüşdür. Burada əvvəlcə Mədəniyyət Nazirliyinin "Mədəni-maarif işi" jurnalında işə düzəlir. Bir il sonra Nazirlik aparatında inspektor vəzifəsinə "irəli çəkilir". Burada o, daim ağır qarşıladığı rusdilli mühitə düşür. O vaxt Nazirlikdə xalq şairi S.Vurğunun anadan olmasının 70 illiyinə hazırlıq gedirdi. Bu işlərin Rusca aparılmasına etirazını bildirən Safruhun işlədiyi

inspektor ştatı ixtisara salınmış, Safruh Nazirlik aparatının aşağı və daha az maaşlı pilləsinə – Metodkabinəyə köçürülmüşdür.

1976 – 1983-cü illərdə Safruh Azərbaycan Dövlət nəşriyyatı Azərnəşrdə kənd təsərrüfatı ədəbiyyatı redaksiyasında redaktor vəzifəsində çalışmışdır.

Safruh 25 fevral 1975-ci ildə tanınmış ədəbiyyat tənqidçisi, filosof Asif Ata ilə tanış olmuşdur. Bununla da onların əməkdaşlığı daimi xarakter almışdır. Safruh Asif Atanın vicdan və şəxsiyyət azadlığı ideyalarının qızğın yayıcısına çevrilmişdir.

1982-ci il oktyabrın 7-də Safruh Keşlə qəsəbəsindəki evində 7 nəfər cavan iş yoldaşı ilə söhbət-görüş təşkil eləyib, onlara öz deyimlərini və Asif Atanın qeyri-rəsmi yasaqlanmış “Meyar” əsərindən parçalar oxuyur. Həmin il dekabrın 24-də Azərnəşrdəki iş yerində bənzər toplantı keçirib, öz şeiri adı ilə, Asif Atanın “İnam” əsərindən “Ürəkdən gələn səs” adını daşıyan səhifələrini oxuyur.

1983-cü il noyabrın 11-də Azərnəşr Həmkarlar İttifaqının hesabat-seçki yığıncağında nəşriyyat direktorunun Rus dilindəki çıxışına “Azərbaycanca danışın, daha yaxşı başa düşək” deyə müdaxilə etmiş, “Azərbaycanda, xüsusən Azərnəşrdə yığıncaqlar Azərbaycan dilində aparılmalıdır” - deyə hiddətini bildirmişdir. Elə həmin il onu bu nəşriyyatdan uzaqlaşdırıb, o vaxtkı nəşriyyat-poliqrafiya sisteminin ən kiçik bölməsi olan “İşıq” nəşriyyatına keçirmişlər.

SSRİ-nin ruslaşdırma xəttinə, zorakı-yanlış milli siyasətinə qarşı Safruhun çıxışları ara vermədiyinə görə 1985-87-ci illərdə partiya təşkilatı və müdiriyyət tərəfindən onun şəxsi məsələsi dəfələrlə müzakirəyə qoyulmuşdur. Onu partiyanın milli siyasətinə qarşı çıxmaqda, Asif Ata ilə əqidədaşlıqda qınayırdılar.

Asif Ata və Safruh DTK -nın arasıkəsilməz təqiblərindən qismən də olsa yayınmaq üçün Atanın evində gizli görüşmək qərarına gəlirlər. Görüş zamanı, evdə DTK -nın dinləmə qurğusu yerləşdirə biləcəyini nəzərə alaraq, canlı danışığı kağız parçalarında yazışma ilə əvəz edirlər. Bu yazılı söhbətlərin “şahidi”

vərəqlərin çoxunu elə oradaca yox edirlər. (Lakin Safruh riskə gedərək, onların bir qismini qoruyub saxlamış, özünün 2007-ci ildə "Günəş" nəşriyyatında buraxdırdığı "Ata Səcdəsində" kitabını onların üzərində qurmuşdur).

1985-ci il avqustun 29-da Safruhu DTK - ya çağırıb Asif Ata ilə əməkdaşlığı ona rəsmən yasaqlayırlar. 1986-cı il fevralın 27-də ondan bu barədə yazılı iltizam tələb edirlər; xatırladırlar ki, onun 1982-ci il oktyabrın 7-də və dekabrın 24-də apardığı söhbətlərdən də xəbərdardırlar.

Bütün bunlara baxmayaraq, Safruh 26 dekabr 1986-cı ildə Asif Atanın ideyalarını yaymaq və Ocağa üzv (Evlad) cəlb etmək üçün respublikanın rayonlarına səfərə çıxır. Bunun nəticəsində Ocağa yeni Evladlar gəlir. Odur ki, həmin il Asif Ata 1987-ci ildən başlayaraq, hər ilin dekabr (Ocaq təqvimi ilə Sərt) ayının 27-ni "Ruhani Səfər Günü" Mərasimi kimi qeyd olunması barədə Ruhani hökm yazır. (Hazırda Ocaqda həmin gün "Ruhsal Gəzi Günü" İçuyumu adı ilə hər il qeyd olunur).

1985-ci il avqustun 29-da DTK- da Safruha o da deyilmişdi ki, "sənin Asif Atanın sağ əli olduğunu bilirik və biz bu əli kəsməliyik". Buna baxmayaraq, o, Ocaqda öz fəaliyyətinə ara verməmiş, Ocağa qəbul olunanlara öz həyat mövqelərini əski yönlərdən Mütləqə İnam dünyabaxışı üzərinə keçirməkdə köməklik göstərmiş, onlara Ata ideyalarını izah etmiş, onları bu Yolda mətinləşdirməyə çalışmışdır.

1980-ci illərin ortalarından, Asif Atanın xüsusilə güclü təqibə alındığı vaxtlar Safruh bütün Ocaq Evladlarının fəaliyyətlərini bir-biriylə əlaqələndirmişdir.

1 saylı Evladlıq Nişanəsinin yiyəsi Safruh bugün də Ocağın fəal üzvlərindən biri olmaqla, həm də "Ruhsal Başçı" adını daşıyır və Ata İşini davam etdirir.

Safruh 2004-cü ildən əmək təqaüdçüsüdür, Asif Atanın Mütləqə İnam Təlimini yeni sivilizasiya iksiri kimi öyür. Safruh "İnam Evi" adı ilə bu Təlimin məbədini yaratmışdır. Hazırda o,

Ocağın “İnamın Gəlişi” qəzetini nəşr etdirir. Özünün sevə-sevə “Atakənd” adlandırdığı Bakı şəhərində yaşayır.

**Qaynaqlar:**


1. Ağaoğlu Elman. Görümlər. Duyumlar. Deyimlər, Bakı, Azərnəşr, 1989.
2. Ağaoğlu Elman. Aforizmlər. Kitablar aləmində, 1983, sayı 4, səh, 67.
3. Asif Ata. Safruhun “Yeni Oğuz Sözü” kitabına rəy sonsöz. Bakı., “İşıq”, 1991, səh.502-504.
4. Aslanov Q. “Yeni Oğuz Sözü” (Safruhun eyni adlı kitabına rəy), “Yeni fikir” qəzeti. 1992, 7 avqust.
5. Atalı Eluca. Safruha cavab. “Amal” qəzeti, 1992, 15 iyul, səh. 5.
6. Əliyev Elman. Aforizmlər. Azərbaycan məktəbi, jurnal. 1980, sayı 6, səh. 30 və 40-da.
7. “İslam” cəmiyyəti. Allah adından bəyanat. Bəzi nəşrlər, o cümlədən Safruhun “Yeni Oğuz Sözü” kitabına qarşı etiraz. “Azadlıq” qəzeti, 1992, 17 oktyabr, səh.5.
8. Mahmudov M. Kiçik janrın böyük imkanları. “Kitablar aləmində” jurnalı, 1989, sayı 3, s.44-45.
9. Safruh. Yeni Oğuz Sözü, Deyimlər, Bakı, “İşıq” nəşriyyatı, 1991.
10. Safruh. Oğuz yönü. Bakı, Az. E NPB, 1997.
11. Safruh. Haraylar. Qanun jurnalı, 1988, sayı 3, səh.16-18.
12. Safruh. İqtidar və müxalifət. İçsəs (esse). “Müxalifət” qəzeti. 1993. 16 yanvar, səh. 5.
13. Safruh. Türküstan sevgisi. Yol qeydləri, şeir, deyim. “Milli Birlik” qəzeti. 1983, 17 iyun.
14. Safruh. Babək mövzusunda xırdaca bir gəzişmə, Haray. “Sirlər xəzinəsi” qəzeti, 1993.
15. Safruh. NATO-nun Qurban bayramına can atan Azərbaycan quzusu. Haray. “525-ci qəzet”, 1993, 11 dekabr, səh.8.

16. Safruh. Ruhani Birlik. İlke cizgiləri İçsəs (esse). “Sirlər xəzinəsi” qəz., 1992, səh.4
17. Saf–ruh. saf-ruh. “İslamın səsi” qəzeti, 16 aprel, 1996.
18. Safruhun Asif Ata fəlsəfəsi və mübarizəsi haqqında çıxışlarına qarşı. “Müxalifət” qəzeti, 24 sentyabr, 1997.
19. Vahabzadə B. Düşünmək, qanadlanmaq. Safruhun “Görümlər. Duyumlar. Deyimlər” kitabına önsöz (Müəllifin “Gəlin açıq danışaq” kitabı, Bakı, Azərnəşr 1998, səh.193-195.

**ŞAMİL SALEH (Şamil Saleh oğlu Əliyev, d. 31.12.1937. Bərdə ş. – ö. 23.06.2006. Bakı ş.)**



***Filosof, Azərbaycanı Könüllü Müdafiə Birliyinin qurucusu, bir neçə özbasım (самиздат) müəllifi.***

Qulluqçu ailəsində doğulub. Anası evdar qadınmış. Atasını 1937-ci ildə həbs ediblər. Bir neçə il sonra bəraət alıb və rəhbər vəzifədə işləyib. 1949-ci ildən Jdanov (hazırkı Beyləqan) rayonunda yaşayıblar. 1959-ci ildə Azərbaycan Sənaye İnstitutuna qəbul olunub. İnstitutu bitirdikdə onu Bakıdakı Kalinin adına zavoda elektirik mühəndisi işləməyə göndəriblər.

Sonra isə Azərbaycan Politexnik İnstitutunda assistant işləməyə başlayıb və “Əks əlaqə prinsipinin fəlsəfi təhlili” mövzusunda dissertasiya yazıb. Dissertasiyanın müzakirəsi 1965-ci il noyabrın 25-də SSRİ EA-nın Fəlsəfə İnstitutunda keçirilib. Gənc alim o dövrdə SSRİ-də böyük nüfuza malik olan B.S.Ukraintsevi

kəskin tənqid edib, onun baxışlarını qeyri-elmi adlandırıb. Milli respublikadan gələn, Rus olamayan gənc alimin professor B.S.Ukraintsevi kəskin tənqid etməsi müzakirədə əks-reaksiya doğurub. Onun yazdığı dissertasiyada irəli sürdüyü müddəaların bir qisminin qəbuledilməz olduğunu söyləyiblər. Şamil Əliyevin Sov.İKP Siyasi bürosunun baş müşaviri, nəzəriyyəçi və ideoloq kimi tanınan B.S.Ukraintsevlə başladığı mübahisə 20 ilə yaxın sürüb.

Şamil Əliyev dostlarının və yaxınlarının təkidi ilə diplom alanadək geri çəkilməyi qərarına gəlib. Müzakirədə deyilən qeydlərin bəzisini nəzərə alaraq dissertasiyanı yenidən işləyib. 1966-cı il martın 24-də dissertasiyanı müdafiə şurasına təqdim edib. Müdafiə uğurla keçib və ona fəlsəfə elmlər namizədi elmi dərəcəsi veriblər.

Bakıya dönən Şamil Əliyev Azərbaycan EA Fəlsəfə İnstitutunda işləməyə başlayıb. Lakin oradakı elmi mühit, alimlərin çoxunun fəlsəfədən çox ideologiyaya meyillənməsi, təbliğatçı və təşviqatçı işi görməsi onu qane etməyib. Fikirlərini açıq söyləyəndə, mühafizəkarları, savadsız alimləri tənqid edəndə isə istər çalışdığı idarənin rəhbərliyi, istərsə də iş yoldaşları ondan narazılıq ediblər. Onun işinə müxtəlif əngəllər törədiblər. Buna görə də, Şamil Əliyev tez-tez (8 ildə 6 dəfə) iş yerini dəyişməli olub.

Öncələr əsərlərini oxuduğu, istedadına və fikirlərini açıq və cəsarətlə söyləməsinə heyran olduğu Asif Əfəndiyevlə (Ata ilə) şəxsi tanışlıq ona güclü təsir edib. Bir müddət eyni institutda işləmələri onları daha da yaxınlaşdırıb. 1974-cü ilin yanvarında Asif Əfəndiyevin "Literaturnaya qazeta"da çap olunan "Postijenie qlubinnoqo" (Dərin olanın anlaşılması) məqaləsi respublikada böyük əks-səda doğurur. Əslində milli respublikalarda yaşayan müəlliflərin əsərləri rusdilli mətbuatda, xüsusən Moskvada çap olunanda onlar öyülürdü. Asif Əfəndiyevin məqaləsinin əks-reaksiya verməsinin isə bir çox səbəbləri vardı. Bunun başlıca səbəblərindən biri yazarın qəbul olunmuş qəlibdən çıxması idisə, o birisi də ha-

kimiyyətə yaxın olan, özünü filosof sayanların qısqanclığı idi. Asif Əfəndiyevə hücumlar başlayanda gənc filosof Şamil Əliyev onu müdafiə edənlərdən olub.

Asif Əfəndiyev Azərbaycan (indiki Bakı) Dövlət Universitetində "Etik və estetik tərbiyə klubu" yaradanda Şamil Əliyev də onu təqdir edənlərdən, əlindən gələn köməyi əsirgəməyənlərdən biri idi. O, burada Sabir Yanardağ, Adil Zeynallı, Baba Şahbazov və b. ilə yaxından tanış olub.

1974-cü ildə Azərbaycan EA Kibernetika İstitutunda işə girib. Orada baş elmi işçi ştatında işləsə də, onun normal işləməsinə şərait yaradılmayıb. Yaşadığı mühit, mühafizəkarlar, məddahlar onu sıxdıqca, o da müqavimət göstərib, vəziyyətdən çıxış yolları axtarıb. Təkidli müraciətlərdən sonra 1975-ci il oktyabr ayının 6-da SSRİ EA-nın Kibernetika İnstitutunda iki illik təcrübə mübadiləsinə gedə bilib. Kibernetika Sovetlər Birliyində elmin yeni sahəsi sayılırdı. Şamil Əliyev elə düşünürdü ki, istəklərini burada həyata keçirə biləcək.

Moskvada ona bildirirlər ki, Kibernetika İnstitutu KQB (DTK))-nin ciddi nəzarəti altında fəaliyyət göstərir və bir çox mövzular da onların sifarişi ilə araşdırılır. Buna baxmayaraq, institutdakı mühit və ona yaradılmış şərait Şamil Əliyevi qane edib. "İdarəetmə probleminin metodoloji aspektləri" mövzusunda araşdırmalarını 1977-ci ildə tamamlayıb və müzakirəyə verib. A.İ.Berqin rəhbərliyi altında keçən müzakirə onun araşdırmalarını təqdirəlayiq və İ.B.Novikovun redaktorluğu ilə nəşr edilməsini məqsədəuyğun sayıb. Beləcə, Azərbaycan aliminin kitabı 1980-ci ilin əvvəllərində Moskvada işıq üzü görüb.

Azərbaycana döndükdən sonra burada özünə siyasi və ictimai mövzuda həmfikir tapa bilməyib. Buna görə də, düşündüklərini Moskvaya, rəhbər partiya-sovet orqanlarına yazıb. O, məktublarında Moskvada rəhbər vəzifələrdə oturanların bir çoxunu bölgələrdən xəbərsiz olmaqda suçlayaraq yazıb: "Azərbaycan torpağını, havasını radiasiya və zəhərli qazlar, süni ölüm

dumanı bürüyüb. Udduğumuz hava, içdiyimiz su, yediyimiz çörək, meyvə-tərəvəz zəhərlənib. Bu, gələcək nəslin xəstəliklərə tutulması, iş qabiliyyətinin azalması deməkdir. Bunlar haqqında vaxtında ciddi tədbirlər görülməsə, Azərbaycanda yaşayan insanlar milliyətindən, dilindən, dinindən asılı olmayaraq mərkəzi hökumətə qarşı çıxacaqdır".

Məktubunda yazırdı ki, köləlik şəraiti Azərbaycan xalqını mədəni dünyanın gözü qarşısında bədnam, rüsvayçı vəziyyətə qoyub. Əslində o, çox böyük imkanlara malik bir xalqdır. Ölüm hökmü verilmiş Azərbaycan xalqı dünyanın üçüncü qrup ölkələrinin gününə düşüb. "Rus xalqı da daxil olmaqla, inkişaf etmiş dünyanın hər bir xalqı öz azadlığını, öz xoşbəxtliyini mənim xalqımın timsalında tapa bilər".

Qəribədir ki, yerli məmurları rüşvətxorluqda, iqtisadiyyatı çökdürməkdə, dağıtmaqda suçlayan Şamil Əliyev Kunayevlərin, Rəşidovların, Əliyevlərin nöqsanları mətbuata çıxarılanda, onların vəzifədə olduğu dövrün iqtisadi cinayətləri açılanda tamam başqa bir mövqe tutub. Sov. İKP MK-ya və b. mərkəzi orqanlara göndərdiyi "Rus xalına açıq məktub"unda yazır ki, onların günahı Moskvanın göstərişlərinə əməl etməkdən doğub. Onlar nə ediblərsə, Moskva üçün ediblər.

1985-ci ildə Mixail Qorbaçov hakimiyyətə gələndən sonra Şamil Əliyev daha da fəallaşıb. Ona ünvanladığı məktubunda Sovet dövlətində rəhbər vəzifə tutan bir qrupun antisovet fəaliyyətindən, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsində rəhbər işçilərin göstərişilə heç bir günahı olmayan adamların ağır cəzalara məhkum edildiyindən yazıb. "Leninizm ideyaları yaşayır və qalib gəlir" məktubunda Vladimir Leninin (Ulyanov) ölümündən sonra Kommunist Partiyasının onun ideyalarından sapdığını tənqid edir. Göstərir ki, Sovetlər Birliyi zamanında Rusiyanın müstəmləkəçilik siyasəti davam etdirilmiş və yenidənqurma, aşkarlıq dövründə də bu siyasət qorunmaqdadır. O, mərkəzi hakimiyyət orqanlarına yazdığı məktubları mətbuatda çap etdirə

bilmir. Buna görə də, Şamil Saleh imzası ilə geniş həcmli əsərlər yazıb və onları özbasımlarda (samizdatlarda) çap etdirərək yayıb. O, həyəcan təbili çalıb ki, Sovetlərdə bəzi rəhbər vəzifə tutan partiya-sovet işçiləri özlərinin ambisiyaları xatirinə dünyanı 3-cü dünya savaşına aparırlar.

Şamil Salehə görə, Mərkəzi Komitə 70 ilə yaxındır Vladimir Leninin ideyalarını təhrif etsə də, onu məhv edə bilməyəcək, Lenin ideyaları qalib gələcəkdir.

"Həsən Əliyevə açıq məktub"unda canlı təbiətin məhv edildiyindən çılğınlıqla söz açan Şamil Saleh 1987-ci ilin aprelində Sov.İKP Siyasi bürosuna "Lenin və müasirlik" adlı siyasi məktubunu göndərib.

O, Moskva ilə danışıqlar aparmaq üçün dəridən-qabıqdan çıxıb. Xalqının xilas yolunu Moskva ilə siyasi danışıqlarda görüb. Moskvadan isə onun məktubları Azərbaycana göndərilib. Azərbaycanda kiçik vəzifəli, necə deyərlər, heç bir ciddi səlahiyyəti olmayan məmurlar ona başdansovdu cavablar veriblər. Şamil Saleh çıxış yolunu xalqını bilgiləndirməkdə və təşkilatlandırmaqda görüb. 1987-ci ildə Azərbaycanı Könüllü Müdafiə Birliyi adlı təşkilat qurub.

Xalqın Sovet idarəetmə sisteminə inamı itdiyindən, inqilab əhvali-ruhiyyəsi gündən-günə artdığından Azərbaycanı Könüllü Müdafiə Birliyi kimi liberal, maarifçi təşkilatların çağırışlarına hay verənlər yox dərəcəsində olub. Bu da Şamil Salehi qıcıqlandırıb, günahı keçmiş dostlarında: Əbülfəz Elçibəydə, Sabir Yanardağda, Asif Atada və b. görüb. Rus dilində yazdığı üç cildlik "Sovetskaya tragediya", iki cildlik "Russkaya tragediya" kitablarını, eləcə də 6 cildlik "Azərbaycan faciəsi" (bu kitabdan yalnız "Səddam Hüseynin özü və mübarizəsi" işıq üzü görüb) kitablarını nəşriyyatlarda çap etdirə bilməsə də, özbasım vasitəsilə az tiraja da olsa, yaya bilib.

Rusiya Daxili İşlər Nazirliyinin Akademiyasında 1993-cü il martın 17-də doktorluq dissertasiyasını müdafiə edə bilsə də, siyasi

həyatda movqe tuta bilməyib. Nəşrinə başladığı "Xilaskar" qəzetinin cəmi üç sayını (3-cü sayını kserekopya ilə) çap etdirə bilib.

Azərbaycan Müstəqillik Aktını qəbul etdikdən sonra Şamil Saleh enerjisini azadlıq mübarizlərinə qarşı mübarizəyə xərcləyib. 2006-cı il iyunun 23-də dünyasını dəyişib.

**Qaynaqlar:**


1. Алиев Шамиль. Методологические аспекты проблемы управления, Б., 1980.
2. Алиев Шамиль. Советская трагедия в 2-х книгах: Генеральному секретарю ЦК КПСС М.С.Горбочову (вместе с сопр. письмами), Б. (с амиздаты) апрель 1985 г.
3. Алиев Шамиль. Советская трагедия в 2-х книгах: Ленинизм и современность (вместе с сопр. письмами), Б. апрель 1987 г.
4. Алиев Шамиль. Русская трагедия: Русскому народу, Б. сентябрь, 1988 г.
5. Алиев Шамиль. Азербайджанская трагедия в 6-и книгах: Пред.-ю Об-ва защиты природы Азербайджан а Гасану у, Б. июль 1986 г.
6. Алиев Шамиль. Азербайджанская трагедия в 6-и книгах: Идеал или антиидеал? Б. Октябрь 1986 г.
7. Алиев Шамиль. Азербайджанская трагедия в 6-и книгах: "Azərbaycan gəncləri" qəzeti redaksiyasına, Б. May, 1987.
8. Алиев Шамиль. Азербайджанская трагедия в 6-и книгах: Три взгляда на "Перестройку", январь 1988 г.
9. Алиев Шамиль. Азербайджанская трагедия в 6-и книгах: Карабахname — 1988, Б. Март-декабрь 1988 г.
10. Алиев Шамиль. Азербайджанская трагедия в 6-и книгах: Кровавый спектакль "Митинг миллионов" Б. январь, 1989 г.
11. К провокации "Народный Карабах", Б. июль, 1989 г. Берегитесь козлов, Б. ноябрь, 1989 г.

12. Umudlu İsmayıl. Azərbaycanda dissidentlik: belə bir şey olmuşdurmu? “Ayna- Zerkalo” qəzeti, 1997-ci il, 1 fevral, 4 (489).
13. Umudlu İsmayıl. Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı. Bakı: “Oğuz eli” nəşriyyatı. 1999. 68 səh.

**TAHİRZADƏ NOFƏL (Nofəl Şərif oğlu Tahirzadə, d. 05.09.1955, Qutqaşen (indiki Qəbələ) rayonunun Xırxatala *k.- ö. 06.08.1978, RSFSR Mordoviya MSSR Saransk şəhəri yaxınlığında müəmmalı şəkildə suda boğulub, Xırxatala k. dəfnedilib).***

***Memar, rəssam, şair, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübariz.***



Müəllim ailəsində doğulub. 1972-ci ildə orta məktəbi əla qiymətlərlə bitirərək o zamankı Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinə girib. Rəssamlığa uşaqlıqdan həvəsi olub. 1968-ci ildə çəkdiyi rəngli portretləri ilk uğuru saymaq olar. 1972-ci ildə peşəkar rəssamlığın sirlərini öyrənməyə başlayıb. Tələbəlik dönəmində *"Tələbə otağı"* (1973), *"Memar Əcəmi", "Otçalan oğlan"* (1974), *"Azadlıq!!!"* (1975), *"Gözəllik"* (1976)... rəsmlərini çəkib. “Azadlıq!!!” rəsmi ideya və sənətkarlıq baxımından xüsusi seçilir. Güney və Quzey Azərbaycanın rəmzi olan iki qardaş analarının gözləri önündə vahid çevrə içərisində birləşib.

Çevrədən qıraqdasa qardaşların birləşməsini istəməyib diş qıcırdan düşmənlər, eybəcər məxluqlar təsvir olunub. Bu mürəkkəb kompozisiyalı və düşündürücü əsər Nofəlin həyat idealının bədii əksidir.

Memarlığa Nofəl Tahirzadə 800 yerlik kinoteatr binasını layihələndirməklə başlayıb. ABŞ memarlarından Mis van der Roedən, Lö Korbüzyedən təsirlənib. Sovet memarlığına məxsus sərt qənaətcilliyi nəzərə almalı olsa da, layihələrində genişliyə, sərbəstliyə üstünlük verib, milli ənənələrin qorunub saxlanmasını vacib sayıb. Saransk şəhərində onun layihəsi üzrə bir neçə memarlıq işi istifadəyə verilib.

Nofəl Tahirzadə kiçik həcmli heykəltaraşlıq əsərləri də yaradıb. Tələbəlik illərində mişar daşından atası Şərif Tahirlinin, ana babası Molla Çərkəz əfəndinin və başqalarının son dərəcə gözəl büstlərini hazırlayıb.

Bədii yaradıcılıqda da qələmini sınayan Nofəl orta məktəbdə oxuyarkən səhnəciklər yazıb. Onları məktəbin özfəaliyyət dərnəyi özünün iştirakı ilə dəfələrlə göstərib. Onun bir çox bədii əsərlərinin səliqə ilə köçürdüyü əlyazmaları durur: *"İki dəcəl"* (səhnəcik; 15.4.1970), *"Novruzəli"* (Mirzə Cəlilin "Poçt qutusu" hekayəsini səhnələşdirib; 27.9.1970), *"Köhnə dünya məhv olur"//"Bir nəslin tarixi"* (dram; 1970), "Mollanın əməlləri", *"Pristav"* (dramlar), *"Həsənəli ağıllanır"* (səhnəcik; 15-20.10.1970), *"Nəbi kişi və onun ailəsi"* (komediya; 16-21.10.1970), *"Adolf fon Hitler"* (14 şəkilli pyes; 2-5.12.1970), *"İbrət dərsi"* (hekayə; 1971), *"Adsız hekayə"* (hekayə; 2.6.1971), *"Ən gözəl hədiyyə"* (hekayə; 29.12.1971) və b.

Nofəlin ən dəyərli bədii əsəri Babəkin həyat və çarpışmalarından danışan *"Babək"* tarixi povestidir (20-26.9.1975-1976). Povestin yazıldığı dönəmdə rəsmi sovet ideologiyasının və bu ideologiya üzərində qurulmuş sovet tarix konsepsiyası Babəki İslamın düşməni kimi təbliğ etsə də, povest müəllifi Babəki İslam əleyhdarı kimi deyil, Azərbaycanın azadlıq mübarizəsinin öndəri kimi götürüb.

Şeirlərində Bəxtiyar Vahabzadədən təsirlənib. Şeirlərini əsasən heca vəznində yazsa da, sərbəst vəzndə və Rusca yazılmış şeirləri də var.

1975-ci il onun həyatında və dünyagörüşündə ciddi dönüş ili olub. Həmin il institutda hərbi hazırlıq fənni üzrə imtahandan kəsilib və təqaüd almayıb. Bu, onun həyatında yalnız maddi deyil, mənəvi-psixoloji baxımdan da dərin izlər buraxıb. O, Sovet hərbçilərinin Rus dilində keçdikləri hərbi dərsləri Azərbaycanda müstəmləkəçiliyin əlamətlərindən biri sayıb və bu halla barışa bilməyib. Azərbaycanın müstəqil olması və onun öz ordusunun yaradılması üzərində ciddi düşünüb.

Nofəl Müstəqil Azərbaycan Dövlətinin gerbinin və bayrağının eskizlərini hazırlayıb! Bir ümumi dəftərdə "Müstəqilik – bu, yalandır" məqaləsinin əlyazmasından sonrakı vərəqdə bu nadir eskizlərin yanında 16 sentyabr 1975-cı il tarixini oxuyuruq. Bu zaman Azərbaycanın müstəqilliyinə hələ 16 il 1 ay 2 gün qalırdı!

Müstəqilliyin hərbi güclə başa gələcəyini bildiyinə görə hərbi nəzəriyyəni mənimsəməyə bütün ciddiliyi ilə girişib. Bu məqsədlə təkcə SSRİ-nin deyil, dünyanın aparıcı dövlətlərinin ordularını, onların silah növlərini, döyüş taktikalarını öyrənməyə çalışıb. Nəhayət, 1975-ci ildə özünün şah əsərlərindən biri olan müstəqil AZƏRBAYCAN ORDUSU BAŞ QƏRARGAHININ SXEMİNİ işləyərək hazırlayıb. Yazılarını şifrlə yazdığına görə DTK-nın diqqətini yayındırmaq üçün Azərbaycan Ordusu haqqında fikirlərini özünün hazırladığı əlifba və eksperimental dil ilə gizli saxlamağa çalışıb. Bu çox mühüm sənədi tam açmaq mümkün olmasa da, onun böyük tarixi əhəmiyyəti var.

Azərbaycan Ordusunun hətta özünün iştirakı ilə yaradılacağına ürəkdən inanan Nofəl milli əsgər və zabitlərin geyim formasını və poqonunu hazırlamaq üzərində də çox çalışıb, çoxlu eskizlər işləyib. Son eskizlərində o, zabit rütbələrini bildirən beşguşəli ulduzdan yerli-dibli imtina edib (sovet ordusunun nişanəsi kimi), onun yerinə üçguşə ulduz işlədib.

1976-cı ildə tərtib etdiyi "Tələbə-İnşaat Dəstəsinin Nizamnaməsi"ni bir çox aldadıcı mülki terminlərlə doldursa da, sənədin əslində yeni hərbi nizamnamədən başqa bir şey olmadığı aydınlaşır.

Nofəl hərbi və tarixi xəritələr üzərində də işləyib. Xəritə üzərindəki döyüş əməliyyatlarını yalnız oxumaqla kifayətlənməyib, özü də peşəkar xəritələr çəkib.

29 mart 1976-cı ildə tamamladığı *"Azərbaycan Səfəvilər imperiyası (16-cı əsr)"* xəritəsi elmi baxımdan da çox dəyərlidir. O vaxt nəinki buna bənzər xəritə mövcud deyildi, hətta Səfəvilər dövlətinə aid monumental əsərlər də nəşr edilməmişdi.

1976-cı ildə çəkdiyi ikinci xəritədə Bütöv Azərbaycan təsvir olunub. O vaxtlar belə xəritəni çəkmək siyasi baxımdan "arzuolunmaz" sayılır və müəlliflər təqib edilirdi.

Nofəl Tahirzadə Azərbaycan tarixi ilə bağlı bir sıra olduqca cəsarətli məqalələr yazıb. Onun *"Müstəqillik – bu, yalandır!"* (1975) məqaləsində həm Sovet Azərbaycanının müstəqilliyi haqqında rəsmi təbliğatın cəfəngiyyat olduğu bildirilir, həm Azərbaycanın birləşdirilməsi məsələsi qoyulur, həm də qəti bir yekun vurulur: ***"Azadlıq insana verilmir, onu zorla qazanırlar. Biz öz azadlığımızı, müstəqilliyimizi özümüz qazanacağıq!"***.

"28 tayfa və Azərbaycan" tarixi oçerki (1975) bir dissident yazısıdır. Məqalə bu cümlələrlə bitir: "Azərbaycan öz dilini, mədəniyyətini qoruyur. Azərbaycan yaşayır! O, diz çökməyəcək! Artıq Azərbaycanın yeni nəsli öz dostunu və düşmənini tanıyır. Artıq onu köhnəlib çeynənmiş sərsəm ideyalarla tovlamaq, diqqətini yayındırmaq mümkün deyildir. **Azərbaycanın bu gənc nəsli öz parçalanmış vətənini birləşdirəcək və yeni, müstəqil Azərbaycan yaradacaq! Azadlıq verilmir, onu qazanırlar!"**.

Nofəl Tahirzadənin gördüyü önəmli işlərdən biri də milli Azərbaycan əlifbası layihəsi hazırlamasıdır. 33 hərflik bu əlifbanı yaratmaq iki zərurətdən doğmuşdu – o, Azərbaycan xalqının da milli əlifbasının olmasını istəyir və özünün gizli yazılarını

da bu əlifba ilə yazırdı. Milli əlifba üzərindəki işini 9 sentyabr 1977-də tamamlamışdı.

**Qaynaqlar:**

1. Tahirzadə Ədalət. Xırxatala kəndinin tarixi və uruqlarının soyağacı. Bakı: "Sabah", 1996, ss. 103-116.
2. Tahirzadə Ədalət. Bizə söylədiyi xatirələri.

**TANQO (Tanrıqulu Əli oğlu Əliyev, ləqəbləri Tanqo, Taner,d.15.06.1938, Qardabani (keçmiş Qarayazı-Qaratəpə) ş. – ö. 05.03.1997. Bakıda. Gürcüstan Sovet Sosialist Respublikasının Dəfn olunub Gürcüstan Respublikası Qardabani ş.**

***Qardabani (keçmiş Qarayazı-Qaratəpə) ş. – ö. 05.03.1997. Bakıda. Publisist, insan haqları müdafiəçisi, "Qaranquş" dərnəyinin qurucusu***



Yoxsul bir ailədə doğulub. 1946-cı ildə Qarayazı qəsəbə orta məktəbinin birinci sinfinə daxil olur. 1956-ci ildə orta məktəbi bitirdikdən sonra günəmuzd işlərdə çalışır.

1959-ci ildə əsgəri xidmətə çağrılır. Sovetlər Birliyinin ən çətin yaşayış yerlərindən olan Vorkutada (indiki Rusiya Federasiyasının Komi Respublikası) hərbi xidmətini başa vurub 1961-ci ildə vətənə dönür. Hərbi xidmətdə olarkən Rus və Alman dillərini öyrənir.

İki il müxtəlif yerlərdə işlədikdən sonra 1963-cü ildə Bakıdakı Azərbaycan Dövlət Universiteti Filologiya Fakültəsinin Jurnalistika şöbəsinə qəbul olunur. Stalin dövrünün sərt rejiminin geridə qaldığını, ölkədə bir demokratikləşmə başladığını düşünən Tanırqulu Əliyev 1813, 1828-ci il müqavilələri ilə bölünmüş Azərbaycanı birləşdirmək arzusu ilə təşkilat qurmağa çalışır.

1964-cü ildə İsa İsmayılzadənin, Tofiq Abdinin və b. tanışlarının iştirakı ilə "Qaranquş" adlı gizli dərnək qururlar. Dərnəyin qərərgahı Tofiq Abdinin kirayədə yaşadığı evdə yerləşir. Tofiq Abdin Ermənininin evində kirayədə qaldığından dərnək üzvləri fikirlərşir ki, DTK buraya millətçilərin yığıldığını ağlına gətirməz.

Mirbəşir Qasımov küçəsi (keçmiş 2-ci Sverdlovsk) 24-də toplaşan qərargah üzvləri Tofiq Abdinin makinasında vərəqlər yazır, fikir mübadiləsi edir, gələcək planlarını hazırlayırlar. Getdikcə dərnək üzvlərinin sayı artır. Dərnək üzvlərinin sayı artdığına görə onun bölgələrdə şöbələrini də yaratmağı planlayırlar. Bağır Bağırov, Mövlud Süleymanlı, Bəhlul Abdulla (Abdullayev), Əsgər Məmmədov və b. tələbə gənclər milli ideyaları toplantılarda yayır, şeirlərində və hekayələrində Azərbaycanın birləşdirilməsi ideyasını təbliğ edirlər. Onlar fəaliyyətlərini davam etdirdikləri bir vaxtda DTK-nın diqqəti Bakıdakı Leytenant Şmid adına zavodda fəhlələrin qurmuş olduğu dərnəyə yönəlir. 1965-ci ildə fəhlə və tələbə gənclərin üzv olduğu dərnəyin böyük bir qrupu istintaqa cəlb edilir. Onlardan Allahverdi Qurbanova, Paşa Əbdülrəhimova və iki yoldaşa həbs cəzası, o birilərə isə inzibati cəzalar verilir.

DTK Leytenant Şmidt adına zavoddakı antisovet dərnəyi zərərsizləşdirəndən sonra diqqəti "Qaranquş" dərnəyinin üzvlərinə yönəldir. Uzun müddət dərnək üzvlərini izləyən xüsusi xidmət orqanlarının əməkdaşları bu qərara gəlirlər ki, "Qaranquş" dər-

nəyi millətçi təşkilatdır. Vaxtında qarşısı alınmasa, Azərbaycanın hər yerinə yayılacaqdır.

Azərbaycan Sovet Sosialist Respublikası Dövlət Təhlükəsizliyi Komitəsi əməkdaşlarının hazırladığı arayışda deyilir ki, “Qaranquş” qrupunun proqram və nizamnaməsi var. Qrupun rəhbərləri vaxtaşırı – şənbə və bazar günləri Bakının müxtəlif rayonlarında qeyri-leqal toplantılar keçirir, həmçinin millətçi xarakterli böhtanlar səsləndirirlər...

Arayışa görə, qrup üzvləri müəyyən vaxtdan sonra SSRİ-nin kapitalist ölkələrindəki səfirlikləri qarşısında Sovet Sosialist Respublikaları İttifaqına düşmən elementlərin köməyi ilə Azərbaycan Sovet Sosialist Respublikasına müstəqillik verilməsini tələb edən kütləvi nümayişlərin təşkil olunmasını planlaşdırmışdır.

Onlar qarşılarına məqsəd qoyublar ki, respublikada hakimiyyəti silahlı üsyan yolu ilə ələ keçirsinlər və Azərbaycan Sovet Sosialist Respublikasını Güney Azərbaycanla vahid dövlətdə birləşdirsinlər...

Əslində dərnəyin proqramında heç bir silahlı mübarizədən söhbət açılmırdı. Onların silah əldə etmələrinə və silahlı qruplar yaratmasına da imkanları yox idi. Bütün bunlara baxmayaraq, qorxuya düşmüş DTK 1966-cı ilin aprel-may aylarında qrupun 28 üzvünü həbs edərək istintaq aparır. Onların əməlində heç bir qanun pozuntusu tapa bilmədiklərinə görə, işlərini məhkəməyə göndərmirlər. Dərnək üzvləri Tofiq Abdindən, Bağır Bağırovdan, Mövlud Süleymanlıdan, Бəhlul Abdulladan (Abdullayev), Əsgər Məmmədovdan və b. hədə-qorxu yolu ilə izahat alırlar ki, hərəkətlərindən peşmandırlar və bir daha belə hərəkətlərə yol verməyəcəklər.

Buna baxmayaraq, DTK gəncləri daim nəzarətdə saxlayır, hara getiklərini, kiminlə görüşdüklərini, harada nə danışdıqlarını

izləyir. İllər keçəndən sonra Ukraynaya ezamiyyətə getmiş Tofiq Abdin həbsdə olan dissident Anatoli Marçenkonun anası ilə görüşür. Oradan da Mokvaya yollanır.

Tofiq Abdin Ukraynadan Moskvaya getdiyi günləri xatırlayanda jurnalistlərə deyib: "Bolşoy Teatrın qarşısında dayanmışam bilet almağa, bir də gördüm çiynimə bir əl toxundu, çevrildim, gördüm bir Rus. Dedi: "Vı Tofik?" Dedim: "Da". Dedi: "Ukraynada filan ünvanda olubsunuzmu?" – Marçenkonun ünvanını dedi. Sonra da "Elə düşünməyin ki, biz sizi tanımırıq" - deyib çıxıb getdi... Onda anladım ki, bu nə deməkdir. DTK belə işləyirdi..."

Tanrıqulu Əliyev 1967-ci ildə "Marksizm-leninizm estetikası" fənni dərsində müəllimlə mübahisəyə girir. Onu pedaqoqluqdan uzaq, diktaktor adlandırır və Marksizm-leninizm estetikası deyilən bir elmin olmadığını söyləyir. Onun sözündən qəzəblənən müəllim "Səni Sovet hökuməti oxutdu, Sovet hökuməti sənə tərbiyə verdi. Bu gün sən nankorcasına Sovet hökumətini bəyənmirsən?!" - deyir. O, müəlliminə savadsız və məhdud dünyagörüşlü olduğunu söyləyir. Tələbələr qarşısında qəti şəkildə bildirir ki, Sovet universitetində təhsilini davam etdirməyəcək. Bu mübahisədən sonra universitetə dönmür. DTK isə onu yenə də tənbeh etməkdə, hədələməkdə qalır.

Siyasi sifarişli məqalələr yazmamaq üçün 1967-ci ildə "İdman" qəzetində işə girir. Lakin orada da bir il belə işləyə bilmir. İdeologiyanın idmana da yoluxduğunu, redaktorun amiranə iş metodunu görüb işdən çıxır.

Savadlı və geniş dünyagörüşlü olmasına baxmayaraq, ona heç yerdə iş vermirlər. Rus və Alman dillərindən ədəbi-bədii tərcümələr etməklə yaşamını təmin etməyə çalışır. Lakin onun tərcümələri də Azərbaycanda nəşr olunan qəzet və jurnalların redaktorlarını qane etmir.

1970-ci ildə dostlarının yardımı ilə “Gənclik” nəşriyyatında işə düzəlir. 1972-ciilədək orada işləyir. DTK isə onun ideoloji sahədə işləməsindən narahatlıq keçirir. Nəşriyyat rəhbərliyinə, ictimai təşkilatların rəhbərlərinə tapşırırlar ki, Tanrıqulu Əliyevə nəzarəti artırsınlar. Tanrıqulu təqib və təzyiqlərədən bezərək işdən çıxır.

Tanrıqulu Əliyev “Tanqo” ləqəbi ilə məqalələr yazmır. Amma tanıyanlar onu rəsmi adı ilə deyil, “Tanqo” və ya “Taner” deyə çağırırlar. Yüksək vəzifəsi olmasa da, daimi maddi sıxıntı içərisində yaşasa da, milli ruhlu gənclər onunla görüşməkdən, söhbət etməkdən qürur duyurlar. Alman dilini, Alman fəlsəfəsini, tarixi gözəl bilən Tanrıqulu Əliyevin Hegeldən, Kantdan, Feyerbaxdan etdiyi söhbətlər gəncləri maqnit kimi ətrafına çəkir. Millətçi gənclər arasında nüfuzu gündən-günə artdığı üçün DTK “qeydiyyat müddəti bitdiyinə görə” ondan Bakı şəhərini tərk etməyi tələb edir. Bakıdan getməsə, onu işsiz, “tüfeyli həyat sürən” kimi həbs etdirəcəkləri ilə hədələyirlər.

O dövrdə Bakıda yaşamaq bir üstünlük sayılırdı. Azərbaycanın bölgələrindən gələnlərin burada qeydiyyata düşməsinə əngəllər törədildiyi halda, Rusları, Ukrayınları, Erməniləri və b. millətlərdən olanları burada rahat qeydiyyata götürür, işlə təmin olunmasına şərait yaradırdılar. Sovet siyasətçiləri Bakının milli şəhərə çevrilməsini əngəlləyirdilər. Tanrıqulu Əliyev bunları bilsə də, müxtəlif vasitələrlə Bakıya qeydiyyata düşməyə can atmır. Doğulduğu qəsəbəyə qayıdır.

Gürcüstan Sovet Sosialist Respublikasının Qardabani şəhərinə qayıdan Tanrıqulu Əliyev bir müddət işsiz qalır. Ali məktəbdə oxuyarkən şahmat yarışlarında iştirakı, universitet çempionu olması, birinci dərəcəli şahmatçı normativini yerinə yetirməsi Qardabani şəhər Uşaq İdman Məktəbində işləməsinə imkan yaradır. Lakin burada da uzun müddət işləyə bilmir. 1980-ci ildə Qar-

dabani şəhərindəki Texniki Peşə Məktəbinə işə düzəlir. Təqiblər və təzyiqlər burada da işləməsinə imkan vermir. 1981-ci ildə "öz ərizəsi ilə" işdən çıxmalı olur.

Səkkiz il heç bir dövlət təşkilatında işləyə bilməyən Tanrıqulu Əliyevi Sovetlər Birliyi çökməyə başlayandan sonra "Qaranquş" Dərnəyindən yaxından tanıdığı Tofiq Abdinin köməyi ilə Bakıdakı "Qobustan" jurnalında işə düzəlir.

Təqiblər, təzyiqlər və maddi sıxıntı ona ailə qurmağa da mane olur. 1989 – 1992-ci illərdə "Qobustan" jurnalında işləyən Tanrıqulu Əliyevi keçmiş əqidə yoldaşları Azərbaycan Radiosuna işə dəvət edirlər. Radioda "Gündoğandan günbatana", "Yerin, yurdun, adın-andım", "Yazıya pozu yoxdur" kimi proqramlarda milli-vətənpərvərlik verilişləri hazırlayır. Verilişlərində türkçülüyü, Türk dilinin ortaq ünsiyyət dili olmasını təbliğ edir. Bütün varlığı ilə soydaşlarında milli şüuru yüksəltməyə, Azərbaycanın müstəqilliyini qorumağa çalışır.

Uzun müddət təqib və təzyiq altında yaşaması, ailəsizlik, qürurundan ac-susuz qaldığı günlərdə belə heç kimə ağız açmaması onun sağlamlığına ağır təsir göstərir. Həkimlər ona "aritmiya, işemiya, stenokardiya" diaqnozları qoysa da, maddi imkansızlığından müalicəyə getmir. 1997-ci il martın 5-də dünyasını dəyişir. Onu doğulduğu şəhərdə, Gürcüstan Respublikasının Qardabani şəhərində valideynlərinin yanında dəfn edirlər.

**Qaynaqlar:**

1. Abdullayev Bəhlul. "Tanqo haqqında xatirələrim" ("DS" qrupunun arxivində saxlanılır).

2. Abdin Tofiq. "Tanqo haqqında xatirələrim" ("DS" qrupunun arxivində saxlanılır).

3. İsmayılzadə İsa. Sən neylədin, Tanrıqulu, "Ekran-efir" qəzeti, 1997, 17-23 mart, sayı, 11 (2064)

4. Azərbaycan Radio Televizya Şirkətinin Arxivi, Tanrıqulu Əliyevin şəxsi işi.

5. Umudlu İsmayıl. Азербайджанский националист В.Марченко. г. Зеркало, 2000 г., 1 апреля, 60 (817).

**TURABXANOĞLU RAFİQ (Rafiq Turabxan oğlu Abdullayev, ləqəbləri Sabah, Turan, d. 09.07.1946, Qubadlı** ***rayonunun Muradxanlı kəndi)***

***Antisovet ictimai-siyasi xadim, demokratik hərəkatın liderlərindən biri, Azərbaycan Xalq Demokrat Partiyasının və Turan Xalq Demokrat Partiyasının qurucusu.***



Kənd müəllimi ailəsində anadan olub. 1961-ci ildə Muradxanlı kənd səkkizillik məktəbini bitirib Sumqayıt Kimya-Texnologiya Texnikumuna oxumağa gəlib. 1965-ci ildə oranı bitirərək M.Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutuna qəbul olunub.

"Sosialist Sumqayıtı" qəzetinin işçisi Xasay Cahangir oğlunun rəhbərlik etdiyi Ədəbiyyat dərnəyinə üzv yazılıb. Rafiq Abdullayev şeir yazmasa da, ictimai-siyasi xadimlər, tarixi şəxsiyyətlər haqqında məlumatlar toplayıb dərnək üzvləri qarşısında çıxış edib. Dərnəkdə yeniyetmə və gənclərdən K.Feyzullayev, B.Həsənov, Xıdır Alovlu, A. Həmid, M. Əhmədovla tanış olub.

Onlarla vətənpərvərlik mövzusunda etdiyi söhbətlərin dərsliklərdə, qəzet və jurnallarda oxuduqları ilə, radio-televiziyada eşitdikləri ilə uyğun gəlmədiyini görüb. Bu fərqliliyin səbəblərini aydınlatmağa və aradan qaldırmağa çalışıblar. Onda şahidi olublar ki, hər yerdə beynəlmiləlçilikdən söz açılsa da, əməldə bundan əsər-əlamət yoxdur. Beynəlmiləlçilik adı altında ruslaşdırma siyasəti yeridilir. Rəsmi toplantılar Rus dilində aparılır, içtimai yerlərdə Rus dilində danışılır, avtobusda, tramvayda bilet satan da Rus dilində danışa bilməsə, işə götürülmür. Ruslar, rusdillilər hər yerdə fərqləndirlir, onlara xüsusi qayğı göstərilir.

1963-cü il noyabrın 7-də keçiriləcək nümayişə ciddi hazırlıq gedir. Texnikumun tələbəsi Rafiq Abdullayev də idmançılarla birlikdə nümayişə hazırlaşır, necə deyrələr, məşq edir. Nümayiş əvvəlcədən planlaşdırıldığı kimi gedir. Rafiq Abdullayevin iştirakçısı olduğu idmançılar dəstəsi tribuna önündən keçərkən rəhbərlər onları salamlayır. İdmançılar tribunanın önündən keçdikdən sonra bir kənara çəkilərək nümayişin gedişini izləyirlər.

Sumqayıt Boru-Prokat Zavodunun kollektivi tribunanın qarşısına gələndə birdən aləm qarışır. Rafiq Abdullayev nə baş verdiyini aydınlaşdıranadək tribunadakı rəhbər işçilərin "yoxa çıxdığını", onları, neçə deyərlər, heç kimin tanımadığı fəhlələrin əvəz etdiyini görür. Meydana atılıb çoşmuş toplumu sakitləşdirmək istəyən Sumqayıt şəhər Hərbi Komissarının necə əzişdirildiyinin şahidi olur. Bayram əhval-ruhiyyəsində keçən nümayişin birdən qiyama çevrilməsi, insanların qarşılarına çıxan hər şeyi yıxıb-dağıtması, coşmuş xalqın qorxusundan milis işçilərinin, partiya-sovet rəhbərlərinin, hərbçilərin qaçıb-gizlənməyə can atmaları Rafiq Abdullayevi qəflət yuxusundan oyadıb.

Başqa vaxtlar gur-gur guruldayan, hamıya hədə-qorxu gələn, zor tətbiq edənlərin gülünc vəziyyətə düşməsi onu düşünməyə, həyatını mübarizəyə həsr etməyə vadar edib. Qərara alıb ki, həyatını rüşvətxor məmurlara, qanunlara əməl etməyən milislərə və hüquq işçilərinə qarşı mübarizəyə həsr etsin.

Azərbaycan Neft-Kimya İnstitutunda oxusa da, siyasi ədəbiyyat oxumağa daha çox maraq göstərir. Ətrafına həmfikirlər toplayır. 1966-cı ildə mövcud quruluşa qarşı sistemli mübarizə aparmaq üçün planlar hazırlayır. Tərəfdarlarının sayının 21-ə çatdığını gördükdə Rafiq Abdullayevdən, Z.Qaraşovdan, İ.Rəfiyevdən, E.Rəşidovdan, B.Verdiyevdən, V.Həsənovdan ibarət büro yaradırlar. Mübarizələri hansı formada aparacaqlarını ölçüb-biçirlər. Qərara alırlar ki, ölkədə fərqli düçünənlərə açıq ictimai-siyasi fəaliyyətlə məşğul olmaq qadağan olunduğuna görə, onlar gizli fəaliyyət göstərsinlər. Təşkilatlarını partiya şəklində qurmaq razılığına gəlirlər. Rusiyadakı, Avropadakı, Amerikadakı siyasi partiyaların tarixini, quruluşunu öyrənirlər. Hökumətin təqibindən, basqısından qorunmaq üçün kommunist partiyasına yaxın, sosialist tipli bir partiya quracaq Təşəbbüs Mərkəzi yaradırlar. Qısa müddətdə tərəfdarlarının sayı artdığına görə dörd şəhərdə şöbələrini açırlar.

1967-ci ilin yazında təşkilatın təsis qurultayı çağrılır. 74 nəfərin iştirakı ilə keçirilən qurultayda Ümumazərbaycan Fəhlə-Kəndli Partiyası yaradıldığı elan edilir və Rafiq Abdulalyev partiyanın baş katibi seçilir. Qəbul edilən proqramın ideyası Sovetlər Birliyinin və İran İslam Respublikasının tərkiblərindəki Azərbaycanıları birləşdirərək vahid və müstəqil dövlət qurmaq olur. Əslində bu ideyanın bir hissəsi Rusiyanın da, Sovetlər Birliyinin də İrandakı Azərbaycanı işğal etmək siyasətinə uyğun gəlirdi. Sovetlər Birliyi də bu yöndən işini davam etdirir, Azərbay-

can yazıçı və şairlərinin Güney Azərbaycanla bağlı yazdıqları əsərlərin bir qisminin çapına icazə verirdi.

1967-ci ildə Sovetlər Birliyində "Böyük Oktyabr Sosialist İnqilabının 50 illiyinə" ciddi hazırlıq gedirdi. Hər yerdə təbliğat aparılır, bayram əhval-ruhiyyəsi yaradılmağa çalışılırdı. Ümumazərbaycan Fəhlə-Kəndli Partiyasının üzvləri isə bu bayramın keçirilməsinin qarşısını ala bilməyəcəklərini açıq-aydın görürdülər. Ona görə də, bayramın keçirilməsinə əngəl olmağa deyil, onu gözdən salmağa çalışırdılar. Bunun üçün xüsusi plan da hazırlanır və onun həyata keçirilməsinə başlanılır.

1967-ci il sentyabrın 10 – 25 arasında partiya fəallarından B.Verdiyev, S. Bədəlov, V.Həsənov, E.Rəşidov, Z.Səfərov və b. DTK tərəfindən söhbətə aparılır. Gəncəyə ezam edilmiş İ.Rəfiyev də orada saxlanılaraq dindirilir.

Oktyabrın 1-də partiyanın baş katibi Rafiq Abdullayevi kirayə qaldığı evdən DTK-nın Sumqayıt təşkilatına, oradan da Bakıya, Azərbaycan DTK-nə aparırlar. Təşkilatın varlığından, proqramından xəbər tutduqda üzvlərdən 100 nəfərə yaxınından izahat alırlar. Onların fəaliyyətində Sovet qanunlarına zidd bir iz tapa bilmirlər. Partiya üzvlərinə izahat işi aparıb, bir daha rəsmi dairələrin icazəsi olmadan təşkilat yaratmamaları haqqında izahat alaraq buraxırlar. Partiyanın baş katibini isə Azərbaycan SSR Cinayət Məcəlləsinin 67-ci maddəsilə ittiham edərək istintaq aparırlar. Onu irqi və milli ayrı-seçkilik təbliğatı aparmaqda və s. suçlayırlar. Onun istintaqı davam etdiyi günlərdə valideynləri rəhbər vəzifələrdə işləyən tanışlarına minnətçi düşür, rəhbər işçilərin rəsmi qəbullarında olurlar. Atasının yüksək vəzifəli tanışları özlərini də zərbə altında qoymamaq üçün Rafiq Turabxanoğlunun qapalı psixi xəstəxanaya "müalicə"yə göndərilməsinə nail olurlar. Beləcə, "xəstə" Rafiq Turabxanoğlunun DTK müs-

təntiqlərinin caynağından qurtarmasına şərait yaranır. Bir müddət "müalicədən" sonra həkimlər ona toplum üçün təhlükəli olmayan "xəstə" diaqnozu qoyur. Bu diaqnoz da Rafiq Turabxanoğlunun 1968-ci il fevralın 19-da həbsdən azad edilməsinə yol açır.

Rafiq Abdullayev həbsdə olduğu müddətdə rektorluq "başağrısından qurtulmaq üçün" onu dərslərə gəlmədiyi bəhanəsi ilə institutdan xaric edir. Lakin o, rektorluğun bu qərarı ilə razılaşmır. Uzun mübarizədən sonra axşam şöbəsində təhsilini davam etdirmək hüququ qazanır. 1975-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirir.

Gənclərin bir qrupu yenidən görüşür və təşkilatın fəaliyyətini bərpa edirlər. Qərara alırlar ki, partiyanın ikinci qurultayını çağırsınlar və istintaq zamanı zəiflik nümayiş etdirənlər partiya sıralarından xaric edilsin. Fevral ayında çağırılan qurultayda partiyanın proqram və nizamnaməsində də dəyişiklik edilir. İran Azərbaycanı ilə Sovet Azərbaycanını birləşdirmək məsələsi proqramdan çıxarılır. Partiyanın adı dəyişdirilərək Azərbaycan Xalq Demokratik Partiyası adlandırılır.

Partiyanın proqramında göstərilir ki, Azərbaycan xalqı demokratik yolla tarixi ədaləti bərpa etməli, imperiya zülmündən qurtarmalıdır. Bunun üçün demokratik təsisatlara nail olmalı, xalq demokratiyaya hazırlanmalıdır.

DTK-nın diqqətindən yayınmaq üçün Azərbaycan Xalq Demokratik Partiyasının növbədənkənar 3-cü qurultayı Donetsk şəhrində keçirilir. Qurultaya partiya üzvləri ilə yanaşı, Qafqaz xalqlarından da qonaqlar dəvət edilir. Qurultayın gedişində təşkilati işlərə öncədən ciddi hazırlıq görülmədiyi aşkara çıxır. Siyasi müzakirələr, reqlamentə əməl edilməməsi qərar qəbul edilməsinə, qurultayın işini normal başa çatdırmasına imkan

vermir. Toplantıda əsas diqqət ona yönəldilir ki, Pribaltikanın, Qərbi Ukraynanın və Rusiyanın demokratik qüvvələri ilə əlaqə saxlamaq, onlarla birgə mübarizə aparmaq gərəkdir.

Azsaylı üzvü olan Azərbaycan Xalq Demokratik Partiyasının 4-cü Qurultayını da Azərbaycandan uzaqda keçirmək qərara alınır. Qurultayın keçirilməsi üçün yer adamların istirahətə və müalicəyə getdikləri Yalta şəhəri seçilir. 1975-ci ilin may ayında qurultay öz işini başlayır. Numayəndələr qurultaya başqa ad altında qatılırlar. Təşkilat komitəsinin öncədən hazırladığı layihə əsasında qurultayın proqram və nizamnaməsi müzakirə edilir.

Partiyanın ideoloji xətti fəlsəfi yöndə təkmilləşdirilir. Dünyanın ruhi başlanğıcı və mənəvi yüksəliş sistemi, şəxsiyyətin formalaşdırılması, qəhrəmanlıq ruhunun yüksəldilməsi partiya qarşısında bir vəzifə kimi qoyulur. Xalqın demokratiyanı yüksək səviyyədə mənimsəməsi, avtokratizm əleyhinə sərt qarşıdurmanın formalaşdırılması ən vacib məsələ kimi vurğulanır. Proqram və nizamnamənin müzakirəsi zamanı söylənilən fikirlər səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Xalq Demokratik Partiyasının 5-ci qurultayının 1978-ci ilin iyulunda Sumqayıt şəhərində keçirilməsi planlaşdırılır. Toplantının gizli keçirilməsinə çalışılsa da, mümkün olmur. DTK əməkdaşları qurultayın məzmun və mahiyyətindən xəbərsiz olsalar da, rəsmi dairələrin icazəsi olmadan toplantı keçirilməsinə təşəbbüs göstərildiyindən xəbər tuturlar. Partiya üzvlərini sıxışdırmağa başlayırlar. Sorğu-suallar, təzyiqlər nəticəsində təşkilatın liderləri müxtəlif yerlərə göndərilir.

Atasının adını özünə soyad seçən Rafiq Turabxanoğlunu suçlayırlar ki, çalışdığı müəssisədə işinə məsuliyyətsiz yanaşıb və istehsal edilən məhsulun itkisinə səbəb olub. Partiya fəallarından

bəziləri Azərbaycanı tərk edir. Rafiq Turabxanoğlu da 1978-1982-ci illərdə Kemerovo, Açinsk şəhərlərində tikintilərdə işləyir.

İstər tələbəlik illərində, istərsə də sonrakı illərdə Sumqayıt şəhərindəki müxtəlif zavodlarda mühəndis-kimyaçı, usta, fəhlə işləyən Rafiq Abdullayev siyasi fəaliyyətdən heç zaman çəkilmir. İdeoloji mahiyyət daşıyan "Otto Бауер, Marksizm və Leninizm", "Türk fəlsəfəsində hurifilik", “Dədə Qorqudun fəlsəfəsi” “Dünyanın qəhrəman xalqları və Azərbaycan”, “Labüdlüyün şərtləri və Azərbaycan” və b. əsərləri yazaraq makinada çoxaldıb yayır.

1982-ci ildə vətənə dönən Rafiq Turabxanoğlu, yenidən siyasi fəaliyyətini davam etdirir.

1990-cı ilin fevralında ilk dəfə leqal olaraq Azərbaycan Milli Demokrat Partiyasının 7-ci qurultayını keçirir, SSRİ və Azərbaycan SSR Ali Sovetinə seçkilərə qatılır. 1992-ci ilin avqustunda rəhbərlik etdiyi partiyanı rəsmi qeydiyyata aldıra bilir. 1992-ci ildə Azərbaycan Respublikasının prezidentliyinə namizədliyini verir. 1993-cü ildə Bakı şəhərində Türk xalqlarının nümayəndələrinin iştirakı ilə Turan qurultayını keçirir.

Ailəlidir, bir övladı var. Hazırda Sumqayıt şəhərində yaşayır.

**Qaynaqlar:**

1. Abdullayev R. Turanın Türkçülük ideologiyası, "Mənlik” (Şərəf) toplusu, Bakı, 1993.

2. AXDP-nin 7-ci Qurultayının materialları, Bakı, 1990.

3. TXDP Birinci Qurultayının materialları, Bakı, 1992.

4. Turabxanoğlu Rafiq. Əski Sovetlər Birliyində dissident hərəkatının motivləri, “Müxalifət” qəzeti, 1993, 30 sentyabr, sayı 96 (248), səh. 1, 4.

5. Turabxanoglu R. Bu gün biz hansı tərəfə getməliyik, "Mənlik" toplusu, Bakı, 1993.
6. Turabxanoglu R. Günün nəbzi, "Mənlik" toplusu, Bakı, 1993.
7. Turabxanoglu R. Dövlətçiliyimiz və tarixi məsuliyyət, "Boz Qurd" qəzeti, 1993, 10 iyul.
8. Turabxanoglu R. Bu, həqiqətdir… "Müxalifət" qəzeti, 1993, 5-7 avqust.

**ULUTÜRK XƏLİL RZA (Xəlil Rza oğlu Xəlilov, ləqəbləri Xəlil Rza, Xəlil Odər, Xəlil Xəlilbəyli, Ulutürk), d.21.10.1932 *Salyan rayonunun Pirəbbə kəndi– ö. 22.06.1994, Bakı).***



***Dissident, şair, araşdırmaçı, hüquq müdafiəçisi***

Kolxozçu ailəsində doğulub. Atası kolxozda istehsal edilən məhsulların qeydiyatını aparıb, anası evdar qadındı. Doğulduğu kənddə böyük pambıq tarlaları olub. Kiçik yaşlarından insanların tarlalarda qul kimi məcburi işlədildiyini, qəzet-jurnallarda, radio-televiziyada hər gün tərənnüm edilən əməkçilərin yarı aç, yarı çılpaq yaşadıqlarının şahidi olub. Kəndlərindəki ibtidai sinifdə oxuyanda onu və yaşıdlarını məktəbdən ayırıb zorla pambıq yığmağa göndəriblər.

Salyan şəhərindəki iki saylı orta məkdəbdə oxuyarkən şəhər kitabxanasının nəzdindəki Ədəbiyyat dərnəyinə üzv yazılıb. “Kitab” adlı ilk şeiri 1948-ci ildə “Azərbaycan pioneri” qəzetində dərc olunub. Elə həmin il orta məktəbi bitirib sənədlərini Azərbaycan Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika şöbəsinə verib. İmtahanlardan uğurla keçərək qəbul olunub. Həyatı anlayandan gördüyü haqsızlıqları ictimailəşdirmək üçün jurnalist olmaq istəyib. O elə bilirdi ki, kəndlərindəki, rayonlarındakı haqsızlıqdan, saxtakarlıqdan, qanunsuzluqlardan yuxarıların xəbəri yoxdur, bunu yerlərdəki kiçik məmurlar edir.

Universitetdə oxuduğu illərdə çılğın bir şair kimi tanınır. Buna görə də, 1954-cü ildə universiteti bitirəndə məzunların çoxunu~~n~~ rayon qəzetlərində, yerli radio verilişlərində işləməyə göndərdikləri halda onu Bakıdakı “Azərbaycan qadını” jurnalına ədəbi işçi vəzifəsinə yollayırlar. Bu, jurnalda ən kiçik yaradıcı işçi vəzifəsi idi. Az bir zamanda məqalələrindən çox şeirləri ilə diqqəti çəkir. Onu Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edirlər. 1957-ci ildə “Uşaqgəncnəşr” onun “Bahar gəldi” şeirlər toplusunu nəşr edir. Bundan ruhlanan gənc şair ədəbi aləmdə tanınmaq, güzaranını yaxşılaşdırmaq üçün Xəlil Xəlilov imzasıyla Sovet dövrünü öyən şeirlər və poemalar yazır.

Onu Azərbaycan Yazıçılar İttifaqı 1957-ci ildə Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun nəzdindəki iki illik Ali Ədəbiyyat kursunda oxumağa göndərir. O, Azərbaycana sevgisi olan, Azərbaycan şairlərindən tərcümələr edən Pavel Antokolskinin rəhbərlik etdiyi bölmədə poeziyanın nəzəri əsaslarını öyrənir və SSRİ-nin müxtəlif regionlarından gəlmiş gənc ədiblərlə tanış olur. Ədəbiyyat İnstitutunda oxuduğu illərdə Rus şairi Samuil Marşakın evində olması, Lev Tolstoyun yaşadığı Yasnaya Polyanaya getməsi, orada yaradılmış ev muzeyi ilə tanışlıq, Peterburqa (Leninqrad) – Ermitaja kollektiv səfər, Nazim Hikmət, Mixail Şoloxov və b. yazıçı və şairlərlə sərbəst söhbətlər Xəlil Rzaya güclü təsir edir.

Moskvada yaşayan bəzi şairlərin qəzet və jurnallarda, nəşriyyatlarda çapına imkan verilməyən şeirlərini özbasım (samizdat) şəklində çap etdirdiklərindən xəbər tutur. Kalmık David Kuqultinovla, çeçen Maqomed Mamakayevlə dostlaşır, icazəsiz özbasım (samzdat) "Mart" adlı jurnal nəşr etdiklərinə görə 1965-ci ildə həbs edilərək 5 il cəzaya məhkum edilmiş Yuli Daniel və Andrey Sinyavski ilə tanış olur, milli problemləri öyrənir, Sovetlər Birliyində hökumətin milli məsələdəki ziddiyətli siyasətini müzakirə edirlər.

Sovet senzurasının nəşrinə içazə verməd iyi "Doktor Jivaqo" romanı 1958-ci ildə Nobel mükafatına layiq görülür. Bu, Sovet ideoloqlarını özündən çıxarır. Romanın yazarı Boris Pasternaka mükafatını almağa icazə vermirlər. Hələ bu azmış kimi, onun əleyhinə kampaniya başlayırlar. Sovet ideologiyasının başında duran M.A.Susolovun göstərişilə Umumittifaq Lenin Kommunist Gənclər İttifaqının – komsomolun 1958-ci il 29 oktyabrında çağırılan plenumunda birinci katib Vladimir Semiçastnı (1959-1961-ci illərdə Azərbaycan Kommunist Partiyasının ikinci katibi, 1961-1967-ci illərdə SSRİ DTK-nın sədri olmuşdur) və plenum üzvləri onu kəskin tənqid edirlər.

SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin 1958-ci il oktyabrın 25-də keçirdiyi toplantıda Nikolay Грибачов, Sergey Mixalkov və Vera İnber Boris Pasternakın Yazıçılar İttifaqının üzvlüyündən və vətəndaşlıqan çıxarılmasını tələb edirlər. Ölkənin bütün ali məktəblərində, gənclər təşkilatlarında Boris Pasternak və Nobel mükafatı əleyhinə toplantılar keçirilir. Ədəbiyyat İnstitutu belə bir qarayaxmadan kənarda qalsa, siyasi sayıqlığı itirməkdə ittiham edilib sərt cəzalandırılardı. Buna görə də, Ədəbiyyat İnstitutunda toplantı təşkil edilir. Toplantıda çıxış edən Xəlil Xəlilov öncə "Doktor Jivaqo" əsəri haqqında mənfi fikir söyləyən Tvardovski, Marşak, Erenburq, Leonov, Smirnov, Şoloxov və b. hərəkətlərini pisləyir, əsərin həqiqi qiymətini gələcək nəsillərin verəcəyini söyləyir.

1959-cu ildə Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunu bitirib Bakıya qayıdan Xəlil Xəlilov Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasına qəbul olunur. Lakin onun üzərində nəzarət və basqı azalmır. “Apardı sellər Saranı”, 1961-ci ildə “Azərbaycan” jurnalının 2 sayında çap olunan “Mənim muğamatım”, 1962-ci ilin martında çap olunmuş “Ana dili”, “Sağlıq, yoxsa vəsiyyət”, “Az ömürlü ağ günlər”, eləcə də senzorun çapına icazə vermədiyi “Məftilə sarınmış yaralar” şeirləri millətçiliyi təbliğ edən əsərlər kimi qiymətləndirilmiş, Rus dilinə sətri tərcümə edilərək Sov.İKP MK-nın Müttəfiq Respublikalar üzrə Partiya orqanları ilə İş şöbəsinə göndərilmişdi. Bu təzyiqlərə baxmayaraq şairin “Sevən gözlər” (1959), “Məhəbbət dastanı” (1961), “Mənim günəşim” (1963) adlı şeir kitabları nəşr edilmiş, 1963-cü ildə “Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)” mövzusunda yazdığı dissertasiyanı uğurla müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

İnstitutda dərs deyərkən tələbələrə milli hisslər aşılayan, harada olursa-olsun, Azərbaycan Türkcəsində danışanlar Rus sözləri işlətdikdə onlardan 5 qəpik cərimə alan Xəlil Rzaya qarşı müasiri olan mühafizəkarların və DTK-nın təzyiqi artır. Onun cəsarətli vətəndaşlıq şeirlərini dinləməkdən belə qorxurdular. Toplantılarda şeir oxuyanda mühafizəkarların bir çoxu salondan çıxıb gedir, onun milli ruhlu, vətənpərvər, anti-imperialist çıxışlarını dəlilik kimi qiymətləndirirdilər. Lakin gənclərin böyük bir qrupu onun heyranı idi, onu dinləməkdən, söhbətlərinə qulaq asmaqdan yorulmurdular. İnstitutun başqa fakültələrindən, başqa institutlardan da onu dinləməyə gəlirdilər.

Xəlil Rzanın “Ana dili” şeirinin “Azərbaycan” jurnalında (1962-ci il, sayı 3) çap edilməsi, hələ bu azmış kimi Qulu Xəlilov və Oruc Qoşqarlı ilə birlikdə Astara, Lənkəran, Masallı və digər rayonlarda oxucularla keçirilən görüşlərdə milli ruhlu bir neçə şeirini oxuması Azərbaycan KP MK-nı da, Yazıçılar İttifa-

qı Rəyasət Heyətini də rahatsız etmişdi. 1962-ci il mart ayının 14-də Yazıçılar İttifaqının toplantısında həm jurnalı, həm də Xəlil Rzanı kəskin tənqid etmişlər. Şair Məmməd Rahim isə Xəlil Rzanın dərs dediyi institutda keçirilən toplantıda "Müşfiqi öldürənlər azad gəzir" şeirini oxumasından narahat olaraq Azərbaycan KP MK-nın ideoloji katibinə və Azərbaycanın Respublika prokuroruna aprelin 2-də şikayət məktubu ilə müracət etmişdir.

1964-ci ilin oktyabrında Nikita Xruşşov hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra rejimdə bir sərtləşmə başladı. Xəlil Rzanın mühazirə oxuduğu auditoriyaya başqa kurslardan və institutlardan gənclərin gəlməsi əngəlləndi. Ona qarşı senzura nəzarəti artırıldı. Fikirlərini sərbəst söyləmək imkanından məhrum edilən şair şeirlərində, danışığında eyhama üstünlük verdi. Çap etdirə bildiyi "Afrikanın səsi" şeiri gənclər arasında "Azadlıq" himni kimi yayılmağa başlandı. Şeirdə azadlıq bir həb kimi, dərman kimi zərrə-zərrə, qram-qram deyil, dərya kimi, ümman kimi istənildiyi ideyası təbliğ olunur, insanlar üsyana, qollarındakı zənciri qırmağa çağrılırdı.

1967-ci il may ayının 24-də Şıxəli Qurbanovun müəmmalı ölümü ölkədə əks-səda doğurur. Bir sıra milli məsələlər, xüsusən də Novruz bayramının rəsmi qeyd edilməsi onun adı ilə bağlanırdı. Ona görə də, çoxları belə düşünürdü ki, Şıxəli Qurbanova diş həkimi vasitəsilə sui-qəsd düzəldilib. Bu əhval-ruhiyyədən təsirlərnən Xəlil Rza "Bahar təranələri və ya yenə baharda gəl" adlı poema yazaraq onu qəzet və jurnallara verir. Senzura əsərin nəşrini qadağan edir. Mətbəədə yığılmış mətnin bəzi səhifələrinin surəti gizli çıxarılaraq yayılır.

Xəlil Rzanın 1968-ci ilin noyabrında Molla Pənah Vaqifin 250 illik yubileyinə gəlmiş Türkiyəli Tahir Kamal və İraqlı Şakir Sabir Zabitlə görüşməsi və əsərlərini xaricdə çap etdirmək üçün onlara verməsi böyük qalmaqala səbəb olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunda partiya komitəsi "Sovet yazıçısına və vətəndaşına yaraşmayan bir sıra nalayiq hərəkətlərə yol verdi-

yinə görə” şəxsi işinə yazılmaqla ona şiddətli töhmət vermiş və işdən çıxarmış, bir daha müəllim işləməməsi münasib sayılmışdır. Az sonra, yəni 1969-cu il martın 26-da Yazıçılar İttifaqının Rəyasət Heyətində onun antisovet fəaliyyəti geniş müzakirəə edilmişdir. Yazıçılar İttifaqının Rəyasət Heyətində çıxış edən Mirzə İbrahimov, Cəlal Məmmədov, İmran Qasımov, Rəsul Rza, Hüseyn Abbaszadə, Əli Vəliyev, Əhməd Cəmil, Qılman Musayev, İlyas Əfəndiyev, Məmməd Cəfər, Kamal Talıbzadə, Hüseyn Şərifov və b. çıxış edərək Xəlil Rzanı tənqid etməklə kifayətlənməmiş, KGB müstəntiqləri kimi istintaqa tutmuş, təhqir etməkdən belə çəkinməmişlər.

İclasda Xəlil Rzanı “pis adamlar”la yoldaşlıq etməkdə, “köhnə mühiti bəyənənlərlə” oturub durmaqda, bu hərəkətləri ilə “xalqımızın, təşkilatımızın və özünün düşməni” olmaqda suçlayırlar. Hətta ona qarşı “insanda ləyaqət olmalıdır, sənin yalan danışıqların da yaxşı deyil” kimi ifadələr də işlədirlər.

Toplantı qərara alır ki, “kobud-yaramaz səhvlərini təkrar edərsə, onun Yazıçılar İttifaqında qalıb-qalmamaq məsələsinə baxılsın”. Qəbul edilmiş qərarın çıxarışı Azərbaycan KP MK-ya göndərilir.

Onu işlaslarda tənqid etməklə, cəzalandırmaqla kifayətlənmirlər. Hətta Xəlil Rza çıxış edərkən onun dedikləri eşidilməsin deyə Azərbaycan Dövlət Filarmoniyanın direktoru Niyazi Hacıbəyov-Tağızadə göstəriş verir ki, salonun elektirik xətti cərəyandan ayrılsın.

1969-cu ildə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Heydər Əliyev Azərbaycan Komminist Partiyası Mərkəzi Komitəsinin birinci katibi “seçilir”. “Sərt əl” hakimiyyətini möhkəmlətmək üçün sərbəst düşüncəli insanlara qarşı təzyiqi artırır. Mərkəzi Komitənin katibi kimi kecirdiyi ilk plenumdakı çıxışında Xəlil Rzanı da sərt tənqid edir. Bu çıxışdan sonra heç bir ali məktəb rektoru onu aidutoryaya buraxmağa cəsarət etməzdi. Xəlil Rza isə manevr edərək tərcüməçiliyə başlayır.

Yunanıstanda "qara polkovniklərin" hökuməti devirib həbs etdikləri və güllələdikləri şairlərin şeirlərini çevirərək nəşr etdirir. Şair dünya ədəbiyyatından mübariz ruhlu, üsyankar şeirlər çevirib nəşr etdirməklə xalqı sanki döyüşə hazırlayır.

Ali məktəblərdə, mədəniyyət evlərində, klublarda Xəlil Rza ilə görüşlər keçirilməsi yasaqlanır. Azərbaycan Pedaqoji İnstitutunun rəhbərliyi onu aiditoriyada "antipedaqoji, antimarksist, antisovet söhbətlər apardığına görə" işdən azad edir. O, bir müddət işsiz qalır. Sonra Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun tərcümə şöbəsində işləməsinə icazə verirlər. Xəlil Rza mübarizəsindən geri çəkilməsə də, onu nümayişkəranə də davam etdirmir. Bir müddət mübarizədən çəkilmiş kimi görünür.  Burada işlədiyi dövrdə "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-Özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda yazdığı elmi işi 1985-ci ildə müdafiə edərək filologiya elmləri doktoru elmi adı alır.

Onun Maqsud Şeyxzadəni öyrənməyə girişməsi heç də təsadüfi deyildi. Maqsud Şeyxzadə də Sovetlərin ikili siyasətindən narazı qalanlardan idi. Azərbaycandakı ruslaşdırma siyasətinə, Rus dilinin hakim dil olmasına etiraz etdiyinə görə onu Dağıstan Muxtar Sovet Sosialist Respublikasında işləməyə göndərmişdilər. Orada da fikirindən daşınmamış, Dağıstan xalqlarının haqlarını müdafiə etməyə başlamışdır. Buna görə də Özbəkistana sürgün etmişdilər.

Xəlil Rzanın işdən çıxarılması, təqib edilməsi gənclərin diqqətini çəkir. Şairin əvvəllər çap olunmuş, lakin satılmadığından mağazaların rəflərində, anbarlarında qalmış şeir kitablarını da alırlar. Sovet dövrünü, sosializmi tərənnüm edən seirlərində də bir antisovet sətiraltı məna axtarırlar. 1984-cü ildə onun "Ömrün uzun gecələri" şeirlər kitabı və SSRİ xalqlarının sairlərindən etdiyi secmə tərcümələr toplanmış "Qardaş çələngi" kitabı Azərbaycan SSR Dövlət mükafatına təqdim edilir. Lakin hakimiyyətdəkilər ona mükafatı verməsələr də, iki il sonra, yəni

1986-cı ildə Azərbaycan Ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Əməkdar İncəsənət Xadimi fəxri adı verirlər.

1985-ci ildə hakimiyyəti ələ alan Mixail Qorbaçov ölkəni böhrandan çıxarmağın yollarını axtarır. Mühafizəkar məmur təbəqəsinin hər çür yeniliyi, dəyişikliyi əngəllədiyini görüb islahatlara xalqı cəlb etməyə çalışır. Onun yenidənqurma və aşkarlıq şüarlarını partiya-sovet işçilərindən çox sərbəst düşüncəlilər, ölkənin demokratikləşməsini istəyənlər bəyənirlər. Xəlil Rza yaranmış imkandan istifadə edərək rayon və kəndlərdə, açıq hava altında insanların qarşısına çıxır, çıxışlar edir, şeirlər oxuyur, mürgüləməkdə olan xalqını oyatmağa çalışır. Bu işi çox vaxt aktyor Mikayıl Mirzə ilə birlikdə görür.

Şeirlərini bir müddət Xəlil Rza Ödər imzası ilə çap etdirən şair bundan sonra daim Ulutürk ləqəbilə yazır və çıxış edir. 1986-ci ilin dekabrında Almatıda dinc nümayişçilərin üzərinə ordu yeridilməsi insanların ölümü, yaralanması və həbsi ilə nəticələndi. Xəlil Rza Ulutürk hökumətin bu əməlini kəskin pislədi. 1987-ci ildən başlayaraq Ermənistanda yaşayan azərbaycanlıların sıxışdırılması, Dağlıq Qarabağda partiya-sovet işçilərinin fəallığı ilə keçirilən sessiyada qəbul edilən qərarlar gətirib 1988-ci ilin Sumqayıt hadisələrinə çıxartdı. Xəlil Rza Ulutürk var səsilə bu işlərin arxasında Sovet KQB-si durduğunu, onların Azərbaycanla - Ermənistan arasında müharibəyə zəmin hazırladıqlarını söylədi.

Xalq onu eşitdi, lakin məmurlar onu susdurmağa çalışdılar. 1989-ci ildə Tiflisdə, 1990-ci ildə Bakda, 1991-ci ildə Vilnüsdə Sovet ordusu dinc nümayişçilərin üzərinə yeridildi. İnsanlar öldürüldü, yaralandı, həbs edildi. Sovet Ordusunun xisusi dəstələri Lənkəranda, Neftçalada, Zəngilanda faşistlərdən çox-çox sərt davrandılar. Xəlil Rza Ulutürkü də 1990-cı il yanvarın 26-da həbs edərək Moskvaya – Lefortovo həbsxanasına apardılar. Onu Azərbacan SSR Cinayət Maddəsinin 67-ci maddənin 3-

cü bəndi ilə, yəni irqi ayrı-seçkiliyi, millətlərarası ədavəti qızışdırmaqda təqsirləndirdilər.

Səkkiz ay on üç gün həbsxanada ağır basqı altında olan şair "Lefortovo gündəliyi" kimi möhtəşəm xatirələrini, 200-dən çox poema, şeir və məktubunu yaza bildi. 1990-cı ildə məhbus kimi Bakıya gətirilən şairi burada mühakimə etdilər. Bir aya yaxın davam edən məhkəmənin sonunda Xəlil Rza Ulutürk azadlığına qovuşdu.

Lefortovo həbsxanasının ağır şəraiti şairin şəkər xəstəliyinə tutulmasına, ürək əməliyyatı edilməsinə səbəb olur. Həkimlərin bütün cəhdlərinə baxmayaraq Xəlil Rza Ulutürk 1994-cü il iyunun 22-də Bakıda dünyasını dəyişdi. Onu Fəxri Xiyabanda dəfn etdilər.

**Qaynaqlar:**


1. Altaylı Seyfəddin, Önsöz. Xəlil Rza Ulutürk, Azadlıq , Ankara: 1998.
2. Azərbaycan yazıçıları enskilopediyası, Bakı: 1997.
3. Ulutürk Firəngiz. Kədərimlə qol- boyun, Bakı: 1998.
4. Ulutürk Xılil Rza. Məndən başlanır vətən, Bakı: 1988
5. Ulutürk Xəlil Rza. Davam edir 37, Bakı: 1992
6. Ulutürk Xəlil Rza. Qəhrəman Təbrizim: Bakı, 1994.
7. Ulutürk Xəlil Rza. Türkün dünyası: Bakı, 1994.
8. Ulutürk Xəlil Rza. Mən Şərqəm, Bakı: 1995.
9. Ulutürk Xəlil Rza. Bağışla, ey vətən, Bakı:, 1996
10. Ulutürk Xəlil Rza. Lefortovo zindanında, Bakı: 1998.
11. Ulutürk Xəlil Rza. Qəhrəman Təbrizim, Bakı: 1994.

**VƏNDAMLI TOFİQ (Tofiq Sultanəhməd oğlu Hüseyinov) ləqəbi Vəndamlı, d.17.10.1949, Qəbələ (keçmiş Qutqaşen) rayonunun Vəndam k. – 09.06.1977, Sverdlovsk Vilayəti, Taborsk rayonu Şevya qəsəbəsindəki həbs düşərgəsi**

***Şair, insan haqları müdafiəcisi, məhbusların haqla-rını qorumaq üçün gizli dərnək quran.***



Kəndli ailəsində doğulub. 1956-cı ildə kəndlərindəki H.Rəşidov adına 2 saylı səkkizillik məktəbin birinci sinfinə qəbul olunub. 1964-cü ildə oranı bitirib və Bakı Plan-Uçot Texnikumuna qəbul olunub. Bakıda oxuduğu zaman şair və yazıçılarla tanış olub. Vətənsevər şeirlərini çap etdirə bilməsə də, tanıdığı insanlar arasında yayıb.

Texnikumu bitirdikdən sonra, yəni 1968-ci ilin mayında onu məcburi hərbi xidmətə aparırlar. Hərbi xidmətdə Rus zabitlərinin yerli-yersiz əsgərləri alçaltmasına və təhqir etməsinə dözməyərək etirazını bildirib. Bu da onun hauptvaxta salınması ilə nəticələnib. Zabitlər onun şeir yazmasını bildikdə daha çox təzyiq göstərməyə başlayıblar. O var gücü ilə hərbi təlimlərdə fərqlənməyə çalışıb və əsgəri nizamnaməyə ciddi əməl edib. Buna baxmayaraq, müxtəlif bəhanələrlə cəzalandırılıb. Təzyiqlər və karserlər Tofiq Vəndamlını ruhdan salmayıb. Fiziki çəhətdən möhkəm və cəsarətli olduğuna görə çox vaxt zabitlər ondan çəkiniblər.

1970-ci ilin may ayında hərbi xidməti başa vurub kəndlərinə qayıdır. Burada hər addımda insanların hüququnun tapdandığını, adamların az qala kölə kimi işlədildiyini, haqqını tələb edənlərin polislə hədələndiyini görüb Bakı şəhərinə gəlib. Bakıdakı Lenin adına Toxuculuq Kombinatında işə düzəlib. Az zamanda onu işgüzarlığına görə toxuculuq avadanlığının təmiri üzrə usta vəzifəsinə keçiriblər.

Tofiq Vəndamlı fəhlələr arasında apardığı söhbətlərə, onları öz haqları uğrunda mübarizəyə səslədiyinə, üsyankar şeirlər oxuduğuna görə bir neçə dəfə fabrik rəhbərliyi tərəfindən cəzalandırılıb. Bu azmış kimi "islaholunmaz gənc şair" haqqında DTK-ya xəbər verilib. Onu bir neçə dəfə də DTK-ya çağıraraq "profilaktik tədbir" görüblər. Bunların Tofiqə təsir etmədiyini gördükdə DTK əməkdaşları onu fabrikdə çalışan qadınlara təcavüz etməkdə suçlayaraq həbs edəcəkləri ilə hədələyiblər. Tofiq fabrikdə işləyənlər arasında DTK ilə əməkdaşlıq edən əxlaqsız qadınların da olduğunu bildiyindən adına ləkə gəlməsin deyə işdən çıxıb. Azərbaycanı çox sevsə də, asan iş tapa biləcəyi yer kimi Qazaxıstanı seçib.

1972-ci ilin oktyabrında Qazaxıstan Respublikasının Cambul şəhərində işə düzəlib. İlk aylar işi heç də pis getməyib. Tapşırıqları vaxtında və yüksək keyfiyyətlə yerinə yetirdiyinə görə maaşdan əlavə mükafat da alıb. Şeirlərinin məzmunu və fəhlələrin öz hüquqlarını qorumağa çağırması haqqında çağırışları DTK əməkdaşlarının diqqətindən yayınmayıb. Onun üzərində nəzarəti artırıblar. Bu, gənc şairi daha da əsəbiləşdirib. Toplantı zamanı Cambulda Qazaxca bircə orta məktəbin belə olmamasının, Qazaxıstan Respublikasında isə Qazaxca cəmi bir orta məktəbin olmasının Sovet ideologiyasına uyğun gəlmədiyini söyləyib.

Onun tez-tez 1920 – 1940-cı illərdə Qazaxıstana sürgün olunmuş Azərbaycanlı ailələri ilə də görüşüb onları vətənə dönməyə həvəsləndirməsi DTK məmurlarını rahatsız edib. Dəfələrlə DTK-ya çağırıb təhdid etsələr də, Toviq Vəndamlı yolundan dönməyib. "İslaholunmaz şairi cəzalandırmaq üçün" DTK ilə əməkdaşlıq

edən gənc bir Rusa Tofiqin milli heysiyyatına toxunan təhqirlər işlətməsini tapşırıblar.

Rus gəncinin 1973-ci ilin yayında Tofiq Vəndamlının milli ləyaqətinə toxunan sözlər işlətməsi ağır bədən xəsarəti alması ilə nəticələnib. Tofiqi həbs edib Aktübinskdəki islah-əmək düşərgəsinə göndəriblər. Valideynlərinin Moskvaya yazdığı ərizələrdən sonra onu Ağdam şəhərindəki ciddi rejimli islah-əmək düşərgəsinə dəyişiblər. Tofiq burada nizam-intizama giddi əməl edib, daş karxanasında plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirib. Buna görə də, onu yüngül rejimli kolona keçiriblər.

Tofiq nəinki dustaqlar, hətta bəzi islah-əmək düşərgəsi işçiləri arasında da şeirləri ilə, davranışı ilə nüfuz qazanıb. Onun şeirlərini köçürüb ailələrinə, dostlarına göndəriblər. "Gözləri gülsə də, ürəyi gülməyən" şair işgəncə bağrını daşa döndərdiyindən, gəncliyini cəlladlar yıxdığından, ruhunu zindanlar sıxdığından, bu həyat dururkən yarasının sağalmaz olduğundan, düzlük, ədalət xəstəsi olduğundan, vətəni təpiklər altına atıldığından, vətəninin saxta sənədlərlə özgə torpaqlara qatıldığından, qolları bağlı qaldığından, Təbrizdən Bakıya yolların bağlı olduğundan, nadir sərvətinin çox ucuz qiymətə satıldığından yazıb. Sonda qənaəti də bu olub:

***Qüvvətli, cüssəli, görünsə də fil,***
***Qəzəb zərbəsinə tab edən deyil.***
***Tezliklə olarsan sən də müstəqil,***
***Qaşları qüssədən çatılan vətən.***

Qəzetlərdə, jurnallarda, kitablarda, radio və televiziyada tərənnüm, mədhiyyə şeirləri insanların beyinlərini yumağa çalışdığı bir vaxtda Tofiq durmadan "Araz boyunca tikanlı məftilləri", "silahlı əsgərləri", "ordenli itləri", "ulduzlu zabitləri gördüyü"ndən və onların mənəviyyatsızlığına güldüyündən yazıb. O istəyib ki, "bölükləri birləşdirsin, yeni bir nəsil yetişdirsin. Elə bir nəsil ki, qorxmasın heç nədən, olanda da, öləndə də desinlər Vətən!"

Tofiq Vəndamlı “azadlıq uğrunda, vətən uğrunda azərqanlıları silaha sarılmağa” çağırıb. Vətənin qızını da, oğlunu da döyüşə səsləyib. “Təbrizi, Culfanı gəzməmiş, arzusuna çatmamış can verməyəcəyini” deyib. “Ağlar oldu” şeirinin bir bəndində isə deyib:

***Ölməsəydi Şıxəlilər,***
***Etməzdimi de, bir nələr?!***
***Qaldı çürük əməllilər,***
***Vəfat edən sağlar oldu.***

İslah əmək düşərgəsinin siyasi işlərə baxan zabitləri Tofiqin şeirlərinin sürətlə yayıldığını görüb bərk narahatlıq keçiriblər. Onu Azərbaycandan uzaqlaşdırmağı planlayırlar. DTK əməkdaşları da şeirlərindəki antisovet əhval-ruhiyyəsini görüb onun barəsində eyni düşünürlər..

Tofiq Vəndamlını 1975-ci ildə Sverdlovsk vilayətinin Taborsk rayonu Şevya qəsəbəsindəki islah-əmək düşərgəsinə göndəriblər. Orada da dustaqların hüquqlarını müdafiə etdiyinə, həbsxana rəhbərliyi ilə birgə işləyən “obşak”lara qarşı durduğuna, antisovet şeirlər yazdığına görə dəfələrlə döyüb, işgəncə verib, karserə salıblar. Ardı-arası kəsilməyən cəzalar onun ruhunu sındıra bilməsə də, bədənini məhv edib. Ondan ailəsinə sonuncu dəfə məktub 1977-ci ilin mayında gəlib. Qardaşlarının dəfələrlə yazmasından sonra həbsxana rəhbərliyi 1977-ci ilin dekabrında Toviq Soltanhəmid oğlu Hüseynovun yoluxucu xəstəlikdən vəfat etdiyini yazıblar.

Tofiq Vəndamlı 28 yaşında ölümlə üzləşlə də, onun arzu və istəklərini, ideyalarını məhv etəmək mümkün olmayıb. Nəhəng Sovet imperiyası dağılıb, Azərbaycan müstəqilliyinə qovuşub.

**Qaynaqlar:**

1. Hüseynov Nüsrət və Şahin. Qardaşımız Tofiq Vəndamlı haqqında xatirələrimiz. (“DS” qrupunun arxivində saxlanılır)
2. Vəndamlı Tofiq. Şeirləri, bilgisayarda yazılmış variantı.

**YANARDAĞ SABİR (Sabir Mustafa oğlu İmamverdiyev ləqəbi Yanardağ, d. 26.02.1926, Şəki ş. – ö.19.04.2018, Bakı ş.)**

***İdeoloq, dissident, xalq hərəkatı fəallarından, bir neçə əlyazma əsərin müəllifi.***



Ziyalı ailəsində doğulub. Doğum tarixi sənədlərdə 1926-cı il göstərilsə də, özü 1927-ci il dekabrın 27-də anadan olduğunu deyir. Atası müəllim, anası rəhbər vəzifələrdə işləyib. 1949-cu ildə Şəki şəhərində orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olub. Onun dünyagörüşünün formalaşmasında özündən 5 yaş böyük qardaşı Məmmədin rolu böyük olub. İkinci Dünya Savaşına məcburi çəlb olunan, Sovet zabiti kimi Vyananın işgal edilməsində iştirak edən Məmməd İmamverdiyev istər əsgəri xidmətdən yazdığı məktublarda, istərsə də Avropadan geri dönərkən söylədiyi həqiqətlərin Sovet təbliğatı ilə uyğun gəlmədiyini görən Sabir çox tərəddüdlər keçirir. Vəziyyətdən çıxış yolları axtarır.

Böyük qardaşının dostu Elməddin Əlibəyzadə ilə yeniyetməlik illərindən tanış olsa da, onun əqidə yoldaşına çox sonralar, yəni 1960-ci ildən sonra çevrilib.

Sabir İmamverdiyev ilk əsərini "Azərbaycana xəyanət ədəbiyyatı" adlandırır və onu yaşıdlarına oxumağa verir. O, əsərində istedadsızların, simasızların, satqınların yazıçı, şair adını daşımasının necə təhlükəli olduğundan, gələcəkdə hansı fəsadlar ve-

rəcəyindən söz açır. Az sonra əsərin sorağı rektorluqdan gəlir. Əlyazma gənc müəllifin fərqli düşüncəsinin məhsulu idi. Burada Sovet Konstitusiyasına zidd bir fikirə rast gəlinmirdi. Buna baxmayaraq, universitetin rektoru professor Abdulla Qarayev, partiya komitəsinin katibi Məlikov, xüsusi şöbənin müdiri, bəzi müəllimləri onunla fərdi söhbət aparır, belə yazılara vaxt ayırmaqdansa dərslərini yaxşı oxumağı məsləhət görürlər. Xüsusi şöbədə onun təşkilat yaratmağa meyilli olmadığını görüb ideoloji mövzuda söhbətlə kifayətlənirlər, Kommunist Partiyasının tarixini, SSRİ Konstitusiyasını, marksizm-leninizm klassiklərinin, İosif Staninin əsərlərini oxumağı məsləhət görür və ondan izahat alırlar ki, bir daha belə yazılar yazmayacaqdır. Fakültənin kommunist müəllimlərinə və komsomol fəallarına da tapşırırlar ki, Sabir İmamverdiyevlə məşğul olsunlar, onun hərəkətlərinə nəzarət etsinlər.

Məsləhətlərə əməl edərək daha çox ictimai-siyasi ədəbiyyat oxuyan Sabir İmamverdiyev 1952-ci ildə "Nökərçilik elmi" adlı bir məqalə yazır. Onu oxumaq üçün tələbə yoldaşlarına və dostlarına verir. Əslində bu məqalə də "Azərbaycana xəyanət ədəbiyyatı"nda söylənilən fikirlərin davamı idi. Orada da elm sahəsində istedadsızların və nadanların önə çəkilməsi tənqid edilirdi. İstedadsızlığın istedad, nadanlığın ağıl və həqiqət üzərində qələbəsini dünyadakı böyük cinayətlərdən biri sayırdı. Sosializmə xidmət adı altında xalqa xəyanət, imperializmə nökərçilik baş alıb getdiyi göstərilirdi. İlk baxışda bu, Sovet rəhbərlərinin dediklərinə uyğun gəlirdi. Onlar da sözdə istedadlını, qabiliyyətlini, bacarıqlını irəli çəkməyin, onları dəyərləndirməyin vacib olduğunu söyləyirdilər. Fəlsəfi yöndən ümumüləşdirmələr Sovet ideologiyasına zidd sayılmırdı. Sabir İmamverdiyevin yazdıqlarının sətiraltı mənası isə Sovetlərin irəli sürdüyü "Ədəbiyyat və incəsənət partiyalı olmalıdır" fikrinə qarşı getmək deməkdi.

Az sonra bu yazının sorağı da rektorluqdan gəlir. 1947-1950-ci illərdə onun oxuduğu filologiya fakültəsinin dekanı olmuş, sonra universitetə rektor təyin edilmiş, filologiya elmləri

doktoru Cəfər Xəndan onunla xeyli söhbət edir, öyüd-nəsihət verir, Azərbaycan Yazıçılar İttifaqının nəzdindəki Ədəbi tənqid bölməsinin toplantılarına qatılmağı və onların təcrübəsindən istifadə etməyi məsləhət görür. Valideynlərinin tanış və qohumları vasitəçi salması nəticəsində Sabir İmamverdiyevi universitetdən çıxarmırlar, izahat almaqla yetinirlər.

1954-cü ildə universiteti bitirib Şəkidəki Kənd Təsərrüfatı Texnikumunda ədəbiyyat müəllimi işləməyə başlayır. İosif Stalinin ölümündən sonra ölkədə rəhbər partiya-sovet işçiləri arasında bir çaşqınlıq yaranır. Repressiya illəri tənqid edilməyə, cəzalandırılmış adamlara bəraət verilməyə başlanır. Bundan istifadə edən Sabir İmamverdiyev də fikirlərini sərbəst söyləməyə, baş verən hadisələri öz bildiyi kimi təhlil etməyə çalışır. Onun tutuquşu kimi deyilənləri təkrarlamaması, baş verən hadisələrə qəzetlərdə yazıldığı, toplantılarda deyildiyi kimi yanaşmaması rayon partiya komitəsinin əməkdaşlarını, rəhbər vəzifədə çalışanları rahatsız edir. Rayon partiya kömitəsinin birinci katibi Sabirin atasını və anasını dəvət edərək, onlara məsləhət görür ki, oğlanlarına öyüd versinlər, hər yerdə istədiyi kimi danışmasını yığışdırsın.

Öyüdlər, təzyiqlər Sabir İmamverdiyevə təsir etmir. Valideynləri onun taleyini düşünərək Bakıya göndərməyi qərara alırlar. Düşünürlər ki, Şəki kiçik şəhərdir, Sabir söhbətləri ilə hamının diqqətini çəkir. Bakıya gedərsə, onun kimi düşünən, danışanlar arasında görünməz olar. 1959-cu ildə Bakıya gələn Sabir İmamverdiyev M.F.Axundov adına Respublika Kitabxanasında biblioqraf işləməyə başlayır. Aldığı maaş dolanışığını normal təmin etməsə də, işindən narazılıq etmir. Çünki kitabxananın imkanlarından yararlanaraq əvvəllər əlindən alınan əsərlərini yenidən bərpa etməyə çalışır. Beləcə, "Azərbaycana xəyanət ədəbiyyatı" adlı bir genişhəcmli əsər ərsəyə gəlir. Bu əsərini də əlindən alırlar.

Lakin surəti yayılır və maraqla oxunur. Bu əsərin yayılması Nikita Xruşşovun İosif Stalinin əleyhinə kampaniya apardığı dövrə düşür. Ona görə də, rəsmi dairələrdə əsər bəyənilməsə də, sərt

tədbirlər də görülmür. Nəzarəti artırmaqla, vəzifə pillələrində irəliləməsinə əngəl olmaqla yetinirlər. Necə deyərlər, görməzlikdən gəlməklə onu əhəmiyyətsiz bir yazıya çevirməyə çalışırlar.

1961-ci ilin dekabrında M.F. Axundov adına Respublika Kitabxanasındakı işindən uzaqlaşdırılan Sabir İmamverdiyev bir müddət işsiz qaldır. 1962-ci ildə Azərbaycan Kitab Ticarəti Birliyində ticarət üzrə inspektor vəzifəsinə düzəlir. Lakin bu iş ürəyincə olmur. Kitab ticarətindəki əyintilərə qarşı mübarizə aparır. Onun fəaliyyəti rəhbərliyin xoşuna gəlmir. Dəfələrlə xəbərdarlıq edirlər ki, "adamların dolanışığına" mane olmasın.



**Yanardağ İnam Ata (Asif Ata) Mütləqə İnam Ocağının toplantısında**

Sabir İmamverdiyev başa düşür ki, "adamların dolanışığı"ndan rəhbərliyə də pay çatır. 1963-cü ildə işdən çıxır. Gününü demək olar ki, kitabxanalarda keçirir. Oraya gələn ziyalılarla söhbətlər edir, müzakirələr aparır. Xəlil Rza Ulutürklə, Elməddin Əlibəyzadəylə, Asif Əfəndiyevlə, Şamil Əliyevlə və b. tanış olur. Onlar bir yerə toplaşanda, ikilikdə söhbət edəndə Sovet rejimindən narazılıqlarını bildirirlər. Lakin rejimə qarşı mübarizə məsələsində fikir ayrılığı onlara təşkilatlanmağa, birgə mübarizə aparmağa imkan vermir.

Elməddin Əlibəyzadə ilə elmi yaradıcılıqda səmərəli əməkdaşlıq edir. Asif Əfəndiyevin fəlsəfi görüşləri ilə baxışları uyğun gəldiyinə görə onun yaratdığı "Etik və estetik tərbiyə klubu"nun toplantılarında fəal iştirak edir. Xəlil Rzanın çılğın çıxışları, xalqı ayağa qaldırmaq istəyi onları birləşdirir. Xəlil Rza ona vulkan anlanına gələn "Yanardağ" ləqəbini verir. 1978-ci il noyabrın 30-da "Etik və estetik tərbiyə klubu"nun toplantısında Sabir Yanardağ təklif edir ki, klubun adı "Ocaq", Ocağın rəhbəri isə "Ata" adlandırılsın. Uzun müzakirədən, ölç-biçdən sonra təklif qəbul olunur.

Sabir İmamverdiyev ilin bütün fəsillərində Xəlil Rza Ulutürk və başqa dostları ilə birgə Xəzər dənizinə gedir, dənizdə çimir və oradan da kitabxanaya gəlir. Səbr və təmkinlə işləyir, Nikita Xruşşov dövrünün nisbi mülayimləşməsindən yararlanaraq "İnsan fəlakət işərisində" və çoxcildlik "Görünən və görünməyən" əsərlərini yazır. Dostları və tanışları məsləhət görürlər ki, işsiz qalmaqdansa, aspiranturaya daxil olsun, düşüncələrini bir mövzu üzərində cəmləşdirib dissertasiya yazsın. Sonra da elmi dərəcə alıb ali məktəblərdə dərs desin. Beləcə, fikirlərini gənclər arasında yaysın və milli, demokratik ruhlu kadrlar yetişdirsin. Sabir İmamverdiyev bu təklifi dəyərləndirir və sənədlərini Azərbaycan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun aspiranturasına verməyi qərara alır.

Ədəbiyyat İnstitutunun o zamankı direktoru Məmməd Arif Dadaşzadə Sabir Yanadağın bəzi əsərləri ilə tanış olduqdan sonra açıq şəkildə onu aspiranturaya qəbul etməyin mümkünsüz olduğunu söyləyir.

Sabir Yanardağın yazıları bəzən ixtisarlarla da olsa, mətbuata yol tapır. S. İmamverdiyev, Sabir Mustafa, Sabir Mustafaoğlu, Sabir Qılınc imzaları ilə çıxış edir. "Azərbaycan məktəbi" jurnalının 1969-cu il 4 sayında çap etdirdiyi məqaləsi həmfikirləri tərəfindən yüksək qarşılanır. O, əsərlərini yazıb əlyazma şəkilində yaymaqla kifayətlənmir, Moskvada, yəni mərkəzi mətbuatda nəşr edilən məqalələrdə Azərbaycan əleyhinə olan ya-

zılara rast gələndə onlara sərt münasibət bildirir. "Uçitelskaya qəzeta"da çap olunmuş bir yazı ilə bağlı yazışmalar qəzetin onlara üzürxahlıq məktubu göndərməsilə nəticələnir.

1973-1986-cı illərdə Bakı şəhərindəki Əzizbəyov rayon Xalq Maarif Şöbəsində qiyabi məktəblər üzrə metodist işləyir və ədəbiyyatdan dərs deyir.

1973-cü il dekabrın 17-də Sabir Yanardağı DTK-ya çağırır, onunla uzun-uzadı söhbətlər edir, fəaliyyətini cəmiyyətə, Sovet dövlətinə zidd saydıqarını bildirirlər. Buna görə də, onu muxtəlif günahlarda suçlayır, təhdid edirlər. Sabir Yanardağ isə onlara SSRİ Konstitusiyasını diqqətlə oxumağı məsləhət görür, özünün konstitusiyaya, marksizm-leninizm ideyalarına zidd bir hərəkət etmədiyini söyləyir. DTK əməkdaşları da ölkədə rəsmi yazılanlarla reallıq arasında yaranmış uçurumun getdikcə dərinləşdiyini görsələr də, onlar qanunlardan çox rəhbər işçilərin göstərişlərini yerinə yetirməyə çalışırlar. Buna görə də, Sabir Yanardağı qanunlarla deyil, hədələrlə yolundan döndərməyə çalışırlar.

1974-cü ildə Əbülfəz Əliyevlə (sonralar Elçibəy kimi tanınacaqdır) görüşü onların tez-tez fikir mübadiləsi etməsinə, toplantılara birgə qatılmalarına gətirib çıxarır. Xəlil Rza Ulutürk, Kələntər Kələntərli, Nemət Sükut (Əbdürrəhimov), Beytulla Şahsoylu (Bağırov), Osman Əfəndiyev, Nəsib Mirsaleh (Muxtarov), Rasim Sakkızoğlu, Hikmət və Fikrət Ələfsər (Həsənov) qardaşları ilə daha çox görüşür, cəmiyyətdə baş verənləri müzakirə edir, çıxış yolları axtarırlar. Onlar Sabir Yanardağın əlyazmalarını oxuyub məsləhətlər verməklə yanaşı, yayılmasına da yardımçı olurlar.

1987-ci ildə Bakıda "Çənlibel" klubu yarananda onun ən fəal iştirakçılarından və çıxışçılarından biri də Sabir Yanadağ olur. O, Rusiyanın imperya siyasətini, Sovetlərin ikiüzlü idarəçilik siyasətini kəskin tənqid edəndə salonda əyləşənlərin bəziləri qorxusundan zaldan çıxıb gedirlər.

Ölkədə yenidənqurma və aşkarlıq bir şüar kimi səslənsə də, Sabir Yanardağ yazmış olduğu çoxcildlik "Aqibət", "Taun", "Tı-

xac", "İflic", "Vakuum", "İstibdad və İstila, yaxud "Xeyirlə Şər arasında – Bəşər Aqibəti" və b. əsərlərini çap etdirə bilmir. Onları az tirajla, makinada yazdırmaqla və ya hektoqrafla çoxaltmaqla yayır.

Şair və yazıçılarla keçirilən görüşlərdə çıxış etməklə və "Bilik" Cəmiyytinin üzvü kimi idarə və təşkilatlarda oxuduğu məruzələrlə fikrini yayan Sabir Yanardağ milli azadlıq hərəkatının fəallarından olur. Elə buna görə də, 1989-cu ilin may ayında onu həbs edərək sorğu-suala çəkirlər. SSRİ Prokurorluğunun istintaq qrupunun müstəntiqi A. S. Artyomov onu sorğu-suala çəksə də, rejim laxladığından sərt cəza tədbirləri görə bilmir.

1990-cı ildən sonra da ideoloji fəaliyyətini davam etdirən Sabir Yanardağ təqib və təziqlərə görə evlənə bilmir. Hazırda Bakı şəhərində tək-tənha yaşayır.

**Qaynaqlar:**

1. İmamverdiyev Sabir. Təkzib elmi, Bakı: Özbasım (samizdat), 1960.

2. İmamverdiyev Sabir. Aqibət, Bakı: Özbasım (samizdat), 1968.

3. İmamverdiyev Sabir. Taun, Bakı: Özbasım (samizdat),1968.

4. İmamverdiyev Sabir. İnsan fəlakət içərisində, Bakı: Özbasım (samizdat), 1969.

5. İmamverdiyev Sabir. İstibdadın tənqidi, Azərbaycan jurnalı, 1987, sayı 7.

6. İmamverdiyev Sabir. İqtisadi problem- insanın problemi, "Azərbaycan" jurnalı, 1981, sayı 3.

7. 7Umudlu İsmayıl. Azərbaycanda dissidentlik: belə bir şey olmuşdurmu? "Ayna- Zerkalo" qəzeti, 1997-ci il, 1 fevral, 4 (489).

8. Umudlu İsmayıl. Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı. Bakı: "Oğuz eli" nəşriyyatı. 1999. 68 səh.

## "DS" AZƏRBAYCAN QRUPUNUN BAŞ REDAKTORU ƏZİZƏ ŞAMİLOVANIN 1999-CU İL OKTYABRIN 29-31-DƏ SOFİYADA KEÇİRİLƏN KONFRANSDAKI MƏRUZƏSİ

(İxtisarla)

...1920-ci il aprelin 27-də Azərbaycan Sovet ordusu tərəfindən işğal olundu. Rusiya Xalq Komissarları Sovetinin sədri Vladimir Lenin (Ulyanov) Bakıya göndərdiyi teleqram "Yaşasın müstəqil Sovet Azərbaycanı!" şüarı ilə bitir. Sözdə demokratiyadan, insan haqlarından, bərabərlikdən, vicdan, söz və mətbuat azadlığından dəm vuran bolşeviklər Bakıya daxil olduqları gündən müqavilə şərtlərini pozaraq, xalqın seçdiyi parlamenti buraxdılar, Azərbaycan Cümhuriyətinin rəhbərlərini həbs etməyə başladılar. Ölkə böhran vəziyyətünə düşdü. Dağıdılmış fabrik-zavodları, xalq təsərrüfatının müxtəlif sahələrini bərpa etməyə kadr və işçi qüvvəsi çatışmırdı.

Bolşevikləri isə əsasən Bakı nefti maraqlandırırdı. Neft sənayesini sahmana salıb, çıxarılan yanacağı Rusiyaya göndərmək və xariçi ölkələrə satmaq üçün dəridən-qabıqdan çıxırdılar.

Bolşeviklərin keçirdikləri kütləvi həbslər, yadfikirliləri güllələmələri müxtəlif fasilələrlə 1938-ci ilədək davam etdi. İkinci Dünya savaşında Azərbaycandan 600 mindən çox insan cəbhəyə göndərildi. Həbslər, sürgünlər əvvəlki illərdə olduğu kimi kütləvi xarakter daşımasa da, davam etdirilirdi.

İosif Stalinin ölümündən (1953) sonra uçuruma gedən Sovetlər Birliyini xilas etmək üçün hakimiyyəti yeni ələ almış partiya rəhbərləri totalitar rejimi nisbətən yumşaltmağı qərara aldılar. Quruluşun bütün nöqsanları İosif Stalinin adına yazıldı. Amnistiya elan edilərək həbsxanalardan milyonlarla insan azadlığa buraxıldı, 1920-1953-cü illərdə içtimai-siyasi fəaliyyətlərinə görə həbs edilmiş, güllələnmiş insanların çoxuna bəraət verildi. Əslində bu bəraət həbsxanalarda alçaldılmış, yaradıcılıq ruhu öl-

dürülmüş insanlara verilən formal bəraət idi. Sağ qalanlara yenə də fikirlərini sərbəst deməyə imkan vermirdilər. Öldürülənlərin əsərlərinin böyük bir qisminin nəşrinə, oxunmasına icazə yox idi.

Dünyaya elan edilirdi ki, Sovetlər Birliyində daha siyasi məhbus yoxdur. Vicdan, söz azadlığı üçün hər çür şərait yaradılıb. Həqiqətdə isə durum tamamilə deyilənlərdən fərqli idi. Doğrudur, ölkədə bir yumşalma vardı. Qəzet və jurnallarda, radio-televiziyada şəxsiyyətəpərəstiş, 1920-1953-cü illərin sərt rejimi, İosif Stalin dövründə baş verənlər tənqid edilirdi. Müəyyən adamlara arxivlərdəki bəzi sənədlərdən istifadə etməyə də içazə verilmişdi. Lakin bütün bunlar müəyyən çərçivə daxilində idi. Söz azadlığından, vicdan azadlığından, mətbuat azadlığından əsər-əlamət yox idi. Senzor nəzarəti davam edirdi, Kommunist Partiyasına rəhbərlik edənlərin icazəsi olmadan, nəzarətindən kənar bir nüsxə də olsa qəzet-jurnal çap olunmurdu.

Bakının mərkəzində, İşərişəhərdə 11-ci yüzildə ucaldılmış Qız qalasının üstünə Azərbaycan Cümhuriyətinin üçrəngli bayrağını qaldıran Çahid Hilaloğlu oğurluqda ittiham edilərək 10 il həbs cəzasına məhkum edilmişdi. Yüzlərlə azadfikirli insan totalitar rejimin zülmündən qurtulmaq üçün mühacirətə çan atırdı. Onların yolları bağlanır, mühacirətə getmək istədikləri bilindikdə həbs edilir, dəli adlandırılaraq qapalı həbsxanalara salınırdı. Çingiz Abdullayev, İsmail Farka, Nadir Ağayev kimi mətanətli insanlar illərlə dəli kimi qapalı həbsxanalarda saxlandılar.

Parçalanmış Azərbaycanın birliyini istəyən, bunun üçün təşkilatlanmağa çalışan, lakin elə bir ciddi əməli fəaliyyəti olmayan gənclər belə, təqib və təzyiqlərlə üzləşir, həbs edilirdilər.

Ölkədə yadfikirlilik təhlükə sayılırdı. Buna baxmayaraq, Asif Əfəndiyev (Asif Ata), Əbülfəz Əliyev (Elçibəy), Məhəmməd Hatəmi (Tantəkin), Rafiq Abdullayev (Turabxanoğlu), Tanrıqulu Əliyev (Tanqo), Xəlil Rza (Ulutürk), Sabir İmamverdiyev

(Yanardağ), Şamil Əliyev (Saleh), Əbülfəzl Hüseyni və b. müxtəlif vasitələrlə fikirlərini xalqa çatdırırdılar.

Əbülfəz Əliyev (Elçibəy) 1975-cü ildə həbs edilsə də, onun yaratdığı gizli üç, beş, yeddi nəfərlik qruplar şəbəkəsi fəaliyyətlərini davam etdirib Azərbaycanın hər yerinə yayıldılar.

Mixail Qarbacovun irəli sürdüyü yenidənqurma, aşkarlıq siyasətini həyata keçirmək mümkün olmadı. Hərbi xərclər, idarəetmədəki pərakəndəlik, rəqəmlərin şişirdilməsi, məmurların rüşvətxorluğu və mühafizəkarlığı, ziyalıların məddahlığı buna imkan vermir, ölkəni gündən-günə uçuruma yaxınlaşdırırdı. Bunun qarşısını almaq üçün islahatlar keçirmək əvəzinə, milli münaqişələri alovlandırdılar.

Bu da Ermənistanla Azərbaycan arasında milli zəmində toqquşmaların müharibə səviyyəsinə yüksəlməsinə, Azərbaycanı mitinqlər dalğasının bürüməsinə, tətillərə gətirib çıxardı. Ölkədə əhalinin içtimai-siyasi fəallığı ağlagəlməz bir sürətlə artdı. Yeni içtimai təşkilatlar, siyasi partiyalar yarandı. Həbsxanalar indi də milli düşüncəli yadfikirlilərin hesabına dolmağa başladı. Azərbaycandan Etibar Məmmədoв, Məhəmməd Hatəmi (Tantəkin), Xəlil Rza (Ulutürk), Seyid Tahir Qarabaği, Rəhim Qazıyev, Məmməd Əlizadə, Fərəməz Allahverdiyev və b. tutularaq Moskvadakı Lefortovo həbsxanasına aparıldılar. Bu, xalqın qəzəbini daha da coşdurdu.

1986-cı ildə Almatıda, 1989-cu ildə Tbilisidə, 1990-cı ildə Bakıda, 1991-ci ildə Vilnüsdə dinc nümayişçilərin üzərinə əsgəri birliklər yeridib, insanları qırması Sovetlər Birliyinə olan inamı tam sarsıtdı. 1991-ci ildə Azərbaycan da suverenlik aktını imzaladı. Milli Respublikaların bir-birinin ardınca suverenlik aktı qəbul etməsi Sovetlər Birliyinin rəsmən dağıldığının elanı ilə nəticələndi.

Yeni azadlığına qovuşmuş respublikalar demokratiya yolunda ilk addımlarını atarkən mühafizəkarların və xarici qüvvələrin sərt təpkisi ilə qarşılaşdılar. Xalq hərəkatı nəticəsəndə ha-

kimiyyətə gəlmiş güvvələri silah gücü ilə hakimiyyətdən kənarlaşdırdılar. Siyasi mənsubiyyətinə görə həbslər və təqiblər başlandı.

Bizə elə gəlir ki, 1956-1986-cı illəri əhatə edən dövrdə yaşamış dissidentlərin fəaliyyəti ilə bağlı Dissident Sözlüyü hazırlamaqla kifayətlənmək olmaz. Bu, başlanmış işi yarıda qoymaq deməkdir. Biz təklif edirik ki, "Totalitar rejimə qarşı mübarizə" ensiklopediyası hazırlansın. Həmin ensiklopediyanın layihəsində aşağıdakı dövrlər əhatə edilsin və ona həmin dövrlərə aid müvafiq məqalələr, həyata keçirdikləri qarət və talanlar, kütləvi qırğınlar və s. haqqında məqalələr, sənədlər, şəkillər, rəsmlər, qrafiklər və s. daxil olunsun.

Rusiya Sosial Demokrat Fəhlə Partiyasının yarandığı (1898) dövrdən silah gücünə hakimiyyəti ələ aldıqları 1917-ci ilədək olan dövr. Buraya partiyanın proqram və nizamnaməsində olan terrorla bağlı maddələr, bolşeviklərin terror etdikləri siyasi xadimlər və dövlət adamları haqqında materiallar daxil edilsin.

1918-ci ildən 1939-cu ilədək olan dövr. Buraya keçmiş hakimiyyətə xidmət etmiş insanların, əksinqilabçı adlandırılanların, eser, menşevik və b. partiyadan olanların, "qırmızı terror"a məruz qalanların, din xadimlərinin, fabrik-zavod, torpaq sahiblərinin güllələnməsi, həbs esilməsi, sürgünə göndərilməsi haqqında, eləcə də Azərbaycanda, Özbəkistanda, Gürcüstanda, Ermənistanda və b. bölgələrdə milli zəmində təşkil edilən toqquşmalar, bolşeviklərin kollektivləşmə əleyhdarı, əksinqilabcı, xalq düşməni adlandıraraq güllələdikləri, həbs etdikləri və sürgünə göndərdikləri insanlar haqqında materiallar salınsın.

1939 – 1953-cü illəri əhatə edən dövr. Buraya "vətən xaini" adlandırılanlar, siyasi dünyagörüşünə görə güllələnənlər, həbs və sürgün edilən insanlar haqqında materiallar daxil edilsin.

1954 – 1986-cı illəri əhatə edən dövr. Buraya siyasi baxışlarına, yadfikirliliyinə görə həbs edilsələr də, cinayətkar kimi

cəzalandırılanlar, təqib və təzyiqə uğradılan insanlar haqqında materiallar salınsın.

1986-1991-ci illər əhatə edən dövr. Buraya yadfikirlilər, milli azadlıq hərəkatı fəalları, Mixail Qarbaçovun yenidənqurma və aşkarlıq şüarlarını əldə bayraq edərək insan haqlarını, xalqların hüquqlarını müdafiə etdiklərinə görə təqib və təziqlərə uğramış insanlar haqqında materiallar salınsın.

1992-ci ildən günümüzədək olan dövr. Buraya totalitar rejimin həyata keçirdiyi silahlı çevrilişlər, seçki saxtakarlıqları, qanunsuz həbslər, rəqibi məhv etmək üçün atılan addımlar, siyasi motivli terrorlar və b. insanlar haqqında materiallar daxil edilsin.

Belə bir ensiklopediya hazırlanarsa, bu yalnız Sovetlərdə baş verən faciənin böyüklüyünü dünyaya çatdırmaqla qalmaz, həm də yeni müstəqillik əldə etmiş respublikaların demokratikləşməsinə təsir göstərər.

**Əzizə ŞAMİL, Əli ŞAMİL.**
**Dissident sorağında (1956-1986).**
Bakı, Elm və təhsil, 2018.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Çapa imzalanmış **22.12.2018**
Şərti çap vərəqi **12,7.** Sifariş □ **525**
Kağız formatı **60x84 1/16.** Tiraj **200**

*Kitab* ***«Elm və təhsil»*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: elm.ve.tehsil@mail.ru***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*